**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ**

**TURİZM VƏ ƏTRAF MÜHİT TƏDQİQAT MƏRKƏZİ**



**28 May – Müstəqillik Gününə həsr olunmuş**

# “DAYANIQLI TURİZM VƏ ƏTRAF MÜHİT”

**mövzusunda gənc tədqiqatçıların elmi-praktiki konfransının**

# M A T E R İ A L L A R I

**Mingəçevir, 27 may 2025-ci il**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ**

**TURİZM VƏ ƏTRAF MÜHİT TƏDQİQAT MƏRKƏZİ**

**28 May – Müstəqillik Gününə həsr olunmuş**
**"DAYANIQLI TURİZM VƏ ƏTRAF MÜHİT"**
**mövzusunda**
**GƏNC TƏDQİQATÇILARIN**
**ELMİ-PRAKTİKİ KONFRANSININ**
**M A T E R İ A L L A R I**
**27 may 2025-ci il**

**MİNGƏÇEVİR**

***Rektor Anar Eminovun elmi redaktorluğu ilə***

**KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ:**

| | | |
|---|---|---|
| **A.N.Eminov** | **–** | **sədr, rektor, i.f.d., dos.;** |
| **V.S.Əyyubov** | **–** | **sədr müavini, Elmi işlər üzrə prorektor əvəzi, i.e.d., prof.;** |
| **L.A.Əhmədova** | **–** | **məsul katib, Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri;** |
| **Ü.Ə.Zeynalov** | **–** | **Tədris məsələləri üzrə prorektor, f.f.d., dos.;** |
| **V.S.Mustafayev** | **–** | **Elm və innovasiyalar şöbəsinin müdiri, tex.f.d., dos.;** |
| **N.A.Qədimli** | **–** | **İqtisadiyyat kafedrasının müdiri, i.f.d., dos.;** |
| **E.Y.Hüseynova** | **–** | **Biznes və menecment kafedrasının müdiri, i.f.d., dos.;** |
| **A.M.Tağıyev** | **–** | **İqtisadiyyat kafedrasının baş müəllimi;** |
| **A.M.Qocayeva** | **–** | **Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü;** |
| **N.F.Niftəliyev** | **–** | **Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü;** |
| **L.B.Əhmədova** | **–** | **Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü;** |
| **Z.Z.Qurbanzadə** | **–** | **Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü, Mingəçevir Regional Turizm İdarəsinin məsləhətçisi;** |
| **G.F.Kərimli** | **–** | **Elm və innovasiyalar şöbəsinin baş mütəxəssisi.** |

**© Mingəçevir Dövlət Universiteti, Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin 28 May - Müstəqillik gününə həsr olunmuş "Dayanıqlı turizm və ətraf mühit" mövzusunda gənc tədqiqatçıların elmi-praktiki konfransının materialları, 134 səh.**

**MİNGƏÇEVİR – 2025**

# MÜNDƏRİCAT

## AÇILIŞ-PLENAR İCLAS

**A.EMİNOV**
Giriş sözü ............ 6
**Region turizminin inkişafında MDU-nun Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rolu**
L.A.ƏHMƏDOVA ............ 7
**Azərbaycanda dayanıqlı turizmin inkişaf strategiyası**
N.F. NİFTƏLİYEV ............ 8
**Azərbaycanın ekoturizminin inkişafında Milli Parkların rolu (Göygöl Milli Parkı timsalında)**
A.M.QOCAYEVA ............ 10
**Mingəçevir su anbarının ətraf mühitə təsiri: su ehtiyatları, sənaye və kənd təsərrüfatının ekoloji yükü**
L.B.ƏHMƏDOVA ............ 12
**Mədəni irsin turizmdə rolu: Azərbaycanın tarixi abidələri**
N.A.ƏLİYEVA, S.M.ƏHMƏDƏLİYEVA ............ 14
**Azərbaycanda turizmin inkişaf perspektivləri**
C.Q.BAHADURBƏYLİ ............ 17
**Beynəlxalq turist axının dayanıqlı iqtisadi inkişafda rolu**
M.T.SOLTANOVA ............ 19

## BÖLMƏ İCLASLARI

**COP29 tədbirinin Azərbaycanda dayanıqlı turizm və ətraf mühit siyasətinə təsiri**
E.E.FƏRƏCULLAYEV ............ 26
**Ətraf mühit və onun turizmə təsiri**
S.M.QULUZADƏ ............ 29
**Ətraf mühitin mühafizəsinə dair**
C.R.MƏMMƏDOVA, N.N.NAMAZOVA, Ş.X.ƏSGƏRZADƏ, A.E.MƏMMƏDOVA ............ 31
**Natural Conditions of Azerbaijan**
N.A.ABISHOVA, N.R.MAHMUDOVA, F.E.ALIYEVA, A.Y.ZULFALIYEV ............ 33
**The Impact of Digital Marketing on International Tourism**
S.V.ADİLOV ............ 36
**Azərbaycanda müalicə-sağlamlıq turizminin inkişaf perspektivləri və təkliflər**
V.Q.ƏLİYEVA ............ 38
**Qonaqpərvərlik sahəsində Türkiyə təcrübəsinin öyrənilməsi və ölkəmizdə tətbiq imkanları**
Ə.V.ƏRƏBLİ ............ 42
**Naftalan kurort mərkəzləri və onların təqdim etdiyi xidmətlər**
N.S.HÜSEYNOVA ............ 44
**Quba-Xaçmaz iqtisadi rayonunda xüsusi mühafizə olunan təbiət əraziləri və onların ekoturizm imkanları**
M.M.ABASƏLİYEV ............ 48
**Qarabağ iqtisadi rayonunda perspektiv sağlamlıq turizm ehtiyatları**
B.N.QURBANZADƏ ............ 50
**Azərbaycanda macəra turizmində delfin və dəniz aslanlarının şoularının tətbiq edilməsi**
Z.B.SÖYÜNOV ............ 53

**Ağgöl Milli Parkı və Parkın ekoturizm imkanları**
A.M.ƏMRAHOVA ........................................................................ 55
**Ətraf mühitin mühafizəsində görülən tədbirlər**
S.Ə.TƏHMƏZOVA ........................................................................ 58
**Bələdiyyə turizminin formalaşması xüsusiyyətləri**
L.N.TAĞIZADƏ ........................................................................ 60
**Turizm fəaliyyətinin iqtisadi əsasları**
D.M.VƏLİZADƏ ........................................................................ 65
**Xüsusi mühafizə olunan təbiət əraziləri**
A.N.NƏSİROVA ........................................................................ 68
**Beynəlxalq turist aktivliyi və onun məşğulluğa təsiri**
N.S.KƏRİMOVA, A.Y.İSKƏNDƏROVA ........................................................................ 70
**Turizmin inkişafında ətraf mühitin rolu**
S.X.CƏFƏROVA, S.N.RƏHİMOVA, A.T.HACIYEVA ........................................................................ 73
**Davamlı turizmə ekoturizmin köməyi**
S.V.BAYRAMƏLİYEVA, F.S.DƏMİROVA, A.S.HƏSRƏTOVA ........................................................................ 75
**Dayanıqlı turizmin əhəmiyyəti**
X.E.ƏLİYEVA, Y.R.SARIYEVA, K.N.QULİYEV ........................................................................ 77
**Turizm sahəsində rəqəmsal texnologiyalar**
R.Ə.HƏSƏNOV ........................................................................ 81
**Azərbaycanda turizm: inkişafı və problemləri**
H.Ə.HÜSEYNLİ ........................................................................ 84
**İşğaldan azad olunmuş ərazilərdə turizmin inkişafına investisiya qoyuluşunun iqtisadi səmərəliyi**
R.B.ŞƏRİFOV, İ.R.HACIZADƏ ........................................................................ 88
**Sənaye müəssisələrin ətraf mühitə təsiri**
C.A.İSMAYILOVA ........................................................................ 92
**İqlim dəyişikliyi və onun ekosistemlərə təsiri**
S.M.QƏDİMOVA ........................................................................ 94
**Yanacaq energetika resurslarından səmərəli istifadə**
V.Ə.SULTANOVA ........................................................................ 96
**Turizm fəaliyyəti nəticəsində yaranan tullantıların idarə olunması**
N.Q.HƏŞİMLİ ........................................................................ 100
**Süni intellektin turizm sektoruna tətbiqi**
M.C.HACIYEVA ........................................................................ 102
**Beynəlxalq və regional turizmin davamlı inkişafı**
F.Z.İSMAYILZADƏ, M.A.MUSTAFAYEVA ........................................................................ 103
**Regionlarda davamlı turizmin inkişafında ekoturizmin rolu**
M.T.BABAYEVA ........................................................................ 107
**Beynəlxalq turizmə təsir edən sosial-iqtisadi və demoqrafik amillər**
F.A.ŞAHBAZOV ........................................................................ 109
**Laçın rayonunun ekoloji turizm potensialı**
E.M.NƏBİYEV ........................................................................ 113
**Turizmin formalaşması və inkişaf xüsusiyyətləri**
B.B.ABDULLAYEVA, N.T.QULİYEVA ........................................................................ 115
**Azərbaycanda qonaqpərvərlik sənayesi**
L.K.HÜMBƏTLİ ........................................................................ 121
**Şəki-Zaqatala iqtisadi rayonunun ekoturizm potensialı**
N.İ.MƏMMƏDOVA ........................................................................ 123
**Mədəni turizmin inkişafında dünyanın məşhur muzeylərinin rolu**

S.A.MƏMMƏDOV ........................................................................................................ 124
**İşğaldan azad olunmuş ərazilərdə turizmə mənfi təsir edən ekoloji problemlər**
P.X.ŞİRİNOVA ........................................................................................................ 126
**Turizm sənayesinin hazırkı vəziyyəti və onun müasir dünya iqtisadiyyatında yeri**
F.S.HACIYEVA ........................................................................................................ 128
**Azərbaycanın şimal zonasında turizmə təsir edən ekoloji problemlər**
Y.İ.YAQUBOVA ........................................................................................................ 130
**Azərbaycan regionlarının turizminin inkişafında muzeylərin rolu**
A.M.SEYİDZADƏ ........................................................................................................ 131

## A Ç I L I Ş – P L E N A R   İ C L A S I

### GİRİŞ SÖZÜ

**Anar Eminov**
iqtisad üzrə fəlsəfə doktoru, dosent
Mingəçevir Dövlət Universitetinin rektoru

**Hörmətli konfrans iştirakçıları!**
**Əziz professor-müəllim heyətinin üzvləri!**
**Sevimli tələbə və magistrantlar!**

28 May – Müstəqillik gününə həsr olunan “Dayanıqlı turizm və ətraf mühit” mövzusunda gənc tədqiqatçıların elmi-praktiki konfransının açılış mərasimində hər kəsi səmimi qəlbdən salamlayıram. Bu konfrans “Konstitusiya və Suverenlik İli” çərçivəsində Universitetimizdə təşkil olunmuş respublika səviyyəsində həyata keçirilən çoxsaylı tədbirlər silsiləsindən olan növbəti bir elmi tədbirdir.

Universitetimiz tərəfindən ölkədə turizm sahəsinin inkişafı fonunda ixtisaslaşmış kadr hazırlığına xüsusi önəm verilir. Belə ki, universitetimizdə turizm ixtisasları üzrə tədris proqramları beynəlxalq tələblər əsasında təkmilləşdirilir, tələbələrin istehsalat təcrübəsi imkanları genişləndirilir, real sektorla əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl işlər aparılır. Bu konfransın təşkil olunması da bu sahədə təhsil alan tələbələrin elmə marağının artırılması, bilik və bacarıqlarının daha da təkmilləşdirilməsi istiqamətində böyük əhəmiyyətə malikdir.

Cari tədris ilində Universitetdə bir neçə tədqiqat mərkəzi yaradılıb. Bunlardan biri də Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzidir. Ümid edirəm ki, Mərkəz öz missiyasını şərəflə yerinə yetirəcək, regionda turizmin inkişafı və ətraf mühitin mühafizəsi sahəsinə dəyərli töhfələr verəcəkdir.

Bu günkü konfrans da məhz Mərkəzin bilavasitə təşkilatçılığı ilə keçirilir.

Məmnunluq hissi ilə bidirirəm ki, konfrans Universitetimizin gənc tədqiqatçıları arasında çox böyük maraq doğurub. Belə ki, konfransa 50-yə yaxın məqalə və tezislər göndərilib. Təqdirəlayiq haldır ki, bunların arasında ingilis dilində olan məqalə və tezislər də var. Digər təqdirəlayiq məsələ isə odur ki, bu məqalə və tezislərin yazılmasında gənc tədqiqatçılara – tələbə və magistrantlara elmi rəhbərlik edənlərin də böyük əksəriyyəti Universitetimizin gənc müəllimləridir.

Əminəm ki, konfransın həm plenar, həm də bölmə iclaslarında gənc tədqiqatçıların turizmin müxtəlif sahələrinə və ətraf mühitin mühafizəsi məsələlərinə həsr olunmuş elmi tədqiqatlarının nəticələrini əks etdirən maraqlı məruzələr təqdim ediləcək. Buna görə əvvəlcədən bütün məruzəçilərə, müəlliflərə və elmi rəhbərlərə öz minnətdarlığımı bildirirəm.

Konfransın təşkilinə görə Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinə, Elm və innovasiyalar şöbəsinə, İqtisadiyyat kafedrasına, Biznes və menecment kafedrasına, İnformasiya Texnologiyaları Mərkəzinə və bu işdə əməyi keçən hər bir kəsə xüsusi təşəkkür edirəm.

**Konfransı açıq elan edirəm və onun işinə uğurlar arzulayıram!**

# REGİON TURİZMİNİN İNKİŞAFINDA MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİNİN TURİZM VƏ ƏTRAF MÜHİT TƏDQİQAT MƏRKƏZİNİN ROLU

**Lalə Akif qızı Əhmədova**
Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri
lala.ahmadova.a@mdu.edu.az

**Hörmətli rektor,**
**Hörmətli konfrans iştirakçıları!**

Sizləri 28 May – Müstəqillik gününə həsr olunan "Dayanıqlı turizm və ətraf mühit" mövzusunda gənc tədqiqatçıların elmi-praktiki konfransının açılış mərasimində səmimi qəlbdən salamlayıram. Bu konfrans Mərkəzimiz tərəfindən keçirilən ilk konfransdır və bundan sonra da belə tədbirlərin təşkil edilməsi mərkəzimizin əsas məqsədlərindən biridir.

Son dövrlər Azərbaycanda turizm sənayesi sürətlə inkişaf etməyə başlamışdır və turizm sənayesi qeyri-neft sektoru sahəsində əhəmiyyətli yerə malikdir. Regionlarımızın təbii və mədəni zənginliyi bu sahənin inkişafına öz müsbət təsirini göstərir. Bu sahədə dövlətin də dəstəyi və apardığı siyasət turizmin inkişaf istiqamətləri və çatışmazlıqların aradan qaldırılmasına yönəlmişdir.

Turizmin inkişaf etdirilməsi ilə yanaşı, ətraf mühitin qorunması da qarşıda duran əsas məsələlərdəndir. Belə ki, müasir dünyada turizmin sürətlə inkişaf etməsi insanların istirahəti üçün böyük imkanlar yaratmaqla yanaşı, bir sıra problemlərin də yaranmasına gətirib çıxarmışdır. Gözəl təbii şərait, təmiz hava, cəlbedici təbiət, müalicəvi çimərliklər və mineral sular turizmin inkişafı üçün əsas təbii sərvətlərdir. Ancaq bu təbii sərvətlərdən düzgün istifadə edilməməsi, təbiətin həddən artıq yüklənməsi və çirklənməsi ətraf mühitin ekologiyasına təhlükə yaradır. Bu baxımdan, ətraf mühitin qorunması və davamlı turizmin təmin edilməsi böyük əhəmiyyətə malikdir.

Günümüzdə universitetlərin tədrislə yanaşı, tədqiqat sahəsinə önəm verməsi müasir dövrün universitetlərinin prioeritet istiqamətlərindəndir. Bütün qeyd olunanları nəzərə alaraq, ətraf mühit və turizm sahəsində araşdırmaların aparılması və ictimaiyyətə çatdırılması, tələbələrin elmə yönəldilməsinin zəruriliyini əsas götürərək tədqiqat mərkəzinin yaranmasına ehtiyac olduğunu düşündük. Buna əsasən, 28 yanvar 2025-ci il tarixində Mingəçevir Dövlət Universitetinin elmi şurasının qərarına əsasən Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzi yaradıldı və 27 fevral 2025-ci il tarixində Mərkəzin əsasnaməsi təsdiq olundu.

**Mərkəzin əsas fəaliyyət istiqamətləri** aşağıdakılardır:

1. Turizm və ətraf mühit tədqiqatları sahəsində elmi-tədqiqat fəaliyyətini inkişaf etdirmək, bu sahədə innovativ ideyalar yaratmaq,
2. Azərbaycan Respublikasının davamlı turizmin inkişafı prosesinə töhfə vermək,
3. Ətraf mühitin, ətraf mühit və turizm arasında əlaqənin, turizmin inkişafının ətraf mühitə təsiri istiqamətində təhlillər apararaq tövsiyələr hazırlamaq,
4. Tələbələrin elmə yönəldilməsi və tədqiqatlarının nəticələrinin dərc etdirilməsinə köməklik göstərmək.

Bu günkü konfrans da Mərkəzin fəaliyyət planına əsasən təşkil olunmuşdur. Konfransın əsas məqsədi tələbə və magistrantlarımızın ixtisasları üzrə biliklərinin zənginləşdirilməsinə, elmi-informasiyanın mübadiləsinə dəstək olmaqdan, onlarda elmi tədqiqata marağı artırmaqdan ibarətdir.

Qeyd etmək istərdim ki, tədqiqatçıların müvafiq istiqamət üzrə elmi ədəbiyyata əlçatanlığına müəyyən qədər dəstək vermək məqsədilə Mərkəzin səhifəsində "Elektron resurslar" bölməsində Azərbaycan, türk, rus və ingilis dillərində elmi ədəbiyyat yerləşdirilmişdir.

Sonda bu günkü konfransda çıxış edəcək bütün gənc tədqiqatçılarımıza uğurlar arzu edirəm. Onlara və onların elmi rəhbərlərinə təşəkkürümü bildirirəm.

**Konfransın işinə uğurlar arzulayıram!**

# AZƏRBAYCANDA DAYANIQLI TURİZMİN İNKİŞAF STRATEGİYASI

**Nazim Fazil oğlu Niftəliyev**
İqtisadiyyat kafedrasının baş müəlimi
Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü
nazim.niftaliyev@mdu.edu.az

***Açar sözlər:*** *Azərbaycan, dayanıqlı turizm, inkişaf strategiyası, turist*
***Keywords:*** *Azerbaijan, sustainable tourism, development strategy, tourist*
***Ключевые слова:*** *Азербайджан, устойчивый туризм, стратегия развития, турист*

Dayanıqlı turizm – turizm sahəsinin davamlılığını təmin etmək üçün həyata keçirilən prosedurları qeyd etməklə turizm resurslarından hərtərəfli və mənalı istifadəni təşviq edir. Dayanıqlı turizm turizm resurslarından ən səmərəli istifadə üzərində qurulur. Beləliklə, dayanıqlı turizm həm də davamlı turizm kimi tanınır. Müasir dövrdə bir çox ölkələr təbiət, cəmiyyət, iqtisadi tərəqqi və ətraf mühit şəraiti arasında daimi əlaqələr qurmağa çalışırlar. Dünyada insanların sayının artması və mədəni tələblər ilə yanaşı, məhdud resurslar təkcə bir məkan üçün deyil, bütün dünya üçün davamlı turizmin inkişafı ehtiyacını vurğulayır.

Bu gün ölkədə dayanıqlılıq prinsiplərini tətbiq etdiyimiz layihələr və sahələrin sayı artmaqda davam edir. Dayanıqlı səyahət yanaşması nəinki təbiəti, xüsusilə endemik növləri mühafizə edir, həm də qlobal iqlim dəyişikliyi ilə mübarizə apararaq yerli icmalara dəstək verir, eləcə də turizm sənayesinin zərərli tullantılarını minimuma endirərək, çirklənmənin azaldılmasında mühüm rol oynayır.

Ümumiyyətlə, dayanıqlılıq yanaşması və düşüncə tərzi turistlər üçün qeyri-adi təcrübələr və yerli sakinlərə öz mədəniyyətlərini və rifahını qoruyub saxlamaq imkanı yaratmaqla yanaşı, hər kəsin gələcək nəsillər üçün planetimizi qorumağa istiqamətləndirir.

Turizmin dayanıqlılığının təmin edilməsi turizm ehtiyatlarının öyrənilməsini və genişləndirilməsini, turistlərin tələbatının ödənilməsi və müasir standartlara uyğunlaşdırılması üçün tələb olunan xidmətlərin təşkilini, sanatoriya-kurort müəssisələrinin genişləndirilməsini, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılmasını, turizm marşrutlarının çoxaldılması və digər fəaliyyətlər.

Dayanıqlı turizmin həll etməyi qarşısına məqsəd qoyduğu ən mühüm problem turist resurslarından optimal istifadə və onların gələcək nəsillər üçün qorunmasıdır. Bundan əlavə, davamlı turizm seçilmiş məkanda turizm fəaliyyətini mövsümi deyil, daimi etməyə çalışır.

Neft biznesinin qlobal tənəzzülü ölkəmizi alternativ gəlir mənbələri axtarmağa vadar edib. Qeyd etmək lazımdır ki, turizm neft və maşınqayırma sənayesindən sonra dünyada üçüncü ən gəlirli sənayedir.

6 dekabr 2016-cı il tarixində "Azərbaycan - Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 nömrəli Fərmanına uyğun olaraq ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edilərək ölkəmizin turizm sektoru üçün yeni dövrə qədəm qoydu. Fərmanda bildirilir ki, Azərbaycan 2025-ci ilə qədər regionun ən yaxşı turizm məkanına çevrilməyi hədəfləyir. Bu məqsədə çatmaq üçün Milli Turizm Təbliğat Bürosu yaradılıb.

Azərbaycan Respublikası ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişaf üzrə milli proqrama uyğun olaraq yüksək turizm potensialına malikdir. Bu, ölkənin zəngin tarixi, inkişaf etmiş mədəniyyəti və canlı mənzərəsi ilə bağlıdır. Azərbaycanda ənənəvi turizmlə yanaşı, innovativ turizm xidmətlərinin inkişafı üçün yaxşı şərait yaradılıb. Əsas məsələlərdən biri də turizm infrastrukturunun inkişafı, eyni zamanda ətraf mühitə zərərin minimuma endirilməsi və davamlı inkişaf prinsiplərinə uyğun idarə olunmasıdır. Bu məqsədə çatmaq üçün ekoloji davamlılıq anlayışına uyğun gələn milli, regional və ixtisaslaşmış turizmin inkişafı ilə bağlı aşağıdakı tədbirlər həyata

keçirilməlidir. "Dayanıqlı inkişaf" prinsiplərinə əsaslanan "Azərbaycan Respublikasının Ekoloji Konsepsiyası" bu dövr ərzində ölkəmizdə ekoloji siyasətə dair ilk mətn kimi diqqəti çəkir. Bu anlayış respublikamızın ətraf mühitin mühafizəsi məsələlərinin həlli üçün vacib elementləri vurğulayırdı. Son zamanlar ölkəmizin sürətli sosial-iqtisadi inkişafı nəticəsində ekoloji siyasətdə yeni metodologiyalar və konsepsiyalar yaranmışdır. Bu kontekstdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış və ölkə Prezidenti tərəfindən təsdiq edilmiş Ekoloji Dayanıqlı Sosial-İqtisadi İnkişaf üzrə Milli Proqramın hazırlanması istiqamətində işlər davam etdirilir. Azərbaycan Respublikası beynəlxalq ekoloji sazişlərdə iştiraka üstünlük verir. Belə ki, ölkəmiz 20-yə qədər saziş və protokol imzalayıb.

Strateji Yol Xəritəsində turizmin inkişafı təşəbbüslərinin icrası uğur üçün yeni imkanlar yaradıb. Strateji Yol Xəritəsi iqtisadi inkişaf strategiyası və fəaliyyət planını, 2025-ci ilə qədər uzunmüddətli perspektivi və 2025-ci ildən sonrakı hədəf baxışı əhatə edir. Prezidentin sərəncamı ilə yaradılan Turizm Şurasının fəaliyyəti Azərbaycanın turizm infrastrukturunun inkişafına və Strateji Yol Xəritəsinin icrasına öz müsbət təsirini göstərmişdir. Bakı Şopinq Festivalı turizm sənayesində əhəmiyyətli bir irəliləyişi təmsil etdi. Həqiqətən də, son illərdə turizm sürətlə inkişaf edərək ən mühüm iqtisadi sektorlardan biri kimi meydana çıxıb. "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən, turistlərin sürətli keçidi üçün xüsusi hərəkət zolaqlarının yaradılması nəzərdə tutulur. Turizm sənayesindəki mühüm nailiyyətlər ölkənin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir.

Azərbaycan Respublikası Prezidentinin "Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam"ına əsasən Mədəniyyət və Turizm Nazirliyinin əsasında Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi turizm sahəsində vahid dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, turizm sahəsində norma yaratma fəaliyyətinin icrası, dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni, turizmin inkişafı məqsədi ilə digər dövlət orqanları, müəssisələri və təşkilatları, habelə fiziki və hüquqi şəxslər, o cümlədən beynəlxalq və qeyri-hökumət təşkilatları arasında əlaqəli fəaliyyəti təmin etmək, tabeliyindəki dövlət qoruqlarının ərazilərindən məqsədyönlü istifadəni təşkil etmək və onların qorunub saxlanılmasını təmin etmək, milli kulinariya nümunələrinin qorunmasını və təbliğini təmin etmək istiqamətində fəaliyyət göstərir.

Azərbaycan Respublikasının Prezidenti "İnvestisiyaların təşviqi sənədinin verilməsi Qaydası"na yenidən baxılması haqqında fərman imzalamışdır. Fərmanla investisiya qoyuluşlarına icazə verilən iqtisadi fəaliyyət növlərinin siyahısına turizm sənayesi də əlavə edilib.

İslahat nəticəsində turizm sektorunda iştirak edən yerli və beynəlxalq investorlara qanunvericiliklə müəyyən edilmiş müvafiq gömrük və vergi güzəştləri tətbiq olunur. Dövlətimizin başçısının fərman və sərəncamlarında nəzərdə tutulan məqsədlərin icrası çərçivəsində elektron viza müraciəti təkmilləşdirilmiş, "ASAN viza" sistemi yaradılmışdır. Hazırda bu yanaşma 81 ölkənin sakinlərinə elektron viza almağa imkan verir. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair Tədbirlər Planı" qəbul edilib. Tədbirlər planı çimərliklərlə bağlı qanunvericilik bazasının hazırlanması, infrastrukturun yaradılması, bu sahədə operatorların fəaliyyətinin tənzimlənməsi, ətraf mühitin mühafizəsi, təhlükəsizliyin təmin edilməsi və digər mühüm tədbirləri əhatə edir. Beynəlxalq təşkilatların hesabatlarında da Azərbaycanda turizmin yüksəlişi öz əksini tapıb.

Turizm ölkəyə xarici pul axınını artırır, xidmət şəbəkəsinin qurulmasını təşviq edir və bununla da çoxlu sayda yeni iş yerləri yaradır və ölkənin məşğulluq sahələrini və imkanlarını genişləndirir. Son illərdə bu sənayenin inkişafına göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycanda hərtərəfli turizm infrastrukturu inkişaf etdirilmiş, yeni mehmanxanalar, istirahət yerləri tikilmiş, ölkəyə turistlərin cəlb edilməsi istiqamətində mühüm layihələr həyata keçirilmişdir. Ölkəmizin turizm sənayesinin gözəl imkanları var. Müxtəlif turizm növlərinin inkişafı üçün çoxlu

potensial var. Son illərdə müşahidə olunan sürətli sosial-iqtisadi tərəqqi bu intizamda hərtərəfli artım üçün yeni perspektivlər yaratmışdır. Turizm ehtiyatlarının öyrənilməsi və genişləndirilməsi, turist tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasirstandartlara uyğunlaşdırılması, sanatoriya-kurort müəssisələrinin genişləndirilməsi, mehmanxana və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması istiqamətində həyata keçirilən davamlı tədbirlər öz bəhrəsini verməkdədir. Əsas məqsəd turizmi ölkə iqtisadiyyatının ən sabit, səmərəli və rəqabətədavamlı sektoruna çevirməkdir.

Azərbaycan hazırda turizm sənayesində geniş beynəlxalq əlaqələri inkişaf etdirir. Hazırda elə bir beynəlxalq turizm sərgisi yoxdur ki, orada Azərbaycanın turizm müəssisələri iştirak etməsin. Bundan əlavə, ölkəmiz turizm sahəsində əməkdaşlıq üçün inkişaf etmiş dövlətlərlə hökumətlərarası sazişlər imzalayıb. Son illər ölkəmizin turizm qrupları Ümumdünya Turizm Təşkilatının (ÜTT) tədbirlə rində fəal iştirak ediblər. Ölkəmizdən bir neçə turizm firması da Dünya Turizm Təşkilatına (DTT) assosiativ üzvü olub. Bu da öz növbəsində ölkəmizin Dünya Turizm Təşkilatına üzv dövlətlərdə tanınması və turizm potensialının təbliği üçün bir sıra perspektivlər açır. Dəqiqləşdirsək, turizmin yüksəlişi ilə əlaqədar 2025-2030-cu illərdə dövlət büdcəsinin artırılması nəzərdə tutulur.

Ümumiyyətlə, aydındır ki, hər növ turizm dayanıqlı olmağa çalışmalıdır. Dayanıqlı turizmin inkişafı turizmin bütün aspektlərinə idarəetmə üsullarını daxil etməklə həyata keçirilə bilər. Tədqiqatın nəticələri açıq şəkildə göstərir ki, mövcud şəraitdə davamlı inkişaf anlayışı hələ də turizmin bütün növlərində istifadə olunmur. Turizmin inkişafı və xidmət sahələri mənfi assosiasiyaya malikdir. Azərbaycanda bu problem hələ də var.

Hazırda xidmətin inkişafı istehsalın inkişafını üstələyir. Qlobal bazara inteqrasiya edən Azərbaycan Respublikasında əsas xidmət sahələrindən biri olan turizm sənayesinin inkişafı da mühüm qayğı kimi qiymətləndirilir. Azərbaycan turizm sənayesinin inkişafına üstünlük verir.

Azərbaycanın füsunkar təbiəti, ideal coğrafi mövqeyi, mədəni-tarixi irsi, ləzzətli yeməkləri və güclü qonaqpərvərlik ənənələri ölkənin turistik inkişafı üçün gözəl imkanlar yaradır. Turizmdə davamlı artıma nail olmaq üçün əsas konsepsiya sabit iqtisadi inkişafı təmin etməklə yanaşı, ətraf mühiti də qorumaqdır.

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı, 02.02.2021.
2. Bilalov B.Ə., Gülalıyev Ç.G. Turizmin əsasları. Bakı, 2015.
3. Turizm haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 27.12.2021.
4. Mukosa F., Katebe M., Mbewe S., Muhyila M.C., The role of Marketing in Zambia's economic diversification process, International Journal of Management and Commerce Innovations, 2020, 1260-1264.

## AZƏRBAYCANIN EKOTURİZMİNİN İNKİŞAFINDA MİLLİ PARKLARIN ROLU (GÖYGÖL MİLLİ PARKI NÜMUNƏSİNDƏ)

**Aysel Möhrəddin qızı Qocayeva**
İqtisadiyyat kafedrasının müəlimi
Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü
BDU-nun dissertantı
aysel.qocayeva@mdu.edu.az

***Açar sözlər:*** *milli park, ekoturizm, inkişaf, Göygöl, marşrut*
***Keywords:*** *national park, ecotourism, development, Goygol, route*
***Ключевые слова:*** *национальный парк, экотуризм, развитие, Гёйгёль, маршрут*

*Milli parklar* - xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olan təbiəti mühafizə və elmi müəssisə və ya təşkilat statusuna malik olan ərazilərdir.

Azərbaycan Respublikasında milli parkların yaradılması ilə bağlı ilk təşəbbüs Akademik Həsən Əliyev tərəfindən irəli sürülmüşdür. Ölkəmizdə ilk milli parklar 2003-cü ildə yaradılmışdır. Daha sonrakı dövrdə bu ənənə davam etdirilmiş və son olaraq, 2018-ci ilin sentyabrında Qızılağac Milli Parkı yaradılmışdır. Hazırda, Azərbaycanda ölkə ərazisinin 4,87 % təşkil edən 10 milli park fəaliyyət göstərir.

Azərbaycan zəngin flora və faunası ilə böyük ekoturizm potensialına malikdir. Ekoturizm təbiətdən zövq almaq, istirahət məqsədi ilə istifadənin yeni forması olmaqla yanaşı, rekreasiya ehtiyatlarından düşünülmüş şəkildə istifadə etməyi, bioloji müxtəlifliyin qorunmasını təbliğ etməkdir. Milli parklar ölkədə ekoloji turizm sahəsinin inkişafı üçün əlverişli təbiət əraziləridir. Milli parklarda rəngarəngliyinə və məzmununa görə fərqlənən 116 ədəd turist marşrutu fəaliyyət göstərir. Ekosisteminə görə bir-birindən fərqli təbiət abidələri sayılan milli parklar Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng landşaft komplekslərini özündə birləşdirir. Ən çox turist qəbul edən Göygöl, Şahdağ və Abşeron Milli Parklarıdır.

Azərbaycanda turizm müasir dövrün ən sürətli inkişaf edən sosial və iqtisadi bir fenomen kimi qəbul edilir və bu sahədə ekoloji, elmi və mədəni turizmə daha artıq dərəcədə önəm verilir. Məlum olduğu kimi, ekoloji turizm çox böyük investisiya qoyuluşları tələb etmir və ərazidə iqtisadi infrastrukun inkişafına və bi çox sosial problemlərin həllinə əhəmiyyətli təsir göstərir. Göygöl MP Gəncə şəhərinə yaxın olub ekoturizmin inkişafı üzrə böyük potensial-landşaft xüsusiyyətlərinə malikdir. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondununun yardımı əsasında aparılan tədqiqatlar nəticəsində Göygöl MP-nın ekoturizm potensialının müasir əhəmiyyəti və növlərinin (elmi-konqres, məcarə, etnik, kənd-yaşıl, dini vəs.) inkişafını tənzimləyən təkliflər kompleksi hazırlanmışdır.

Göygöl və onun ətrafında yayılmış meşələr öz zənginliyi və füsunkarlığı ilə dünyada məşhurdur. Göygöl təbiətinin gözəlliyi sayəsində daima diqqəti cəlb etmiş və XX əsrin əvvəllərində - 1910-1912-ci illərdə ərazidə qoruq yaradılması məsələsi qaldırılmışdır. 1925-ci ildə Azərbaycan Respublikasının ərazisində ilk qoruq olan Göygöl Dövlət Təbiət Qoruğu yaradılmışdır. Sonralar qoruq ləğv edilmiş və ictimaiyyətin arzu və təkliflərinə əsasən Azərbaycan SSR Nazirlər Sovetinin 14 iyul 1965-ci il tarixli 475 nömrəli Qərarına əsasən yenidən təşkil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 01 aprel 2008-ci il tarixli Sərəncamına əsasən Göygöl Dövlət Təbiət Qoruğunun və Azərbaycanın Xanlar (indiki Göygöl), Daşkəsən və Goranboy rayonlarının inzibati ərazilərində Göygöl Milli Parkı yaradılmışdır. Sahəsi 6 739 hektar olan Göygöl Dövlət Təbiət Qoruğu Milli Park statusu aldıqdan sonra, onun ərazisi artırılaraq, 12 755 hektara çatdırılmışdır.

Göygöl Milli Parkı zəngin bitki örtüyünə malikdir. Burada dağ-meşə, dağ-bozqır, subalp və alp dağ-çəmən bitki ekosistemləri yayılmışdır. 1100-2200 m hündürlükləri əhatə edən dağ meşələri çox zəngin olub, 80-ə qədər ağac və kol növünə malikdir.

| | |
|---|---|
| 1 | Göygöl - Maralgöl |
| 2 | Göygöl - Qaragöl 1 |
| 3 | Göygöl - Quşgölü |
| 4 | Göygöl – Ağsu çayı |
| 5 | Göygöl - Gözgölü |
| 6 | Göygöl – Ördəkgölü |
| 7 | Qaragöl 2 - Güzgügöl |
| 8 | Şamlıqgölü – Xan yurdu |
| 9 | Zəligöl - Keçiqayası |
| 10 | Xanbulağı – Ayıgölü – Kəpəzdağı |

Göygöl Milli park statusu aldıqdan sonra ərazidə Göygöl Turizm Kompleksi yaradıldı və vətəndaşlar rahat bir şəkildə doyumsuz gözəlliyi malik olan Göygöl Milli Parkına axın etməyə başladılar. Bu gün Göygöl Milli Parkına dünyanın hər bir yerindən ziyarətə gələnlər var. Milli park statusu il ərzində əraziyə 200 mindən çox yerli və xarici turistin gəlişini təmin etmişdir. Bu da bölgənin sosial-iqtisadi vəziyyətinə müsbət təsir edir.

Milli Park daxilində hazırda 10 ekoturizm marşrutu fəaliyyət göstərir (cədvəl).

Qeyd edilən marşrutlar vasitəsilə sıldırımlarda və meşələrdə olan ecazkar mənzərələri seyr etmək mümkündür. Həmin marşrutların uzunluğu, riskliliyi (asan, orta, çətin), onlara sərf olunacaq vaxt, nəqliyyat və s. dəqiqləşdirilmişdir. Eyni zamanda, marşrutlar boyu istiqamətverici və məlumatlandırıcı lövhələr vurulmuşdur. Hətta hər bir marşrut üçün ayrıca piknik nöqtəsi təyin olunmuşdur. Milli parkda hazırda ekoturizmin daha da inkişaf etdirilməsi üçün ardıcıl tədbirlər görülməkdə davam edir.

## MİNGƏÇEVİR SU ANBARININ ƏTRAF MÜHİTƏ TƏSİRİ: SU EHTİYATLARI, SƏNAYE VƏ KƏND TƏSƏRRÜFATININ EKOLOJİ YÜKÜ

**Leyla Bəylər qızı Əhmədova**
Fizika və ekologiya kafedrasının müəlimi
Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü
AMEA Botanika İnstitunun dissertantı
leyla.ahmadova@mdu.edu.az

***Açar sözlər:*** *Mingəçevir, su anbarı, Qafqaz, Kür çayı, Qarabağ, Şirvan, biomüxtəliflik*
***Keywords:*** *Mingachevir, reservoir, Caucasus, Kura River, Karabakh, Shirvan, biodiversity*
***Ключевые слова:*** *Мингячевир, водохранилище, Кавказ, река Кура, Карабах, Ширван, биоразнообразие*

Mingəçevir su anbarı, 1953-cü ildə Kür çayı üzərində inşa edilmiş və Cənubi Qafqazın ən iri su anbarıdır. Onun ümumi su tutumu 15,73 milyard kubmetr təşkil edir və əsas funksiyası elektrik enerjisinin istehsalı, suvarma və daşqınların tənzimlənməsidir. Lakin bu irimiqyaslı hidromeliorativ infrastrukturun uzunmüddətli istifadəsi təkcə müsbət deyil, həm də ciddi ekoloji fəsadlara yol açmaqdadır.

Mingəçevir su anbarının ümumi tutumu 15,73 km$^3$ təşkil edir və iki əsas kanala: Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalına xidmət edir, 1 milyon hektara yaxın kənd təsərrüfatı sahəsinin suvarılmasını təmin edir. Bununla belə, sudan intensiv istifadə, xüsusən də kənd təsərrüfatında suyun səviyyəsində əhəmiyyətli dalğalanmalara səbəb olur ki, bu da su ekosistemlərinin sabitliyinə mənfi təsir göstərir.

Bundan əlavə, təmizlənməmiş sənaye və məişət tullantı sularının Kür çayına axıdılması nəticəsində suyun keyfiyyətinin pisləşməsi müşahidə olunur. Təhlillər göstərir ki, civə, kadmium və qurğuşun kimi ağır metalların konsentrasiyası icazə verilən maksimum hədləri aşaraq su orqanizmləri və əhalinin sağlamlığı üçün təhlükə yaradır.

Mingəçevir şəhəri mühüm sənaye mərkəzidir, burada tekstil, energetika və kimya sənayesi müəssisələri fəaliyyət göstərir. Lakin müasir təmizləyici qurğuların olmaması və bərbad infrastruktur çirklənmiş tullantı sularının birbaşa su anbarına axıdılmasına səbəb olur. Bu, termal və kimyəvi çirklənməyə, evtrofikasiya proseslərini sürətləndirməyə və su florasının tərkibini dəyişdirməyə kömək edir.

Rayonun kənd təsərrüfatı pambıq, taxıl və bostan kimi əkinlərin suvarılması üçün anbardan gələn sudan fəal istifadə edir. Lakin pestisidlərin və mineral gübrələrin həddindən artıq istifadəsi

səth sularının ikinci dərəcəli çirklənməsinə səbəb olur. Bu, oksigen çatışmazlığına və su orqanizmlərinin ölümünə səbəb olan "yosun çiçəkləri" kimi tanınan fitoplanktonun kütləvi böyüməsini təşviq edir.

Bundan əlavə, suvarma kanallarından suyun sızması qrunt sularının səviyyəsinin qalxmasına, torpaqların bataqlaşmasına və şoranlaşmasına səbəb olur. Nəticədə 267 min hektara yaxın ərazi bataqlıq səbəbindən əkinçilik üçün yararsız hala düşüb, 66 min hektar isə yüksək şoranlıqdan əziyyət çəkir.

ÜST və BMT-nin 2021-ci il hesabatlarında qeyd olunur ki, Cənubi Qafqazda transsərhəd su hövzələrinin koordinasiyalı idarə olunmaması ekosistemlərin deqradasiyasını sürətləndirir və region ölkələri arasında potensial ekoloji gərginlik yaradır.

Mingəçevir su anbarı Kür çayı boyunca axan çirkləndirici maddələrin akkumulyasiya nöqtəsinə çevrilmişdir. Bu, həm ekoloji, həm də su ehtiyatlarının idarə olunması baxımından birgə fəaliyyət zərurətini ortaya çıxarır.

Son 30 ildə Mingəçevir su anbarının ətrafında yerləşən bataqlıq, yarımquraq və çəmənlik ekosistemləri öz ilkin vəziyyətini ya tamamilə, ya da qismən itirmişdir. Bu, əsasən sahil zolaqlarında tikinti fəaliyyəti, su səviyyəsinin dəyişkənliyi və torpaq istifadəsinin intensivliyi ilə bağlıdır. Azad yaşayan quş növlərinin müşahidəsi üzrə 2023-cü ildə keçirilmiş monitorinqlər göstərmişdir ki, su anbarının yaxınlığında əvvəl müşahidə olunan 67 növdən yalnız 43 növün sabit populyasiyası qalmışdır.

Balıq növləri arasında isə xüsusilə nərəbalığı və sazan kimi kommersiya əhəmiyyətli növlərin kəskin azalması qeydə alınır. Bu azalma təkcə ovun intensivliyi ilə deyil, həm də suyun keyfiyyətinin pisləşməsi və yumurtlama sahələrinin məhv olması ilə əlaqəlidir.

Mingəçevir su anbarının ətraf mühitə mənfi təsirini minimuma endirmək üçün aşağıdakılar təklif oluna bilər:

1. Müasir texnologiyalardan istifadə etməklə su və torpaq keyfiyyətinin monitorinqi sistemlərinin modernləşdirilməsi.
2. Sənaye obyektlərində səmərəli çirkab su təmizləyici qurğuların təkmilləşdirilməsi və tətbiqi.
3. Üzvi gübrələrin istifadəsi və zərərvericilərə qarşı inteqrasiya olunmuş idarəetmə də daxil olmaqla davamlı kənd təsərrüfatı təcrübələrini təşviq edin.
4. Biomüxtəlifliyin qorunmasına və təbii ekosistemlərin bərpasına diqqət yetirərək su ehtiyatlarının idarə edilməsində ekosistem yanaşmasını tətbiq edin.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Əliyev, H.Ə., & Həsənov, A.H. Azərbaycanın su ehtiyatlarının idarə olunması problemləri. "Elm" nəşriyyatı. Bakı 2018.
2. Hacıyev, V.Q. Kür çayı hövzəsinin ekoloji problemləri və onların idarə olunması. MSU nəşriyyatı. Bakı 2021.
3. Məmmədov, R.F., & Əsədov, A.Ə. "Mingəçevir su anbarının ətraf mühitə təsiri və ekosistem dəyişikliyi." Azərbaycan Coğrafiya Cəmiyyəti Elmi Əsərləri*,* 19(2), 78–87. 2020.
4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Azərbaycanın su ehtiyatları və onların istifadəsi üzrə illik hesabat. Bakı 2022.

# MƏDƏNİ İRSİN TURİZMDƏ ROLU: AZƏRBAYCANIN TARİXİ ABİDƏLƏRİ

**[1]Nərmin Arif qızı Əliyeva, [2]Səbinə Mübariz qızı Əhmədəliyeva**
[1]İqtisadiyyat kafedrasının müəllimi
narmin.aliyeva@mdu.edu.az
[2]magistrant
narmin.aliyeva@mdu.edu.az

***Açar sözlər:*** *mədəni irs, mədəniyyət, turizm, Azərbaycan, Bakı, tarix, folklor, adət-ənənə, arxeoloji abidə*

***Keywords:*** *cultural heritage, culture, tourism, Azerbaijan, Baku, history, folklore, traditions, archaeological monument*

***Ключевые слова:*** *культурное наследие, культура, туризм, Азербайджан, Баку, история, фольклор, традиции, археологический памятник*

## Giriş

Azərbaycan, zəngin mədəni irsə və müxtəlif tarixi abidələrə malik bir ölkədir. Azərbaycanın coğrafiyası və tarixi, bu ölkənin mədəniyyətinin müxtəlif aspektlərini formalaşdırmış və bu da öz növbəsində turizmin inkişafına böyük təsir göstərmişdir. Mədəni irs, bir ölkənin milli kimliyinin əsas tərkib hissələrindən biridir və bu irsin qorunması, bərpası və təbliği, həm də turizm sektorunun inkişafına töhfə verir. Bu məqalə, Azərbaycanın mədəni irsinin turizm sahəsindəki rolunu araşdıracaq, tarixi və mədəni abidələrin turizm üçün əhəmiyyətini və onların sosial və iqtisadi faydalarını diqqətə alacaqdır.

Turizm xidmətləri sektoru iqtisadiyyatın ən sürətlə inkişaf edən sektorlarından biridir, Turizm xidmətləri bazarının inkişafı ölkə və digər dövlətlərin əhalisinin rekreasiya ehtiyaclarını ödəmək üçün zəmin yaradan böyük sosial və iqtisadi əhəmiyyət kəsb edir. Turizmin sosial əhəmiyyəti vətəndaşların yaxşılaşdırılması, məşğulluğun artırılması və fərdin inkişafı ilə bağlı problemlərin həlli ilə gücləndirilir. Turizmin sürətli inkişafı və iqtisadiyyatda artan rolu bu fəaliyyət sahəsinin, onun fəaliyyət aspektlərinin və tərkibinin daha dərindən öyrənilməsinə kömək edir. Bundan əlavə, turizm bazarının daxili strukturu xaricə gedən turistlərin üstünlük təşkil etməsi ilə xarakterizə olunur:

- turizm sənayesinin inkişafının əsas göstəriciləri - gəlmə turizmin payının genişləndirilməsi;
- resursların doyma səviyyəsi ilə onlardan istifadə səviyyəsi arasında uyğunsuzluqların azaldılması;
- milli turizm məhsulunun yayılmasının artırılması;
- turizm xidmətləri bazarının dövlət tərəfindən dəstəklənməsidir.

Turizm sənayesi dövlət xidmətləri ilə yaxşı qurulmuş əlaqələr vasitəsilə sənayelərarası kompleks kimi fəaliyyət göstərir. Yəni, hüquqi strukturlarla, maliyyə, iqtisadi və kadrlarla əlaqələr var. Dövlət dəstəyi əhalinin turizm xidmətlərindən istifadəyə olan tələbatının stimullaşdırılmasından ibarətdir. Müxtəlif amillərin təsiri altında turizm xidmətləri bazarının problemlərinin və xüsusiyyətlərinin təhlili və qiymətləndirilməsi müxtəlif yerli və xarici elmi məqalələrdə işıqlandırılır. Bu əsərləri yazarkən əsas diqqət dövlət və regional turizm siyasətinin aparılmasının əsaslarına yönəldilir ki, bu da öz növbəsində turizm xidmətləri bazarının inkişafı siyasətinin təşkilati-iqtisadi tənzimləyicilərini, yaranma şəraitini və əsaslarını müəyyən edir.

**Azərbaycanın mədəni irsinin xüsusiyyətləri**

Azərbaycanın mədəni irsi, təbii və mədəni abidələrdən ibarətdir. Bu irs, həm dünya mədəniyyətinə, həm də Azərbaycanın özünəməxsus mədəniyyətinə dəyərli töhfələr vermişdir. Azərbaycanın mədəni irsində yer alan abidələr, arxeoloji, memarlıq, etnoqrafik və folklor irsinin müxtəlif nümunələrini əks etdirir.

Azərbaycan, çox zəngin və çoxşaxəli mədəni irsə malik bir ölkədir. Azərbaycan mədəni irsinin xüsusiyyətləri çox müxtəlif sahələrdə özünü göstərir, bunlar arasında tarixi abidələr, memarlıq, folklor, musiqi, rəssamlıq, ədəbiyyat və digər mədəniyyət sahələri yer alır. Bu xüsusiyyətləri daha ətraflı şəkildə aşağıdakı şəkildə təqdim etmək olar:

**Tarixi və arxeoloji abidələr**

Azərbaycanın mədəni irsinin əsas tərkib hissələrindən biri tarixi və arxeoloji abidələrdir. Bu abidələr ölkənin qədim tarixini və müxtəlif dövrlərdəki mədəni inkişafını əks etdirir. Azərbaycanın ən məşhur tarixi abidələri arasında:

- *Qobustan Qaya Rəsmləri:* Dünya mədəni irsinin bir hissəsi olan bu abidələr, təxminən 5-40 min il əvvələ aid təsvirlər və rəsmlərlə zəngindir.
- *İçərişəhər (Bakı):* Bakı şəhərinin mərkəzində yerləşən İçərişəhər, Azərbaycanda ən qədim şəhər ərazilərindən biridir və həmçinin UNESCO-nun Dünya Mirası siyahısına daxildir.
- *Şirvanşahlar Sarayı:* Bakı şəhərində yerləşən bu saray, Şirvanşahlar dövlətinin ən mühüm tarixi abidələrindəndir.

**Memarlıq abidələri**

Azərbaycanın memarlığı, müxtəlif dövrlərin və mədəni təsirlərin birləşdiyi bir xüsusiyyət daşıyır. Şərq və Qərb memarlıq üslublarının sintezini görmək mümkündür. Azərbaycan memarlığının ən tanınmış nümunələri:

- *Qala və Qalalar:* Azərbaycanın müxtəlif bölgələrindəki qala abidələri, ölkənin keçmişdəki müdafiə və strateji mövqeyini əks etdirir.
- *Məscidlər və Türbələr:* Azərbaycanın müxtəlif şəhərlərində yerləşən tarixi məscidlər və türbələr, həm dini, həm də memarlıq baxımından böyük əhəmiyyət kəsb edir. Məsələn, Böyük Qala məscidi və Quba Türbəsi kimi abidələr.
- *Köhnə evlər və ev memarlığı:* Azərbaycanın bəzi bölgələrində, xüsusilə Şəki və Lahıc kimi yerlərdəki evlərin xarici və daxili memarlığı da özünəməxsus və zəngindir.

**Folklor və adət-ənənələr**

Azərbaycanın folkloru və adət-ənənələri ölkənin mədəniyyətinin ayrılmaz hissəsidir. Azərbaycan xalqının zəngin folkloru, şifahi ədəbiyyat, rəvayətlər, nağıllar, dastanlar və mahnılarla zəngindir. Azərbaycanın folklorunun xüsusiyyətləri bunlardır:

- *Dastanlar və nağıllar:* Məsələn, "Koroğlu" dastanı və "İsgəndər" nağılı Azərbaycanın zəngin şifahi mədəniyyətinin nümunələrindəndir.
- *Musiqi və rəqs:* Azərbaycan musiqisi və xalq rəqsləri, milli kimliyin vacib bir hissəsi olaraq tanınır. Mugam və Aşıq musiqisi Azərbaycan mədəniyyətinin ən mühüm musiqi formalarındandır.
- *Adət və bayramlar:* Azərbaycanın müxtəlif bölgələrində müxtəlif adətlər və bayramlar qeyd olunur. Məsələn, Novruz Bayramı, Gəlinin gecəsi və Yallı rəqsi kimi ənənələr xalqın mədəniyyətində dərin izlər buraxmışdır.

**İncəsənət və rəssamlıq**

Azərbaycanın incəsənəti, xalqın mədəniyyətinin və həyat tərzinin əks olunduğu əvəzolunmaz bir sahədir. Azərbaycan rəssamlığı, xalçaçılıq, keramika, tətbiqi sənət və digər sahələrdə zəngin ənənələrə malikdir:

- *Azərbaycan xalçası:* Azərbaycan xalçaları, həm yerli, həm də beynəlxalq səviyyədə məşhurdur. Onlar, müxtəlif bölgələrdə fərqli üslubda toxunur və həm estetik, həm də funksional baxımdan əhəmiyyətlidir.
- *Rəssamlıq:* Azərbaycanın müasir rəssamlıq sahəsi də dinamik şəkildə inkişaf edir. Azərbaycanın tanınmış rəssamları arasında Bəhruz Kəngərli və Səttar Bəhlulzadə kimi şəxsiyyətlər yer alır.

**Dini irs və mədəniyyət**

Azərbaycanın dini irsi, müxtəlif etnik və dini qrupların birgə yaşayışının nəticəsidir. Azərbaycanda İslam, xristianlıq və digər dini inancların təsiri altında mədəni irs formalaşıb:

• *İslam mədəniyyəti:* Azərbaycanda çoxsaylı məscidlər, türbələr və dini abidələr vardır. Bu abidələr, həm dini, həm də memarlıq baxımından böyük əhəmiyyət daşıyır.

• *Xristian mədəniyyəti:* Xristianlıq da Azərbaycanın mədəniyyətində iz qoymuşdur. Şirvan və digər regionlarda xristian dini abidələri, o cümlədən Xudavəng Monastırı və Quba Xristian Kilsəsi kimi abidələr mövcuddur.

Azərbaycanın ən məşhur mədəni abidələri arasında qədim Qobustan qayaları, Şirvanşahlar sarayı, İçərişəhər (Bakı) və Qobustan Milli Parkı kimi ərazilər yer alır. Bunlar UNESCO-nun Dünya Mirası siyahısına daxil olan ərazilərdir və həmçinin turistlər üçün məşhur maraq nöqtələridir.

**Tarixi abidələrin turizmə təsiri**

İçərişəhər (Bakı), çoxsaylı tarixi abidələri və dar küçələri ilə turistlər üçün maraqlı bir yerdir. İçərişəhər, həm də müasir mədəniyyətin və ənənələrin bir arada mövcud olduğu unikal bir abidədir. Bu ərazi, Azərbaycanın tarixini öyrənmək və mədəniyyətini hiss etmək istəyən turistlər üçün vacib bir mərkəzdir. UNESCO tərəfindən Dünya Mirası siyahısına daxil edilməsi, bu abidənin beynəlxalq turizm üçün əhəmiyyətini daha da artırmışdır.

Bundan əlavə, Azərbaycanın müxtəlif bölgələrindəki qalalar, məscidlər və digər abidələr, həm milli, həm də beynəlxalq turistlər üçün çox cəlbedici yerlərdir. Azərbaycanın zəngin tarixi və mədəniyyəti, bu abidələrin qorunması və düzgün şəkildə təqdim edilməsi ilə turizm sənayesinin inkişafına böyük töhfə verir.

**Mədəni turizmin inkişafı və iqtisadi təsirlər**

Mədəni irsin turizmdəki rolu, yalnız tarixi abidələrin qorunması və təbliğindən ibarət deyil, həm də iqtisadi baxımdan əhəmiyyətlidir. Mədəni turizm, turistlərin xüsusi maraq sahələrinə, xüsusilə tarixi və mədəni irsə əsaslanan turizm növlərinə yönəlmiş fəaliyyətləri əhatə edir. Azərbaycanın mədəni irsi, həm daxili, həm də xarici turistləri cəlb edərək, ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir edir.

**Turizm infrastrukturunun inkişafı və turistlərin cəlb edilməsi**

Mədəni irsin turizmə təsiri, yalnız abidələrin qorunması ilə məhdudlaşmır, həm də turizm infrastrukturu ilə sıx bağlıdır. Azərbaycanın müxtəlif bölgələrində, xüsusən Bakıda və Şəki, mədəni turizmi dəstəkləyən müasir infrastruktur inkişaf etdirilməkdədir. Bu infrastrukturun inkişafı, turistlərin rahatlığını təmin etməklə yanaşı, mədəni irsin daha geniş auditoriyaya təqdim edilməsinə də imkan verir.

Turizm sənayesinə amillərin təsirləri kifayət qədər öyrənilməmişdir ki, bu da turizm xidmətləri bazarının və ümumilikdə turizmin inkişafına mənfi təsir göstərir. Turizmin inkişafındakı irəliləyiş tamamilə cəmiyyətdə məskunlaşmış bir sıra şərtlərdən, yəni təbii-coğrafi, sosial-iqtisadi, tarixi-siyasi, demoqrafik şərtlərdən asılıdır. Turizm xidmətləri bazarının inkişaf amilləri daxili və xarici olmaqla iki yerə bölünür. ***Turizm amili*** turist təcrübəsinin müəyyən şərti və ya vəziyyətidir. ***Xarici amillər*** turizm xidmətlərinə sosial dəyişikliklər və demoqrafik dəyişikliklər, maliyyə və iqtisadi inkişaf, hüquqi və siyasi idarəetmə, ticarətin inkişafı, nəqliyyat strukturunda dəyişikliklər vasitəsilə təsir göstərir. Xarici amillərə regionun coğrafiyası, ölkələr arasında siyasi qarşılıqlı əlaqə, beynəlxalq əmək bölgüsü və ölkələrin hər birində qiymət səviyyələri daxildir. Turizm xidmətləri bazarının inkişafında həlledici amillər daxili amillərdir.

✓ **Xarici turizmin inkişafını qabaqcadan müəyyən edən əsas amillərə** dövlət yardımı (əvvəlki təcrübə turizm xidmətləri bazarının inkişafında uğur əldə etmək üçün dövlət dəstəyinə ehtiyacın birbaşa təsirini əks etdirir); əhalinin rifahının yaxşılaşdırılması; işdə sərf olunan vaxtın miqdarının azaldılması; urbanizasiya (əhalinin kəndlərdən şəhərlərə köçməsi və asudə vaxtlarını əsasən yaşayış yerlərindən kənarda keçirməsi); cəmiyyətdə şüurun səviyyəsi daxildir.

✓ **Sonuncu amil** turistlər üçün adət-ənənələr, rəsm, musiqi, din, bölgənin memarlığı, milli geyimləri və müəyyən bir ölkənin mədəniyyətinə xas olan xüsusiyyətlər kimi komponentləri ilə cəlbedicidir. Bütün amillər icması turistin arzu olunan tətil haqqında təsəvvürünü formalaşdırır və turist xidmətləri istehlakçılarının ehtiyaclarının əsasını təşkil edir (Aliyev, Sh.T., Babayev F.,

Gafarli G., Galandarova U., Balajayeva T., 2023). Bu xüsusiyyətlərə - turist səyahətinin tezliyi; turizm mərkəzi və istirahət yeri seçərkən üstünlük; arzu olunan turist rekreasiyasının və onun strukturunun formalaşdırılması; turizm şirkəti seçərkən üstünlük; təklif olunan qiymət haqqında məlumat; turist təklifi seçərkən qıcıqlandırıcıların olması daxildir.

✓ Turist xidmətləri bazarına təsir edən amillərin əsas növlərindən biri **şəxsi-davranış** amilləridir. Bütün amillərin ümumiliyindən bu amil ən vaciblərindən biridir, çünki istehlakçı seçiminə böyük təsir göstərir. Turisti onun tələblərinə cavab verən müəyyən səyahət növünü seçməyə çağıran motivlərdən ibarətdir (Quliyev, E.A., 2023).

Əhalinin gəlirlərinin artması ilə seçimdə psixoloji amillərin rolu getdikcə artır. Turist xidmətlərinin istehlakçısı yalnız səfərdən qayıtdıqdan və müəyyən vaxt keçdikdən sonra səyahət haqqında şəxsi rəy formalaşdırır. Səyahət başlamazdan əvvəl istehlakçı yalnız turizm şirkətinin və ya alternativ mənbələrin təklif etdiyi məlumatlar əsasında qarşıdan gələn bayramı təsəvvür edə bilər. Başa düşmək lazımdır ki, istehlakçı öz fikrini yalnız səfərdən sonra şəxsi hissləri əsasında formalaşdıra bilər. Bu vəziyyətdə məlumatın dəyəri istehlakçı tərəfindən planlaşdırılan tətildən müəyyən gözləntilərin qurulması səbəbindən olduqca yüksəkdir və gözləntilərin reallıqla üst-üstə düşməsi şərti ilə istehlakçıdan müsbət rəy və mümkün təkrar səyahətə ümid etmək olar (Vəliyev, A.H. 2023). Destinasiya bir çox turist xidmətləri istehlakçılarının ehtiyaclarını cəlb edə və təmin edə bilən bir ərazidir. Rekreasiya komponentinin yükü turizm məkanının ekologiyasının təhlükəsizlik dərəcəsidir. Bu, öz növbəsində, istirahət obyektinə zərər verməyəcəyi icazə verilən həcmlərlə məhdudlaşdırılmalıdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2019). Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə Sosial-İqtisadi İnkişafi Dövlət Proqramı. Bakı
2. Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsesiyası. Bakı:Qanun,2012
3. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. // Geostrategiya jurnalı, – 2021. № 04 (64), – s.67-72.
4. Vəliyev, A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34). – s. 38-44.
5. Quliyev, E.A. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. Kooperasiya nəşriyyatı, Bakı, 2023. – 320 s.
6. Aliyev, Sh.T., Babayev F., Gafarli G., Galandarova U., Balajayeva T. Economic security of regions: A prerequisite for diversifying the Azerbaijan economy// Journal of Eastern European and Central Asian Research (JEECAR). 2023. September. Vol. 10 No. 5 (2023). 42136 işarə, p. 827-840.
7. www.azerbaijan.travel
8. www.preslib.az

## AZƏRBAYCANDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Coşqun Qoşqar oğlu Bahadurbəyli**
bakalavriat tələbəsi
coshqunbahadurbayli@mdu.edu.az
*Elmi rəhbər: Nərmin Arif qızı Əliyeva*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *Azərbaycan, turizm, inkişaf, ekoturizm, dini turizm, sağlamlıq turizmi, Qarabağ, turizm siyasəti, turizm perspektivi, rəqəmsallaşma*

***Keywords:*** *Azerbaijan, tourism, development, ecotourism, religious tourism, health tourism, Karabakh, tourism policy, tourism perspective, digitalization*

***Ключевые слова:*** *Азербайджан, туризм, развитие, экотуризм, религиозный туризм, оздоровительный туризм, Карабах, туристическая политика, туристическая перспектива, цифровизация*

**Giriş**

Müasir dövrdə turizm sektoru dünya iqtisadiyyatında xüsusi əhəmiyyətə malik olmaqla yanaşı, sosial-mədəni münasibətlərin inkişafında da vacib rol oynayır. Azərbaycan Respublikasında son illər aparılan uğurlu islahatlar və infrastruktur layihələri turizmin davamlı inkişafı üçün əlverişli zəmin yaratmışdır. Ölkəmizin təbii-coğrafi mövqeyi, zəngin mədəni-tarixi irsi, multikultural dəyərləri və qonaqpərvər xalqı bu sahənin sürətli inkişafı üçün geniş imkanlar yaradır.

Tədqiqatın məqsədi – Azərbaycanda turizmin hazırkı vəziyyətini təhlil etmək, mövcud problemləri və imkanları müəyyənləşdirərək, gələcək inkişaf perspektivlərini ortaya qoymaqdır. Bu məqsədlə ölkədə tətbiq olunan dövlət proqramları, turizm növləri və yeni turizm istiqamətləri araşdırılacaqdır.

**Əsas hissə**

1. Azərbaycanın turizm potensialı

Azərbaycanın turizm potensialı, əsasən, təbii zənginlikləri, tarixi abidələri və müxtəlif iqlim şəraitinə malik bölgələrə əsaslanır. Xüsusilə Şəki, Quba, Qəbələ, Lənkəran, Naftalan kimi bölgələrə ilboyu turistlər tərəfindən böyük maraq göstərilir. Bakı şəhəri isə paytaxt kimi həm müasir, həm də tarixi memarlıq nümunələri ilə turizmin mərkəzinə çevrilmişdir.

2. Dövlət siyasəti və strateji yanaşma

Turizmin inkişafına dair 2016–2025-ci illəri əhatə edən “Azərbaycan Respublikasında turizmin inkişafı üzrə Milli Strategiya” sənədi bu sahədə əsas yol xəritəsi rolunu oynayır. Azərbaycan Turizm Bürosunun fəaliyyətləri, beynəlxalq sərgilərdə iştirak, brendinq kampaniyaları ölkənin beynəlxalq turizm bazarına inteqrasiyasını sürətləndirmişdir. 2018-ci ildə viza rejiminin sadələşdirilməsi, “ASAN Visa” sisteminin tətbiqi xarici turistlərin sayını əhəmiyyətli dərəcədə artırmışdır [1].

3. Yeni istiqamətlər və turizm növləri

Azərbaycanda təkcə klassik istirahət turizmi deyil, həmçinin aşağıdakı sahələrdə də geniş potensial mövcuddur:

- Ekoturizm – Xüsusilə Laçın, Zəngilan, Şahdağ, Göygöl əraziləri bu baxımdan əlverişlidir.
- Dini turizm – Qafqazın ən qədim məscid və kilsələri ilə zəngin olan bölgələr xarici ziyarətçilər üçün maraqlıdır.
- Sağlamlıq turizmi – Naftalan nefti, İstisu, Duzdağ və Abşeron sanatoriyaları beynəlxalq səviyyədə tanınır [2].
- Qarabağ və Şərqi Zəngəzur – Bu ərazilərin azad edilməsi ilə turizm üçün yeni imkanlar yaranmışdır. Ağdamda “Ağıllı şəhər” modeli, Şuşada keçirilən mədəni tədbirlər bölgənin turizm mərkəzinə çevrilməsinə təkan verir [3].

4. Problemlər və çağırışlar

Turizmin inkişafında bir sıra problemlər də qalmaqdadır:

- Regionlarda turizm infrastrukturunun zəifliyi
- Kadr çatışmazlığı və ixtisaslı işçi qüvvəsinin olmaması
- Yerli xidmət səviyyəsinin beynəlxalq standartlara tam uyğun gəlməməsi
- Bəzi bölgələrdə nəqliyyat əlçatanlığının zəifliyi

Bu problemlərin həlli üçün təhsilin inkişafı, turizm menecmenti üzrə kadr hazırlığı və regionlara daha çox sərmayənin cəlb olunması vacibdir.

**Turizmin İnkişafına Dair Əsas Statistik Göstəricilər**

- **Xarici turistlərin sayı :** 2024 -cü ildə Azərbaycana 2.6 milyon xarici turist səfər edib ki, bu da əvvəlki illə müqayisədə 26 % artım deməkdir.
- **Turizm sektorunun iqtisadiyyata töhfəsi:** 2024 -cü ildə turizm və ictimai iaşə sektorunda 3 milyard 88.3 milyon manatlıq gəlir əldə edilib ki, bu da 2023-cü illə müqayisədə 12,9 % artım deməkdir.
- **Qlobal reytinqlərdə irəliləyiş:** Azərbaycan Dünya İqtisadi Formunun Səyahət və Turizmin İnkişafı indeksində 7 pillə irəliləyərək 119 ölkə arasından 56-cı yerdə qərarlaşıb. MDB ölkələri arasında isə 2-ci yerdədir [2].
- **2028-ci il üçün hədəf:** Dövlət Turizm Agentliyi, 2028 ci ilədək Azərbaycana səfər edən əcnəbi turistlərin sayını ildə 3,8 milyon nəfərə, daxili turizmdə səfərlərin sayını isə ildə 7,3 milyona çatdırmağı planlaşdırır.

**Nəticə**

Azərbaycanda turizm sahəsi strateji əhəmiyyətə malik olmaqla yanaşı, ölkənin iqtisadiyyatına və beynəlxalq imicinə müsbət təsir göstərən sahələrdən biridir. Qarşıdakı illərdə turizm infra-strukturunun genişləndirilməsi, rəqəmsallaşma, innovativ xidmətlərin tətbiqi və yeni turizm marşrutlarının yaradılması sahənin inkişafına güclü təkan verə bilər. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə turizmin təşkili, bu bölgələrin iqtisadi dirçəlişi və mədəni irsinin tanıdılması baxımından əhəmiyyətlidir. Dövlət dəstəyi ilə yanaşı, özəl sektorun da bu sahədə fəallığının artırılması və dayanıqlı turizm modelinin formalaşdırılması Azərbaycanın turizm gələcəyini daha da parlaq edə bilər [4].

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasında Turizmin İnkişafına dair Strateji Yol Xəritəsi (2016-2025).
2. Azərbaycan Turizm Bürosu -rəsmi sayt və hesabatlar.
3. Cəfərov R. (2023). Qarabağda Turizm Perspektivləri. Bakı: İqtisad Nəşriyyatı.
4. Məmmədova S. (2022) Azərbaycan Turizmi və Onun İnkişaf Yolları. Bakı: Təhsil

## BEYNƏLXALQ TURİST AXININ DAYANIQLI İQTİSADİ İNKİŞAFDA ROLU

**Mələkxanım Teymurxan qızı Soltanova**
bakalavriat tələbəsi
melekxanimsoltanova@mdu.edu.az
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *beynəlxalq turizm, turist axını, turist gəlişi, davamlılıq, təyinat yerinin rəqabət qabiliyyəti*

***Keywords:*** *international tourism, tourist flow, tourist arrival, sustainability, competitiveness of the destination*

***Ключевые слова:*** *международный туризм, поток туристов, прибытие туристов, устойчивость, конкурентоспособность пункта назначения*

**Tədqiqatın məqsədi**

Tədqiqat mövzusu vasitəsilə beynəlxalq turist axınının iqtisadi inkişafa olan təsirini və bu təsirin nələrə səbəb olduğunu, turizm sektorunun inkişaf potensialını və davamlılığını araşdırmaq, turizm sektorunun inkişafı üçün effektiv siyasət və strategiyaların nələr olduğunu və necə tətbiq edilməli olduğunu müəyyənləşdirməkdir. Bu tədqiqatın nəticələri, turizm sektorunun inkişafına yönəlmiş qərarların və siyasətlərin formalaşdırılmasında və turizm sektorunun davamlılığnın təmin edilməsində yön göstərə bilər.

**Metodologiya**

Tədqiqat işində iqtisadi statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir, həmçinin, beynəlxalq turist axınının mövcud vəziyyətini təhlil etmək üçün kəmiyyət və keyfiyyət metodlarının birləşməsindən istifadə edilmişdir.

**Əsas hissə**

Bu məqalədə dünya ölkələrində beynəlxalq turist axınının mövcud vəziyyətinin hərtərəfli təhlili verilmişdir. Əsas göstəriciləri, tendensiyaları və turizmə təsir edən amilləri araşdıraraq, bu araşdırma siyasətçilər, turizm sənayesində maraqlı olan tərəflər üçün və tədqiqatçılar üçün mühüm fikirlər təklif edilir. Beynəlxalq turist axınının dinamikası təhlil edilərək, turizmin davamlı və dayanıqlı inkişafı, həmçinin. qlobal əməkdaşlığın və mədəni mübadilənin təşviqi üçün çox vacib məlumatlar tədim olunmuşdur.

Beynəlxalq turizm ölkələrin iqtisadi inkişafında, məşğulluğun, valyuta gəlirlərinin və mədəni anlaşmanın təşviqində mühüm rol oynayır. Beynəlxalq turist axınının dinamikasını başa düşmək siyasətçilər və turizm sənayesinin maraqlı tərəfləri üçün effektiv strategiya və siyasətlər hazırlamaq üçün çox vacibdir. Bu məqalə beynəlxalq turist axınının cari vəziyyətinin hərtərəfli təhlilini təqdim edir, əsas tendensiyaları, amilləri və çağırışları işıqlandırır.

Turizm, hər il milyonlarla insanın istirahət, iş və digər məqsədlər üçün səyahət etdiyi qlobal iqtisadiyyatın mühüm sektorudur. Turist axınına müxtəlif amillər, o cümlədən siyasi sabitlik, təbii hadisələr, mədəni irs və iqtisadi şərait təsir göstərir. Beynəlxalq turist axınının dayanıqlı inkişafda məşğulluğa təsiri müasir qloballaşan dünyada mühüm əhəmiyyət kəsb edən mövzudur. Ölkələr iqtisadi artımı ətraf mühitin mühafizəsi və sosial ədalətlə balanslaşdırmağa çalışdıqca, turizmin dayanıqlı inkişafın təşviqində rolu müzakirələrin və tədqiqatların mərkəzinə çevrilib.

Turizm, mühüm iqtisadi güc olaraq, xüsusilə bu sənayedən çox asılı olan regionlarda iş yerlərinin yaradılmasına əhəmiyyətli töhfə vermək potensialına malikdir. Beynəlxalq turist axını ilə məşğulluq dinamikası arasında mürəkkəb qarşılıqlı əlaqə, sosial-iqtisadi mənzərəni formalaşdırır, təkcə yerli icmaların dolanışıq vasitələrinə deyil, həm də destinasiyaların ümumi davamlılığına təsir göstərir.

Aşağıda cədvəldə son dörd ildə dünya ölkələri üzrə ən çox turist qəbul edən ölkələr göstərilmişdir (cədvəl 1). Qeyd edək ki, burada olan ölkələrin böyük əksəriyyətinin ən çox turist qəbul etdiyi il 2019-cu ildir. Sonrakı illərdə beynəlxalq turist axının azalması COVİD-19 pandemiyası səbəbindəndir. Pandemiyada dünya üzrə bir çox sektorlarla yanaşı, həmçinin, turizm sektoru da bu böyük təsirdən ən çox nəzarətə alınan sahələrdən biri oldu. Turizm sektoru geniş ətrafı əhatə edən və müxtəlif subsektorları, daxili və beynəlxalq turizmi əhatə edir. COVID-19'un turizm sektoruna təsiri çoxsağlam və təsirli olmuşdur.

Ölkələr üzrə turist axını müxtəlif ölkələr üzrə turistlərin gəliş/gediş statistikasını müqayisə etməklə təhlil edilə bilər. Ümumdünya Turizm Təşkilatının məlumatına görə, beynəlxalq turizm üçün ilk üçlükdə Fransa, İspaniya və ABŞ, üçüncü yerdə Çin, İtaliya, Türkiyə, Meksika, Almaniya, Tailand və Böyük Britaniya gəlir. Ancaq bir ölkəyə gələn turistlərin sayına siyasi sabitlik, təbii cazibədarlıqlar, mədəni irs və iqtisadi şərait kimi müxtəlif amillər təsir edir. Məsələn, Suriya və Əfqanıstan kimi siyasi qeyri-sabitliyi olan ölkələr təhlükəsizlik baxımından turist axınında azalma ilə üzləşib. Digər tərəfdən, Yeni Zelandiya və İslandiya kimi təbii görməli yerləri olan ölkələr öz mənzərəli gözəlliklərinə görə turist axınında artım müşahidə ediblər. Bundan əlavə, dayanıqlı turizmin yüksəlişi və texnologiyanın səyahət davranışına təsiri kimi turist axınında yaranan tendensiyalar turizm sektorunu formalaşdırır.

Ümumdünya Turizm Təşkilatının (UNWTO) 2023-cü il üçün turizm məlumatlarına diqqət yetirsək görə bilərik ki, 2023-cü ildə turizm 2022-ci illə müqayisədə 33.4 % faiz artım deməkdir. Ümumdünya üzrə 2023-ci ildə 1.3 milyard insan səyahət edib və xərclərin ümumi məbləği 1 trilyon 500 milyard dollara çatıb. Bu göstərici pandemiyadan əvvəlki səviyyəyə yaxın-laşaraq, 2019-cu illə müqayisədə cəmi 3 % az olmuşdur. Adambaşına düşən orta xərc 2000 dollar olub. Bu göstəricilər,

COVID-19 pandemiyasının təsirlərindən sonra qlobal turizm sektorunun sürətli bərpasını və iqtisadi canlanmasını əks etdirir.

Qeyd etmək olar ki, ən çox səyahət edilən ölkələr müvafiq olaraq Fransa, İspaniya, ABŞ və Türkiyə olub. Bundan başqa, 2023-ci ildə Türkiyəni 55 milyon 200 min turistin ziyarət edib. Turistlərin 67 faizi Avropa, 16 faizi Amerika, 10 faizi Asiya, 7 faizi Yaxın Şərq və 5 faizi Afrikaya üstünlük verib. Qeyd edək ki, burada olan ölkələrin böyük əksəriyyətinin ən çox turist qəbul etdiyi il 2019-cu ildir. Sonrakı illərdə beynəlxalq turist axının azalması COVİD-19 pandemiyası səbəbindəndir.

**Cədvəl 1**

**Dünya ölkələri üzrə ən çox turist qəbul edən ölkələr (mln.nəfər)**

| № | Ölkələr | Ölkəyə gələn beynəlxalq turistlərin sayı | | | | |
|---|---|---|---|---|---|---|
| | | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
| 1. | Fransa | 90.9 | 41.7 | 48.4 | 79.4 | 100 |
| 2. | İspaniya | 83.5 | 18.93 | 31.2 | 71.66 | 85.2 |
| 3. | ABŞ | 79.4 | 19.2 | 22.1 | 50.87 | 66.5 |
| 4. | Türkiyə | 51.2 | 15.9 | 29.9 | 50.45 | 55.2 |
| 5. | İtaliya | 64.5 | 25.2 | 26.9 | 49.81 | 57.2 |
| 6. | Meksika | 45 | 24.3 | 31.9 | 38.33 | 42.2 |
| 7. | Böyük Birtaniya | 39.4 | 10.7 | 6.3 | 30.74 | 37.2 |
| 8. | Almaniya | 35.2 | 10.9 | 11.7 | 28.46 | 34.8 |
| 9. | Yunanıstan | 31.3 | 7.4 | 14.7 | 27.84 | 32.7 |
| 10. | Avstirya | 22.7 | 9.6 | 12.7 | 26.21 | 30.9 |
| 11. | BƏƏ | 21.56 | 7.17 | 11.5 | 22.65 | 27 |
| 12. | Portuqaliya | 24.6 | 6.5 | 9.6 | 22.25 | - |
| 13. | Səudiyyə Ərəistanı | 17.53 | 4.14 | 3.48 | 16.64 | 27 |
| 14. | Niderland | 20.13 | 7.27 | 6.2 | 16.07 | - |
| 15. | Kanada | 22.15 | 2.96 | 3.06 | 12.82 | 18.3 |

***Mənbə:* [10] əsasında müəllif tərəfindən tərtib edilmişdir.**

Qloballaşma dünyanın mədəni, iqtisadi, siyasi və dini inteqrasiya və birləşmə prosesidir. Müasir dünya iqtisadiyyatının digər sahələrində olduğu kimi, turizm biznesində də dövlətlərin və social təşkilatların iqtisadi, siyasi, mədəni və digər sahələrdə əməkdaşlığını əks etdirən qloballaşma tendensiyası yaranmışdır.

Bu gün turizm xidmətləri təklif edən ölkələr dünyanın müxtəlif bölgələrində yer alır və dünyanın 150-200-yə yaxın ölkəsi hər biri müxtəlif xüsusiyyətlərinə təklif etdiyi xidmətləri ilə fərqlənir. Turizmin səmərəli inkişafına beynəlxalq bazarın müxtəlif seqmentlərinin və maliyyə gəlirlərinin formalaşdırılması kömək edir. İstirahət sənayesi dünya iqtisadiyyatının aparıcı sahəsinə çevrilir. Aşağıda müxtəlif turizm xidməti təkliflərinə sahib olan bir neçə ölkə göstrilmişdir:

1. **Fransa:** Paris şəhəri dünyanın ən çox turist cəlb edən şəhərlərindən biridir. Fransa, romantik məkanları, muzeyləri və məşhur mətbəxi ilə tanınır.
2. **İspaniya:** İspaniya, qədim tarixi və müasir mədəniyyəti ilə tanınan bir ölkədir. Barselona və Madrid kimi şəhərləri, çimərlikləri və əyləncə məkanları ilə tanınır.
3. **İtaliya:** İtaliya, incəsənət və memarlıq əsərləri, bənzərsiz məkanlar və mükəmməl mətbəxi ilə tanınan bir turistik məkan olaraq bilinir. Roma, Venesiya və Firenza kimi şəhərləri çox sayda turisti cəlb edir.

4. **Türkiyə:** Türkiyə, dini məkanları, tarixi abidələri və müasir şəhərləri ilə turistlər üçün bir çox imkanlar təklif edir. İstanbul, Kapadokya və Antalya turistlər arasında məşhur yerlərdən biridir.

5. **Yunanıstan:** Yunanıstan, antik tarixi abidələri, gözəl adaları və çimərlikləri, zeytun bağları ilə məşhurdur. Atina, Mykonos və Santorini kimi məkanlar turistlərin marağına səbəb olur.

6. **Böyük Britaniya:** London, bu ölkə ərazisində turistlər üçün ən çox məşhur olan şəhərdir. Tarixi yerlər, muzeylər və teatr məkanları turistlər üçün cəzbedici olur.

7. **Çin:** Qədim tarixi və möhtəşəm mədəniyyəti ilə tanınır. Şənjen, Pekin və Şanxay kimi böyük şəhərləri, Çin səddi və digər möhtəşəm tarixi abidələri ən çox cəlbedici turistik obyektlər arasındadır.

8. **BƏƏ:** Dubay, müasir dünyanın ən böyük göydələnləri, alış-veriş mərkəzləri və lüks otelləri ilə tanınır.

Qeyd edək ki, turizm sahəsində qloballaşma prosesinin səciyyəvi xüsusiyyəti şirkətlərin işinin təkmilləşdirilməsinə, müştərilərə xidmətin yaxşılaşdırılmasına, və ən yeni marketinq metodlarından, İKT-dən məharətlə istifadə, səmərəliliyin artırılmasının tədbiq edilməsidir. Qloballaşma prosesləri rəqabət mübarizəsinin artan sürətlə kəskinləşməsi, turizm şirkətlərinin satın almalarının artımı və nəhayət birləşməsi ilə müşayət olunur.

Qeyd etdiyimiz kimi, beynəlxalq turizm, ölkələr arasında turistlərin səyahətlərini təşkil edən və ölkələrin turizm sektorlarının inkişafına təkan verən bir elementdir. İndi isə beynəlxalq turizmi regional təhlil əsasında, yəni turizm statistikalarının və məlumatlarının bölüşülərək bölgələr arasında müqayisə edilməsini və regionun turizm potensialını və inkişaf imkanlarını tədqiq edək. İstifadə olunan məlumatlar, turist gəlirləri, turist sayı, turistlərin gəlmə istiqamətləri, turizm infrastrukturunun və xidmətlərin keyfiyyəti, turizmlə bağlı iş yerləri və digər göstəricilər ola bilər.

Beynəlxalq turizm baxımından regionlar arasında fərqliliklər ola bilər və bu fərqliliklər müxtəlif səbəblərə bağlı ola bilər:

1. Coğrafi Faktorlar: Regionun coğrafi məkanı, ətraf mühit, mədəni və təbii atraksionlar, güclük və dəyərlər regionun turizm potensialını təyin edə bilər. Sahil xətləri, dağlar, meşələr, milli parklar, flora və fauna unikal mədəni məkanlar turistləri cəlb edə bilər.

2. İqtisadi Faktorlar: Regionun iqtisadi inkişafı, gelir səviyyəsi, iş fəaliyyətinin diversifykasiyası, turizm infrastrukturunun inkişafı, yatırımların dərəcəsi və turizm sektorunun təmsilçiləri ilə əlaqəli olaraq turizmə olan marağı təyin edə bilər. İqtisadi inkişaf, əmək haqqı səviyyələri və istehlak gücü turistlərin səyahət xərclərini təyin edə bilər.

3. Sosial və Mədəni Faktorlar: Regionun mədəni və sosial varlığı, turistlər üçün mədəni tədbirlər, turistik məkanlar, muzeylər, festival və tədbirlər təklif etməsi turistlərin marağını cəlb edə bilər. Mədəni miras, mədəni turizm, əhalinin misafirperlik mədəniyyəti və sosial tədbirlər turizmə təkan verə bilər.

4. Səyahət və ondan istifadə imkanları: Regionun səyahət və viza siyasəti, hava limanlarının və sərnişin nəqliyyatının keyfiyyəti, otel və qonaq evlərinin mövcudluğu, turistlər üçün əlverişli və asanlıqla istifadə edilə bilən xidmətlər turist axınını təyin edə bilər.

5. Təhlükəsizlik və Stabillik: Regionun təhlükəsizliyi, sosial və siyasi stabilliyi turistlərin səyahət məsafəsinin seçilməsində önəmli bir faktor ola bilər. Turistlər təhlükəsiz və sülhvericidir regionları seçmBeynəlxalq turizm regional təhlilində, mövcud turizm məlumatları və istatistikaları əsasında müxtəlif regionların turizm performansı və potensialı qiymətləndirilir. Bu təhlil, həm turizm irəliləyişini ölçmək üçün istifadə oluna bilər, həm də turizm inkişafına dair strateji planlamalar və qərarlar üçün yön verici məlumatlar təmin edə bilər.

Regional təhlil, müxtəlif ölçülərə və göstəricilərə əsaslanır. Bəzi əsas göstəricilər aşağıdakıları əhatə edir:

1. Turistlərin sayı: Hər regionun qəbul etdiyi turist sayı və bu sayın zamanla dəyişimi ölçülür. Bu, bölgədəki turizm populyarlığını və turist axınını göstərir.

2. Turist gəlirləri: Turistlərin xaricdən gələn harcamaları ölçülərək regionun turizm sektorundan əldə etdiyi gəlir hesab edilir. Bu, regionun turizmə olan maddi təsirini göstərir.

3. Ortalama səyahət xərcləri: Bir turistin ortalama olaraq hər bir səyahətində xərclədiyi məbləğ hesab olunur. Bu, turistlərin harcamalarının ölçüsüdür və regionun turizm sektorundan əldə edilən gəlirin miqyası olaraq istifadə oluna bilər.

4. Səyahət məqsədi: Turistlərin ziyarət etdikləri yerlər və səyahət məqsədləri dəqiqləşdirilir. Bu, regionun turizm potensialını və tərəfdaşlıq imkanlarını anlamağa kömək edir.

5. Turizm infrastrukturu: Regionun turizm infrastrukturunun keyfiyyəti və inkişaf səviyyəsi qiymətləndirilir. Bu, otel və qonaq evlərinin sayı, turistik məkanların və atraksionların mövcudluğu, nəqliyyat və kommunikasiya infrastrukturları kimi faktorları əhatə edir.

6. Turizm sektoru təşkilatları və təşkilatçılar: Regionun turizm səktoru təşkilatları, turizm birlikləri və təşkilatçılarının fəaliyyəti və əməkdaşlıq səviyyəsi qiymətləndirilir. Bu, regionun turizm inkişafında səy göstərən struktur və təşkilatların rolunu göstərir.

Regional təhlil, turizm sektorunun güclü və zəif tərəflərini müəyyənləşdirərək inkişaf imkanlarını və təhlükələri qiymətləndirməyə kömək edir. Bu analiz nəticəsində, regionun turizm inkişafına yönələn siyasət və tədbirlər müəyyənləşdirilə bilər və optimallaşdırılaraq turizm sektorunun sürətli və davamlı inkişafı təmin edilə bilər.

Əksər ölkələrdə turizm gəlirləri büdcənin əsas hissəsini təşkil edir. Ümumdünya Turizm Təşkilatının hesablamalarına görə, 2019-cu ildə ABŞ-ın beynəlxalq turizm gəliri 2010-cu illə müqayisədə 9,191 milyard ABŞ dollarına qədər artmışdır. Qeyd etmək lazımdır ki, ABŞ ÜDM-i qlobal məhsulların 3,2 %-ni, əlaqəli sektorlar nəzərə alınarsa, qlobal ÜDM-in 9,4 %-ni və dünya üzrə işləyən əhalinin 7,6 %-ni təşkil edir [4].

Beynəlxalq turist axınına təsir edən bir sıra amillər var. Turistlərin təyinat seçiminə təsir edən bu amillər çox vaxt mürəkkəb və bir-biri ilə sıx bağlıdır. Bu amillərə iqtisadi və siyasi sabitlik, təhlükəsizlik, marketinq və PR fəaliyyətləri, nəqliyyat və infrastrukturun inkişafı, viza siyasəti, iqlim və hava şəraiti və mədəni mübadilə proqramları daxil olmaqla beynəlxalq turist axınına təsir edən amillər göstərmək olar.

Ümumdünya Səyahət və Turizm Şurası 2022-ci ildə Səyahət və Turizmin Azərbaycan İqtisadiyyatına İqtisadi Təsiri adlı nəşr hazırlayıb [11]. Orada son illərin icmalı, eləcə də növbəti 10 il üçün proqnozlar təqdim olunub (Cədvəl 1). Dünya Səyahət və Turizm Şurasının statistikasına əsasən, 2019-ci ildə turizm sənayesinin Azərbaycanın ÜDM-ə birbaşa töhfəsi 7,9 % (ən yüksək nəticə) təşkil edib. Bundan əlavə, 2028-ci il üçün bu göstəricinin 15,6 %-ə yüksələcəyi proqnozlaşdırılır. Statistikaya əsasən, 10 ildən sonra Azərbaycan İspaniya, İtaliya, Şri-Lanka (turizm sənayesinin iqtisadiyyata birbaşa töhfələri yüksək olan ölkələr) kimi ən çox tələb olunan turizm ölkələri siyahısında yer alacaq [11].

Ümumdünya Səyahət və Turizm Şurasının proqnozlarına görə, istirahət xərcləri təxminən üç dəfə artacaq. Bundan əlavə, biznes xərclərinin 2028-ci ilə qədər 5 dəfə artması da gözlənilir. Lakin qısa müddətdə turistlərin sayının kəskin artması yüksək turizm sıxlığına səbəb ola bilər və sektorun daşıma qabiliyyətindən çox ola bilər.

Turizmin sürətli inkişafı destinasiyalara mənfi təsir göstərə bilər, vətəndaşların həyatına yük yarada bilər və ziyarətçilərin səyahət keyfiyyətini aşağı sala bilər. Ölkədə mövcud turizm strategiyaları və məqsədlərini həyata keçirmək həm yerli, həm də xarici turistlər üçün müsbət artıma nail olmaq məqsədilə turizmə kapital qoyuluşunun artırılması gözlənilir [11].

Davamlı və dayanıqlı turizmin inkişafının əhəmiyyəti və onun beynəlxalq turist axınına təsirinə diqqət yetirək. Beynəlxalq təşkilatlar, davamlı turizmi təşviq etmək və onun mənfi təsirlərini azaltmaq üçün ölkələr və təşkilatlar tərəfindən qəbul edilmiş təşəbbüsləri və ən yaxşı təcrübələri araşdırır. Davamlı və dayanıqlı turizmin beynəlxalq turist axınlarına təsiri uzunmüddətli dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq müsbət ekoloji və sosial-iqtisadi nəticələr verə bilər. Bu cür turizm anlayışı turizm sənayesinin həm bu gün, həm də gələcəkdə cəmiyyətlərə və ətraf mühitə müsbət təsir göstərməsinə kömək edə bilər.

**Cədvəl 2**

**Azərbaycan üzrə turizm göstəricilərində proqnoz**

| Göstəricilər və proqnoz | 2019, milyon. dollar | ÜDM-in strukturunda xüsusi çəkisi, % | 2021, milyon. dollar | ÜDM-in strukturunda xüsusi çəkisi, % | 2028, Proqnoz, %-lə | 2021-ci ilə nisbətən 2028-ci idə artım proqnozu, dəfə |
|---|---|---|---|---|---|---|
| ÜDM-ə birbaşa töhfə | 4,111.3 | 7,9 | 1,580.4 | 3.0 | 15.6 | **+5,2** |
| ÜDM-ə ümumi töhfə | 9,630 | 10,3 | 5,812 | 6,1 | 19.3 | **+3,1** |
| Məşğulluğa ümumi töhfə | 4,267.4 | 8.2 | 5,907 | 6.2 | 18.1 | **+2,9** |
| Turist ixracı | 2,193.1 | 8.3 | 241.6 | 1.0 | 19.6 | **+19,6** |
| Daxili xərclər | 1,443.0 | 2.7 | 1,093.1 | 1.1 | 3,5 | **+3,1** |
| İstirahət xərcləri | 3,078.1 | 5.9 | 1,219.6 | 1,2 | 4.5 | **+3,75** |
| Biznes xərcləri | 504.0 | 0.9 | 115.1 | 0.2 | 1.1 | **+5,5** |

*Mənbə:* Dünya Səyahət və Turizm Şurası, Turizmin Azərbaycan İqtisadiyyatına təsiri 2022-ci il

Qeyd edək ki, müasir dövrdə çağırışlar və gələcəyə baxış konsepsiyasında qlobal böhranların təsiri, iqlim dəyişikliyi, turizmdə həddindən artıq və dəyişən istehlakçı davranışları da daxil olmaqla beynəlxalq turist axınının üzləşdiyi çətinlikləri vurğulayır. O, beynəlxalq turizmin gələcək perspektivləri, o cümlədən inkişaf etməkdə olan istiqamətlər, bazar dəyişiklikləri və sənayenin formalaşmasında texnologiyanın rolu haqqında məlumat verir [10].

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycanda turizm. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Statistika məcmuəsi, Bakı, 2022.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri. Bakı, 2021.
3. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, Bakı, 2016.
4. İsmayılov V.İ, Məmmədov M.Z, "Beynəlxalq turizmin coğrafiyası" Bakı 2021, SkyE, 264 səh
5. Qafarov N.C. Turizmin iqtisadiyyatı. Ali məktəblər üçün dərslik. Düzəliş və əlavələr edilməklə II nəşr. Bakı-2019, "Kooperasiya" nəşriyyatı, 584 səh.
6. Əlirzayev Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə olunması", Bakı "İqtisad Universiteti" nəşriyyatı 2010, 529 səh
7. "Turizm və qonaqpərvərlik tədqiqatları" beynəlxalq jurnal İl 6, Say 4, 2017 ISSN 2409-6032
8. Richard W.Butler, David A. Harrison "Turizm və davamlı inkişaf: Üçüncü Dünyada yeni turizm"
9. İsmayılov V.İ. Turizmin iqtisadiyyatı. Bakı: "İndiqo" Nəşriyyatı, 2018.- 315 səh.
10. UNWTO Global and regional tourism performance https://www.unwto.org/tourism-data/global-and-regional-tourism-performance
11. https://wttc.org/DesktopModules/MVC/FactSheets/pdf/704/65_20220613154359_Azerbaijan2022_.pdf

**Elektron resurslar**

1. www.president.az/articles/50474

2. www.stat.gov.az/source/tourism
3. www.azculture.az
4. www.trade.gov/country-commercial-guides/azerbaijan-travel-and-tourism
5. www.https://tourism.gov.az
6. www.unwto.org/tourism-statistics

## BÖLMƏ İCLASLARI

# COP29 TƏDBİRİNİN AZƏRBAYCANDA DAYANIQLI TURİZM VƏ ƏTRAF MÜHİT SİYASƏTİNƏ TƏSİRİ

**Elnur Elxan oğlu Fərəcullayev**
magistrant
elnur.farajullayev@mdu.edu.az
*Elmi rəhbər: i.f.d., dos. Şahin Vaqif oğlu Bayramov*
*İqtisadiyyat kafedrasının dosenti*

***Açar sözlər:*** *COP29, dayanıqlı turizm, ətraf mühit siyasəti, yaşıl inkişaf, "Slow Food"*
***Keywords:*** *COP29, sustainable tourism, environmental policy, green development, "Slow Food"*
***Ключевые слова:*** *COP29, устойчивый туризм, экологическая политика, зелёное развитие, "Slow Food"*

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası çərçivəsində həyata keçirilən Tərəflər Konfransı (COP), qlobal iqlim dəyişikliklərinə qarşı kollektiv mübarizə strategiyalarının müəyyənləşdirilməsi və bu istiqamətdə beynəlxalq əməkdaşlığın təşviqi baxımından mühüm platforma hesab olunur. Bu tədbirlər ilk dəfə 1995-ci ildə keçirilmiş və o vaxtdan etibarən hər il dünyanın müxtəlif ölkələrində baş tutaraq, konvensiyaya qoşulan dövlətlərin iqlim siyasətinə dair prioritetlərini və fəaliyyət istiqamətlərini formalaşdırmaqda əsas rol oynamışdır.

Konfranslar çərçivəsində qəbul edilən qərarlar, atmosferə atılan istixana qazlarının həcminin azaldılması, iqlim dəyişmələrinin fəsadlarının yumşaldılması və inkişaf etməkdə olan ölkələrə texniki və maliyyə dəstəyinin göstərilməsi kimi mühüm məsələləri əhatə edir. Bu tədbirlərin nəticəsi olaraq, beynəlxalq hüquq sənədləri səviyyəsində tanınan Kioto Protokolu (1997) və Paris Sazişi (2015) kimi müqavilələr meydana çıxmışdır. Bu sənədlər, qlobal istiləşmənin məhdudlaşdırılması və davamlı inkişafın təmin olunması istiqamətində ölkələrə hüquqi və siyasi çərçivə təqdim edir [7].

2024-cü il 11–22 noyabr tarixlərində Bakı Olimpiya Stadionunda keçirilmiş COP29 konfransı Azərbaycanın bu günədək ev sahibliyi etdiyi ən böyük beynəlxalq tədbir olmuşdur. Təxminən 76 min iştirakçının qatıldığı tədbir, Azərbaycanın qlobal iqlim gündəmində mühüm rol oynadığını göstərmişdir [8].

12 noyabrda keçirilən Liderlər Sammitində çıxış edən Prezident İlham Əliyev Azərbaycanın coğrafi mövqeyinə diqqət çəkərək, ölkənin Şimal-Cənub və Qərb-Şərq arasında körpü rolu oynadığını, siyasət, enerji və ticarət sahələrində beynəlxalq əməkdaşlıq üçün əlverişli platforma yaratdığını vurğulamışdır [3].

Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi, COP29-la sinxron şəkildə iqlim dəyişikliyi və ətraf mühitin qorunması sahəsində geniş miqyaslı tədbirlərin həyata keçirilməsinə zəmin yaratmışdır. Bu qərar həm ölkədaxili ictimai şüurun artırılmasına, həm də beynəlxalq aləmdə Azərbaycanın ekoloji məsuliyyət daşıyan dövlət imicinin güclənməsinə xidmət edir. "Yaşıl dünya naminə həmrəylik" şüarı isə COP29-un ümumbəşəri mahiyyətini ifadə etməklə yanaşı, həm də Azərbaycanın bu prosesdə çoxtərəfli əməkdaşlığa və birgə həll yollarına verdiyi əhəmiyyəti vurğulayır [2].

Bundan əlavə, ölkənin uzunmüddətli inkişaf strategiyasını müəyyən edən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər" sənədində də dayanıqlı inkişaf, təmiz ətraf mühit və yaşıl artım xüsusi yer tutur. Bu sənədin əsas prioritetlərindən biri olan "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfi çərçivəsində ekoloji cəhətdən davamlı iqtisadi modellərin tətbiqi, bərpa olunan enerji mənbələrinin inkişafı və turizm sektorunda ekoloji prinsiplərin inteqrasiyası ön plana çəkilir.

COP29 kimi tədbirlər isə bu prioritetlərin yerli və beynəlxalq səviyyədə praktiki icrasına dəstək verir [1].

*COP29-un dayanıqlı turizmə təsiri.* COP29-un Azərbaycanda keçirilməsi, yalnız qlobal iqlim dialoqunun inkişafı baxımından deyil, həm də ölkə iqtisadiyyatında mühüm yer tutan turizm sektorunun ekoloji cəhətdən transformasiyası üçün yeni imkanlar açmışdır. Turizmin qlobal karbon emissiyalarında təxminən 8,8 % paya sahib olması, bu sahədə davamlı və aşağı karbonlu inkişaf modelinə keçidin vacibliyini göstərir. Turizm sektoru iqlim dəyişikliyi qarşısında həm həssaslıq, həm də adaptasiya və mitigasiya potensialı baxımından strateji əhəmiyyət kəsb edir. Davamlı turizm yanaşmaları sayəsində ətraf mühitin qorunması, yerli icmaların sosial-iqtisadi rifahının artırılması və ekosistemlərin davamlılığına nail olmaq mümkündür.

COP29 çərçivəsində BMT-nin Turizm Təşkilatı ilə əməkdaşlıq əsasında həyata keçirilən təşəbbüslər turizm sektorunun iqlim dəyişikliyi ilə mübarizədəki rolunu ön plana çıxarmağı hədəfləmişdir. Bu kontekstdə Bakıda ilk dəfə "Turizm sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Görüşü" keçirilmiş, burada müxtəlif ölkələrin turizm üzrə məsul nümayəndələri iştirak etmişdir. Görüş zamanı sektorun iqlim hədəflərinə uyğunlaşdırılması istiqa-mətində konkret planlar irəli sürülmüşdür [6].

Əlamətdar məqam ondan ibarətdir ki, turizm sektoru ilk dəfə olaraq BMT-nin İqlim Dəyişikliyi üzrə Konfransının gündəliyinə daxil edilmişdir. Bu, turizmin həm iqtisadi inkişaf, həm də iqlimə təsiri baxımından strateji əhəmiyyətini göstərir. COP29 çərçivəsində qəbul olunmuş "Turizm sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Bəyannamə" turizmin az karbonlu və dayanıqlı inkişaf modelinə keçidini təşviq edir.

Bəyannamədə üç əsas istiqamət müəyyən edilmişdir:

- turizmin milli iqlim siyasətinə inteqrasiyası və Paris Sazişi çərçivəsində töhfəsinin gücləndirilməsi;
- sektoral əməkdaşlığın geniş-ləndirilməsi və könüllü öhdəliklərin artırılması;
- turizmin beynəlxalq iqlim tədbirlərində davamlı iştirakını təmin edəcək koordinasiya mexanizmlərinin qurulması [5].

COP29 zamanı bu sahəyə diqqətin artırılması, gələcəkdə turizm və iqlim siyasətlərinin vəhdət təşkil etməsinə zəmin yaradır. Azərbaycanın Dövlət Turizm Agentliyi də bu prosesin bir hissəsi olaraq turizmin iqlim strategiyalarına inteqrasiyasına dair yol xəritəsinin hazırlanmasına dəstək verir. Bu təşəbbüsə artıq 50-dən çox ölkənin qoşulması beynəlxalq dəstəyin genişlənməsini göstərir.

Eyni zamanda, COP29 çərçivəsində keçirilən "Slow Food" gündəliyi də dayanıqlı turizm sahəsində xüsusi əhəmiyyət kəsb edən təşəbbüslərdən biri kimi qiymətləndirilə bilər. Bu tədbirin məqsədi yerli, ekoloji cəhətdən təmiz və ənənəvi qida istehsalına diqqət çəkmək, həmçinin regionlarda turizmlə kənd təsərrüfatı arasında əlaqələrin gücləndirilməsinə xidmət etmək idi. "Slow Food" yanaşması, sürətli və sənayeləşmiş qida istehlakına qarşı alternativ kimi çıxış edərək qida mədəniyyətinin qorunması, biomüxtəlifliyin təşviqi və yerli icmaların iqtisadi rifahının artırılması istiqamətində praktik bir model təqdim edir.

Azərbaycanın müxtəlif regionlarından nümayəndələrin və qida istehsalçılarının iştirak etdiyi bu tədbir, həm qastronomik turizmin inkişafına, həm də regionların öz potensiallarını daha davamlı və ekoloji əsaslarla təqdim etmələrinə şərait yaratdı. "Slow Food" gündəliyi çərçivəsində aparılan təqdimatlar və müzakirələr, turizmin yalnız iqtisadi deyil, mədəni və sosial aspektlərini də özündə birləşdirən kompleks bir sahə olduğunu bir daha ortaya qoydu.

Bu yanaşma COP29-un əsas mövzularından biri olan "yerli fəaliyyətin qlobal təsiri" prinsipinə uyğun olaraq, turizm sektorunun iqlim dəyişikliyi ilə mübarizədə rolunu gücləndirən nümunəvi təşəbbüs kimi dəyərləndirilə bilər.

Bu kontekstdə, COP29-un Azərbaycanda dayanıqlı turizmə təsiri yalnız tədbir zamanı formalaşan təşəbbüslərlə məhdudlaşmır, eyni zamanda uzunmüddətli strategiyaların, siyasət sənədlərinin və institusional çərçivələrin formalaşmasına zəmin yaradır. Bu isə gələcək nəsillər üçün daha

davamlı və ekoloji cəhətdən məsuliyyətli turizm modelinin bünövrəsinin qoyulması baxımından əhəmiyyətlidir [5].

*COP29-un ətraf mühit siyasətinə töhfələri.* COP29-un Azərbaycanda keçirilməsi ölkənin ətraf mühit siyasətində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Bu tədbir sayəsində Azərbaycan həm regional, həm də qlobal səviyyədə iqlim diplomatiyasının fəal iştirakçısına çevrilmiş, milli səviyyədə isə mövcud ekoloji strategiyaların yenidən nəzərdən keçirilməsi və təkmilləşdirilməsi istiqamətində mühüm təşəbbüslər irəli sürülmüşdür.

İlk növbədə, COP29-un təşkilinə hazırlıq prosesi zamanı Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin (NDC) yenilənməsi gündəmə gətirilmiş və bu sənəddə ölkənin iqlim dəyişikliklərinə qarşı öhdəliklərinin gücləndirilməsi vurğulanmışdır. Azərbaycanın yeni NDC sənədində istixana qazı emissiyalarının azaldılması, bərpa olunan enerji mənbələrinin payının artırılması, su resurslarının dayanıqlı idarə olunması və meşə örtüyünün bərpası üzrə daha konkret hədəflər müəyyən edilmişdir. Bu addımlar yalnız beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə deyil, həm də daxili ətraf mühit idarəetməsinin səmərəliliyinin artırılmasına xidmət edir.

COP29 həmçinin ölkənin bərpa olunan enerji potensialının tanıdılması və bu sahədə beynəlxalq investisiyaların cəlb edilməsi baxımından əhəmiyyətli platforma olmuşdur. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji zonası" konsepsiyasının təqdim olunması və bu bölgələrdə günəş, külək və hidroenerji layihələrinin inkişaf etdirilməsi istiqamətində konkret sazişlər və niyyət protokolları imzalanmışdır. Bu təşəbbüslər yalnız enerji sektoruna deyil, bütövlükdə ekosistemlərə müsbət təsir göstərmək potensialına malikdir [4].

COP29-un əhəmiyyəti həm də ölkə daxilində ətraf mühitə dair ictimai şüurun yüksəlməsində özünü göstərmişdir. "Yaşıl dünya naminə həmrəylik" ili çərçivəsində keçirilən maarifləndirmə kampaniyaları, ağacəkmə aksiyaları, ekoloji təlim proqramları və vətəndaş cəmiyyəti təşəbbüsləri geniş ictimaiyyətin ekoloji məsələlərə cəlb olunmasını təmin etmişdir.

Ümumilikdə, COP29 tədbiri Azərbaycanın ətraf mühit siyasətinə həm strateji baxımdan, həm də institusional səviyyədə yeni dinamika gətirmiş, ölkənin davamlı inkişaf kursunun ekoloji əsaslarla gücləndirilməsinə mühüm töhfələr vermişdir.

COP29 tədbiri Azərbaycanın dayanıqlı inkişaf strategiyalarının gücləndirilməsi baxımından mühüm mərhələ kimi qiymətləndirilə bilər. Tədbir çərçivəsində irəli sürülən təşəbbüslər və qurulan tərəfdaşlıqlar ölkənin ekoloji siyasətində yeni istiqamətlərin formalaşmasına zəmin yaratmışdır.

"Bakı Maliyyə Məqsədi" kimi təşəbbüslər iqlim maliyyələşməsi və yaşıl iqtisadiyyat sahəsində regional nümunəyə çevrilə bilər. COP29 həmçinin turizm sektorunda karbon izinin azaldılması, davamlı və ekoloji modellərin təşviqi baxımından yeni imkanlar açmışdır. Turizm sahəsində fəaliyyət göstərən sahibkarların və yerli icmaların yaşıl təşəbbüslərə inteqrasiyası bu prosesin davamlılığı üçün vacibdir [3].

Gələcək üçün tövsiyələr aşağıdakı istiqamətləri əhatə edir:

- İnstitusional koordinasiya gücləndirilməli, ekoloji siyasət, enerji sektoru və turizm sahəsində fəaliyyət göstərən qurumlar arasında əməkdaşlıq mexanizmləri genişləndirilməlidir;
- Maliyyə alətləri təkmilləşdirilməli, yaşıl layihələr üçün milli və beynəlxalq maliyyələşmə imkanları artırılmalıdır;
- Nəzarət və qiymətləndirmə mexanizmləri yaradılmalı, COP29 çərçivəsində başlanmış təşəbbüslərin icra səviyyəsi sistemli şəkildə izlənməlidir;
- Vətəndaş cəmiyyətinin və gənclərin iştirakı təşviq olunmalı, ekoloji təhsilin və ictimai maarifləndirmənin əhatə dairəsi genişləndirilməlidir;
- Rəqəmsal texnologiyalar və süni intellekt imkanlarından istifadə etməklə ətraf mühitə nəzarət və resursların idarə olunması sahəsində innovativ həllərə üstünlük verilməlidir.

Nəticə etibarilə, COP29 yalnız bir beynəlxalq tədbir deyil, Azərbaycanın ekoloji idarəetmə modelinin transformasiyası və dayanıqlı inkişaf strategiyasının gücləndirilməsi üçün bir fürsət pəncərəsi olmuşdur. Bu fürsətin uzunmüddətli nəticələrə çevrilməsi üçün siyasət, cəmiyyət və iqtisadiyyat səviyyəsində ardıcıl və inteqrasiya olunmuş tədbirlərin davam etdirilməsi zəruridir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" // Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. – Bakı, 2021.

2. "2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında" // Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. – Bakı, 2023.

3. Azərbaycan Respublikası Prezidentinin rəsmi vebsaytı:
URL: https://president.az

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi rəsmi vebsaytı:
URL: https://economy.gov.az

5. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi rəsmi vebsayt:
URL: https://tourism.gov.az

6. Ümumdünya Turizm Təşkilatı rəsmi vebsayt:
URL: https://www.unwto.org

7. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası rəsmi vebsaytı:
URL: https://unfccc.int

8. COP29 rəsmi vebsaytı:
URL: https://cop29.az

# ƏTRAF MÜHİT VƏ ONUN TURİZMƏ TƏSİRİ

**Səbinə Mərkəz qızı Quluzadə**
magistrant
sabina.quluzada@mdu.ed.az
*Elmi rəhbər: Arif Məhəmmədhəsən oğlu Tağıyev*
*İqtisadiyyat kafedrasının baş müəllimi*

***Açar sözlər:*** *ətraf mühit, turizm, davamlı inkişaf, ekoturizm, ekoloji təsir*
***Keywords:*** *environment, tourism, sustainable development, ecotourism, environmental impact*
***Ключевые слова:*** *окружающая среда, туризм, устойчивое развитие, экотуризм, воздействие на окружающую среду*

Turizm XXI əsrdə ən sürətlə inkişaf edən iqtisadi sahələrdən biridir və ölkədə Ümumi Daxili Məhsulun yaradılmasında, əhalinin sosial rifah halının və həyat səviyyəsinin yüksəldilməsində, məşğulluğun təmin olunmasında xüsusi əhəmiyyət kəsb edir. Mənfi cəhəti odur ki, turizm fəaliyyəti ekoloji balansı poza bilər. Turizmin inkişafı ilə bağlı infrastrukturun genişlənməsi, antropogen təsir və ətraf mühitin çirklənməsi, təbii mühitin məhv olmasına və davamlılıq prinsiplərinin pozulmasına gətirib çıxara bilər.

Turizmin inkişafı üçün əsas şərtlərdən biri təbii mühitin zənginliyidir. Dağlıq ərazilər, sahil zonaları, milli parklar və qorunan ərazilər ekoturizm, dağ turizmi, çimərlik turizmi və digər turizm növlərinin inkişafına şərait yaradır. Azərbaycanın müxtəlif iqlim qurşaqlarında yerləşməsi və coğrafi müxtəlifliyi turizm potensialını artırır. Misal olaraq, Quba-Xınalıq, Şəki, Lahıc, Qəbələ və Lənkəran bölgələrindəki təbii gözəlliklər turist axınının əsas səbəblərindən biridir.

Müasir dövrdə turizm sektoru iqtisadiyyatın dinamik inkişaf edən sahələrindən birinə çevrilmişdir. Turizm yalnız iqtisadi deyil, eyni zamanda sosial və mədəni inteqrasiyanı da təskil edir.Turizmin inkişafı ətraf mühitə müxtəlif yollarla təsir edir. Turizmin genişlənməsi ilə birlikdə yeni iş yerləri yaranır. Lakin bu zaman təbii resursların tükənməsi, su və enerji sərfiyyatının artması kimi problemlər də ortaya çıxır.

Apardığımız araşdırmalar göstərir ki turizm və ətraf mühitin qarşılıqlı təsirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

**Ətraf mühitin turizmə müsbət təsirləri.** Ətraf mühit turizmin formalaşması və inkişafında əsas amillərdən biridir. Təbii gözəlliklər, landşaftın müxtəlifliyi, iqlim şəraiti və ekosistemin zənginliyi turistləri cəlb edir. Xüsusilə, ekoturizm, kənd turizmi və dağ turizmi kimi sahələr ətraf mühitlə birbaşa əlaqəli olan turizm növləridir. Bu turizm növləri bölgələrin sosial-iqtisadi inkişafına təkan verir, əmək bazarında yeni imkanlar yaradır və yerli əhalinin rifahına müsbət təsir göstərir.

**Turizmin ətraf mühitə mənfi təsirləri** Turizmin genişlənməsi nəticəsində ətraf mühitə ciddi zərər dəyə bilər. Meşə örtüyünün azalması, tullantıların artması, su və hava çirklənməsi, torpaq eroziyası bu təsirlərə nümunədir. Azərbaycanın bəzi bölgələrində plansız tikinti, nəqliyyatın intensivliyi və turist axını nəticəsində təbii mühitin zədələnməsi müşahidə olunur.

Turizm fəaliyyəti düzgün idarə olunmadıqda ətraf mühitə mənfi təsirlər yaradır. Burada əsas problemlər kimi xüsusilə aşağıdakıları qeyd edə bilərik.

- Təbii resursların həddindən artıq istismarı;
- Çirklənmə (hava, su və torpaq çirkliliyi);
- Biomüxtəlifliyin azalması və nadir növlərin məhv olması;
- Ekosistem balansının pozulması;

Bunlarlala yanaşı, turistlərin istirahət məqsədilə gəldikləri yerlərdə əyləncə tədbirləri, nəqliyyat və gecə həyatı səs və işıq çirklənməsinə səbəb olur. Bu hal həm yerli əhalinin həyat keyfiyyətinə mənfi təsir göstərir, həm də təbiətə uyğunlaşmış canlıların yaşayış şəraitini pozur.

**Davamlı turizm və ekoloji idarəetmə** Dayanıqlı turizm – gələcək nəsillərin ehtiyaclarını təhlükə altına qoymadan mövcud nəsillərin turizm ehtiyaclarını qarşılayan fəaliyyətlər toplusudur. Bu konsepsiya ətraf mühitin qorunmasını, yerli mədəniyyətin və iqtisadiyyatın inkişafını özündə birləşdirir.

Davamlı turizm strategiyaları aşağıdakı istiqamətləri əhatə edir:

- Təbiətə zərər vurmayan fəaliyyətlərin təşviqi
- Turistlər arasında ekoloji maarifləndirmə işlərinin aparılması
- Yerli icmaların prosesə cəlb olunması
- Dövlətin nəzarət funksiyalarının gücləndirilməsi

Ekoturizmin təşviqi bu sahədə həyata keçirilən mühüm addımlardan biri hesab edilir.

Ekoturizm vasitəsilə təbiətin qorunması, iqtisadi gəlirin əldə edilməsi və mədəni dəyərlərin yaşadılması mümkün olur.

Kosta Rika, İslandiya, Norveç, Yeni Zelandiya kimi ölkələrdə ekoturizm və dayanıqlı turizm uğurla tətbiq edilir. Bu ölkələrdə ətraf mühitin qorunması ilə turizm sektoru arasında balans saxlanılır. Azərbaycanda da bu modellərdən bəhrələnərək təbiətə az təsirli turizm formaları inkişaf etdirilə bilər. Azərbaycan Respublikası ətraf mühitin qorunması və dayanıqlı turizmin inkişafı sahəsində bir sıra qanunvericilik aktları və dövlət proqramları qəbul etmişdir. “Ətraf Mühitin Mühafizəsi haqqında” Qanun, “Turizm haqqında” Qanun və “Azərbaycan Turizminin İnkişafı Strategiyası 2022–2026” bu baxımdan mühüm sənədlərdir. Bu sənədlərdə turizmin ekoloji davamlılıqla uzlaşdırılması və təbiətin qorunması əsas prioritetlər kimi müəyyən olunmuşdur. Ətraf mühit və turizm bir-biri ilə sıx əlaqəli sahələrdir. Turizm ətraf mühitin gözəlliklərindən bəhrələndiyi kimi, eyni zamanda onu təhlükə altına da ala bilər. Bu səbəbdən, turizmin planlaş-dırılması və idarə olunması zamanı ekoloji prinsiplərə riayət olunmalı, dayanıqlı inkişaf konsepsiyası əsas götürülməlidir. Azərbaycanın turizm strategiyası ekoloji tarazlığı qorumaqla bərabər, ölkənin təbii və mədəni resurslarını effektiv şəkildə tanıtmağa xidmət etməlidir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının “Ətraf Mühitin Mühafizəsi haqqında” Qanunu.
2. Azərbaycan Respublikasının “Turizm haqqında” Qanunu.
3. “Azərbaycan Turizminin İnkişafı Strategiyası 2022–2026”.

4. Göyməmmədov R. (2022). Turizmin davamlı inkişafı və ekoloji çağırışlar. Bakı: Elm və Təhsil.
5. Göyüşov A. (2021). Ekoturizm və ətraf mühit: Azərbaycan nümunəsi. “Turizm və Mühit” jurnalı, № 2.
6. Weaver D. (2006). Sustainable Tourism: Theory and Practice. Elsevier.
7. UNWTO (2023). Sustainable Development of Tourism.

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNƏ DAİR

**[1]Ceyran Rövşən qızı Məmmədova, [2]Nuray Nurlan qızı Namazova**
**[3]Şərqiyyə Xəqani qızı Əsgərzadə, [4]Arzu Elman qızı Məmmədova**
bakalavriat tələbələri
[1]ceyran.mammadova.e24@mdu.edu.az
[2]nuray.namazova.e24@mdu.edu.az
[3]sharqiyya.asgarzade.e24@mdu.edu.az
[4]arzu.mammadova.e24@mdu.edu.az
*Elmi rəhbər: Natəvan İbrahim qızı Vəliyeva*
*Fizika və ekologiya kafedrasının müəllimi*

***Açar sözlər:*** *ekoloji tarazlıq, tullantı idarəetməsi, iqlim dəyişiklikləri, davamlı inkişaf, ekosistem, ətraf mühit, maarifləndirmə*
***Keywords:*** *ecological balance, waste management, climate change, sustainable development, ecosystem, environment, education*
***Ключевые слова:*** *экологическое равновесие, управление отходами, изменение климата, устойчивое развитие, экосистема, окружающая среда, образование*

## Giriş

Ətraf mühitin qorunması müasir dövrün ən mühüm qlobal çağırışlarından biridir. Bəşəriyyətin iqtisadi inkişafı və texnoloji tərəqqisi ilə yanaşı, bu proseslər atmosferin çirklənməsi, su resurslarının tükənməsi, torpaqların deqradasiyası və biyoçeşidliliyin itirilməsi kimi bir sıra ciddi problemləri də özü ilə gətirmişdir [1].

Bu reallıq müasir cəmiyyətin bütün sahələrində davamlı inkişaf prinsiplərinin tətbiq edilməsini zəruri edir. BMT tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədləri (DİM) və xüsusilə 13-cü, 14-cü və 15-ci məqsədlər ətraf mühitin mühafizəsinin qlobal gündəmdə nə dərəcədə önəmli yer tutduğunu göstərir [1]. Ətraf mühitin qorunması həm də bir çox beynəlxalq konvensiyaların və sazişlərin əsas predmetinə çevrilmişdir. Məsələn, Paris Sazişi istixana qazı emissiyalarının azaldılması, planetin orta temperaturunun artımını məhdudlaşdırmaq və ölkələr arasında ekoloji məsuliyyətin paylaşılması baxımından mühüm əhəmiyyət daşıyır [1].

Yer səviyyəsində isə dövlətlərin ekoloji siyasəti, ətraf mühit qanunvericiliyi, ictimai maarifləndirmə kampaniyaları və yaşıl texnologiyaların inkişafı bu sahədə əsas istiqamətlər kimi çıxış edir. Bununla yanaşı, vətəndaş cəmiyyətinin, qeyri-hökumət təşkilatlarının və fərdi vətəndaşların rolu da getdikcə artır. Çünki ətraf mühitin qorunması təkcə hökumətlərin və təşkilatların deyil, həm də hər bir fərdin gündəlik fəaliyyətində nəzərə almalı olduğu məsuliyyət tələb edən bir vəzifədir [1].

Göründüyü kimi, ətraf mühitin mühafizəsi həm qlobal, həm də lokal səviyyədə sistemli və kompleks yanaşma tələb edir. Bu məqsədlə həyata keçirilən siyasət və proqramlar elmi əsaslara söykənməli, cəmiyyətin bütün təbəqələrinin fəal iştirakı təmin olunmalıdır. Bu məqalədə ətraf mühitin mühafizəsinə dair əsas problemlər, beynəlxalq və yerli mexanizmlər, ictimai iştirakçılıq və

ekoloji təhsil kimi məsələlər ətraflı şəkildə araşdırılacaq və müasir dövr üçün aktual olan təklif və tövsiyələr təqdim olunacaqdır.

**Ətraf mühitin deqradasiyası və onun səbəbləri**

Müasir dövrün qlobal problemlərindən biri ətraf mühitin getdikcə daha da pisləşməsidir. Sürətli sənayeləşmə, nəzarətsiz urbanizasiya, təbii ehtiyatların həddindən artıq istismarı və əhali artımı ətraf mühitin pozulmasına ciddi təsir edir [1].

Məsələn, meşələrin kəsilməsi nəticəsində karbon uducu qabiliyyət azalır, bu da iqlim dəyişikliyinin sürətlənməsinə səbəb olur.

**Qlobal ekoloji təşəbbüslər və beynəlxalq mexanizmlər.**

BMT tərəfindən qəbul edilən "2030-cu ilə qədər Davamlı İnkişaf Gündəliyi" ətraf mühitin mühafizəsini prioritet hədəflərdən biri kimi müəyyənləşdirir. Bu gündəliyin əsas məqsədlərindən biri iqlim dəyişikliyi ilə mübarizə, təbii ehtiyatların davamlı istifadəsi və torpaq, su, hava kimi əsas ekosistem komponentlərinin qorunmasıdır [2].

Bundan başqa, Paris İqlim Sazişi istixana qazı emissiyalarının azaldılması və qlobal temperatur artımının 2 °C-dən aşağı səviyyədə saxlanması məqsədilə imzalanmış mühüm beynəlxalq müqavilədir [3]. Əksər ölkələr bu sazişə qoşularaq öz milli iqlim planlarını (NDC – Nationally Determined Contributions) təqdim etmiş və ətraf mühitin qorunması istiqamətində öhdəlik götürmüşlər.

Beynəlxalq maliyyə institutları, qeyri-hökumət təşkilatları və ekoloji fondlar vasitəsilə bu məqsədlərə nail olmaq üçün müxtəlif layihələr maliyyələşdirilir. Lakin bu təşəbbüslərin uğurlu olması üçün hər bir ölkənin daxili siyasəti ilə uzlaşmalı və effektiv icra mexanizmləri ilə müşayiət olunmalıdır [2].

**Yerli tədbirlər və idarəetmə yanaşmaları**

Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrdə ətraf mühitin mühafizəsi üçün milli səviyyədə də mühüm addımlar atılmaqdadır. Ekoloji qanunvericiliyin təkmilləşdirilməsi, yeni milli strategiyaların qəbul olunması və dövlət qurumlarının fəaliyyətinin gücləndirilməsi bu sahədə görülən işlərdəndir. "Azərbaycan Respublikasında ekoloji təhlükəsizlik konsepsiyası", "Yaşıl energetika strategiyası" və "Milli Tullantı İdarəetmə Sistemi" kimi sənədlər bunun nümunəsidir [1].

Eyni zamanda, yerli bələdiyyələr və icmalar da ekoloji təşəbbüslərdə iştirak etməli, tullantıların çeşidlənməsi, yaşıllaşdırma layihələri və ictimai maarifləndirmə kimi sahələrdə fəaliyyət göstərməlidirlər. Yerli səviyyədə effektiv idarəetmə üçün monitorinq sistemləri, ekoloji sertifikatlaşdırma mexanizmləri və cərimə-təşviq alətləri tətbiq edilməlidir. Bu yolla həm ekoloji, həm də iqtisadi məqsədlərə paralel şəkildə nail olunması mümkündür [4].

**Əhalinin rolu və ekoloji maarifləndirmə.**

Ətraf mühitin qorunmasında sadəcə dövlət qurumlarının deyil, vətəndaşların da fəal rolu olmalıdır. Cəmiyyətin hər bir üzvü gündəlik vərdişlərini dəyişərək ekoloji baxımdan məsuliyyətli davranış nümunəsi sərgiləməlidir [4].

Bununla yanaşı, məktəblərdə, universitetlərdə və kütləvi informasiya vasitələrində ekoloji təbliğat və maarifləndirmə kampaniyalarının təşkili əhalinin ekoloji mədəniyyət səviyyəsinin artırılmasına səbəb olur. Gənc nəslin erkən yaşdan təbiətə hörmət ruhunda tərbiyə edilməsi uzunmüddətli nəticələr doğurur. Maarifləndirici proqramlar vasitəsilə fərdlərin ekoloji məsuliyyətə cəlb olunması ekoloji siyasətin dayanıqlığını təmin edir [4].

**Yaşıl iqtisadiyyat və ekotexnologiyaların rolu**

Ənənəvi iqtisadi inkişafdan fərqli olaraq, yaşıl iqtisadiyyat ətraf mühitə zərər vermədən dayanıqlı rifahın formalaşdırılmasını qarşıya məqsəd qoyur.

Azərbaycan da bu istiqamətdə müəyyən addımlar atmış, "yaşıl enerji zonası" konsepsiyası əsasında Qarabağ bölgəsində alternativ enerji layihələrinə start vermişdir. Bu təşəbbüslər ölkənin enerji asılılığını azaltmaqla yanaşı, ətraf mühitə də müsbət təsir göstərir. [5].

**Nəticə**

Ətraf mühitin mühafizəsi çağdaş dövrdə təkcə ekoloji məsələ deyil, həm də sosial, iqtisadi və etik məsuliyyət məsələsi kimi çıxış edir. Təbiətin istismarına əsaslanan inkişaf modelləri artıq öz tükənmişliyini göstərməkdədir və bu səbəbdən daha davamlı, daha ədalətli yanaşmalara ehtiyac duyulur. Ətraf mühitin deqradasiyası təkcə təbiət üçün deyil, insanların sağlamlığı, iqtisadi rifahı və gələcək nəsillərin yaşam keyfiyyəti üçün də ciddi təhlükə yaradır. Belə bir şəraitdə müasir dövlətlər və cəmiyyətlər təcili və məqsədyönlü tədbirlər görməlidirlər ki, təbiət ilə insan fəaliyyəti arasında pozulmuş tarazlıq bərpa olunsun [4, 5].

Qlobal səviyyədə qəbul edilən Paris Sazişi və Davamlı İnkişaf Məqsədləri ətraf mühitin qorunması üçün hüquqi və strateji çərçivə təqdim etsə də, onların real təsiri yalnız yerli səviyyədə həyata keçirilən konkret tədbirlərlə təmin edilə bilər [5]. Ətraf mühitin qorunması sahəsində ictimai iştirakçılığın artırılması, əhalinin maarifləndirilməsi, təhsilin gücləndirilməsi və qeyri-hökumət təşkilatlarının dəstəklənməsi prioritet istiqamətlərdən biri olmalıdır.

Bütün bu tədbirlər insan-təbiət münasibətlərində yeni mərhələnin başlanmasını təmin edə bilər. Məlum olur ki, dayanıqlı inkişaf prinsiplərinə söykənən iqtisadiyyat və idarəetmə modeli yalnız ətraf mühitə deyil, həm də cəmiyyətin rifahına xidmət edir [5].

Nəticə etibarilə, ətraf mühitin qorunması problemi kompleks və çoxşaxəli yanaşma tələb edir. Təklif olunan tədbirlər və tövsiyələr yalnız kağız üzərində qalarsa, ekoloji böhranın qarşısını almaq mümkün olmayacaq. Ətraf mühitin mühafizəsi yalnız bir seçim deyil – bu, insanlığın yaşamaq üçün zəruri olan yeganə yoludur [5].

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Carson, R. (2002). Silent Spring. Houghton Mifflin Harcourt.
2. IPCC (2023). Climate Change 2023: Synthesis Report. Intergovernmental Panel on Climate Change.Z
3. United Nations (2015). Transforming our world: the 2030 Agenda for Sustainable Development. New York: UN.
4. United Nations Framework Convention on Climate Change (2015). The Paris Agreement.
5. OECD (2020). Waste Management and the Circular Economy in Selected OECD Countries. OECD Publishing.

## NATURAL CONDITIONS OF AZERBAIJAN

**[1]Narmin Azer gizi Abishova, [2]Nuray Rasim gizi Mahmudova**
**[3]Fatima Eldaniz gizi Aliyeva, [4]Alakbar Yashasın oghlu Zulfaliyev**
bachelor's students
[1]narmin.abishova.e24@mdu.edu.az
[2]nuray.mahmudova.e24@mdu.edu.az
[3]fatima.aliyeva.e24@mdu.edu.az
[4]alakbar.zulfaliyev.e24@mdu.edu.az
*Scientific supervisor: Natavan İbrahim qizi Valiyeva*
*Lecturer of the Department of Physics and Ecology*

***Keywords:*** *natural conditions, geographic diversity, climate zones, landforms of Azerbaijan, water resources, soil types, vegetation cover, environmental sustainability, biodiversity, ecological balance*

***Açar sözlər:*** *təbii şərait, coğrafi müxtəliflik, iqlim qurşaqları, Azərbaycanın relyef formaları, su ehtiyatları, torpaq növləri, bitki örtüyü, ekoloji davamlılıq, biomüxtəliflik, ekoloji tarazlıq*

***Ключевые слова:*** *природные условия, географическое разнообразие, климатические пояса, формы рельефа Азербайджана, водные ресурсы, типы почв, растительный покров, экологическая устойчивость, биоразнообразие, экологическое равновесие*

**Introduction**

The natural conditions of Azerbaijan are among the key factors that shape the country’s economic, social, and ecological development. Due to its diverse geographical location, variable relief, and rich climatic characteristics, Azerbaijan holds a distinctive place in the South Caucasus region. These natural features have endowed the country with significant environmental resources, creating favorable conditions for the development of agriculture, tourism, and biodiversity conservation[1].

Azerbaijan’s territory combines mountainous and lowland formations, encompassing a wide range of natural zones. As a result, more than eight distinct climate types are present across the country, each contributing uniquely to the environmental and economic dynamics of its respective region. This diversity allows for a balance between human activity and ecological preservation, providing a solid foundation for sustainable use of natural resources.

This article aims to provide a comprehensive analysis of Azerbaijan’s natural conditions by exploring its geographical location, climate, relief, water resources, and soil-vegetation systems. The study also evaluates how these factors influence the country’s potential for economic development, particularly in sectors such as tourism and agriculture. From both theoretical and practical perspectives, this research offers valuable insights for experts working in environmental management, natural resource planning, and regional development.

**Geographical Location of the Republic of Azerbaijan**

Azerbaijan is situated in the South Caucasus region, between Europe and Asia, and covers an area of about 86,600 square kilometers [1]. It shares borders with Russia, Georgia, Armenia, Iran, and is bounded by the Caspian Sea to the east. This location provides the country with a unique blend of natural and climatic features.

The country’s relief is highly diverse, ranging from lowland areas below sea level along the Caspian coast to high mountain peaks like Mount Bazardüzü at 4,466 meters. The Greater and Lesser Caucasus mountain systems, as well as the Kur-Araz lowland, shape much of Azerbaijan’s physical geography.

These natural conditions have given rise to varied landscapes, rich biodiversity, and multiple land use zones — from forests and pastures in the highlands to fertile plains and semi-deserts in the lowlands [2]. The wide range of ecosystems supports both agriculture and resource development.

Overall, Azerbaijan’s geographical position and natural diversity form the basis of its environmental richness and economic potential.

**Climate Conditions of Azerbaijan**

Azerbaijan has a uniquely diverse climate due to its geographical position, varied elevation, and proximity to the Caspian Sea. Despite covering a relatively small territory, the country features nine of the world’s eleven major climate types [2].

Lowland areas such as the Kur-Araz plain and Absheron Peninsula experience dry subtropical conditions, with hot summers and mild winters. In contrast, mountainous regions like the Greater and Lesser Caucasus enjoy cooler climates and receive significantly more precipitation. The Lankaran-Astara region stands out with its humid subtropical climate and high rainfall, supporting crops like tea and citrus fruits.

Temperature and precipitation vary widely: average temperatures range from 14–15°C in the plains to below 0°C in the mountains, while rainfall ranges from 200 mm in dry zones to over 1,600 mm in the southeast [3]. Local wind systems, such as the Khazri and Gilavar, especially impact the Absheron area.

This climatic diversity supports varied agricultural production and tourism opportunities, making it a key element of Azerbaijan's natural wealth.

**Relief and Geological Structure of Azerbaijan**

Azerbaijan has a uniquely diverse climate due to its geographical position, varied elevation, and proximity to the Caspian Sea. Despite covering a relatively small territory, the country features nine of the world's eleven major climate types.

Lowland areas such as the Kur-Araz plain and Absheron Peninsula experience dry subtropical conditions, with hot summers and mild winters. In contrast, mountainous regions like the Greater and Lesser Caucasus enjoy cooler climates and receive significantly more precipitation[3]. The Lankaran-Astara region stands out with its humid subtropical climate and high rainfall, supporting crops like tea and citrus fruits.

Temperature and precipitation vary widely: average temperatures range from 14–15°C in the plains to below 0°C in the mountains, while rainfall ranges from 200 mm in dry zones to over 1,600 mm in the southeast. Local wind systems, such as the Khazri and Gilavar, especially impact the Absheron area[3,4].

This climatic diversity supports varied agricultural production and tourism opportunities, making it a key element of Azerbaijan's natural wealth.

**Water Resources and River Systems of Azerbaijan**

Azerbaijan's water resources include rivers, lakes, reservoirs, and underground waters. The country's largest river system is formed by the Kura and Araz rivers, both of which flow into the Caspian Sea. These rivers are essential for irrigation, agriculture, and water supply, especially in the Kur-Araz lowland.

In mountainous areas, smaller rivers such as the Tartar and Ganja are mainly fed by snow and rain. These rivers often have steep gradients and are used for hydropower and local irrigation.

Artificial lakes like Mingachevir Reservoir and natural lakes such as Lake Goygol contribute to energy production, irrigation, and ecological balance. Groundwater is also a crucial source, particularly in regions with low surface water availability [4].

Despite having notable water resources, Azerbaijan faces challenges like uneven distribution and pollution. Sustainable management is key to preserving these resources in the long term.

**Soil and Vegetation Cover of Azerbaijan**

Azerbaijan's soil cover reflects the country's diverse landscapes and climatic variation. In the lowland regions, especially the Kura-Araz plain, grey-brown and saline soils prevail, supporting mainly semi-desert vegetation [5]. These areas are often influenced by irrigation, which has led to issues like secondary salinization and declining soil fertility.

In the foothills and mid-mountain zones, more fertile chestnut and brown forest soils dominate. These support temperate forests, meadows, and diverse plant communities, especially in the Lesser Caucasus and northern slopes of the Greater Caucasus[5].The Talysh Mountains are particularly unique, hosting yellow soils and Hyrcanian forests with a high number of endemic species.

At higher elevations, mountain-meadow soils form under alpine grasslands and are rich in organic matter despite their thin profile. However, many ecosystems face degradation due to human activities such as overgrazing and deforestation[6].Recent reforestation and soil protection initiatives aim to restore the balance between human use and ecological preservation.

**Conclusion**

Azerbaijan's natural environment displays remarkable diversity shaped by its geographical location, complex relief, variable climate, and rich water, soil, and vegetation resources. This diversity provides favorable conditions for agriculture, energy production, and ecological sustainability. From the saline soils of the lowlands to the humid forests of the Talysh Mountains, each natural component plays a vital role in the country's environmental balance[6].

However, increasing human activity, including deforestation, overgrazing, and unsustainable land use, poses serious threats to this balance. Protecting and wisely managing these natural resources is essential not only for environmental preservation but also for long-term economic and social development. Future strategies must focus on sustainable use, conservation practices, and greater public awareness to ensure the resilience of Azerbaijan's natural heritage.

**References**

1. Ellenberg, H. (1988). Vegetation Ecology of Central Europe (4th ed.). Cambridge: Cambridge University Press.
2. Food and Agriculture Organization of the United Nations. (2019). Azerbaijan: Land and Water Resources Profile. Rome: FAO.
3. Jackson, M. B., & Pitelka, L. F. (2004). Climate and Vegetation: A Global Synthesis. New York: Oxford University Press.
4. Kreutzmann, H. (2013). Pastoralism and Mountain Geography in the South Caucasus. Bern: Geographica Helvetica.
5. United Nations Environment Programme. (2002). Caucasus Environmental Outlook. Nairobi: UNEP.
6. World Bank. (2020). Azerbaijan: Country Environmental Analysis – Towards Green Growth. Washington, D.C.: World Bank Publications.

## THE IMPACT OF DIGITAL MARKETING ON INTERNATIONAL TOURISM

**Samir Vusal oghlu Adilov**
bachelor's student
samir.adilov@mdu.edu.az
*Scientific supervisor: Nazim Fazil oghlu Niftaliyev*
*Senior Lecturer of the Department of Economics*
*Employee of the Tourism and Environment Research Center*

***Keywords:*** *digital marketing, tourism, international tourism, online tools, customer engagement*
***Açar sözlər:*** *rəqəmsal marketinq, turizm, beynəlxalq turizm, onlayn alətlər, müştəri cəlbetməsi*
***Ключевые слова:*** *цифровой маркетинг, туризм, международный туризм, онлайн-инструменты, вовлеченность клиентов*

### Introduction

The development of digital technologies has fundamentally transformed how businesses operate and connect with their customers. In the context of the tourism sector, marketing strategies have undergone a significant evolution. Traditional marketing methods such as printed brochures, television advertisements, and travel agencies have become increasingly supplemented or even replaced by digital alternatives. Digital marketing encompasses all marketing efforts that use an electronic device or the internet. Tourism companies leverage digital channels such as search engines, social media, email, and websites to connect with current and prospective tourists.

This shift towards digital platforms provides more accurate targeting, real-time performance tracking, and cost-efficient communication, especially for tourism businesses seeking to compete on a global scale. The aim of this article is to evaluate how digital marketing influences international tourism, identify key tools and strategies used in practice, and examine their impact on consumer behavior and business success.

**Digital Marketing Tools and Strategies**

Digital marketing provides a wide range of tools that allow tourism businesses to improve their visibility, engage more effectively with customers, and measure the outcomes of their campaigns.

1. Social Media Platforms. Platforms such as Facebook, Instagram, TikTok, and YouTube allow tourism businesses to share visual content, user testimonials, promotional videos, and live streams. These platforms also offer paid advertising services with precise audience targeting.

2. Search Engine Optimization (SEO). By optimizing their websites and content to appear in top search results, tourism businesses can increase organic visibility. SEO involves keyword research, content optimization, link-building, and technical improvements.

3. Email and Content Marketing. Tourism agencies use email newsletters and blog content to provide personalized travel tips, seasonal offers, and destination highlights. This creates a strong connection with potential tourists and encourages repeat engagement.

4. Mobile Applications. Many tourism companies now offer mobile apps with booking functions, itineraries, maps, language support, and personalized recommendations. This facilitates easier planning and enhances the tourist experience.

5. Influencer Marketing. Collaborating with travel influencers enables tourism brands to reach highly engaged followers through authentic travel storytelling. Influencers play a key role in shaping travel decisions.

6. Artificial Intelligence and Analytics. AI tools and data analytics help companies understand customer behavior, predict travel trends, and personalize recommendations. For instance, chatbots can assist with bookings, FAQs, and instant customer support.

**Case Studies and Practical Applications**

The real-world application of digital marketing in international tourism can be observed through global and local examples. Companies that successfully integrate digital tools often report higher engagement, increased bookings, and stronger brand awareness.

**Booking.com and Airbnb**

These platforms have revolutionized the hospitality and tourism industry by offering personalized experiences, real-time customer reviews, and seamless booking systems. Their mobile apps utilize location tracking and customer data to suggest tailored options.

**TripAdvisor**

By enabling tourists to review destinations, hotels, restaurants, and attractions, TripAdvisor has become a crucial platform in influencing travel decisions. Its ranking system and traveler photos serve as credible digital word-of-mouth marketing.

**Azerbaijan Tourism Firms**

In Azerbaijan, tourism agencies such as Narmin Travel and Azal have embraced digital transformation. Through targeted social media campaigns, SEO-optimized websites, and mobile-friendly booking platforms, they are reaching wider international audiences.

Additionally, collaboration with local and regional influencers has helped these agencies promote cultural tourism, eco-tourism, and adventure packages to niche traveler groups. Government-supported digital tourism initiatives like virtual tours and digital brochures are further expanding the country's appeal.

**Post-Pandemic Digital Shift**

Following the COVID-19 pandemic, tourism businesses accelerated their digital presence. Contactless check-ins, virtual consultations, and remote bookings became standard practice. As a result, even small agencies began adopting cloud-based CRM systems and social media automation tools.

**Conclusion**

Digital marketing plays a vital and transformative role in the global tourism industry. It provides tourism companies with cost-effective, measurable, and flexible tools to connect with

diverse audiences worldwide. From social media engagement and SEO to influencer collaborations and AI-driven personalization, digital marketing fosters brand loyalty and improves customer experience. These tools also help businesses adapt quickly to changing trends, consumer expectations, and market dynamics.

As technology continues to evolve, tourism companies must invest in digital infrastructure and skills to remain competitive. Those who embrace innovation will be better positioned to attract international travelers, offer memorable experiences, and achieve sustainable growth.

**References**

1. Kotler, P., & Armstrong, G. (2020). Principles of Marketing. Pearson Education.
2. Chaffey, D. (2019). Digital Marketing: Strategy, Implementation and Practice. Pearson.
3. Ryan, D. (2016). Understanding Digital Marketing: Marketing Strategies for Engaging the Digital Generation. Kogan Page.
4. Xiang, Z., & Gretzel, U. (2010). Role of social media in online travel information search. Tourism Management, 31(2), 179-188.
5. Buhalis, D., & Law, R. (2008). Progress in information technology and tourism management. Tourism Management, 29(4), 609-623.

## AZƏRBAYCANDA MÜALİCƏ-SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ TƏKLİFLƏR

**Validə Qüdrət qızı Əliyeva**
bakalavriat tələbəsi
valide. aliyeva@mdu.edu.az
*Elmi rəhbər: Lalə Akif qızı Əhmədova*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri*

***Açar sözlər:*** *müalicə və sağlamlıq turizmi, təbii resurs, marketinq, rəqəmsal texnologiya*
***Keywords:*** *medical and health tourism, natural resources, marketing, digital technology*
***Ключевые слова:*** *лечебно-оздоровительный туризм, природные ресурсы, маркетинг, цифровые технологии*

### Giriş

Son dövrlər Azərbaycan müalicə və sağlamlıq turizmi sahəsində Cənubi Qafqazın aparıcı istiqamətlərindən birinə çevrilməkdədir. Coğrafi mövqeyi, unikal təbii müalicə resursları və səhiyyə sektoruna yönəldilən dayanıqlı investisiyalar sayəsində ölkə bu sahədə nəzərəçarpacaq üstünlüklərə malikdir.

Sağlamlıq turizmi — insanların müalicə və reabilitasiya məqsədilə ölkə sərhədlərini keçərək xidmətlərə müraciət etməsi — bu gün qlobal turizm sənayesinin dinamik şəkildə inkişaf edən sahələrindən birinə çevrilmişdir. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan özünəməxsus coğrafi mövqeyi, zəngin mədəni irsi və tibbi potensialı sayəsində sağlam həyat tərzini ön planda tutan turistlərin diqqətini cəlb edir. Bu məqalədə Azərbaycanın bu sahədəki strateji üstünlükləri və beynəlxalq arenadakı cari mövqeyi geniş şəkildə dəyərləndirilir [4].

Azərbaycanın müalicə və sağlamlıq turizmi sahəsində əsas üstünlüklərindən biri onun təbii şəfa verici ehtiyatlarıdır. Xüsusilə, antiiltihab və dəri xəstəliklərinə qarşı müalicəvi təsiri ilə tanınan Naftalan nefti dünya miqyasında nadir resurs hesab olunur. Naftalan şəhəri bu terapiya növünün mərkəzinə çevrilmişdir. Bununla yanaşı, Naxçıvandakı Duzdağ duz mədəni, Qalaaltı və İstisu kimi bölgələrdəki mineral bulaqlar tənəffüs yolları, ürək-damar və dayaq-hərəkət sistemi pozuntuları

üçün əlverişli şərait yaradır. Azərbaycan hökuməti səhiyyə sisteminin təkmilləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirir. Bu prosesə dövlət-özəl tərəfdaşlığı və xarici sərmayələrin cəlb olunması daxildir. Eyni zamanda, Naftalan, Lənkəran və digər bölgələrdə yerləşən sanatoriyalar xəstələrə kompleks müalicə imkanları təqdim edir.

Sağlamlıq turizmin inkişafı Azərbaycanın sosial-iqtisadi inkişaf sənədlərində əsas istiqamətlərdən biri kimi müəyyən edilib. “Strateji Yol Xəritəsi” çərçivəsində bu sahəyə yönəlik vergi güzəştləri, investisiya təşviqləri və beynəlxalq təbliğat tədbirləri ilə əhatəli dəstək göstərilir. Bu yanaşma həm xarici sərmayədarların, həm də xaricdən gələn pasiyentlərin sayının artmasına şərait yaradır.

Azərbaycan coğrafi yaxınlıq, mədəni oxşarlıq və dil birliyi səbəbilə, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan və İran kimi ölkələrdən gələn sağlamlıq turistləri üçün cəlbedici seçimə çevrilib. Rusdilli personalın olması və münasib xidmət mühiti bu ölkələrin vətəndaşları üçün əlavə rahatlıq yaradır.

Azərbaycan hələlik dünya miqyasında əsas sağlamlıq turizm mərkəzlərindən biri sayılmasa da, beynəlxalq tanınma istiqamətində addımlar atır [5]:

- Beynəlxalq sərgilərdə fəal iştirak
- Qlobal tibbi turizm şəbəkələrinə qoşulma
- JCI kimi nüfuzlu akkreditasiya qurumları ilə əməkdaşlıq

Azərbaycan, sağlamlıq və tibbi turizmin inkişafı üçün güclü baza formalaşdırmışdır. Təbii müalicə resursları, inkişaf etmiş səhiyyə infrastrukturu və hökumət dəstəyi ölkənin bu sahədə rəqabət qabiliyyətini artırır. Əgər mövcud çətinliklər sistemli şəkildə aradan qaldırılarsa və beynəlxalq standartlara uyğunluq təmin olunarsa, Azərbaycan yaxın gələcəkdə beynəlxalq tibbi turizm bazarında önəmli bir mövqeyə sahib ola bilər.

**Müalicə-sağlamlıq turizmi üzrə dövlət siyasəti və strateji sənədlər**

2018-ci ildə Azərbay-canda turizm sahəsinin idarə olunmasını sistemləşdirmək və sahəyə yönəlik xüsusi proqramların icrasını daha səmərəli təşkil etmək məqsədilə Dövlət Turizm Agentliyi təsis edilmişdir. Bu qurum, ölkədə turizm siyasətinin icrasına cavabdeh əsas dövlət orqanıdır. Turizm sahəsində dövlət siyasətinin hüquqi əsaslarını formalaşdıran qanunvericilik aktları və normativ sənədlər, bu sahədə fəaliyyət göstərən bütün subyektlər üçün əsas yol xəritəsi rolunu oynayır. Mülki qanunvericiliyə uyğun olaraq, hökumət turizmin təşviqinə, onun səmərəli inkişafına və davamlı böyüməsinə şərait yaradan normativ-institusional çərçivəni təmin edir, eyni zamanda turizm sektorunun strateji istiqamətlərini müəyyənləşdirərək onun praktiki həyata keçirilməsinə dəstək göstərir [2].

Azərbaycan hökumətinin turizm siyasətində müəyyən etdiyi əsas prioritetlər aşağıdakılardır:

- Turistlərin ölkəyə səfəri zamanı onların hüquq və azadlıqlarının tam təmin olunması və hüquqi mexanizmlərlə qorunması;
- Turizm fəaliyyətinin həyata keçirilməsi zamanı ətraf mühitin qorunması və ekoloji tarazlığın saxlanılması prinsiplərinin ön planda tutulması;
- Qlobal turizm sənayesinin tələblərinə uyğun olaraq infrastrukturun inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, regionlarda iqtisadi fəallığın artırılması və bununla da əhalinin rifah səviyyəsinin yüksəldilməsi və işsizliyin azaldılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi;
- Xarici ölkələrlə turizm sahəsində əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, turizm regionlarının qorunması, mədəni, tarixi və irsi resurslardan səmərəli istifadə olunması və bu sahədə davamlı inkişafın təmin edilməsi üçün strateji yanaşmaların tətbiqi.

Son illərdə Azərbaycan Respublikasında turizmin inkişafını təmin etmək məqsədilə bir sıra dövlət proqramları və institusional təşəbbüslər hazırlanaraq icraya yönəldilmişdir. Bu proqramlar həm infrastrukturun modernləşdirilməsini, həm də sahənin beynəlxalq bazarlara inteqrasiyasını hədəfləmişdir. Aşağıda turizm siyasətinin icrasını təmin edən əsas nəzarət mexanizmləri təqdim olunur:

- "2002–2005-ci illər üzrə Azərbaycan Respublikasında Turizmin İnkişafı Proqramı", Nazirlər Kabinetinin 27 avqust 2002-ci il tarixli, 1029 nömrəli qərarı ilə təsdiqlənmişdir. Bu proqram çərçivəsində ölkədə mövcud olan turizm infrastrukturunun yenidən qurulması, istirahət və rekreasiya zonalarının müasirləşdirilməsi və Azərbaycanın beynəlxalq turizm bazarlarına inteqrasiyası üzrə ilkin addımlar atılmışdır.
- "2010–2014-cü illərdə Azərbaycan Respublikasında turizmin inkişafı üzrə Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2010-cu il tarixli, 838 nömrəli sərəncamı ilə qüvvəyə minmişdir. Proqramın məqsədi turizm sahəsinin sosial, iqtisadi və ekoloji meyarlara uyğun inkişafını təmin etmək, sahəyə xarici investisiyaları cəlb etmək və insan resurslarının effektiv idarə olunmasına şərait yaratmaq olmuşdur.
- 15 fevral 2011-ci il tarixində Prezident sərəncamı ilə 2011-ci il "Turizm ili" elan edilmişdir. Bu təşəbbüsün əsas vəzifəsi Azərbaycanın mədəni, tarixi və təbii sərvətlərinin qorunması və onların beynəlxalq miqyasda tanıdılması olmuşdur.
- 21 dekabr 2015-ci il tarixli Prezident fərmanı ilə biznes turizmi fəaliyyəti üzrə lisenziya tələbi ləğv edilmişdir. Bu hüquqi dəyişiklik, sahibkarlıq subyektlərinin turizm sektoruna daxil olmasını asanlaşdırmaq və rəqabət mühitini genişləndirmək məqsədi daşıyırdı.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən 06 dekabr 2016-cı il tarixində təsdiqlənmiş "Strateji Yol Xəritəsi", ölkədə ixtisaslaşmış turizm sənayesinin inkişaf etdirilməsini hədəfləyən kompleks planlaşdırma sənədidir. Bu yol xəritəsi, turizm sektorunda mövcud vəziyyətin qiymətləndirilməsini aparmaqla yanaşı, gələcək dövrlər üçün prioritet istiqamətləri və inkişaf imkanlarını müəyyənləşdirən konkret strategiyalar təqdim edir. Sənəddə turizm infrastrukturunun təkmilləşdirilməsi, insan kapitalının inkişafı, marketinq fəaliyyətlərinin gücləndirilməsi və investisiya mühitinin yaxşılaşdırılması kimi əsas sahələr üzrə tədbirlər nəzərdə tutulmuşdur [1].

Nəticə etibarilə, turizm sahəsində qanunvericilik bazasının formalaşdırılması, vergi və gömrük sistemlərinin təkmilləşdirilməsi, eləcə də uzunmüddətli inkişafı dəstəkləyən hüquqi çərçivələrin yaradılması, ölkədə turizm sektorunun rəqabət qabiliyyətinin və dayanıqlılığının artırılmasında mühüm rol oynayır.

**Müalicə və sağlamlıq turizmində rəqəmsal texnologiyaların və marketinqin rolu**

Qlobal rəqabətin sürətlə artdığı çağdaş dövrdə rəqəmsal texnologiyaların və inteqrasiya olunmuş marketinq kommunikasiyalarının turizm sektorunun, o cümlədən müalicə-sağlamlıq turizminin inkişafında rolu əhəmiyyətli dərəcədə artmışdır. Rəqəmsallaşma yalnız informasiya ötürülməsi vasitəsi kimi deyil, həm də strateji idarəetmə, beynəlxalq əlaqələrin qurulması, xidmət keyfiyyətinin artırılması və pasiyent təcrübəsinin fərdiləşdirilməsi baxımından önəmli bir vasitə kimi çıxış edir. Azərbaycan Respublikası da bu tendensiyaya uyğun olaraq, rəqəmsal infrastrukturun gücləndirilməsini və innovativ yanaşmaların tətbiqini sağlamlıq turizminin inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir.

Ölkənin rəqəmsal turizm ekosisteminin əsas komponentlərindən biri rəsmi informasiya portalları və mobil tətbiqlərdir. Xüsusilə azerbaijan.travel və healthcare.azerbaijan.travel kimi platformalar tibbi və reabilitasiya xidmətləri, sanatoriyalar, spa və wellness mərkəzləri haqqında müfəssəl məlumatların təqdimatı ilə yanaşı, onlayn rezervasiya və ilkin məsləhət imkanları da yaradır. Bu resurslar həm yerli, həm də xarici istifadəçilər üçün açıq və şəffaf məlumat bazası funksiyasını yerinə yetirir, nəticədə pasiyentlərin qərar qəbuletmə prosesini asanlaşdırır və ilkin inamın formalaşmasına töhfə verir.

Rəqəmsal transformasiyanın digər mühüm istiqaməti isə rəqəmsal marketinq strategiyalarının tətbiqidir. Axtarış sistemləri üçün optimizasiya (SEO), hədəf auditoriya əsaslı reklam kampaniyaları, sosial media menecmenti (Instagram, Facebook, TikTok, YouTube) və rəqəmsal təsirçilərlə (influencerlərlə) əməkdaşlıq vasitəsilə Azərbaycanın sağlamlıq turizmi potensialı qlobal istifadəçilərə vizual və interaktiv formada təqdim olunur. Xüsusilə Naftalan nefti ilə müalicə, Qalaaltı mineral suları, Duzdağ duz terapiyası və Lənkəran termal mərkəzləri kimi unikallıqlar rəqəmsal məzmun vasitəsilə fərqləndirici üstünlüklər kimi təqdim edilir.

Rəqəmsal texnologiyaların tətbiqi təkcə reklam və tanıtımla məhdudlaşmır. Telemedicina, onlayn konsultasiya sistemləri, rəqəmsal ödəniş platformaları, rəqəmsallaşdırılmış pasiyent məlumat bazaları və rəqəmsal rəy toplama modulları pasiyentlərə ölkəyə gəlməmişdən əvvəl ilkin əlaqə qurmaq və xidmətlərə dair qərar vermək imkanı yaradır. Bu cür sistemlər həm də məlumat təhlükəsizliyi və xidmət şəffaflığı baxımından beynəlxalq tələblərə cavab verir.

Eyni zamanda, startap ekosistemi və İT sektorunun turizmə inteqrasiyası sayəsində süni intellektə əsaslanan fərdiləşdirilmiş turizm təklifləri, interaktiv xəritələr, real vaxtlı pasiyent izləmə sistemləri və rəqəmsal təhlil alətləri vasitəsilə daxili idarəetmə prosesləri optimallaşdırılır. Bu texnoloji həllər, Azərbaycanın sağlamlıq turizminə yönəlmiş xidmətlərinin keyfiyyətini yüksəldir və beynəlxalq rəqabətə davamlı platforma formalaşdırır.

Nəticə etibarilə, rəqəmsal texnologiyaların sistemli tətbiqi və peşəkar marketinq yanaşmalarının həyata keçirilməsi, Azərbaycanın müalicə-sağlamlıq turizmi sektorunun beynəlxalq səviyyədə tanıdılmasına, iqtisadi gəlirliliyin artmasına və pasiyent məmnuniyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Gələcəkdə bu istiqamətin daha da genişləndirilməsi və dövlət səviyyəsində rəqəmsallaşmanın dəstəklənməsi, Azərbaycanın qlobal sağlamlıq turizmi bazarındakı strateji mövqeyini möhkəmləndirə bilər [3].

**Müalicə-sağlamlıq turizminin inkişafı üçün təkliflər və tövsiyələr**

Azərbaycanda müalicə-sağlamlıq turizmi son illərdə qeyri-neft sektoru daxilində sürətlə inkişaf edən istiqamətlərdən birinə çevrilmişdir. Ölkənin nadir təbii müalicə ehtiyatları, əlverişli coğrafi mövqeyi və müxtəlif terapevtik imkanları bu sahədə rəqabət üstünlüyü yaradır. Lakin bu potensialın effektiv şəkildə reallaşdırılması yalnız təbii resurslara əsaslanmaqla mümkün deyil. Gələcək inkişaf üçün uzunmüddətli və koordinasiyalı strategiyaların, institusional islahatların və texnoloji yeniliklərin həyata keçirilməsi zəruridir. Bu baxımdan, Azərbaycanın beynəlxalq tibbi turizm bazarında mövqeyini möhkəmləndirmək üçün aşağıdakı əsas istiqamətlər prioritet hesab oluna bilər.

Əvvəlcə, hüquqi və normativ tənzimləmə sisteminin təkmilləşdirilməsi vacibdir. Hazırda turizm və səhiyyə sektorlarını əhatə edən normativ sənədlər arasında fragmentasiya mövcuddur. Bu boşluğun aradan qaldırılması üçün sağlamlıq turizmi ilə bağlı hüquqi aktların vahid çərçivəyə salınması tövsiyə olunur. Xidmət göstərən müəssisələr üçün akkreditasiya və sertifikatlaşdırma mexanizmləri beynəlxalq standartlara – o cümlədən Joint Commission International (JCI) və ISO tələblərinə uyğunlaşdırılmalıdır. Bundan əlavə, rəqəmsallaşan səhiyyə sektoruna uyğun olaraq teletibb xidmətlərinin hüquqi statusu aydınlaşdırılmalı və normativ şəkildə təsbit olunmalıdır.

Rəqəmsal texnologiyaların tətbiqi də sahənin transformasiyası üçün əsas sütunlardan biridir. Elektron sağlamlıq turizmi platformalarının çoxdilli funksionallığı genişləndirilməli, istifadəçilərə onlayn sifariş, virtual məsləhət və məlumat izləmə imkanları təqdim edilməlidir. Bu sistemlər təhlükəsiz ödəniş kanalları və süni intellektə əsaslanan fərdiləşdirilmiş tövsiyə mexanizmləri ilə inteqrasiya olunaraq pasiyent mərkəzli xidmət təcrübəsini gücləndirə bilər.

Sektorun davamlı inkişafı üçün insan kapitalı amili də xüsusi diqqət tələb edir. Beynəlxalq kommunikasiya bacarıqlarına malik tibb personalı, müasir idarəetmə bilikləri olan turizm menecerləri və multikultural mühitdə işləmək bacarığına malik xidmət heyəti hazırlanmalıdır. Bunun üçün ali təhsil müəssisələrində turizm və tibb sahələrinin sinerjisi əsasında interdisiplinar proqramlar yaradılmalı və "Sağlamlıq Turizminin İdarəedilməsi" üzrə ixtisaslar formalaşdırılmalıdır. Klinikalarda və reabilitasiya mərkəzlərində peşəkar inkişafı dəstəkləyən təlim mexanizmlərinin institusional çərçivəyə salınması da vacibdir.

Beynəlxalq əlaqələrin gücləndirilməsi və rəqəmsal marketinq strategiyalarının optimallaşdırılması Azərbaycan üçün mühüm imkanlar yarada bilər. Ölkə sağlamlıq turizmini tanıtmaq məqsədilə qlobal turizm sərgilərində, beynəlxalq forumlarda və ixtisaslaşmış B2B tədbirlərdə daha fəal iştirak etməlidir. Rusiya, Yaxın Şərq və Orta Asiya ölkələrinə istiqamətlənmiş çoxkanallı reklam kampaniyaları yerli sosial-mədəni xüsusiyyətlərə uyğun şəkildə hazırlanmalıdır.

Bununla yanaşı, fiziki infrastrukturun beynəlxalq standartlara uyğunlaşdırılması da prioritet məsələlərdəndir. Naftalan, Qalaaltı, Duzdağ və İstisu kimi bölgələrdə yol-nəqliyyat sistemi, yerləşdirmə obyektləri və sanitar-logistika şəbəkələri təkmilləşdirilməlidir. Eyni zamanda, bütün turizm obyektlərində universal dizayn prinsipləri tətbiq olunmalı və xidmətlər fiziki məhdudiyyətli və yaşlı pasiyentlər üçün əlçatan olmalıdır. Reabilitasiya mərkəzlərində isə fərdiləşdirilmiş və xəstə yönümlü xidmət modellərinin tətbiqi təşviq edilməlidir.

İnvestisiya təşviqləri və maliyyə dəstəyi mexanizmləri də bu sahənin inkişafında mühüm rol oynaya bilər. Sağlamlıq turizminə yönəlik ixtisaslaşmış fondların yaradılması, vergi güzəştlərinin tətbiqi və startap təşəbbüslərinin (xüsusilə medtech və fintech sahəsində) dəstəklənməsi sektorun dinamizmini artırar. Eyni zamanda, beynəlxalq sərmayənin cəlb edilməsi üçün gömrük və mülkiyyət sahəsindəki inzibati prosedurlar sadələşdirilməli, xarici investorlar üçün şəffaf və stabil mühit təmin olunmalıdır.

**Nəticə**

Aparılmış araşdırmanın nəticələri göstərir ki, Azərbaycan müalicə-sağlamlıq turizminin inkişafı üçün əlverişli təbii resurslara, strateji coğrafi mövqeyə, inkişaf edən səhiyyə infrastrukturuna və müasir texnoloji imkanlara malikdir. Xüsusilə Naftalan, İstisu, Qalaaltı və Duzdağ kimi müalicəvi ərazilər ölkənin bu sahədə fərqlənməsinə şərait yaradır. Eyni zamanda dövlət tərəfindən həyata keçirilən strateji sənədlər və təşviq mexanizmləri sektorun uzunmüddətli inkişafını təmin edən əsas vasitələr kimi çıxış edir.

Bununla belə, sektorun qarşısında duran əsas maneələr kimi qeyri-bərabər infrastruktur paylanması, qeyri-kafi normativ tənzimləmə, ixtisaslı kadr çatışmazlığı və zəif beynəlxalq brendləşmə qabiliyyəti göstərilə bilər. Bu problemlərin aradan qaldırılması üçün kompleks islahatlar və koordinasiya olunmuş idarəetmə yanaşması zəruridir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı. 2016.
2. M.Vəliyeva, M.İbrahimova. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı. Bakı. 2009.
3. Ofelya Mazanova. The Rol of Information Technologies in Industrial of Tourism.
4. Azerbaijan Tourism Board. (2023). Health and medical tourism in Azerbaijan. Retrieved from https://azerbaijan.travel
5. State Tourism Agency of the Republic of Azerbaijan. (2022). Strategic Road Map for the Development of Specialized Tourism. Baku: State Tourism Agency.

## QONAQPƏRVƏRLİK SAHƏSİNDƏ TÜRKİYƏ TƏCRÜBƏSİNİN ÖYRƏNİLMƏSİ VƏ ÖLKƏMİZDƏ TƏTBİQ İMKANLARI

**Əli Valeh oğlu Ərəbli**
bakalavriat tələbəsi
ali.arabli@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *qonaqpərvərlik, Türkiyə təcrübəsi, marketinq və brendinq strategiyaları*
***Keywords****: hospitality, turkey experience, marketing and branding strategies*
***Ключевые слова****: гостеприимство, опыт турции, стратегии маркетинга и брендинга*

Türkiyə sadəcə “dəniz-qum-günəş” turizmi ilə məhdudlaşmır. Onlar mədəni turizm (İstanbul, Kapadokya, Efes), sağlamlıq turizmi (termal sular, tibbi turizm), kənd turizmi, qış turizmi (Uludağ, Erciyes), qastronomik turizm və macəra turizmi kimi geniş çeşiddə məhsullar təklif edir. “Türkiyə: Qonaqpərvərliyin Vətəni” kimi qlobal kampaniyalarla qardaş ölkə özünü beynəlxalq səviyyədə uğurla tanıtmışdır. Onlar hədəf bazarlarda aktiv şəkildə iştirak edir, rəqəmsal marketinqə böyük sərmayələr yatırır. Turizm peşə məktəbləri və universitetləri vasitəsi ilə yüksək ixtisaslı işçi qüvvəsi yetişdirilir. Xidmət keyfiyyəti, xüsusilə otelçilik və iaşə sahəsində yüksək standartlara cavab verir. Turizmə strateji sahə kimi yanaşır və bu sahəyə böyük investisiyalar qoyur, vergi güzəştləri və kredit imkanları ilə sahibkarları dəstəkləyir. Böyük otel zəncirləri və turizm şirkətləri, o cümlədən beynəlxalq brendlər burada geniş fəaliyyət göstərir. Özəl sahənin dinamikliyi və rəqabət mühiti xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olur. Türk insanının qonaqpərvərliyi təbii və səmimidir, bu da turistlər üçün xoş təəssürat yaradır ki, bu da marketinq strategiyasının əsas elementlərindən biri hesab olunur.

Ölkəmizin qonaqpərvərlik sahəsinin Türkiyə təcrübəsindən faydalanması üçün bir sıra istiqamətlər mövcuddur ki, bunları aşağıdakı kimi təsnifləşdirmək olar:

- Qastronomik turizm – ölkəmizin zəngin mətbəxi, qədim kulinariya ənənələri var. Qardaş ölkədə olduğu kimi, bölgələrə xas qastronomik turlar, kulinariya master-klassları, yerli məhsulların (məsələn, Lənkəran çayı, Şəki halvası, Quba alması) təbliği gücləndirilməlidir.
- Sağlamlıq və spa turizmi - Naftalan nefti, İstisu, Duzdağ kimi unikal müalicəvi ehtiyatlar əsasında sağlamlıq turizminin beynəlxalq səviyyədə təbliği. Bu sahədə mövcud infrastrukturu modernləşdirmək və yeni, müasir spa mərkəzləri yaratmaq lazımdır.
- Kənd və ekoturizm - kəndlərdə qonaq evlərinin sayının artırılması, yerli əhalinin turizm fəaliyyətinə cəlb edilməsi, kənd həyatının və təbiətin təbliği. Qəbələ, Şamaxı, Quba, Lənkəran kimi bölgələrdə bu potensial böyükdür.
- Dini turizm – ölkəmizin dini məkanları (məsələn, İçərişəhər məscidləri, Bibiheybət məscidi, Quba Qırmızı Qəsəbəsinin sinaqoqları) dini turizm üçün cəlbedici ola bilər. Türkiyənin bu sahədəki təcrübəsindən (məsələn, Mevlana türbəsi, Ayasofya) öyrənmək olar.

Kadr hazırlığı və xidmət keyfiyyətinin yüksəldilməsi üçün isə peşə təhsili müəssisələrinin gücləndirilməsi mühimdir. Belə ki, turizm kolleclərinin və universitetlərinin proqramlarını qardaş ölkənin uğurlu təhsil müəssisələrinin proqramları ilə uyğunlaşdıraraq oradan mütəxəssisləri cəlb edərək yerli kadrlar üçün təlimlər keçirmək. Dil biliklərinin artırılması üçün isə xüsusilə ingilis və ərəb dillərində ünsiyyət qabiliyyətini yaxşılaşdırmaq. Xidmət sahəsində çalışan hər kəsə (hotellər, restoranlar, nəqliyyat, bələdçilər) “qonaqpərvərlik mədəniyyəti”nin əsaslarını öyrədən sistemli təlimlər keçirilməlidir. Qardaş ölkədəki səmimi qonaqpərvərlik ölkəmiz üçün də bir “brend” amili ola bilər.

Marketinq və brendinq strategiyaları üçün hədəf bazarlara istiqamətlənmiş fərqli kampaniyalar olmalıdır. Belə ki, hər bir hədəf bazarın (Körfəz ölkələri, Rusiya, Avropa, Asiya) tələblərinə uyğun fərqli marketinq mesajları hazırlamaqdır. Rəqəmsal marketinqin gücləndirilməsi üçün sosial media, influencer marketinqi, beynəlxalq turizm portalları vasitəsilə ölkəmizin daha geniş şəkildə tanıdılması. Türkiyənin “Go Türkiye” platforması kimi vahid rəqəmsal platformanın yaradılması lazımdır. “Mədəniyyət Turizmi” vurğusu adı altında ölkəmizin qədim tarixi və zəngin mədəniyyətinin (İçərişəhər, Şəki Xan Sarayı, Qobustan, Atəşgah, Yanardağ) marketinq kampaniyalarında ön plana çıxarılmalıdır.

Özəl sahənin stimullaşdırılması və dövlət dəstəyi baxımından turizmə investisiya qoyan yerli və xarici şirkətlər üçün vergi güzəştləri, kredit imkanları və digər stimullaşdırıcı tədbirlərin genişləndirilməsi, bu sahədə sahibkarlığın inkişafı üçün lisenziyalaşdırma və icazə proseslərinin sadələşdirilməsi, kənd turizmi və digər sahələrdə fəaliyyət göstərən kiçik və orta sahibkarlara maliyyə və texniki dəstək göstərilməsi yaxşı olar.

Türkiyə Respublikasının bir çox şəhərlərindən (İstanbul, Ankara, Antalya, İzmir) birbaşa uçuşların sayının artırılması, regional hava limanları (Qəbələ, Lənkəran, Gəncə, Naxçıvan) vasitə-

silə beynəlxalq uçuşların təşviqi, həmçinin qonşu ölkələrlə (Gürcüstan, İran, Rusiya) quru nəqliyyat əlaqələrinin asanlaşdırılması ilə nəqliyyat imkanlarını genişləndirilmək olar. Müxtəlif xidmətləri (avia bilet, otel, transfer, ekskursiyalar) özündə birləşdirən "hamısı bir yerdə" tur paketlərinin hazırlanması və beynəlxalq tur operatorları vasitəsilə təklif edilməsi Türkiyənin təcrübəsində olduğu kimi ölkəmizdə də olması çox yaxşı effekt verər.

Azərbaycan turizm sektorunda yetərli təcrübəyə malik olmadığına görə dünya ölkələrinin turizm təcrübələrini araşdırmaq lazımdır. Çünki, yaranacaq fors-major hallardan müsbət nəticə ilə çıxmaq üçün dərindən bu ölkələrin təcrübələrini öyrənmək lazımdır. Düşünürəm ki, Türkiyənin turizm təcrübəsini öyrənmək və bu təcrübələri Azərbaycan turizminə tətbiq etmək daha aktualdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Akın A., (2018) Turizm coğrafyası, Ekin kitabevi yayınları, 410 s.
2. Bahar O., Kozak M., (2013) Turizm Ekonomisi, Eskişehir, Anadolu Üniversitesi, 632 s.
3. Uluslararası turizmde Avrupa turizminin yeri ve türk turizm ilişkilerinin değerlendirilmesi, Istanbul 2006

## NAFTALAN KURORT MƏRKƏZLƏRİ VƏ ONLARIN TƏQDİM ETDİYİ XİDMƏTLƏR

**Natiqə Samir qızı Hüseynova**
natiqa.huseynova@mdu.edu.az
*Elmi rəhbər: Lalə Akif qızı Əhmədova*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri*

***Açar sözlər:*** *turizm, müalicə və sağlamlıq turizmi, kurort mərkəzləri, Naftalan nefti*
***Keywords:*** *tourism, medical and health tourism, resort centers, Naftalan oil*
***Ключевые слова:*** *туризм, лечебно-оздоровительный туризм, курортные центры, нафталанская нефть*

### Giriş

Dünyada sağlamlıq turizminə tələbat getdikcə artmaqdadır. Bu turizm növü məkanları müalicə ilə yanaşı, xüsusi qulluq və digər xidmətlər də təklif edir. Ümumiyyətlə, sağlamlıq üçün səyahət edən turistlər ölkə daxilində və xarici ölkələrdə xüsusi sağlamlıq kursları keçməyə və yaxud müxtəlif təbii üsullarla müalicələr almağa üstünlük verirlər.

Səyahət etmək fikriylə yaşadığı yerdən kənarda, xarici ölkədə müalicə alan insanların hərəkəti sağlamlıq turizm anlayışını ortaya çıxardır. Hazırda sağlamlıq turizmi baxımından tanınan ölkələrə ABŞ, Kosta Rika , Sinqapur, Hindistan, Malaziya, Almaniya, Meksika, Güney Afrika, Brazilya və Tailand aiddir [1].

### Tədqiqatın məqsədi

aftalan nefti dünyada analoqu olmayan müalicəvi xüsusiyyətlərə malikdir. Bu xüsusiyyət regionu müalicə və sağlamlıq turizminin mühüm mərkəzinə çevirir. Dünyanın müxtəlif ölkələrindən, xüsusilə də MDB ölkələri və Yaxın Şərq regionundan gələn turistlər müalicə-sağlamlıq və tibbi məqsədlərlə Naftalan kurort mərkəzlərinə səfər edirlər.

Bu tədqiqatın məqsədi Naftalan kurort mərkəzlərinin turizmin inkişafında rolunu araşdırmaq, onların mövcud potensialını dəyərləndirmək və beynəlxalq sağlamlıq turizmi bazarında rəqabət qabiliyyətinin artırılması üçün strategiyalar təklif etməkdir.

### Təhlil və müzakirə

Naftalanın kurort mərkəzləri Azərbaycanın turizm sektorunun ən özünəməxsus və ən diqqətçəkən sahələrindən biridir. Bu kurortlar, dünyada nadir rast gəlinən və müalicəvi xüsusiy-

yətləri elmi şəkildə sübut olunmuş Naftalan nefti ilə müalicə xidmətləri təqdim etməklə fərqlənir (cədvəl 1).

**Cədvəl 1**

**Naftalan sağlamlıq mərkəzlərində təklif edilən xidmətlər**

| Sanatoriyanın adı | Qiymət (1nəfər/gecə) | Təklif edilən xidmətlər |
|---|---|---|
| Karvan Sanatoriyası | Qiymət mövsümə görə dəyişir | Naftalan vannaları, masaj, fizioterapiya, müasir otaqlar, spa mərkəzi, restoran, idman zalı, Wi-Fi. |
| Naftalan Sağlamlıq Mərkəzi | Qiymət mövsümə görə dəyişir | Naftalan vannaları, fizioterapiya, masaj, idman zalı, ekskursiyalar, laborator müayinələr, 7 günlük müalicə paketləri, 3 dəfə qidalanma. |
| Möcüzəli Naftalan | 35–50 AZN | Naftalan vannaları, masaj, fizioterapiya, maqnitoterapiya, solyuks terapiyası, Wi-Fi, restoran, 3 dəfə qidalanma. |
| Nur Naftalan | 55 AZN və yuxarı | Naftalan vannaları, 12 növ fizioterapiya, masaj, parafin terapiyası, həkim müayinəsi, laborator analizlər, 3 dəfə qidalanma, spa mərkəzi, Wi-Fi. |
| Gəncə-Naftalan Sağlamlıq Mərkəzi | Qiymət mövsümə görə dəyişir | Naftalan vannaları, duz otağı, kedr boçkası, ozonoterapiya, hidroterapiya, hirudoterapiya, həkim müayinəsi, fitoterapiya, idman zalı, ekskursiyalar. |
| Chinar Hotel & Spa | 145 AZN | Naftalan vannaları, spa mərkəzi, idman zalı, restoran, Wi-Fi, 3 dəfə qidalanma. |
| Garabagh Resort & SPA | 171 AZN | Lüks spa xidmətləri, restoran, Wi-Fi, 3 dəfə qidalanma, ekskursiyalar. |
| Gold Naftalan | 93 AZN | Naftalan vannaları, spa mərkəzi, idman zalı, restoran, Wi-Fi, 3 dəfə qidalanma. |
| Sun City Hotel & Spa | 94 AZN | Naftalan vannaları, spa mərkəzi, idman zalı, restoran, Wi-Fi, 3 dəfə qidalanma. |
| Nafta SPA Hotel | 90 AZN | Naftalan vannaları, spa mərkəzi, idman zalı, restoran, Wi-Fi, 3 dəfə qidalanma. |
| Kəpəz Sanatoriyası | 60 AZN | Naftalan vannaları, fizioterapiya, masaj, idman zalı, ekskursiyalar, 3 dəfə qidalanma. |

***Mənbə:*** Cədvəldəki məlumatlar "Naftalan kurort" portalının rəsmi internet resursuna (https://kurortnaftalan.com/) istinad müəllif tərəfindən hazırlanmışdır**.**

**Chinar Hotel & Spa**

**"**Çinar" sanatoriyası 1982-ci ildən fəaliyyət göstərir. Chinar Health Hotel ən son tibbi-texnoloji avadanlıqlarla təchiz edilmiş, peşəkar otel personalı və tibbi heyət tərəfindən xidmət göstərilən müasir müalicə-istirahət kompleksidir. 1982-ci ildən bəri fəaliyyət göstərən müalicə-istirahət kompleksi özündə 170 müxtəlif kateqoriyalı otel nömrələrini, Poliklinika, Naftalan Terapiya Mərkəzi, Fizioterapiya və SPA bölmələrini birləşdirir. Naftalan neftinin tibbi faydaları dünyada unikallığına görə tanınır və Chinar Health Hotel bu təbii resursdan maksimum fayda almaq üçün ən son tədqiqatları və təcrübəni əks etdirir [6].

Müalicə mərkəzində prezident suit, deluxe, ekskluziv suit, standart, premium otaqlar, deluxe və king suitləri şəklində 170 otaq var. Otel binası ilə yanaşı kompleksdə restoran, bar, park, idman zalı, qapalı hovuz və uşaq meydançası da var. Sanatoriyada allergik demartit, Bexterev xəstəliyi, psoriaz, artrit, artroz, osteoxondroz, podaqra və radikulit kimi xəstəliklərin müalicəsi həyata keçirilir.

**Gashalti Health Hotel Naftalan**

8,5 ha ərazisi olan Qaşaltı kompleksdə otel binası, fitnes mərkəzi, əyləncə mərkəzi, mini stadion və 3 Villa yerləşir. Otel 342 yerlik olmaqla 165 otaqdan (Ekonom, Standart, Junior Suit,

Deluxe Suit, Premium Suit otaqlar) ibarətdir. Burada göstərilən xidmətlərin əsasını dünyada analoqu olmayan Naftalan nefti ilə aparılan müalicələr təşkil edir. Giriş edən qonaqların aldıqları paketə həkim müayinələri, laborator müayinələr, USM, həmçinin naftalan vannaları və müxtəlif növ fizioprosedur xidmətləri daxildir. Oteldə zərbə dalğa terapiya, sualtı dartma, sualtı masaj, UFB terapiya, pnevmapunktura, kosmetoloji və dermatoloji olaraq saç, üz və oynaqlar üçün plazmaliftinq, mezoterapiya, pilling, xalların və papilomaların koaguliyası xidmətləri, bundan əlavə karbon vannası, 4 kameralı vanna xidmətləri mövcuddur. Fitnes və əyləncə mərkəzində boulinq, bilyard, stolüstü tennis, kiçik uşaqların əylənməsi üçün guşə, 3D kinoteatr və canlı musiqi səhnəsi, yarımolimpik hovuz, idman zalı, türk hamamı, sauna və buxar otağı istirahəti daha da unudulmaz edir [7].

**Garabagh Resort & SPA**

2014-cü ildə fəaliyyətə başlayan və açılışında ölkə başçısı, Cənab İlham Əliyevin şəxsən iştirak etdiyi “Garabag SPA and Resort” regionun inkişafına xüsusi töhfə verdi. Oteldə çalışan işçi heyətin böyük hissəsi yerli əhalidir və oteldə 264 yerlik bütün zəruri avadanlıqla təchiz olunmuş 132 otaq var. “Garabagh Resort & SPA”-da əzələ və skelet sistemi, dəri xəstəlikləri və bir çox digər xəstəliklər üçün müxtəlif sahələrdə müalicələri həyata keçirmək üçün peşəkar tibb işçiləri var.

Müalicə seanslarında ən son tibbi avadanlıq və texnologiyadan istifadə edilir. Oteldə qalmaq və tibb imkanlarından başqa, tennis, bilyard, stolüstü tennis, velosipedlər, hovuz, idman zalı kimi məşğuliyyətlər və uşaqlar üçün oyun meydançası da var. Oteldə Executive Suite, Grand Deluxe Room (King & Twin), Junior Suite (King & Twin) və Deluxe Room (King & Twin) kateqoriyalı otaqlar turistlərə təqdim olunur.

**Park Naftalan Sanatoriyası**

1 ha ərazidə yerləşən Park Naftalan 10 mərtəbəli, 176 yerlik olmaqla 88 otaqdan ibarətdir. Sanatoriyada poliklinika, restoran, kafe-bar, terras-restoran, fitness mərkəzi, sauna, fin və türk hamamı mövcuddur. Tibbi müayinə və müalicə üçün ginekologiya, kardiologiya, laboratoriya, hərəkət orqanlarının xəstəlikləri, dəri xəstəlikləri və USM şöbələri fəaliyyət göstərəcək. Sanatoriyada 8 vanna otağı, Naftalan terapiya, Termoterapiya, Puvaterapiya, SPA, Lazerterapiya, Fizioterapiya, Reabilitasiya, Elektroterapiya və Hidrokalon terapiya müalicə növləri mövcuddur.

**Gold Naftalan**

1,5 ha ərazidə yerləşən 288 yerlik olmaqla 145 otaqdan ibarət, ən son tibbi avadanlıqlarla təchiz edilmiş müasir müalicə-istirahət kompleks Gold Naftalan-dır. Kompleks özündə Poliklinika, Naftalan Terapiya Mərkəzi, Fizioterapiya və SPA bölmələrini birləşdirir. Naftalan Terapiya Mərkəzi 21 vanna otağından ibarətdir. Vanna otaqlarından 19-u naftalan, 2-si isə aroma və mineral vannalar üçündür. Fizioterapiya şöbəsində xəstələrin naftalan vannalarına parallel olaraq Fizioterapiya prosedurları ilə müalicəsi aparılır. Bu prosedurlara ozonoterapiya, elektrote-rapiya, lazerterapiya, maqnitoterapiya, hidrokolonoterapiya, masaj manipulyasiya-traksiya, infraqır-mızı şüalanma, parafin, xüsusi inyeksiyalar və xüsusilə iynəbatırma daxildir. SPA hissəsində klassik və skrab masaj xidmətləri göstərilir. Həmçinin mərkəzdə Himalay dağlarından gətirilmiş xüsusi daşlardan ibarət duz otağı da mövcuddur. Poliklinika bölməsi Kardiologiya, Urologiya, Ginekologiya, Nevropatologiya, USM, Dermatologiya, Laboratoriya, LOR həkim müayinəsi, Terapevt müayinəsi, Təcili Yardım şöbələrindən ibarətdir. Qonaqların asudə vaxtının daha səmərəli keçirilməsi üçün açıq və qapalı hovuz, mini stadion, idman qurğuları mövcuddur [5].

**Sun City Hotel & Spa Naftalan**

Sanatoriya həm yerli, həm də xarici qonaqlara sağlamlıq turizminin geniş spektrini təqdim edən müasir bir müalicə-istirahət mərkəzidir. Müalicəvi neftin (Naftalan neftinin) tətbiqi ilə aparılan prosedurlar bu sanatoriyanın əsas fərqləndirici xüsusiyyətidir. Müasir tibbi avadanlıqlarla təchiz olunmuş mərkəzdə sağlamlıq imkanlarının genişliyi, peşəkar həkim heyəti və yüksək səviyyəli xidmətlər qonaqlara həm müalicə, həm də istirahət fürsəti yaradır.

Sanatoriyada həmçinin ozonoterapiya, fitoterapiya və aromaterapiya kimi alternativ və tamamlayıcı müalicə üsulları da mövcuddur. Ozonoterapiya bədənin immun sistemini gücləndir-

məyə yönəlmiş təbii üsullardan biridir. Xüsusilə xroniki yorğunluq, tənəffüs sistemi pozğunluqları və dəri xəstəliklərində təsirli olduğu sübut edilmişdir. Fitoterapiya zamanı isə xəstələrə təbii bitki tərkibli çaylar və damcılar təyin olunur ki, bu da orqanizmin zərərsiz şəkildə təmizlənməsinə və balanslaşdırılmasına kömək edir [2].

**“Möcüzəli Naftalan” sanatoriyası**

Bu sanatoriya regionun məşhur müalicəvi nefti ilə birbaşa əlaqəli sağlamlıq turizminə yönəlmiş xidmətləri ilə seçilir. Sanatoriya, müalicə və reabilitasiya sahəsində uzunmüddətli təcrübəyə malik olmaqla yanaşı, həm yerli, həm də beynəlxalq turistlərə yüksək səviyyədə xidmət göstərmək üçün infrastruktur və tibbi imkanlarla təchiz olunmuşdur. Burada təqdim edilən sağlamlıq xidmətləri insan sağlamlığını bərpa etməyə, xroniki xəstəliklərin qarşısını almağa və ümumi həyat keyfiyyətini artırmağa yönəldilmişdir. Vanna seansları hər bir pasiyentin tibbi göstəricilərinə uyğun olaraq fərdi şəkildə müəyyən edilir və adətən 10-15 günlük kurslarla tətbiq olunur.

Möcüzəli Naftalan sanatoriyası həm də xüsusi bərpa və profilaktik terapiyalar təklif edir. Buraya maqnitoterapiya, solyuks terapiyası, parafin terapiyası və ultrabənövşəyi şüalarla müalicə daxildir. Parafin terapiyası əzələlərin dərin qatlarına təsir göstərərək iltihabı azaldır və toxuma elastikliyini artırır. Bu prosedur xüsusilə revmatizm, artroz və artrit kimi xəstəliklərdə geniş tətbiq olunur. Solyuks terapiyası isə infraqırmızı şüalanma yolu ilə orqanizmin lokal nahiyələrinə təsir göstərir və toxuma qızdırılması nəticəsində müalicəvi effekti təmin edir [4].

Sanatoriyada eyni zamanda ümumi sağlamlıq müayinələri, laborator analizlər, USM (ultrasəs müayinəsi), EKG (elektrokardioqram) və digər diaqnostik xidmətlər də təqdim olunur. Bu xidmətlər müalicənin dəqiqliyini və effektivliyini artırmaq məqsədi ilə həyata keçirilir. Pasiyentin ilkin diaqnostikasından sonra onun üçün uyğun müalicə protokolu hazırlanır və bütün müalicə müddətində dinamik nəzarət təmin olunur [3].

**Nəticə**

Aparılan araşdırmalar nəticəsində məlum oldu ki, turizmin inkişafında kurort-sağlamlıq müəssisələrinin rolu təkcə iqtisadi göstəricilərlə deyil, həm də sosial rifahın yüksəldilməsi, məşğulluğun artırılması və sağlam həyat tərzinin təşviqi baxımından əhəmiyyətlidir. Naftalan kurort mərkəzləri Azərbaycan sağlamlıq turizminin simvollarından biri olmaqla, ölkənin turizm brendi kimi tanınmasında mühüm yer tutur. Onların təqdim etdiyi neft vannası terapiyası dünya miqyasında unikal sayılır və bu sahədə elmi araşdırmaların aparılması, tibbi effektivliyin sübut edilməsi Naftalanın beynəlxalq bazarda rəqabət qabiliyyətini artırır. Şəhərdə fəaliyyət göstərən sanatoriya və istirahət komplekslərinin sayı artmaqdadır, müasir tələblərə uyğunlaşma səviyyəsi yüksəlir. Araşdırma göstərdi ki, mövcud imkanlardan səmərəli istifadə edilməklə Naftalan yalnız region daxilində deyil, dünya sağlamlıq turizmi bazarında da mühüm mərkəzə çevrilə bilər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. H.Ömer Tontuş. “Dünyada sağlık turizmi”. Saturk yayını
2. Sun City Naftalan Sanatorium 4* URL: https://naftalan.city/index.php?newsid=103
3. Möcüzəli Naftalan sanatoriyası URL: https://kurort.az/to_book/mocuz%C9 %99li-naftalan-sanatoriyasi/
4. Mocuzeli Naftalan Sanatorium URL:https://naftalan.city/index.php?newsid=45
5. https://goldnaftalanhotel.az/ru
6. https://chinarhotel.az/about
7. https://gashalti.az/az

# QUBA-XAÇMAZ İQTİSADİ RAYONUNDA XÜSUSİ MÜHAFİZƏ OLUNAN ƏRAZİLƏRİ VƏ ONLARIN EKOTURİZM İMKANLARI

**Mehdi Məzahir oğlu Abasəliyev**
bakalavriat tələbəsi
mehdi.abasaliyev@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəlimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Məcara turizmi, dəniz şirləri və delfinlər, xarici ölkə nümunələri*
***Keywords***: *Adventure tourism, sea lions and dolphins, foreign country examples*
***Ключевые слова***: *Приключенческий туризм, морские львы и дельфины, примеры зарубежных стран*

Quba-Xaçmaz iqtisadi rayonu Azərbaycanın şimal-şərq hissəsində 40° 52′ - 41° 50′ şimal en dairəsi ilə 48° 05′ - 49° 22′ şərq uzunluq dairəsi arasında yerləşir. Quba-Xaçmaz iqtisadi rayonunun ərazisi 6,96 min km² olmaqla ölkə ərazisinin 8,1 %-ni, əhalisi 543,8 min nəfər (2021-ci il) olmaqla ölkə əhalisinin 5,4 %-ni təşkil edir. Əhalinin orta sıxlığı hər km² -də 78 nəfərdir. Ərazidə məskunlaşma amplitudası (2428 metr) isə -28 m-dən (Xaçmaz rayonu) 2400 m-ə (Quba rayonu, Xınalıq kəndi) qədər olan əraziləri əhatə edir. İqtisadi rayon ərazisində 6 şəhər, 21 qəsəbə, 474 kənd yaşayış məntəqəsi yerləşir.

Quba-Xaçmaz iqtisadi rayonunun təbii rekreasiya ehtiyatları ilə yanaşı, qədim etno-turizm cəhətdən daha cəlbedici olan kiçik kəndləri də vardır. Onların içərisində Xınalıq kəndi xüsusilə seçilir. Xınalıq kəndinə gedən yolun 2006-cı ildə ölkə prezidentinin göstərişi ilə tikilib istifadəyə verilməsi isə kəndə gələn turistlərin sayının kəskin artmasına səbəb olmuşdur. Belə ki, Qəçrəş meşəsi və yolun üzərində yerləşən kəndlərində (Qəçrəş, Qızılqazma, Küsnətqazma, Qırızdəhnə və s. kəndlərində) fəaliyyət göstərən kiçik turist istirahət obyektlərinə (Retro, Aynur, Xal-xal, Terras, Quba, Nazlı bulaq, Məst Dərğah, Minarə və s. istirahət mərkəzləri) gələn turistlərin sayı artmışdır.

Zəngin təbii və tarixi mədəniyyət abidələrinə malik olan iqtisadi rayonun ərazisinə düşən Xızı-Siyəzən-Şabran-Xaçmaz-Quba-Qusar marşrutuna; Böyük Qafqazın yüksək dağlarından Şahdağ, Tufandağ, Beşbarmaq qayası və Müdafiə səddinin qalıqları (III-Vəsr), qədim Şabran şəhərinin xarabalıqları, Gilgilçay istehkamlar kompleksi, Çıraqqala (V əsr), Yalama və Nabranın sahil zonası, Şahdağ Milli Parkının bir hissəsi, Təngəaltı dərəsi, Qəçreş meşəsi, Afurca şəlaləsi (Quba), Şahnabat və Ləzə şəlalələri (Qusar), Dini abidələr, Cümə məscidi (XII ci əsr), Xınalıq kəndi, Quba məzarlığı (2007-ci il), Qusarda “Şahdağ qış-yay istirahət kompleksi” (2012-ci il), xalçaçılıq muzeyləri, təbii və tariximemarlıq abidələri aiddir.

İqtisadi rayonun rekreasiya-turizm məqsədi ilə istifadə edilən əsas bölgəsi Yalama-Nabran zonası hesab edilir. Yalama-Nabran zonası sanatoriya, kurort-rekreasiya ocaqları, turizm obyektləri, mehmanxana və mehmanxana tipli müəssisələr ilə daha çox təmsil olunmuşdur. Burada istirahət və əyləncə məqsədi ilə gələn turistlər çoxluq təşkil edir. Ərazi özünəməxsus meşə-rekreasiya ehtiyatları ilə zəngindir. Dəniz və meşənin bir arada olduğu bu təbiət möcuzəsini amerikalı mütəxəssisçiləri Yalama-Nabran zonasını 2004-cü “İlin ən gozəl istirahət zonası” elan etmişdi.

Quba-Xaçmaz iqtisadi rayonunda turistləri rekreasiya-turizm baxımından daha çox cəlb edən xüsusi mühafizə olunan təbiət ərazilərindən Şahdağ Milli Parkı və Samur-Yalama Milli Parkı yerləşir.

Şahdağ Milli Parkı ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, biomüxtəlifliyin, o cümlədən nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədi ilə ölkəmizin İsmayıllı, Quba, Qusar, Qəbələ, Oğuz və Şamaxı rayonlarının inzibati ərazilərində Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 8 dekabr

tarixli, 1814 nömrəli Sərəncamına uyğun olaraq yaradılmışdır. Şahdağ Milli Parkı Cənubi Qafqazın, o cümlədən Azərbaycanın ən böyük milli parkıdır. Böyük Qafqaz dağlarının orta və yüksək dağlıq hissəsini əhatə edən milli parkın sahəsi hazırda 130508,1 hektar təşkil edir. Milli park ölkə ərazisində altı inzibati rayonun - Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı, Quba və Qusarın dağlıq hissələrini əhatə edir. Şahdağ Milli Parkının yerləşdiyi Böyük Qafqaz dağları respublikanın hidroqrafik şəbəkəsinin formalaşmasında mühüm rol oynayır. Baş Qafqaz silsiləsinin cənub yamacının əsas çayları Daşağılçay, Filfilliçay, Tikanlıçay, Dəmiraparançay, Göyçay, Girdimançay, Ağsuçay və onların qollarıdır. Şimal-şərq və cənub-şərq yamacı ilə axan əsas çaylar isə Qusarçay, Qudyalçay, Qaraçay, Ağçay, Vəlvələçay, Gilgilçay və Pirsaatçaydır. Ərazidə yayılmış əsas torpaq tipləri ibtidai və torflu dağ-çəmən, çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə, dağ qara və subasar allüvial-çəmən torpaqlarıdır. Daha yüksək dağlıq ərazilər qaya çıxıntıları ilə örtülmüşdür. Ərazinin bitki örtüyü alp çəmən və xalıları, subalp çəmənləri və hündürotluğu, dağ çəmənləri və çəmən bozqırları, meşələr və kolluq formasiyaları ilə təmsil olunur. Şərq palıdı, Qafqaz vələsi, Şərq fıstığı, göyrüş, qaraçöhrə, ağcaqayın, söyüd, yunan qozu, gilas, alma, armud, əzgil, yemişan, böyürtkan, itburnu, zirinc və s. kimi bitki növlərinə, Şərqi Qafqaz turu, çöl donuzu, çaqqal, dovşan, dələ, canavar, tülkü, yenot, gəlincik, porsuq, alabaxta, bildirçin və s. kimi heyvan növlərinə ras gəlinir. Milli parkın ərazisində rast gəlinən Qonur ayı, nəcib maral, Avropa cüyürü, Qafqaz köpgəri, vaşaq, bərqud qartal, imperator qartalı, Qafqaz tetrası, Qafqaz uları və s. növlər isə "Qırmızı kitab"a daxil olmuşdur.

Hər fəsildə füsunkar gözəlliyə malik olan Şahdağ Milli Parkında təbiət gözəlliyinin rəngarəngliyi, bitki və heyvanlar aləminin zənginliyi ekoturizm fəaliyyətinin təşkili və inkişafına, o cümlədən, əraziyə yerli və xarici turistlərin cəlb edilməsinə şərait yaradır. Milli Parka son beş ildə gələn turist sayı aşağıdakı Cədvəl 1-də qeyd edilmişdir.

**Cədvəl 1**

**Şahdağ Milli Parkına 2021-2025-ci illər arasında səfər edən turistlərin sayı**

| **Şahdağ Milli Parkına illər üzrə səfər edən turistlərin sayı** | | | | |
|---|---|---|---|---|
| **2021-ci il** | **2022-ci il** | **2023-cü il** | **2024-cü il** | **2025-ci ilin I rübü** |
| 12167 | 15429 | 9728 | 12064 | 1183 |

Zəngin biomüxtəlifliyə malik Şahdağ Milli Parkında 45 marşrut fəaliyyət göstərir ki, turistlər də bu marşrutlar boyunca unikal təbiət mənzərələrini seyr edir və asudə vaxtlarını səmərəli keçirirlər. Qeyd edilən 45 turist marşrutundan 21-i milli parkın Quba və Qusar bölmələri üzrə fəaliyyət göstərir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Soltanova H.B., Azərbaycan Respublikasında turizm və onun inkişafı. Bakı, 475 səhifə
2. Sabir Rəhimov. Turizm və ekskursiya işinin təşkili və idarə edilməsi. "Mütərcim" Bakı, 2004
3. M.M.Mahmudov, İ.M.Mahmudova "Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi". Bakı, Azərbaycan 2011.
4. Azərbaycan Respubliksasının Ekologiya və Təbii sərvətlər Nazirliyi "Azərbaycanın Milli Parkları". Bakı-2007
5. Məmmədov Q.Ş. Azərbaycanın ekoturizm potensialı: I cild. Şərq-Qərb nəşriyyatı, Bakı-2012, 360 səh.

# QARABAĞ İQTİSADİ RAYONUNDA PERSPEKTİV SAĞLAMLIQ TURİZM EHTİYATLARI

**Bahar Nail qızı Qurbanzadə**
bahar.qurbanzada@mdu.edu.az
*Elmi rəhbər: Lalə Akif qızı Əhmədova*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri*

***Açar sözlər:*** *turizm, sağlamlıq turizmi, mineral sular, təbii şərait, Qarabağ iqtisadi rayonu*
***Keywords:*** *tourism, health tourism, mineral waters, natural conditions, Karabakh economic region*
***Ключевые слова:*** *туризм, оздоровительный туризм, минеральные воды, природные условия, Карабахский экономический регион*

**Giriş**

XXI əsrdə sağlamlıq və rifah insan həyatının əsas mövzularından birinə çevrilmişdir. Bu, texnoloji inkişaf, artan maariflənmə və profilaktik səhiyyəyə yönəli maraqla sıx bağlıdır. Nəticədə, sağlamlıq turizmi qlobal bir fenomenə çevrilərək, tibbi müalicə, sağlamlıq xidmətləri və ya reabilitasiya üçün xarici ölkələrə üz tutan milyonlarla insanı cəlb edir. Sağlamlıq turizminin müxtəlifliyi bu sektorun həm tibbi zərurətə, həm də holistik rifaha yönəlmiş tələblərə cavab verə bilmə qabiliyyətini əks etdirir.

Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmasından sonra bölgənin bərpası və sosial-iqtisadi inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Bu çərçivədə turizm sektoru, xüsusilə sağlamlıq turizmi, regionun davamlı inkişafı, məşğulluğun artırılması və beynəlxalq cəlbediciliyinin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Regionda mövcud olan termal su ehtiyatları, təbii landşaftlar və təmiz iqlim şəraiti sağlamlıq turizminin inkişafı üçün geniş imkanlar yaradır. Bu səbəbdən, Qarabağ iqtisadi rayonunda sağlamlıq turizminin potensialını qiymətləndirmək və inkişaf strategiyalarını müəyyənləşdirmək elmi və praktiki baxımdan olduqca aktualdır.

**Təhlil və müzakirə**

Sağlamlıq turizmi – fərdin sağlamlıq vəziyyətinin yaxşılaşdırılması məqsədilə tibbi müdaxilə, sağlamlıq proqramları və ya reabilitasiya xidmətləri üçün təşkil olunmuş səfərlərdir. Bu, əsas məqsədin sağlamlığa yönəlməsi ilə ənənəvi turizmdən fərqlənir.

Sağlamlıq turizmi xidmət məzmunu və məqsədinə görə bir neçə əsas növə ayrılır (Qrafik 1) [1]:




**Qrafik 1.** Sağlamlıq turizminin növləri

Qarabağ iqtisadi rayonu Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonlaşdırılmasında mühüm yer tutan bölgələrdən biridir (şəkil). Bu rayonun əhatə etdiyi ərazilər tarixi, strateji, iqtisadi və mədəni baxımdan əhəmiyyətli mövqeyə malikdir. Qarabağ iqtisadi rayonu Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanı ilə yaradılmış yeni iqtisadi rayon bölgüsündə formalaşdırılmışdır və Ağdam, Füzuli, Xocavənd, Tərtər, Xocalı və Şuşa rayonlarını,

eyni zamanda Xankəndi şəhərini əhatə edir (şək. 1). Qarabağın təbii-coğrafi mövqeyi, zəngin təbii resursları, kənd təsərrüfatı potensialı, turizm imkanları və sənaye inkişafı baxımından perspektivləri bu rayonun strateji əhəmiyyətini daha da artırır [4].



**Şək. 1.** Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonlaşdırılması xəritəsi

Qarabağ iqtisadi rayonu zəngin təbii sərvətləri, əlverişli iqlim şəraiti və müalicəvi mineral bulaqları ilə sağlamlıq turizminin inkişafı üçün böyük potensiala malikdir. Bu regionun təbii resursları, xüsusilə də termal və mineral sular, müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan unikal xüsusiyyətlərə sahibdir. Əsrlər boyu bu ərazilərdə yaşayan insanlar bu suların müalicəvi xüsusiyyətlərindən faydalanmış, sovet dövründə isə bu potensial daha da inkişaf etdirilərək sanatoriya və kurort kompleksləri yaradılmışdır [3].

Şuşa şəhəri yaxınlığında yerləşən "Turşsu" mineral bulağı da müxtəlif daxili xəstəliklərin müalicəsində istifadə olunur və bu ərazidə sağlamlıq turizminin inkişafı üçün böyük potensial mövcuddur.

Qarabağ iqtisadi rayonunda sağlamlıq turizminin inkişafı üçün infrastrukturun yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması vacibdir. Füzuli Beynəlxalq Hava Limanının açılması və yeni hava limanlarının tikintisi regiona turist axınının artmasına şərait yaradacaqdır. Eyni zamanda, avtomobil yollarının və dəmir yolu xətlərinin yenidən qurulması, yeni otellərin, turizm komplekslərinin, restoran və digər ictimai iaşə obyektlərinin inşası Qarabağın turizm infrastrukturunu sürətlə inkişaf etdirir.

Qarabağ iqtisadi rayonunun sağlamlıq turizmi potensialının reallaşması regionun sosial-iqtisadi inkişafına, əhalinin rifahının yüksəlməsinə, milli-mədəni irsin qorunmasına və Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsinə mühüm töhfə verəcəkdir. Turizm, təkcə iqtisadiyyatın bir sahəsi kimi deyil, həm də Qarabağın dirçəlişində və dayanıqlı inkişafında strateji alət rolunu oynayır.

Bərdə rayonu Azərbaycanın tarixi və mədəni irsi ilə zəngin olan bölgələrindən biridir və eyni zamanda təbii resurslar baxımından da böyük potensiala malikdir. Bu resurslardan biri də bölgədə yerləşən istisudur. İstisular qədim dövrlərdən bəri müalicə məqsədilə istifadə olunmuş və xalq

təbabətində mühüm yer tutmuşdur. Bərdədəki istisular da istisna deyil. Həmin mineral bulaqların sağlamlıq turizmi çərçivəsində istifadəsi isə bu bölgənin sosial-iqtisadi inkişafına təkan verə biləcək əsas sahələrdən biri kimi qiymətləndirilə bilər [2].

Bərdədə istisuyun sağlamlıq turizmi məqsədilə istifadəsi üçün ilk növbədə onun müalicəvi təsirlərinin elmi əsaslandırılması və sanitar-epidemioloji baxımdan təhlükəsizliyinin təsdiqi vacibdir. Bu məqsədlə suyun fiziki-kimyəvi analizlərinin aparılması və nəticələrin beynəlxalq tələblərə uyğun şəkildə sənədləşdirilməsi mütləqdir. Həmçinin bu istisu resurslarının davamlı istifadəsini təmin etmək üçün ekoloji baxımdan da monitorinqlər aparılmalı, ehtiyatların tükənməsinin qarşısı alınmalıdır. Eyni zamanda, istisuyun mövcud olduğu ərazidə müasir infrastrukturun qurulması, müalicə-sağlamlıq mərkəzlərinin, istirahət və reabilitasiya komplekslərinin inşası bölgənin turizm imkanlarını genişləndirə bilər.

Sağlamlıq turizmi təkcə fiziki sağlamlığın bərpasını deyil, həm də psixoloji rahatlığın təmin edilməsini nəzərdə tutur. Bu baxımdan, Bərdədə istisu ətrafında yaradılacaq turizm obyektləri təbii landşaftla uzlaşdırılmalı, ekoloji cəhətdən dayanıqlı olmalı və müasir komfort tələblərinə cavab verməlidir. Xidmət keyfiyyətinin yüksəldilməsi, mütəxəssis heyətinin hazırlanması və marketinq tədbirlərinin həyata keçirilməsi də uğurlu fəaliyyət üçün mühüm rol oynayır. Sağlamlıq turizminin inkişafı həm yerli əhaliyə əlavə məşğulluq imkanları yarada, həm də bölgəyə daxil olan sərmayə axınını artıra bilər. Bərdənin coğrafi mövqeyi, nəqliyyat baxımından əlçatanlığı və digər turizm resursları ilə birgə təhlili göstərir ki, bu region sağlamlıq turizminin inkişafı üçün əlverişli şəraitə malikdir.

Ağdamdakı istisuyun tərkibi zəngin minerallarla, xüsusilə natrium xlorid, kalsium, maqnezium, hidrogen sulfid və silisium turşuları ilə zəngindir. Bu maddələr dərinin, oynaq və sümük sisteminin, sinir sistemi və qan dövranı xəstəliklərinin müalicəsində müsbət təsir göstərməkdədir. Mineral suların fiziki-kimyəvi xüsusiyyətləri onların müalicəvi potensialını müəyyən edən əsas amillərdəndir. Ağdam istisusu bu baxımdan həm balneoloji müalicə, həm də profilaktik istirahət üçün ideal resurs sayılır. Su tərkibinin davamlı olaraq elmi şəkildə öyrənilməsi, müalicəvi təsirlərinin sübut olunması və beynəlxalq standartlara uyğun sənədləşdirilməsi bu resursun turizm məqsədilə istifadəsinə geniş imkanlar açır.

Bölgədə sanatoriya və kurort fəaliyyətinin təşkili üçün əlverişli təbii və coğrafi şərtlər mövcuddur. Ağdam rayonunun iqlimi mülayim kontinental olmaqla, insan sağlamlığı üçün uyğun hava şəraiti təmin edir. Bu isə ilboyu sağlamlıq turizminin təşkili üçün şərait yaradır. Ərazi relyefi, təbii səssizlik, mineral bulaqların yaxınlığında yerləşməsi gələcək sanatoriya və reabilitasiya komplekslərinin uğurlu fəaliyyətinə zəmin yaradır. Ağdamda inşa ediləcək sanatoriyaların müasir tibbi xidmətlərlə təchiz olunması, eyni zamanda təbii şəraitin və ekoloji resursların qorunması ilə vəhdət təşkil etməlidir [2].

Müasir sağlamlıq turizmi sadəcə tibbi xidmətlə məhdudlaşmır. O, həm də fiziki, psixoloji və mənəvi bərpa proseslərini əhatə edir. Bu mənada Ağdamdakı sanatoriya və istirahət komplekslərində geniş spektrli xidmətlərin – palçıq vannaları, hidromassaj, aroma terapiya, fitoterapiya, fizioterapiya və pəhrizlə müalicə proqramlarının tətbiqi gözlənilən nəticələri daha da effektiv edə bilər. Bütün bu xidmətlər isə yüksək ixtisaslı tibbi heyətin, kurortologiya üzrə mütəxəssislərin və turizm menecerlərinin birgə əməkdaşlığı ilə həyata keçirilməlidir.

Xocavənd rayonunun istisu qaynaqları uzun illər ərzində təbii müalicə vasitəsi kimi yerli əhali tərəfindən istifadə olunmuşdur. Tərkibi zəngin minerallarla dolu olan bu istisu qaynaqları, müasir dövrdə sağlamlıq turizmi və sanatoriya məqsədilə istifadə oluna biləcək nadir resurslardan biri hesab olunur. Azərbaycan hökumətinin Qarabağ bölgəsinin yenidən qurulması və inkişafı üzrə həyata keçirdiyi strategiyalar çərçivəsində Xocavəndin də potensial istisu ehtiyatlarının sağlamlıq turizmi sahəsində istifadəsi aktual məsələ kimi ortaya çıxır.

İstisuların müalicəvi təsiri onların tərkibindəki təbii minerallardan qaynaqlanır. Xocavənddə yerləşən istisu mənbələrinin ilkin kimyəvi analizləri göstərir ki, bu suların tərkibində natrium, kalsium, maqnezium, sulfat, bikarbonat, yod, brom, həmçinin hidrogen sulfid və radon kimi

komponentlər mövcuddur. Belə tərkib bir çox xəstəliklərin müalicəsində və profilaktikasında faydalı hesab olunur. Ən çox rast gəlinən müalicə istiqamətləri arasında oynaq və sümük xəstəlikləri, sinir sistemi pozuntuları, dəri xəstəlikləri, bəzi ürək-damar problemləri və ginekoloji pozuntular yer alır. Mineral suların bu cür müalicəvi təsiri onların balneoloji istifadəsini mümkün edir və Xocavənd kimi bölgələrdə sanatoriya və reabilitasiya mərkəzlərinin qurulması üçün elmi əsas yaradır [2].

**Nəticə.**

Qarabağ iqtisadi rayonu zəngin təbii resursları, müalicəvi iqlim şəraiti və bərpa olunmaqda olan infrastrukturu ilə sağlamlıq turizminin inkişafı üçün geniş imkanlara malikdir. Qarabağda, xüsusilə də Şuşa, Xocavənd və digər rayonlarda mövcud olan termal su mənbələri, dağ iqlimi, ekoloji təmizlik və zəngin biomüxtəliflik bu regionu sanatoriya-kurort turizmi baxımından cəlbedici edir.

Sağlamlıq turizminin Qarabağ iqtisadi rayonunda genişlənməsi həm də sosial-iqtisadi baxımdan bir sıra mühüm nəticələr doğura bilər. İlk növbədə, yerli əhalinin məşğulluğu artar, iqtisadi fəallıq güclənər, regionun ümumi daxili məhsuluna və büdcə gəlirlərinə müsbət təsir göstərər.

Bundan əlavə, sağlamlıq turizmi infrastrukturunun inkişafı səhiyyə və xidmət sahələrinin səviyyəsinin yüksəlməsinə, regionun tibbi və reabilitasiya imkanlarının gücləndirilməsinə şərait yaradar. Bu isə yalnız xarici turistlərin deyil, həm də yerli əhalinin sağlamlıq xidmətlərindən faydalanmasına səbəb olar.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Carrera, P.M., & Bridges, J.F.P. (2006). Globalization and healthcare: Understanding health and medical tourism. Expert Review of Pharmacoeconomics & Outcomes Research, 6(4), 447–4454.
2. Тагиев И.И., Ибрагимова И.Ш., Бабаев А.М. Ресурсы минеральных и термальных вод Азербайджана. Баку: «Чашыоглу», 2011, 214 с.
3. AR İqtisadiyyt Nazirliyi. "Azərbaycanda sağlamlıq turizminin inkişaf perspektivləri" mövzusunda panel sessiya keçirilib. 2023. URL: https://economy.gov.az/az/post/1780/azerbaycanda-saglamliq-turizminin-inkisaf-perspektivleri-movzusunda-panel-sessiya-kecirilib?utm_source=chatgpt.com
4. Yeni Qarabağ iqtisadi rayonu yaradıldı. Manset.az. 2021. URL: https://www.manset.az/iqtisadiyyat/2156/yeni-qarabag-iqtisadi-rayonu-yaradildi

# AZƏRBAYCANDA MACƏRA TURİZMİNDƏ DELFİN VƏ DƏNİZ ASLANLARININ ŞOULARININ TƏTBİQ EDİLMƏSİ

**Zamiq Bəxtiyar oğlu Söyünov**
bakalavriat tələbəsi
zamiq.soyunov@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Məcara turizmi, dəniz şirləri və delfinlər, xarici ölkə nümunələri*
***Keywords****: Adventure tourism, sea lions and dolphins, foreign country examples*
***Ключевые слова****: Приключенческий туризм, морские львы и дельфины, примеры зарубежных стран*

**Giriş**

Dəniz şirləri və delfinlərinin sirklərdəki şouları dünya turizm sənayesində uzun illərdir mühüm yer tutur. Bu cür şoular həm əyləncə, həm də təhsil məqsədli təqdim olunur və xüsusilə ailəvi turistlər arasında populyarlıq qazanmışdır.

**Əsas hissə**

Delfin və Dəniz Şirləri Göstərişlərinin iqtisadi təsirləri aşağıdakılardır:

1. Dolphin Cove (Yamayka). Gəlir: 2022-ci ilin ikinci rübündə, ziyarətçi sayı 20 % artaraq təxminən 4,19 milyon ABŞ dolları gəlir əldə edilmişdir. Xərclər: Eyni dövrdə əməliyyat xərcləri 2,1 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2021-ci ilin eyni dövrü ilə müqayisədə 87 % artım deməkdir. Net mənfəət: Vergi sonrası mənfəət 1,04 milyon ABŞ dolları olmuşdur.

2. Dolfinarium Harderwijk (Niderland). Gəlir: 2012-ci ildə təxminən 12 milyon avro gəlir əldə edilib.

3. Friends of the Sea Lion (ABŞ). Gəlir: 2023-cü ildə təxminən 7,41 milyon ABŞ dolları gəlir əldə edilmişdir. Xərclər: Əməliyyat xərcləri 3,8 milyon ABŞ dolları təşkil edib. Net mənfəət: 3,61 milyon ABŞ dolları olmuşdur.

Əgər Azərbaycanda dəniz şirləri və delfinlərə aid bir sirk və ya su şousu fəaliyyətə başlasa, ən çox gəlir gətirə biləcək bölgə çox ehtimal Bakı və Abşeron yarımadası olardı. Bu nəticəyə aşağıdakı əsaslara görə gəlmək olar:

1. Bakı (və Abşeron) – Ən gəlirli yer, həmçinin ən böyük əhali buradadır (2 milyondan çox insan). Ölkənin turizm mərkəzidir – ildə minlərlə yerli və xarici turist ziyarət edir. O cümlədən yüksək alıcılıq qabiliyyəti – əhali daha çox gəlir əldə edir və əyləncəyə daha çox pul xərcləyir. Bakıda infrastruktur: otellər, nəqliyyat, ictimai əlaqə, reklam və s yaxşı inkişaf edib. Bütün bunları nəzərə alaraq, Bakı ən inkişaf etmiş bölgədir. Azərbaycanda, xüsusilə Bakıda, delfin və dəniz mövzusunda ixtisaslaşmış bir sirk (delfinarium və ya dəniz şousu) tikmək və işlətmək həm xeyli maliyyət, həm də potensial gəlir tələb edən bir layihə olardı. Gəlin bu layihənin təxmini xərclərini və gəlir ehtimallarını mərhələli şəkildə nəzərdən keçirək: Bakı kimi bir şəhərdə dəniz kənarında və ya turistik məkanda torpaq almaq və ya uzunmüddətli icarəyə götürmək:

Tikinti və başlanğıc xərcləri (təxmini):

***a.*** Torpaq və Yer Seçimi. Bakı kimi bir şəhərdə dəniz kənarında və ya turistik məkanda torpaq almaq və ya uzunmüddətli icarəyə götürmək - 1-3 milyon AZN

***b.*** Tikinti Xərcləri:. Delfinarium üçün hovuzlar, oturacaq zonaları (500-1000 nəfərlik), sahnə və dekorasiyalar, soyunma otaqları, texniki avadanlıqlar: 5-10 milyon AZN

***c.*** Heyvanların alınması və çatdırılması. Delfinlər, balinalar və ya digər dəniz heyvanları (qanuni yollarla): 500,000 - 1 milyon AZN

***d.*** Əmək haqqı və illik əməliyyat xərcləri: Təlimçilər, baytarlar, texniki heyət, marketinq, yem xərcləri və s.: İllik 1-2 milyon AZN

Beləliklə, Ümumi başlanğıc xərclər təxminən 8 - 15 milyon AZN təşkil edəcək.

1. Potensial Gəlir (illik):

a. Bilet Satışı: Orta bilet qiyməti: 15 - 30 AZN. Həftədə 10 şou x 500 nəfər x 52 həftə = 260,000 bilet Gəlir: 3.9 - 7.8 milyon AZN / il

b. Əlavə gəlir mənbələri: Hədiyyə dükanları, foto zonalar, restoran və kafelər: 500,000 - 1 milyon AZN / il, Cəmi Gəlir (illik): 4.5 - 8.8 milyon AZN

3. Yatırımın geri qayıtma müddəti: Əgər illik xalis mənfəət (gəlir - əməliyyat xərcləri) təxminən 2-4 milyon AZN olsa, sirk 4-6 il ərzində özünü doğrulda bilər.

***Risklər və Qanuni Məsələlər:***

- Delfin şoularının etik və ekoloji tərəfləri barədə ictimai narahatlıq ola bilər.
- Heyvan rifahı və qanuni icazələrin alınması çətin və bahalı ola bilər.
- Mövsümi maraq fərqlilikləri və turist axını ilə bağlı dəyişkən gəlir.

Gəlir Statistikalar Mənbə İllik Gəlir (USD) Delfin şouları 400,000 – 2,000,000 Bir delfin şousunun ildə əldə etdiyi gəlir aralığıdır. Delfinarium Harderwijk (Niderland) 12,000,000 2012-ci ildə əldə edilən gəlir. Dolphin Company 49,500,000 Latin Amerikasında fəaliyyət göstərən bu şirkətin illik gəliri. Dolphin Entertainment 40,500,000 2022-ci ildə əldə edilən gəlir. Havai, ABŞ (yabanı delfin turları) 102,000,000 2013-cü ildə yabanı delfinlərlə üzmə turizminin illik gəliri.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Cetacean Canada – "The Economics of Captivity" Bu məqalə, delfin şoularının iqtisadi aspektlərini, gəlir və xərcləri geniş şəkildə təhlil edir.
2. "Cashing in on Spinners: Revenue Estimates of Wild Dolphin-Swim Tourism in the Hawaiian Islands" Havai adalarında yabanı delfinlərlə üzmə turizminin iqtisadi təsirlərini təhlil edir.
3. Dolphin Entertainment – İllik Maliyyə Hesabatları Delfin Entertainment şirkətinin illik gəlir və xərclərini təqdim edir.
4. Marine Mammal Commission – "Contributions to Coastal Economies and Ecotourism" Dəniz məməlilərinin sahil iqtisadiyyatlarına və ekoturizmə olan təsirlərini araşdırır.

## AĞGÖL MİLLİ PARKI VƏ PARKIN EKOTURİZM İMKANLARI

**Aysel Mürşüd qızı Əmrahova**
bakalavriat tələbəsi
aysel.amrahova@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Ağgöl Milli Parkı, ekoloji turizm, xüsusi mühafizə olunan təbiət əraziləri*
***Ключевые слова****: Национальный парк Аггёль, экологический туризм, особо охраняемые природные территории*
***Keywords****: Aggol National Park, ecological tourism, specially protected natural areas*

Ekoloji turizmə marağın və tələbatın artması yeni xüsusi mühafizə olunan təbiət ərazilərinin, ilk növbədə milli və təbii parkların yaradılmasına gətirib çıxarır. Bir çox ərazilərdə ekoloji turizm ixtisaslaşmış sahəyə çevrilə bilər ki, bu da təsərrüfat fəaliyyəti nəticəsində təbiətin dağıdılmasına qarşı alternativ rəqabət hesab oluna bilər.Azərbaycan Respublikasının Milli Parklarında ekoturizm fəaliyyətinin təşkili və inkişaf etdirilməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti tərəfindən həyata keçirilir. Ərazinin Milli Park statusuna malik olması özü-özlüyündə orada ekoturizmin inkişafı, onun rasional təşkili və ətraf mühitə zərər vurmadan turistlərin estetik zövq alması üçün hüquqi baza rolunu oynayır. Ölkəmizdə milli parklar yaradıldığı vaxtdan indiyədək onların turizm (rekreasiya) potensialı olan ərazilərində təbiət turizminin inkişaf etdirilməsi məqsədilə çoxlu sayda ekoturizm marşrutu təşkil edilib.

Xüsusi mühafizə olunan təbiət əraziləri - xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır [1].

Ölkəmizdə ümumi sahəsi 893 000 hektara qədər olan xüsusi mühafizə olunan təbiət əraziləri, həmçinin, 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31 %-ni, ayrılıqda milli

parklar ölkə ərazisinin 4,87 %, dövlət təbiət qoruqları 1,39 %, dövlət təbiət yasaqlıqları isə 4,05 %-ni təşkil edir [2]. Bunu diaqram formasında aşakıdakı kimi göstərmək olar.




Ölkəmizdə ilk milli parklar 2003-cü ildə yaradılmışdır. Azərbaycan Respublikasının Ağgöl Milli Parkı ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi və nəsli kəsilməkdə olan nadir bitki və heyvan növlərinin (soltan toyuğu, bəzgək, qaraleylək, ərsindimdik, qızılqaz, mərmər cürə, yaşılbaş, bizquyruq, ala, qırmızıdimdik, kəkilli qara və boz ördəklər, qu quşları və s.) qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədilə 2003-cü il 5 iyul tarixində Kür-Araz ovalığında (Ağcabədi və Beyləqan rayonlarının inzibati ərazilərində) yaradılmışdır. Ağgöl Milli Parkı ilə eyni tarixdə Kür-Araz ovalığında (Qaradağ, Salyan və Neftçala rayonları) ceyranların mühafizəsi ilə bağlı Şirvan Milli Parkı yaradılmışdır (şək. 1).




**Şək. 1.** Ağgöl Milli Parkın xəritəsi

Ölkəmizdə ilk milli parklar 2003-cü ildə yaradılmışdır. Azərbaycan Respublikasının Ağgöl Milli Parkı ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi və nəsli kəsilməkdə olan nadir bitki və heyvan növlərinin (soltan toyuğu, bəzgək, qaraleylək, ərsindimdik, qızılqaz, mərmər cürə, yaşılbaş, bizquyruq, ala, qırmızıdimdik, kəkilli qara və boz ördəklər, qu quşları və s.) qorunub saxlanılması və ekoturizmin inkişaf etdirilməsi məqsədilə 2003-cü il 5 iyul tarixində Kür-Araz

ovalığında (Ağcabədi və Beyləqan rayonlarının inzibati ərazilərində) yaradılmışdır. Ağgöl Milli Parkı ilə eyni tarixdə Kür-Araz ovalığında (Qaradağ, Salyan və Neftçala rayonları) ceyranların mühafizəsi ilə bağlı Şirvan Milli Parkı yaradılmışdır.

Ağgöl Milli Parkı Azərbaycanın ən məşhur çöl-göl ekosistemi olub, köçəri və yerli quşların və digər heyvanların məskunlaşdığı ərazilərdən biridir. Ağ gölün qorunmasının beynəlxalq əhəmiyyəti vardır. Bu da göldə adları Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına və Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş quşların məskunlaşması ilə bağlıdır.Ağgöl mühüm su-bataqlıq ərazisi kimi miqrasiya edən quş növlərinin qışlama yeri olub, "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyəti olan su-bataqlıq əraziləri haqqında" (Ramsar, İran, 1971) "Ramsar Siyahısı"na daxil edilmişdir.Ağgöl Ağcabədi və Beyləqan rayonlarının inzibati ərazisində yerləşir. Gölün qorunmasında ilk addım 1964-cu ildə 9173 hektar sahədə Ağ göl Dövlət Təbiət Yasaqlığı yaradılarkən atılmışdır. 1978-ci ilin 02 mart tarixində gölün 4400 hektara bərabər olan su ərazisinə ciddi qorunma statusu verilmiş və Ağgöl Dövlət Təbiət Qoruğu yaradılmışdır.

**Cədvəl 1**

**Milli parkda ekoturizm marşrutları**

| **Ağgöl Milli Mark ərazisində fəaliyyət göstərən ekoturizm marşrutları** | | |
|---|---|---|
| 1. Maraltəpə | 4. Quş bazarı | 7. Qara Qobu |
| 2. Böyük Ağgöl | 5. Pirxantəpə | 8. İmamqulugöl |
| 3. Göytəpə | 6. Şorgöl | 9. Teymurgöl |

Ağgöl Milli Parkı üçün yarımsəhra, şorlaşmış torpaq və göl şəraitinə uyğunlaşmış bitki örtüyü səciyyəvidir. Ərazidə bitki növlərindən əsasən duzlaq çoğanı, qışotu, qamış, şahsevdi, sarıbaş, qara-şoran, yovşan,qırtıc və s. geniş yayılmışdır. Burada suda-quruda yaşayan heyvanlardan yaşıl quru qurbağası, kiçik Asiya qurbağası və göl qurbağasına rast gəlinir. Milli Park ərazisində 9 ekoturizm marşrutu fəaliyyət göstərir. Bunlar aşağıdakılardır (cədvəl 1)[3]:

Ağgöl Milli Parkının yaradılmasının əsas məqsədi mühüm su-bataqlıq ərazilərini, həmin əraziyə xas olan yarımsəhra landşaftını, göldə və onun ətrafında məskunlaşmış nəsli kəsilmək təhlükəsi altında olan fauna növlərini qorumaq, ərazi üçün xarakterik olan bəzi fauna növlərini keçmiş ərazilərinə reintroduksiya etmək, eləcə də ətraf mühitin monitorunqini, əhalinin ekoloji cəhətdən maariflәndirilməsini və ekoturizmin inkişafını təmin etməkdir.

**Cədvəl 2**

**Ağgöl Milli Parkına son üç ildə səfər edən turist sayı**

| Milli Parkın adı | Səfər edən turist sayı 2022-ci il | Səfər edən turist sayı 2023-ci il | Səfər edən turist sayı 2024-cü il |
|---|---|---|---|
| Ağgöl | 6023 | 6310 | 884 |

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu
2. Ə.T.Əsgərov, Ç.G.Gülalıyev, B.Ə.Bilalov. "Ekoloji turizm" Adiloğlu-2011
3. https://nationalparks.az/parklar/aggol-milli-parki/marsrutlar

# ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNDƏ GÖRÜLƏN TƏDBİRLƏR

**Səbinə Əvəz qızı Təhməzova**
bakalavriat tələbəsi
sabina. tehmezova@mdu.edu.az
*Elmi rəhbər: Lalə Akif qızı Əhmədova*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri*

***Açar sözlər:*** *ətraf mühit, ekoloji təhlükə, çirklənmə, dayanıqlı inkişaf, maarifləndirmə*
***Keywords:*** *environment, ecological threat, pollution, sustainable development, education*
***Ключевые слова:*** *окружающая среда, экологическая угроза, загрязнение, устойчивое развитие, образование*

**Giriş**

Ətraf mühit insan həyatının və sağlamlığının əsas təminatçısıdır. Təmiz hava, su, məhsuldar torpaq və biomüxtəliflik həyat keyfiyyətinin əsas göstəricilərindəndir. Lakin müasir dövrdə təbiətə qarşı qeyri-düzgün yanaşmalar, sənaye tullantıları və nəzarətsiz urbanizasiya ətraf mühitə ciddi zərər vurur. Bu vəziyyət həm lokal, həm də qlobal miqyasda ciddi problemlər yaradır və davamlı şəkildə diqqət mərkəzində saxlanmalıdır. Ətraf mühit insan həyatının və sağlamlığının əsas təminatçısıdır. Təmiz hava, su, məhsuldar torpaq və biomüxtəliflik həyat keyfiyyətinin əsas göstəricilərindəndir. Lakin müasir dövrdə təbiətə qarşı qeyri-düzgün yanaşmalar, sənaye tullantıları və nəzarətsiz urbanizasiya ətraf mühitə ciddi zərər vurur. Bu vəziyyət həm lokal, həm də qlobal miqyasda ciddi problemlər yaradır və davamlı şəkildə diqqət mərkəzində saxlanmalıdır. Ətraf mühit insan həyatının və sağlamlığının əsas təminatçısıdır. Təmiz hava, su, məhsuldar torpaq və biomüxtəliflik həyat keyfiyyətinin əsas göstəricilərindəndir. Lakin müasir dövrdə təbiətə qarşı qeyri-düzgün yanaşmalar, sənaye tullantıları və nəzarətsiz urbanizasiya ətraf mühitə ciddi zərər vurur. Bu vəziyyət həm lokal, həm də qlobal miqyasda ciddi problemlər yaradır və davamlı şəkildə diqqət mərkəzində saxlanmalıdır.

**Ətraf mühitin mühafizəsinin əhəmiyyəti**

Ətraf mühitin sağlam olması insanların fiziki və psixoloji rifahına birbaşa təsir edir. Əgər hava, su və torpaq çirklənmişsə, bu, müxtəlif xəstəliklərin yayılmasına və həyat keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Təbii ehtiyatların tükənməsi və ekosistemlərin sıradan çıxması yalnız bu günümüzü deyil, gələcək nəsilləri də risk altına salır. Buna görə də ətraf mühitin qorunması yalnız dövlətlərin deyil, hər bir fərdin borcudur. Ətraf mühitin sağlam olması insanların fiziki və psixoloji rifahına birbaşa təsir edir. Əgər hava, su və torpaq çirklənmişsə, bu, müxtəlif xəstəliklərin yayılmasına və həyat keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Təbii ehtiyatların tükənməsi və ekosistemlərin sıradan çıxması yalnız bu günümüzü deyil, gələcək nəsilləri də risk altına salır. Buna görə də ətraf mühitin qorunması yalnız dövlətlərin deyil, hər bir fərdin borcudur. Ətraf mühitin sağlam olması insanların fiziki və psixoloji rifahına birbaşa təsir edir. Əgər hava, su və torpaq çirklənmişsə, bu, müxtəlif xəstəliklərin yayılmasına və həyat keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Təbii ehtiyatların tükənməsi və ekosistemlərin sıradan çıxması yalnız bu günümüzü deyil, gələcək nəsilləri də risk altına salır. Buna görə də ətraf mühitin qorunması yalnız dövlətlərin deyil, hər bir fərdin borcudur.

**Qlobal və lokal ekoloji problemlər**

Dünya üzrə ən ciddi problemlərdən biri iqlim dəyişikliyidir. Qlobal istiləşmə nəticəsində buzlaqların əriməsi, dəniz səviyyəsinin qalxması və təbii fəlakətlərin artması müşahidə olunur. Digər qlobal problem plastik tullantıların okeanlara və torpağa təsiridir. Azərbaycanda isə Xəzər dənizinin çirklənməsi, meşələrin qırılması, torpaq eroziyası və su resurslarının azalması kimi ciddi problemlər mövcuddur. Bu problemlər ölkənin ekoloji tarazlığına və kənd təsərrüfatına mənfi təsir

edir. Dünya üzrə ən ciddi problemlərdən biri iqlim dəyişikliyidir. Qlobal istiləşmə nəticəsində buzlaqların əriməsi, dəniz səviyyəsinin qalxması və təbii fəlakətlərin artması müşahidə olunur. Digər qlobal problem plastik tullantıların okeanlara və torpağa təsiridir. Azərbaycanda isə Xəzər dənizinin çirklənməsi, meşələrin qırılması, torpaq eroziyası və su resurslarının azalması kimi ciddi problemlər mövcuddur. Bu problemlər ölkənin ekoloji tarazlığına və kənd təsərrüfatına mənfi təsir edir. Dünya üzrə ən ciddi problemlərdən biri iqlim dəyişikliyidir. Qlobal istiləşmə nəticəsində buzlaqların əriməsi, dəniz səviyyəsinin qalxması və təbii fəlakətlərin artması müşahidə olunur. Digər qlobal problem plastik tullantıların okeanlara və torpağa təsiridir. Azərbaycanda isə Xəzər dənizinin çirklənməsi, meşələrin qırılması, torpaq eroziyası və su resurslarının azalması kimi ciddi problemlər mövcuddur. Bu problemlər ölkənin ekoloji tarazlığına və kənd təsərrüfatına mənfi təsir edir.

**Azərbaycanda ətraf mühitin qorunması sahəsində tədbirlər**

Azərbaycanda ətraf mühitin mühafizəsi məqsədilə bir sıra mühüm tədbirlər görülür. “Ətraf mühitin mühafizəsi haqqında” Qanun, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyət planları və ekoloji monitorinqlər bu sahədə aparılan işlərin hüquqi və praktiki əsasını təşkil edir. Milli Parkların, qoruqların yaradılması, yaşıllaşdırma layihələri, tullantıların idarə olunması və alternativ enerji mənbələrinin inkişaf etdirilməsi ətraf mühitin qorunmasına yönəlmiş tədbirlər sırasındadır.

**Maarifləndirmə və ictimai iştirakın rolu**

Ətraf mühitin qorunmasında maarifləndirmə mühüm yer tutur. Gənclərin, tələbələrin və ümumilikdə əhalinin ekoloji biliklərlə təmin olunması bu sahədə irəliləyişə səbəb ola bilər. Məktəblərdə keçirilən dərslər, ekoloji layihələr, könüllü təmizləmə aksiyaları və sosial şəbəkələrdə aparılan maarifləndirici fəaliyyətlər ətraf mühitə qarşı məsuliyyət hissini artırır. Cəmiyyətin fəal iştirakı olmadan bu sahədə davamlı nəticə əldə etmək mümkün deyil. Ətraf mühitin qorunmasında maarifləndirmə mühüm yer tutur. Gənclərin, tələbələrin və ümumilikdə əhalinin ekoloji biliklərlə təmin olunması bu sahədə irəliləyişə səbəb ola bilər. Məktəblərdə keçirilən dərslər, ekoloji layihələr, könüllü təmizləmə aksiyaları və sosial şəbəkələrdə aparılan maarifləndirici fəaliyyətlər ətraf mühitə qarşı məsuliyyət hissini artırır. Cəmiyyətin fəal iştirakı olmadan bu sahədə davamlı nəticə əldə etmək mümkün deyil. Ətraf mühitin qorunmasında maarifləndirmə mühüm yer tutur. Gənclərin, tələbələrin və ümumilikdə əhalinin ekoloji biliklərlə təmin olunması bu sahədə irəliləyişə səbəb ola bilər. Məktəblərdə keçirilən dərslər, ekoloji layihələr, könüllü təmizləmə aksiyaları və sosial şəbəkələrdə aparılan maarifləndirici fəaliyyətlər ətraf mühitə qarşı məsuliyyət hissini artırır. Cəmiyyətin fəal iştirakı olmadan bu sahədə davamlı nəticə əldə etmək mümkün deyil.

**Müasir texnologiyalar və innovativ yanaşmalar**

Ətraf mühitin qorunmasında müasir texnologiyaların tətbiqi vacib rol oynayır. Süni intellektlə idarə olunan ekoloji nəzarət sistemləri, peyk görüntüləri ilə ekosistemlərin monitorinqi, su və hava keyfiyyətinin real vaxtda ölçülməsi bu sahədəki yeniliklərdəndir. Eyni zamanda, yaşıl enerji texnologiyalarının (günəş, külək, bioenerji) inkişaf etdirilməsi təbiətə olan təzyiqi azaldır və dayanıqlı gələcək üçün yol açır. Ətraf mühitin qorunmasında müasir texnologiyaların tətbiqi vacib rol oynayır. Süni intellektlə idarə olunan ekoloji nəzarət sistemləri, peyk görüntüləri ilə ekosistemlərin monitorinqi, su və hava keyfiyyətinin real vaxtda ölçülməsi bu sahədəki yeniliklərdəndir. Eyni zamanda, yaşıl enerji texnologiyalarının (günəş, külək, bioenerji) inkişaf etdirilməsi təbiətə olan təzyiqi azaldır və dayanıqlı gələcək üçün yol açır. Ətraf mühitin qorunmasında müasir texnologiyaların tətbiqi vacib rol oynayır. Süni intellektlə idarə olunan ekoloji nəzarət sistemləri, peyk görüntüləri ilə ekosistemlərin monitorinqi, su və hava keyfiyyətinin real vaxtda ölçülməsi bu sahədəki yeniliklərdəndir. Eyni zamanda, yaşıl enerji texnologiyalarının (günəş, külək, bioenerji) inkişaf etdirilməsi təbiətə olan təzyiqi azaldır və dayanıqlı gələcək üçün yol açır.

**Nəticə və təkliflər**

Ətraf mühitin qorunması yalnız bu günün deyil, gələcəyin də təminatıdır. Bunun üçün dövlət siyasəti ilə yanaşı, cəmiyyətin fəallığı və fərdi məsuliyyət böyük rol oynayır. Azərbaycanda bu sahədə mühüm addımlar atılsa da, bu tədbirlərin effektivliyi ictimai iştirakla daha da gücləndiril-

məlidir. Məktəblərdə ekoloji təhsil genişləndirilməli, tullantıların azaldılması və ayrılması vərdişi formalaşdırılmalı, insanlar "yaşıl" yaşam tərzinə təşviq edilməlidirlər. Ətraf mühitin qorunması yalnız bu günün deyil, gələcəyin də təminatıdır. Bunun üçün dövlət siyasəti ilə yanaşı, cəmiyyətin fəallığı və fərdi məsuliyyət böyük rol oynayır. Azərbaycanda bu sahədə mühüm addımlar atılsa da, bu tədbirlərin effektivliyi ictimai iştirakla daha da gücləndirilməlidir. Məktəblərdə ekoloji təhsil genişləndirilməli, tullantıların azaldılması və ayrılması vərdişi formalaşdırılmalı, insanlar "yaşıl" yaşam tərzinə təşviq edilməlidirlər. Ətraf mühitin qorunması yalnız bu günün deyil, gələcəyin də təminatıdır. Bunun üçün dövlət siyasəti ilə yanaşı, cəmiyyətin fəallığı və fərdi məsuliyyət böyük rol oynayır. Azərbaycanda bu sahədə mühüm addımlar atılsa da, bu tədbirlərin effektivliyi ictimai iştirakla daha da gücləndirilməlidir. Məktəblərdə ekoloji təhsil genişləndirilməli, tullantıların azaldılması və ayrılması vərdişi formalaşdırılmalı, insanlar "yaşıl" yaşam tərzinə təşviq edilməlidirlər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Əliyev, H. (2022). Ətraf mühitin qorunması və dayanıqlı inkişaf. Bakı: Elm
2. Ekologiya və Təbii Sərvətlər Nazirliyi – www.eco.gov.az
3. Dünya Bankı (2023). Azərbaycanın Ekoloji İcmalı.
4. Qasımova, L. (2021). İqlim dəyişikliyi və ekoloji təhlükəsizlik. Bakı Universiteti nəşriyyatı
5. UNEP (2024). Environmental Governance for Sustainable Development.

## BƏLƏDİYYƏ TURİZMİNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**Ləman Natiq qızı Tağızadə**
leman.taghizade@mdu.edu.az
bakalavriat tələbəsi
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *turizm, bələdiyyə, iqtisadiyyat, prespektivlər, mövcud vəziyyət*
***Keywords***: *tourism, municipality, economy, prospects, current situation*
***Ключевые слова:*** *туризм, муниципалитет, экономика, перспективы, текущая ситуация*

**Giriş**

Dünyanın ən böyük gölü olan Xəzərin sahilində zəngin mədəniyyətə və təbiətə malik olan ölkəmizin böyük turizm potensialı vardır. Ölkəmiz mədəni irsi, tarixi abidələri, gözəl təbiəti və dadlı mətbəxi ilə dünyada məşhurdur. Son dövrlər Azərbaycanın turizm infrastrukturu müasir tələblərə uyğun qaydada daha da inkişaf etdirilir. Turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində müəyyən olunmuş tədbirlər kənd turizminin inkişafına, kənd təsərrüfatı ilə məşğul olanların gəlirlərinin artmasına, kənd yerlərində yeni xidmət sahələrinin və iş yerlərinin açılamasına imkan verəcək. Diqqətə çadırmaq lazımdır ki, ölkəmizdə bələdiyyələrin daha çox rəhbərlik etdiyi ərzilər kəndlərdir, bu da həm ölkədə yeni bir sahənin bələdiyyə turizminin inkişafı və tərəqqisi deməkdir. Turizm məkanlarına yerli idarəetmə orqanının nəzarət etməsi, gələn turistlərin rahat şəkildə gəlməsi, qarşılanması, yerləşdirlməsi və keyfiyyətli xidmətlərin göstərilməsi onlarda buraya daha çox maraq yaradır ki, bu da gələcəkdə buraya gələn əlavə vəsait deməkdir ki, bələdiyyənin bücəsinə və özünü maliyyələşdirməsinə müsbət təsir göstərir [1].

Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan

Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir [2].

Düzdür, hər bir ölkənin bələdiyyə mülkiyyətinin idarə olunmasının özünəməxsus xüsusiyyətləri vardır və tarixi təcrübəyə əsaslanaraq demək olar ki, cəmiyyətdə "inqilabların ixracı" mümkün olmadığı kimi, bələdiyyə mülkiyyətinin idarəolunma modellərinin bir ölkədən digərinə köçürülməsi və tətbiq etmək mümkün deyidirl. Lakin bütün bunlara baxmayaraq, qeyd etməliyik ki, beynəlxalq təcrübə hər zaman çox dəyərli örnəkdir və istifadə üçün faydalı mənbədir [3]. Bu gün dünyanın bir çox İnkişaf etmiş ölkələri (İEÖ) müxtəlif yerli özünü idarəetmə modellərini tədbiq edirlər. Məsələn, Amerika Birləşmiş Ştatlarında (ABŞ) Yerli özünüidarəetmənin növləri ştatdan ştata və hətta dövlət sərhədləri daxilində dəyişdiyi kimi, yerli səviyyədə idarəetmə formaları da kifayət qədər fərqlidir. Xüsusi rayonların idarəetmə strukturu əsasən qanunla müəyyən edildiyindən, xüsusi rayonların forması və ya funksiyası bizim diqqətimiz əsasən, qraflıqlar və bələdiyyələr xalq tərəfindən seçilən idarəetmə formalarınadır və bütün ölkədə bu idarəetmə formalarının dəyişdirilmiş versiyaları və müxtəlif adları mövcuddur.

Azərbaycan Respublikasında turizmin dayanıqlı inkişafını təmin etmək məqsədilə turizm sahəsində dövlət idarəetməsinin əsaslarını, turizm sənayesinin tənzimlənmə mexanizmlərini, turizm ehtiyatlarından səmərəli istifadə qaydalarını və turizm sahəsinin maliyyələşdirilmə mənbələrini müəyyən edir. **Turizm** – fiziki şəxslərin getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, mədəni, tarixi və təbii irslə tanışlıq, sağlamlıq, bərpa və digər məqsədlərlə daimi yaşadığı ölkənin (yerin) hüdudlarından kənara müvəqqəti səyahəti. (AR Konstitusiyası, 1999-cu il 4 iyun tarixli 674-IQ nömrəli Qanun ) Bu gün **Turizm** – xalq təsərrüfatı kompleksinin sferalarından biri olmaqla bərabər, dünyanın bir çox ölkələrində, kəskin surətlə inkişaf edən sahələrdən birinə çevrilmişdir. Hal-hazırda dünyada hər bir 16–cı iş yeri turizm biznesi ilə əlaqəlidir [4].

**Bələdiyyə turizmi və formalaşması xüsusiyyətləri**

Qeyd etmək lazımdır ki, bələdiyyələrin inkişafını təmin edə biləcək iqtisadi imkanlardan biridə milli iqtisadiyyatın əsas sektorlarından olan **turizim** sektorudur. Son illərin statistik göstəricilərinə görə turizm Azərbaycanda inkişaf edən sektorların ilk sıralarında yer alır. Bələdiyyələrin turizm sektoruna daxil olması turizm sahələrinin dahada inkişafına və rəqabətə davamlı turizm xidmətləri üzrə keyfiyyətin yüksəldilməsi ilə nəticələnə bilər. Bu turizm sahələrinin sırasına sağlamlıq turizmi, qış turizmi, yay turizmi, kənd turizmi, idman turizmi, ekoturizm, ov turizmi, dini turizm, işgüzar turizm, çimərlik turizmi, mədəni turizm və turizmin digər sahələri daxildir. Bələdiyyələrin turizm sektorunda iştirakı ilə mövcud turizm sektorına **"bələdiyyə turizmi"** adlı yeni bir turizm sahəsini əlavə etmək mümkündür.

Artıq dünyanın bir çox olkələrində həm özəl, həm də dövlət qurumlarının köməyi ilə yerli məşğulluğu yaratmaq və turizmin faydalarını əhalinin daha geniş təbəqəsinə yaymaq üçün əsas sosial-iqtisadi fəaliyyət kimi turizmi təşviq etmək və inkişaf etdirmək yolunda çox böyük işlər görülmüş və daha yaxşı nəticələr əldə edilmişdir. Bu yolda Yerli özünüidarəetmə orqanlarının məsul şəxsləri daha yaxından iştirak edərək, effektiv nəticələr əldə edə bilər ki, bu Yerli Turizmin inkişafının başlıca əsaslarındandır.

Turizm sektorunda bələdiyyələrin iştirakına nail ola bilsək ölkəmizdə turizmin inkişafına və bələdiyyələrin əlavə maddi qazanc əldə etməsinə böyük töhvələr verməklə yanaşı, dünyada ilk dəfə olaraq "Bələdiyyə Turizmi" hərakatını başladaraq yeni bir turizm sahəsinin əsasını qoya bilərik. Bələdiyyə turizmi dünyada analoqu olmayan yeni turizm növü olmaqla yanaşı termin olaraqda yeni ifadədir.

Ölkəmizdə şəhər bələdiyyələri ilə region bələdiyyələrinin fəaliyyəti müqayisə edildikdə şəhər bələdiyyələrinin daha çox inkişaf etdiyinin şahidi oluruq. Bu səbəbdən "Bələdiyyə turizminin" yaradılması bölgə bələdiyyələrimizin inkişafı və eyni zamanda bölgələrdə turizm infrastrukturunun inkişafı deməkdir.

Azərbaycanda diqqət yetirilməsi vacib olan turizm növlərindən biri də regional turizmin inkişafı ilə birbaşa bağlı olan turizmdir. Bir çox ədəbiyyatda kənd turizmi mahiyyətcə kənd həyatının özəllikləri ilə tanışlığı, bəzən isə bəzi fəaliyyətlərdə iştirakını nəzərdə tutduğuna görə bir qədər ekoturizmin alt kateqoriyası kimi təsnif edilir. Bu turizm növünün ən qabarıq amillərindən biri yerli kəndlilərin qonaqpərvərliyidir, ona görə də ölkəmizdə kənd turizmi üçün potensial var. Kənd turizminin inkişafına mane olan səbəblər aşağıdakılardır:

• Kəndlərdə turizmin inkişafı üçün lazım olan infrastrukturun aşağı və ya aşağı olması;
• Kəndlərə giriş yollarının, eləcə də onlardan keçən müasir standartların olmaması;
• Kəndlərdə aşağı keyfiyyətli nəqliyyat xidmətləri;
• Kənd yerlərində təlim keçmiş işçilərin ciddi çatışmazlığı;
• Yüksək qiymətlər.

Yerli əhaliyə lazımi infrastrukturun yaradılması, vergi güzəştlərinin verilməsi və s.. Onların bu sahələrdə iştirakına bir sıra müxtəlif yollarla həvəsləndirmək qeyd olunan bəzi çatışmazlıqlarla nəticələnə bilər.

İndi isə diqqət yetirək, Bələdiyyə turizmi nədir və bələdiyyə turizminin əsasını nələr təşkil etməlidir? Bələdiyyə turizminin əsaslarını yerli özünü idarəetmə orqanlarının turizm sektorunda özlərinə məxsus xüsusi tədbirlərin həyata keçirilməsi və bələdiyyələr tərəfindən regionlara turistlərin cəlb edilməsi təşkil edir. Bunun üçün ilk olaraq aşağıdakı tədbirlər həyata keçirilməlidir:

1. Hər bir bələdiyyə orqanı tərəfindən ərazisində turizm üçün yararlı resurs və imkanlar müəyyən edilərək siyahıya alınmalıdır. Buraya tarixi abidələr, mədəni irs, meşələr, göllər, çaylar, müalicəvi zonalar və turistlər üçün cəlb edici olan digər turizm obyektləri daxildir.

2. Bələdiyyələr arasında iki tərəfli və çox tərəfli əməkdaşlıqlar qurulmalı və əlaqələr gücləndirilməlidir. Xüsusən, bölgə bələdiyyələri ilə böyük şəhər bələdiyələri arasında əlaqələrin qurulması vacibdir.

3. Bələdiyyələr tərəfindən digər bələdiyyələrlə birgə və ya təklikdə turizim şirkətləri təsis edilməlidir. Bələdiyyələrin Statusu Haqqında Azərbaycan Respublikasının Qanuna əsasən bələdiyyələr təsərrüfat fəaliyyəti və qanunvericiliklə qadağan edilməmiş başqa fəaliyyətlə məşğul olmaq üçün müstəqil hüquqi şəxslər, mmc-lər və digər müəssisələr təsis etməklə biznes sektoruna daxil ola bilərlər.

Daha sonra bələdiyyə turizminin qurulması istiqamətində bələdiyyələrin ərazilərindəki müəyyənləşdirilmiş tarixi, mədəni, gəzməli, görməli və səfalı ərazilərinə turistlərin cəlb edilməsi istiqamətində bələdiyyə orqanları aşağıdakı fəaliyyətlərin həyata keçirilməsinə çalışılmalıdır:

1. Hər-hansı bir bələdiyyə tərəfindən digər bələdiyyələr ilə birlikdə və yaxud təklikdə öz ərazilərində yerləşən tarixi abidələrə, mədəni irs, meşələr, göllər, çaylar, müalicəvi zonalara ödənişli turlar və ekskursiyalar təşkil edilə bilər.

2. Bələdiyyələr xüsusən böyük şəhər bələdiyyələri tərəfindən digər bələdiyyələrin ərazilərində yerləşən tarixi abidələrə, mədəni irs, meşələr, göllər, çaylar, müalicəvi zonalara ödənişli turlar və ekskursiyalar təşkil edilə bilər.

3. Bölgələrdə bələdiyyələrin təşkilatçılığı ilə mütamadi olaraq festivallar, konfranslar, təqdimatlar, bayram tədbirləri və insanların diqqətini cəlb edəcək müxtəlif layihələr həyata keçirilməklə bölgələrimizə turistlərin marağının və axınının artmasına nail olmaq mümkündür.

4. Bələdiyyələrimiz xarici ölkə bələdiyyələri və bələdiyyələrin yaratdığqları beynələxalq təşkilatlarla əlaqələr qurmaqla həmən bələdiyyələrlə turizm sahəsində əməkdaşlıq edərək ölkəmizə xarici turistlər cəlb edilə bilər. Nümunə olaraq, Azərbaycan bələdiyyələrinində üzvü olduğu iyirmi səkkiz dövlətin yerləşdiyi geniş coğrafiyanı, bu coğrafiyada yaşayan 100 milyonlarla insanların həyatı və fəaliyyəti ilə əlaqədar sahələri əhatə edən beynəlxalq təşkilat Türk Dünyası Bələdiyyələr Birliyini göstərmək olar.

5. Bələdiyyələrin mülkiyyətində olan turizm xarakterli təsisatlar qurulmalıdır. Buraya bələdiyyələrin daxili imkanları və yaxud kreditlər hesabına insanların istirahət edə biləcəkləri kiçik

və yaxud böyük turizm təsisatları olan iaşə obyektlərinin (çayxanalar, kafelər, restoranlar, kiçik və yaud böyük otellər) qurulması daxildir.

6. Bələdiyyələr iş adamlarının marağını cəlb edəcək şərtlərlə onlarla birgə öz ərazilərində şərikli turizm təsisatlarının qurulmasına nail ola bilərlər. Məsələn bələdiyyələr öz torpaqlarını heç bir ödəniş olmadan iş adamlarına bu torpaqlarda yaradıla biləcək turizm təsisatlarının şəriki olmaq şərtiylə təqdim edə bilərlər.

7. Bələdiyyələrlə turizm şirkətləri arasında işgüzar əməkdaşlıqlar qurulmalıdır. Bölgələrə turlar təşkil edən turizim şirkətləri ilə müqavilə bağlamış bələdiyyələr qanunvericiliklə icazə verilmiş qaydada, şirkət tərəfindən gətirilmiş turistlərə müəyyən ödənişlər əsasında öz ərazisində istirahət üçün şərait və nahar kimi xidmətlər göstərə bilərlər.

Bələdiyyə turizminin təşəkkülü təkcə bələdiyyələrin inkişafına müsbət təsir etməsiylə məhdudlaşmayacaq, bələdiyyə turizmi həmdə regionlarımızda yeni turizm mərkəzlərinin yaranmasına, yeni iş yerlərininin açılmasına və sakinlərin məşğulluq səviyyəsinin artmasına əhəmiyyətli təsir göstərəcəkdir. Eyni zamanda bələdiyyə turizmin inkişafı ölkəmizdə turizm strategiyasının uğur qazanmasına, respublikamız üzrə güclü infrastrukturun yaradılmasına, müxtəlif regionların və kəndlərin infrastrukturunun inkişafına səbəb olacaqdır [5].

**Azərbaycanda bələdiyyə turizminin yaradılmasının ölkə iqtisadiyyatın verəcəyi töhfə**

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2021-ci ildə ölkəyə gələn xarici ölkə vətəndaşlarının sayı ümumilikdə 792 min nəfər təşkil etmişdir. 2021-ci ildə sərhəd keçid məntəqələrində pandemiya məhdudiyyətlərinin davam etməsi Azərbaycana gələn əcnəbi vətəndaşların sayına əhəmiyyətli dərəcədə təsir göstərməyə davam etmiş, bu isə öz növbəsində, qonşu ölkələrin gəlmə sayındakı payının artması ilə nəticələnmişdir. Cədvəl 1-də də göstərildiyi kimi, ən çox əcnəbinin gəldiyi ilk 15 ölkə arasında qonşu ölkələrin payı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycana gələn əcnəbi vətəndaşların sayına görə Rusiya ilk pillədə qərarlaşmışdır ki (258,3 min), onu müvafiq olaraq Türkiyə (197,9 min), İran (125,3 min) və Gürcüstan (62,6 min) izləmişdir.

2021-ci ildə ölkəyə gələn əcnəbi vətəndaşların 84 %-i ümumilikdə ilk 5 ölkənin (Rusiya, Türkiyə, İran, Gürcüstan və Ukrayna) payına düşür ki, qeyd edilən ölkələr arasında 2020-ci illə müqayisədə Gürcüstan istisna olmaqla, demək olar ki, bütün ölkələrin gəlmə sayında artım müşahidə edilmişdir. 2020-ci ildə olduğu kimi, Rusiya gəlmə sayına görə liderliyini qorusa da, ikinci pillədə qərarlaşan Gürcüstan mövqeyini Türkiyə və İrana itirərək dördüncü pilləyə qədər geriləyib. Ölkələr üzrə ən yüksək artım tempinin qeydə alındığı İrandan gələnlərin sayı 2020-ci illə müqayisədə 72 % artsa da, 2019-cu il üzrə göstəricilərdən 51 % geridə qalmışdır. Anoloji olaraq, Rusiya, Türkiyə və Ukraynadan gələnlərin sayında 2020-ci illə müqayisədə müvafiq olaraq 15 %, 23 % və 3 % artım, 2019-cu illə müqayisədə isə 72 %, 38 % və 71 % azalma müşahidə edilmişdir.

Dünyada baş verən hadisələrin turizm sektorundanda yan keçmir. Bu amillər onu göstərirki turizm inkisafı dünyada baş verən proseslərin təsirindən neqativ yada positiv təsirlərinə məcbur qalır. 2020-ci ildə dünyayı bürüyən Covid-19 epidemiyası dünya əhalisinin sağlamlığına və ölkə iqsadiyyatınında geriləməni hiss etdirdi. Bu epidemiyanın ən çox təsir etdiyi sahələrdən biridə turizm sahəsi oldu və bu da inkişaf dinamikasına mənfi təsirlərini göstərdi. Azərbaycanda turizm müəssələri bu müddətdə zor günlər keçirirdilər amma Azərbaycan Dövləti bu problemləri həllində sahibkarlara yardımlar göstərərək həm müəssələrin bağlanmasını qarşısını aldı həmdə əmək fəaliyyəti ilə məşğul olan əhalinin işlərinin itirməsinin qarşısını almaq üçün lazımı imkanlarından istifadə etdi. 2022-ci ildən başlayaraq epidemiyanın təsirlərinin azalması dunya iqtisadiyyatında müsbət dinamikanın bərpasi ilə birlikdə turizm iknişafida qaldığı yerdən davam edir (cədvəl 1).

**Cədvəl 1**

**COVID-19 epidemiyasının Azərbaycanda turizm inkişafına təsiri**

| | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|
| Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid | 621 | 670 | 684 | 712 |

| | | | | |
|---|---|---|---|---|
| Birdəfəlik tutum, yer | 46 693 | 49 980 | 50 687 | 53 049 |
| Nömrələrin sayı, vahid | 22 192 | 23 865 | 24 195 | 25 445 |
| Yerləşdirilmiş şəxslərin sayı, nəfər | 1 749 475 | 1 919 765 | 668 813 | 1 172 123 |
| o cümlədən: | | | | |
| ölkə vətəndaşları | 515 083 | 603 026 | 401 430 | 900 560 |
| əcnəbilər və vətəndaşlığı olmayan şəxslər | 1 234 392 | 1 316 739 | 267 383 | 271 563 |
| Gecələmələr üçün çarpayı-sutka təqdim edilmişdir, vahid | 3 002 959 | 3 345 285 | 999 786 | 1 788 716 |
| o cümlədən: | | | | |
| ölkə vətəndaşları | 952 949 | 1 104 412 | 583 057 | 1 374 312 |
| əcnəbilər və vətəndaşlığı olmayan şəxslər | 2 050 010 | 2 240 873 | 416 729 | 414 404 |
| İşçilərin sayı, nəfər | 11 407 | 12 481 | 10 731 | 11 143 |
| Müəssisələrin əldə etdiyi gəlir, min manatla | 359 453,0 | 450 188,5 | 116 798,0 | 209 687,3 |
| Məhsul və xidmətlərin istehsalına çəkilən xərclər, min manatla | 277 680,5 | 308 342,5 | 171 805,1 | 231 468,0 |
| Büdcəyə ödənilmiş vergilər, min manatla | 33 323,1 | 42 252,5 | 15 018,2 | 12 819,6 |

***Mənbə:* Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin verdiyi göstəricilər əsasında müəllif tərəfindən hazırlanmışdır**

2021-ci ildə mehmanxana və mehmanxana tipli müəssisələrin sayında nəzərə çarpan artım müşahidə olunmayıb. Belə ki, ölkə üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin, otaqların və çarpayı yerlərinin sayı 2021-ci ildə cəmi 5 % artmışdır. Cədvəl 1 ən çox mehmanxana və mehmanxana tipli müəssisə, otaq və çarpayı yerləri olan şəhərlərin siyahısını göstərir. 2021-ci ildə Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 2020-ci illə müqayisədə 5 % artaraq 685 müəssisə təşkil etmişdir. Dövlət Statistika Komitəsinin məlumatına görə ölkədə yerləşən mehmanxana və mehmanxana tipli müəssisələrin 33 %-i Bakıda yerləşir. 2020-ci illə müqayisədə Bakıdakı mehmanxana və mehmanxana tipli müəssisələrin sayında 7 % artım qeydə alınıb. Regionlarda ən çox mehmanxana və mehmanxana tipli müəssisə Xaçmaz (56), Masallı (31), Quba (26) və Lənkəranda (25) yerləşir. Ölkədəki mehmanxana və mehmanxana tipli müəssisələrin sayı ilə yanaşı, otaq və yataq yerlərinin də sayının böyük hissəsi Bakıya məxsusdur. Qeyd edilən göstəricilər müvafiq olaraq 47 % və 41 % faiz təşkil edir. Qeyd edilməlidir ki, Gəncə, Lənkəran və İsmayıllı şəhərlərindən başqa digər şəhərlərdə mehmanxanaların, otaqların və çarpayı yerlərinin sayında 2020-ci il illə müqayisədə artım müşahidə edilməyib [6].

**Nəticə**

Bələdiyyələrin yerli iqtisadiyyatın inkişafındakı rolu danılmazdır. Dünya təcrübəsi də göstərir ki, bələdiyyələr yerli resursları ən səmərəli şəkildə istifadə edərək yerli inkişafı və nəticə etbarı ilə milli inkişafı təmin edən qurumlardır. Yerli səviyyədə iqtisadi problemlərin həlli, yoxsulluğun azaldılması, işsizliyin ləğvi, mədəni-sosial səviyyənin yüksəlməsi bilavasitə bələdiyyələrin iqtisadi fəaliyyəti ilə bağlıdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası Turizm haqqında qanun
2. Azərbaycan Respublikasının Konstitusiyası Bələdiyyələrin statusu haqqında qanun
3. Bələdiyyə.info “Bələdiyyə Turizminin əsası qoyulmalıdır”
4. Ş.H.Hacıyev “Dövlət və bələdiyyə idarəetməsi” dərslik
5. Mehdi Abdullayev “Yerli Turizmin təşkilində Bələdiyyələrin rolu”
6. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
7. N.Y.Mikayılova “Bələdiyyə idarəçiliyi və maliyyəsi”

# TURİZM FƏALİYYƏTİNİN İQTİSADİ ƏSASLARI

**Dünya Malik qızı Vəlizadə**
bakalavriat tələbəsi
dunya.velizade@mdu.edu.az
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *Turizm fəaliyyəti, iqtisadi əsaslar, sahibkarlıq, məşğulluq, bazar iqtisadiyyatı, dövlət tənzimləməsi, turizm müəssisələri*

***Keywords:*** *tourism activity, economic fundamentals, entrepreneurship, employment, market economy, government regulation, tourism enterprises*

***Ключевые слова:*** *туристская деятельность, экономические основы, предпринимательство, занятость, рыночная экономика, государственное регулирование, туристские предприятия*

Turizm, iqtisadiyyatda əhəmiyyətli bir sektordur. Turizmin sosial-iqtisadi mahiyyəti, bir ölkənin iqtisadi potensialının formalaşmasında və dinamikasında önəmli bir rol oynayır. Turizm sektoru, ticarət, əmək, mədəniyyət və digər sahələrlə əlaqəli olan bir sıra digər sahələrlə də bağlıdır. Turizm, ölkələrin iqtisadi potensiallarını artırmaq üçün effektiv bir vasitədir. Turizm, ölkələrə xarici investisiyalar cəlb edir, iqtisadiyyatı canlandırır və yeni iş yerləri yaradır. Turizm sahəsi, turistlərin ehtiyaclarını qarşılayan bir sıra digər fəaliyyət sahələri ilə də əlaqəlidir. Restoranlar, otellər, istirahət və alış-veriş mərkəzləri kimi sahələr, turizmin inkişafına kömək edir [3].

Turizm sektoru, xüsusi resursları və digər iqtisadi və əhali potensialı ilə də əlaqəlidir. Bir ölkənin turizm potensialı, ərazi çəkisi, mədəni miras, ənənələr və mədəniyyəti ilə bağlıdır. Turizm sektoru, bir ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli bir rol oynayır və yeni ixtisas sahələri yaradır. İqtisadi ədəbiyyatlarda turizmə fəaliyyət növləri, iqtisadi sahələr, sahələrarası kompleks və ya bazar, ərazi potensialı və həmçinin sosial-iqtisadi inkişaf amili kimi baxılma istiqamətləri mövcuddur. Turizm sektoru, iqtisadiyyatda inkişafın əsas mənbəyi olaraq dəyərləndirilir və mövcud iqtisadiyyatlar üzərində pozitiv təsir göstərir.

Turizmin maddi-texniki bazası (MTB) təşkil olunmuş turizmin inkişafının əsasını təşkil edir. Türizmin maddi-texniki bazasına aşağıdakılar daxildir:

- turist firmaları (turagent, turoperator);
- mehmanxanalar;
- turist bazaları;
- ticarət və qidalanma müəssisələri;
- avtonəqliyyat müəssisələri, turizm avadanlıqları və iventarları kirayə verən müəssisələri;
- turist yollayışı satan bürolar;
- nəzarət-xilasetmə müəssisələri;
- turist klubları;
- dayanaqcaqlar və s.

Turizmin MTB obyektləri üç əsas əlamət əsasında təsnifləşdirilir [5]:

1) göstərilən xidmətin növünə görə,
2) iqtisadi elementlər üzrə,
3) təsərrüfat subyektinin mülkiyyət növünə görə.




Xidmətin növünə görə MTB obyektləri-komleks turizm xidməti göstərən müəssisələrə (turist fitmalarına); səyahətin təşkilini, yerləşməni (yaşayış, gecələmə), qidalanmanı, nəqliyyat xidmətini həyata keçirən müəssisələrə digər müəssisələrə (tədris müəssisələri, klubları və s.) ayrılır. Onlar aşağıdakı sistemdə göstərilmişdir [4].

Turizm ehtiyyatlarını iki böyük qrupa bölmək olar: təbii ehtiyatlar; infrastruktur ehtiyatlar.

Xidmət göstəriciləri də mehmanxanaların səviyyəsini təyin etmək üçün vacibdir. Keyfiyyətli xidmət, qonaqların təcrübəsini olumlu şəkildə təsir edir və onların əks-əmək həyata keçirməsi üçün rahat bir mühit yaradır. Xidmət göstəriciləri arasında məsələn, resepsiyon xidməti, restoran və kafelerin keyfiyyəti, temizlik xidməti kimi faktorlar yer alır. Yüksək səviyyədə xidmət təmin edən mehmanxanalar, qonaqlarını daha çox cəlb edir və onların təkrar geri qayıtma ehtimalını artırır.

Turizmin idarəedilməsi, dinamik, kompleks və sistemli formada inkişaf etməlidir. Dinamik olaraq, turizm sektorundakı dəyişikliklər və trendlərə sürətli cavab vermək, yeni idarəetmə modelləri tətbiq etmək və dəyişən iqtisadi şəraitə uyğunluğu təmin etmək vacibdir. Yuxarıdakı cədvəldə də Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əsas göstəriciləri diqqətə çatdırılmış və təhlil edilmişdir. Turizmin idarəedilməsi sahəsinin iqtisadi və sosial idarəetmə problemlərinin vəhdətindən təşkil olunması, bu sahəni iqtisadi və təşkilati quruluşu sahə və ərazi prinsipləri əsasında qurur.

Turizm, iqtisadiyyatda önəmli bir sahədir və idarəedilməsi çox vacibdir. Turizm sektorundakı idarəetmə, mülkiyyət münasibətlərini, onun formalarını və təsərrüfatın təşkil olunmasının əsas istiqamətlərini daxil edir. Məqsədi, maksimum iqtisadi səmərənin əldə edilməsidir. Bu səmərə iki cür ölçülür – iqtisadi və sosial səmərə [2].

**Cədvəl 1**

**Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əsas göstəriciləri**

| | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| **Mehmanxana (hotel) və mehmanxana tipli müəssislərin sayı, vahid** | 563 | 596 | 642 | 655 | 685 | 727 |
| **Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin sayı, vahid** | - | 621 | 670 | 682 | 712 | 757 |
| **Birdəfəlik tutum, yer** | 41.611 | 46.693 | 49.980 | 50.687 | 53.049 | 56.562 |
| **Nömrələrin sayı, vahid** | 20.778 | 22.192 | 23.865 | 24.195 | 25.445 | 27.312 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Yerləşdirilmiş şəxslərin sayı, nəfər** | 1.414708 | 1.749475 | 1.919765 | 668.813 | 1.172123 | 1.697358 |
| o cümlədən: | | | | | | |
| ölkə vətəndaşlarına | 433.476 | 515.083 | 603.026 | 401.430 | 900.560 | 789.405 |
| xarici vətəndaşlara | 981.232 | 1.234392 | 1.316712 | 267.383 | 271.563 | 907.963 |
| **Gecələmələrin sayı, gecə** | **2,590641** | **3,002959** | **3,345285** | **999,786** | **1,788716** | **2,647178** |
| o cümlədən: | | | | | | |
| ölkə vətəndaşları | 886.187 | 952.949 | 1.104412 | 583.057 | 1.374312 | 1.253063 |
| xarici vətəndaşlar | 1.704454 | 2.050010 | 2.240873 | 416.729 | 414.404 | 1.394115 |
| **İşçilərin sayı, nəfər** | **10.015** | **11.407** | **12.481** | **10.731** | **11.143** | **12.314** |
| **Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin əldə etdiyi gəlir, min manat** | **284453.9** | **359453.0** | **450188.5** | **116798.0** | **209678.3** | **355322.1** |
| **Məhsul və xidmətlərin istehsalına çəkilən xərcləri, min manat** | **222192.9** | **277680.5** | **308342.5** | **171805.1** | **231.468** | **296805.6** |
| **Büdcəyə ödənilən vergilər, min manat** | **39 040,6** | **33,323.1** | **42 252,5** | **15,018.2** | **12,819.6** | **25,145.2** |

*Mənbə:* **Cədvəl "Dövlət Statistika Komitəsi"-nin verdiyi məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır** [1, səh 24].

İqtisadi səmərə, turizm sahəsində iqtisadiyyatın inkişafına və dövlət büdcəsinə turizm sektorundan gəlirin artırılmasına nail olmaq deməkdir. Bu, turizm sahəsində yatırımların artırılması, turist sayısının çoxalması və turistlərin mənfəət göstərdiyi xidmətlərin inkişafı ilə əldə olunur.

Sosial səmərə isə, turizm sahəsində sosial məqsədlərə nail olmaq deməkdir. Yerli əhaliyə iş yaratmaq, əhalinin yaxşı yaşamasına və mədəni inkişafına dəstək olmaq, turizm sahəsində sosial proqramların təşkil edilməsi, ənənələrin qorunması və ictimai inkişafı təmin etməkdir.

Turizmin sosial-iqtisadi mahiyyəti mövcud iqtisadi sisteminin bir hissəsi olaraq dəyərləndirilir. Turizm, bir ölkənin sənaye, ticarət və xidmətlər sektorlarına dəyər əlavə edir, yerli məhsulların sərf edilməsinə və yerli istehlakın artırılmasına kömək olur. Turizm eyni zamanda yeni iş yaradır, məşğulluğu artırır və sosial imkanları yaxşılaşdırır.

Bundan əlavə, turizm mövcud iqtisadiyyatın diversifikasiya edilməsinə kömək edir və yerli məhsulların tanıdılmasını və satılmasını təmin edir. Turizm, turistlərin yerli məhsullara və xidmətlərə olan marağını artırır və yerli şirkətlərə daha çox satış imkanı yaradır.

Qeyd edək ki, turizmin sosial-iqtisadi mahiyyəti və rolu, bir ölkənin iqtisadi potensialının artırılması və dinamikasında əhəmiyyətli bir təsirə malikdir. Turizm sektoru, xüsusi resursları və digər iqtisadi və əhali potensialı ilə əlaqəli olduğu kimi, iqtisadi sahələr, sahələrarası kompleks və ya bazar, ərazi potensialı və sosial-iqtisadi inkişaf amili kimi də dəyərləndirilir. Turizm sektoru, bir ölkənin inkişafına kömək edir və iqtisadiyyatının dinamikasını təmin edir.

Nəticədə turizm sektoru iqtisadi artımın və inkişafın mühüm elementi kimi meydana çıxır. Turizm fəaliyyətinin iqtisadiyyata müsbət təsirləri sayəsində bir çox ölkə turizm sektoruna böyük əhəmiyyət verir. Bu sektor gəlir gətirən sahə olmaqla yanaşı, həm də məşğulluğun yaradılması, regional inkişafı dəstəkləmək kimi mühüm üstünlüklərə malikdir. Ona görə də turizm sektorunun ölkənin iqtisadi yüksəlişinə verdiyi töhfə böyük əhəmiyyət kəsb edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycanda turizm. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Statistika məcmuəsi, Bakı, 2023.

2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri. Bakı, 2021
3. İsmayılov V.İ, Məmmədov M.Z, "Beynəlxalq turizmin coğrafiyası" Bakı 2021, SkyE, 264 səh
4. İsmayılov V.İ. Turizmin iqtisadiyyatı. Bakı: "İndiqo" Nəşriyyatı, 2018.- 315 səh.
5. Nizami Cəlal oğlu Qafarov. Turizmin iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Düzəliş və əlavələr edilməklə II nəşr. Bakı-2019, "Kooperasiya" nəşriyyatı, 584 səh.

# XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ

**Aysun Nəsrəddin qızı Nəsirova**
bakalavriat tələbəsi
aysun.nasirova@mdu.edu.az
*Elmi rəhbər: Təranə Allahverdi qızı Səfərova*
*Biznes və menecment kafedrasının baş müəllimi*

***Açar sözlər:*** *Milli park, dövlət təbiət qoruğu, təbiət yasaqlığı, biosfer qoruqları, biomüxtəliflik, ekoloji mühafizə, davamlı inkişaf, ekoturizm, hüquqi tənzimləmə*
***Keywords:*** *National Park, State Nature Reserve, nature reserve, biosphere reserves, biodiversity, environmental protection, sustainable development, ecotourism, Legal Regulation*
***Ключевые слова:*** *национальный парк, государственный заповедник, заповедник, биосферные заповедники, биоразнообразие, охрана окружающей среды, устойчивое развитие, экотуризм, правовое регулирование*

## Giriş

Xüsusi mühafizə olunan təbiət əraziləri Azərbaycan Respublikasının milli sərvəti hesab olunur və xüsusi ekoloji, elmi, mədəni və estetik dəyərə malikdir.

Bu ərazilər nadir və nəsli kəsilmək təhlükəsində olan növlərin yaşadığı, təbiətin səciyyəvi obyektlərinin qorunduğu xüsusi sahələrdir. Bu ərazilər təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti olaraq çıxarılan torpaq, su (akvatoriya) sahələri və onların üzərindəki atmosfer məkanıdır. Xüsusi mühafizə olunan təbiət obyektləri isə elmi, mədəni, estetik və sağlamlaşdırma dəyəri olan nadir, xüsusi mühafizə rejimli zooloji, botanik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə, landşaft və torpaq obyektləridir.

## Məqsəd

Bu məqalənin məqsədi Azərbaycan Respublikasında xüsusi mühafizə olunan təbiət ərazilərinin növlərini, funksiyalarını və onların ətraf mühitin qorunmasında oynadığı rolu araşdırmaqdır. Məqalədə bu ərazilərin hüquqi əsasları, statistik göstəriciləri və sosial-iqtisadi əhəmiyyəti təhlil olunur. Eyni zamanda, ekoturizmin inkişafı və davamlı təbiət mühafizəsi baxımından bu ərazilərin potensialı ortaya qoyulur. Məqsəd həmçinin ictimaiyyətin ekoloji maariflənməsinə və bu sahədə elmi baxışın genişlənməsinə töhfə verməkdir.

## Metodologiya

Araşdırmada əsasən təsviri və analitik yanaşmalardan istifadə edilmişdir. Araşdırma zamanı Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsi və beynəlxalq ekoloji təşkilatların (məsələn, UNESCO) məlumatları əsas götürülmüşdür.

Azərbaycanda hazırda ümumi sahəsi 890.000 hektardan çox olan xüsusi mühafizə olunan təbiət əraziləri fəaliyyət göstərir. Bu sahələr ölkənin ekoloji balansının qorunmasında, bioloji müxtəlifliyin saxlanmasında və elmi-tədqiqat işlərinin aparılmasında mühüm rol oynayır.

Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin (bundan sonra-XMOTƏ) Növləri; Azərbaycanda XMOTƏ-lər aşağıdakı kateqoriyalara bölünür: Milli parklar: Ekoloji, tarixi və estetik əhəmiyyət

daşıyan ərazilər. Hazırda 10 milli park fəaliyyət göstərir, o cümlədən Hirkan Milli Parkı (40,358 ha), Şirvan Milli Parkı, və Qızılağac Milli Parkı (99,060 ha).

Dövlət təbiət qoruqları: Nadir bitki və heyvan növlərinin mühafizəsi üçün nəzərdə tutulmuş ərazilər. 11 qoruq mövcuddur, məsələn, Zaqatala Dövlət Təbiət Qoruğu və Qarayazı Qoruğu. Dövlət təbiət yasaqlıqları: Müvəqqəti və ya daimi qoruma rejimli ərazilər. 24 yasaqlıq var, o cümlədən Laçın Yasaqlığı və Ordubad Yasaqlığı. Əsas Statistik Məlumatlar; Ümumi sahə 893,000 hektar (2024-cü il məlumatı). Ölkə ərazisində payı; 10.3 % . Milli parkların payı; 4.87 %, dövlət qoruqlarının payı isə 1.39 % təşkil edir. Son əlavələr; 2023–2024-cü illərdə işğaldan azad edilmiş ərazilərdə yeni XMOTƏ-lər yaradılıb, məsələn, Qarabağ və Kəlbəcər regionlarında.

*Hirkan Milli Parkı.*

Sahəsi: 40,358 ha (2004-cü ildə genişləndirilib).

Əhəmiyyəti: Relikt Hirkan meşələri ilə məşhurdur. YUNESKO-nun Ümumdünya Təbii İrs Siyahısına daxil edilməsi üçün nominasiya hazırlanır.

Fauna: Bəbir, cüyür, Talış qırqovulu kimi nəsli kəsilmək təhlükəsində olan növlər. Şahdağ Milli Parkı. Sahəsi: 130,508.1 ha (Azərbaycanın ən böyük milli parkı).

Yerləşdiyi ərazi: Quba, Qusar, Şamaxı və digər rayonlar.

*Qızılağac Milli Parkı.*

Yaranma tarixi: 2018-ci ildə Xəzər sahilində təsis edilib.

Məqsəd: Subataqlıq quşlarının və nadir ekosistemlərin qorunması.

Qanuni və İnzibati Tədbirlər.

Qanun dəyişiklikləri: 2024-cü ildə XMOTƏ-lər üçün sanitariya-mühafizə zonaları müəyyən edilib (3000 metrə qədər).

İşğaldan azad edilmiş ərazilər; Bu regionlarda xəritələrin tərtibi və yeni qoruqların yaradılması planlaşdırılır.

**Beynəlxalq təcrübə**

Dünyada da mühafizə olunan təbiət əraziləri çoxsaylıdır. Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) tərəfindən mühafizə olunan ərazilərin altı kateqoriyası müəyyən edilmişdir. Bu kateqoriyalara ciddi təbiət rezervləri (yalnız tədqiqat və mühafizə), vəhşi təbiət əraziləri, milli parklar (ekosistemlərin qorunması və turizm), təbiət abidələri və s. daxildir.

**Beynəlxalq Əməkdaşlıq və Layihələr**

Zaqatala-Balakən Biosfer Rezervatı: Almaniya ilə birgə layihə çərçivəsində ölkənin ilk biosfer qoruğu yaradılır.

WWF dəstəyi: Ceyran, bezoar keçisi və bəbir kimi növlərin reintro-duksiyası üzrə layihələr həyata keçirilir.

Gələcək Perspektivlər: Yeni geoloji parklar; Azərbaycanda ilk dəfə bu kateqoriyanın yaradılması üzrə işlər davam edir.

Ekoturizm: Milli parklarda turizm infrastrukturunun inkişafı və yerli əhalinin iqtisadi rifahının artırılması.

Azərbaycan, təbii sərvətlərinin qorunması üçün nəinki regional, həm də qlobal səviyyədə fəal addımlar atır. Milli parkların genişləndirilməsi, qanuni tənzimləmələr və beynəlxalq əməkdaşlıq bu istiqamətdə uğurun əsas amillərindən sayılır. Təbiətin müasir çağırışlara uyğun şəkildə qorunması, nəsillər arası davamlılığın təmin edilməsi baxımından həlledici əhəmiyyət daşıyır.

Dünyada ən çox yayılmış mühafizə olunan təbiət ərazi kateqoriyaları Beynəlxalq Təbiəti Mühafizə İttifaqı (IUCN) tərəfindən müəyyən edilmişdir və əsasən altı növə bölünür. Bu kateqoriyalar aşağıdakılardır:

1. **I A – Ciddi təbiət rezervasiyaları:** Bu ərazilərdə yalnız tədqiqat və mühafizə fəaliyyətinə icazə verilir; insan təsiri minimal olmalıdır.
2. **I B – Vəhşi təbiət əraziləri:** Vəhşi təbiətin qorunması üçün idarə edilən sahələr.
3. **II – Milli parklar:** Ekosistemlərin qorunması və turizm fəaliyyətləri üçün nəzərdə tutulur.
4. **III – Təbiət abidələri:** Nadir təbiət obyektlərinin və görməli yerlərin mühafizəsi.

5. **IV – Yaşayış yerlərinin və növlərin mühafizəsi əraziləri:** Xüsusi bitki və heyvan növlərinin yaşayış yerlərinin qorunması üçün nəzərdə tutulur.
6. **V – Mühafizə olunan landşaftlar:** Landşaftın və istirahət məqsədləri üçün qorunan ərazilər.
7. **VI – Resursların mühafizəsi ilə əlaqədar ərazilər:** Ekosistemlərin həzin istifadəsi üçün qorunan sahələr.

Ən çox yayılmış kateqoriyalar arasında milli parklar (II) və yaşayış yerlərinin/növlərin mühafizəsi əraziləri (IV) geniş yayılıb. Həmçinin, mühafizə olunan landşaftlar (V) və təbiət abidələri (III) də bir çox ölkədə geniş tətbiq olunur. Milli parklar, xüsusilə turizm və ekosistemlərin qorunması baxımından dünyada ən çox rast gəlinən mühafizə olunan ərazi növüdür.

Qeyd edək ki, bəzi mənbələrə görə, IUCN-in əsas altı kateqoriyasından əlavə olaraq, resursların mühafizəsi ilə əlaqədar ərazilər (VI) də müəyyən hallarda nəzərə alına bilər, lakin ən çox yayılmış və tanınmış olanlar milli parklar və yaşayış yerlərinin/növlərin mühafizəsi əraziləridir.

**Nəticə**

Tədqiqatın nəticələri göstərir ki, xüsusi mühafizə olunan təbiət əraziləri Azərbaycanın ekoloji sabitliyinin qorunmasında, biomüxtəlifliyin saxlanmasında və davamlı inkişafın təmin olunmasında mühüm rol oynayır. Bu ərazilər təkcə təbiətin qorunması məqsədi daşımır, eyni zamanda ekoturizm imkanları yaradır, yerli icmalar üçün yeni iqtisadi imkanlar formalaşdırır və əhalinin ekoloji maarifləndirilməsinə töhfə verir. Hüquqi tənzimləmə və institusional idarəetmə mexanizmləri bu ərazilərin qorunması və inkişafı üçün mühüm baza təşkil edir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Milli Parkları https://az.wikipedia.org)
2. Ekologiya və Təbii Sərvətlər Nazirliyi (https://eco.gov.az)
3. Azərbaycan Respublikası "Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" Qanunu, Bakı, 2000.
4. Hacıyev V.S. "Azərbaycanın təbiəti və onun mühafizəsi", Bakı: Maarif nəşriyyatı, 2018, 290 s.
6. Məmmədov R.M. "Ekologiya və ətraf mühitin mühafizəsi", Bakı: Təhsil Nəşriyyatı, 2017, 344 s.
7. Məmmədov M.Ə., Hüseynov T.İ. "Azərbaycanın təbiəti və onun mühafizəsi", Bakı, 2020

## BEYNƏLXALQ TURİST AKTİVLİYİ VƏ ONUN MƏŞĞULLUĞA TƏSİRİ

**[1]Nurcan Süleyman qızı Kərimova, [2]Aysun Yafəz qızı İskəndərova**
bakalavriat tələbələri
[1]nurcan.karimova@mdu.edu.az
[2]aysu.iskenderova@mdu.edu.az
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *Beynəlxalq turizm, turist aktivliyi, məşğulluq, iqtisadi inkişaf*
***Keywords:*** *international tourism, tourist activity, employment, economic development*
***Ключевые слова****: международный туризм, туристическая активность, занятость, экономическое развитие*

Beynəlxalq turizm dünyanın ən yüksək ixrac gəlirini təmin edir və əksər ölkələr üçün mühüm ödəniş balansı faktorudur. Turizm sektoru dünyanın ən vacib iş yerlərindən birinə çevrilib. Turizmin inkişafı infrastruktura nəhəng investisiyaların axınını stimullaşdırır ki, bunun da böyük

hissəsi həm yerli əhalinin, həm də turistlərin həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlib. Turizm sahəsində yeni iş yerləri və müəssisələrin bəziləri inkişaf etməkdə olan ölkələrdə yaradılır ki, bu da iqtisadi artım imkanlarını tarazlamağa kömək edir və həmçinin sakinlərin həddən artıq dolu şəhərlərə getmələrinin qarşısını alaraq kənd yerlərində qalmağa kömək edir. Turist mübadiləsi prosesində yaranan mədəniyyətlərarası əlaqələr və şəxsi dostluqlar beynəlxalq anlaşmanın yaxşılaşdırılmasında mühüm amildir və dünya xalqları arasında sülhün möhkəmlənməsinə töhfə verir [3].

Ümumdünya Turizm Təşkilatı milli hökumətlərin özəl sektor müəssisələri, yerli administrasiyaların nümayəndələri və qeyri-hökumət təşkilatları ilə tərəfdaşlıq əlaqələrini inkişaf etdirmək və bununla da turizmin inkişafında fəal iştirak etmək istəyini alqışlayır. Yoxsulluğa qarşı mübarizədə turizmdən səmərəli istifadə oluna biləcəyinə əmin olan UNWTO yoxsulluğun aradan qaldırılması vasitəsi kimi dayanıqlı turizmi təşviq etmək üçün yeni təşəbbüslə BMT-nin Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verməyi öhdəsinə götürüb.

Dünyada turizmin əhəmiyyəti durmadan artır ki, bu da turizmin ayrı-ayrı ölkənin iqtisadiyyatına təsiri ilə bağlıdır.

Beynəlxalq turizm bir sıra mühüm funksiyaları yerinə yetirir:

- beynəlxalq turizm ölkəyə valyuta gəlirləri mənbəyi və əhalinin məşğulluğunun təmin edilməsi vasitəsidir;
- beynəlxalq turizm turizm sektoruna xidmət edən sənaye sahələri yaratmaqla iqtisadiyyatın şaxələndirilməsinə töhfə verir.

Dünyada beynəlxalq turizm eyni deyil, bu, ilk növbədə ölkələrin və regionların müxtəlif sosial-iqtisadi inkişaf səviyyələri ilə izah olunur. Beynəlxalq turizm ən böyük inkişafı Qərbi Avropa ölkələrində almışdır. Bu region dünya turizm bazarının 70 %-dən çoxunu və valyuta gəlirlərinin təxminən 60 %-ni təşkil edir. Təxminən 20 %-i Amerikadan, 10 %-dən azı Asiya, Afrika və Avstraliyadan gəlir. Beynəlxalq turizm əlaqələrinin bu inkişafı beynəlxalq ticarətin bu sahəsinin fəaliyyətini yaxşılaşdırmağa kömək edən çoxsaylı beynəlxalq təşkilatların yaradılmasına səbəb olmuşdur. İsveçrə, Avstriya, Fransa, İspaniya kimi bir çox yüksək inkişaf etmiş Qərb ölkələri öz sərvətlərinin əhəmiyyətli hissəsini turizmdən gələn gəlirlər hesabına qurublar. Müharibədən sonrakı illərdə turizm sahəsində güclü elmi-tədqiqat bazası və peşəkar kadr hazırlığı sistemi yaradılmışdır.

Belə ki, səciyyəvi xüsusiyyəti xidmətlərin əhəmiyyətli hissəsinin yerli istehsalda minimal xərclə həyata keçirilməsindən ibarət olan beynəlxalq turizm qlobal iqtisadiyyatda getdikcə daha mühüm rol oynayır.

Beynəlxalq turizmin inkişafı üçün həm də ayrı-ayrı ölkələrin turizmdən valyuta gəlirlərini artırmaq istəyi və bu məqsədlə iqtisadiyyatın bütöv bir sahəsinin - turizm sənayesinin yaradılması vacibdir. Turizm sənayesi dedikdə, turizm xidmətləri və turist tələbatının mallarını istehsal edən və satan istehsal, nəqliyyat və ticarət müəssisələrinin məcmusu başa düşülür. Buraya mehmanxanalar və digər yerləşdirmə obyektləri, nəqliyyat vasitələri, iaşə obyektləri, suvenirlər və turistlərin tələbatına uyğun digər mallar istehsal edən müəssisələr daxildir.

Turizmin beynəlxalq miqyasda inkişafı üçün təşkilati-iqtisadi imkanlar ayrı-ayrı ölkələrdə təşkilati-iqtisadi proseslərin inkişafı üçün əlverişli şərait yaratmışdır.

Onların bir çoxu üçün beynəlxalq turizm:

- tədiyyə balansının artımını stimullaşdıran amil;
- bir çox sənaye sahələrinin inkişafı və şaxələndirilməsi üçün güclü stimul (turizm sektoruna xidmət edən həm müəssisələr, həm də ayrı-ayrı sənayelər yaranır).

Potensial ehtiyatlar ölkənin demək olar ki, hər bir regionunda mövcuddur və kiçik və orta biznesin inkişafına təkan verməkdən, ölkənin iqtisadi potensialını gücləndirməkdən ibarətdir. Bunu bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir, burada kiçik və orta sahibkarlıq, bir qayda olaraq, milli iqtisadiyyatın bütün müəssisələrinin ən azı 90-95 %-ni təşkil edir. Kiçik və orta biznesin inkişafının təşviqi iqtisadi problemdən çox sosial problemdir. Azərbaycanın hər hansı bir subyektində təsərrüfatların və yeyinti sənayesinin, xalq sənətkarlıq artellərinin, səyyar təsərrüfatların inkişafı üçün müvafiq imkanlar olacaqdır.

Turist səfərlərinin motivasiyası, əsasən, iqtisadi amillərlə müəyyən edilir ki, bunlardan da başlıcası pul gəlirinin turist paketini almaq üçün kifayət edib-etməməsidir. Bu amil birbaşa olaraq müəyyən dəyişikliklərə meylli olan bir sıra sosial amillərlə bağlıdır.

Azərbaycanda xarici turizm əlavə stimullaşdırmaya ehtiyac duymur. İstər turistlərimizi gözləyən ölkələr, istərsə də bu ölkələrin hər hansı birinə (yaxud bir neçəsinə) getmək istəyən turistlərin özləri buna qarşılıqlı maraq göstərirlər.

2017-2022-ci illərdə Azərbaycana turistlərin səfər etdiyi ilk beş ölkə Rusiya, Gürcüstan, Türkiyə, İran və BƏƏ olub. 2017-ci ildə Rusiya 854 331 ziyarətçi ilə liderlik etdiyi halda, ən aşağı ölkə 102 498 ziyarətçi ilə BƏƏ olub. 2022-ci ilə qədər yalnız Türkiyədən gələn ziyarətçilərin sayı artıb, digər dörd ölkədə isə azalma müşahidə olunub. Azərbaycana gələn rusiyalı turistlərin faizi sabit qalıb, 2017-2022-ci illər arasında 27,8 % - 32,6 % arasında dəyişib. Bu, rusiyalı turistlərin Azərbaycanın turizm sənayesi üçün davamlı əhəmiyyətini nümayiş etdirir [1].

Ümumdünya Səyahət və Turizm Şurası 2022-ci ildə Səyahət və Turizmin Azərbaycan İqtisadiyyatına İqtisadi Təsiri adlı nəşr hazırlayıb [5]. Orada son illərin icmalı, eləcə də növbəti 10 il üçün proqnozlar təqdim olunub. Dünya Səyahət və Turizm Şurasının statistikasına əsasən, 2019-ci ildə turizm sənayesinin Azərbaycanın ÜDM-ə birbaşa töhfəsi 7,9 % (ən yüksək nəticə) təşkil edib. Bundan əlavə, 2028-ci il üçün bu göstəricinin 15,6 %-ə yüksələcəyi proqnozlaşdırılır. Statistikaya əsasən, 10 ildən sonra Azərbaycan İspaniya, İtaliya, Şri-Lanka (turizm sənayesinin iqtisadiyyata birbaşa töhfələri yüksək olan ölkələr) kimi ən çox tələb olunan turizm ölkələri siyahısında yer alacaq [5].

Gəlmə turizmi ilə bağlı vəziyyət fərqlidir. Bunu sadə bir səbəbə görə təşviq etmək lazımdır: çox sərfəlidir. Ölkəmizdə həm daxili turizm, həm də daxil olan xarici turizm əsasında inkişaf edən turizm biznesi təkcə turizm sənayesinin deyil, həm də bir sıra digər qeyri-istehsal sahələrinin inkişafına təkan verir. Bu, sənaye sahələrində, eləcə də turizm infrastrukturu müəssisələrində iş yerlərinin sayının artmasına təkan verir.

Gəlmə turizmini inkişaf etdirmək üçün təkcə turizm imkanlarımızı yaxşı tanıtmaq deyil, həm də yeni mehmanxanalar tikmək, turizm xidmətlərinin keyfiyyətini yüksəltmək, müştərilərə xidməti yaxşılaşdırmaq lazımdır [2].

Müsbət nəticələrlə yanaşı, məsələn: xaricdən göndərilən emiqrantların pul köçürmələri, mühacirlərin ölkəsinə pul kütləsinin axını, xaricdə işləmək üçün şirkətlərə vergilər, mühacirlərin öz ölkələrinin iqtisadiyyatına sərmayələri (xaricdə yaxşı məskunlaşmış bir çox mühacirlər) vəsaitlərini öz dövlətlərinin fəaliyyətinə yatırmaq), mühacirlərin getməsindən sonra sosial xərclərin azaldılması (vətəndaşların başqa ölkələrə emiqrasiyasından sonra,onların sosial təminatının dəyəri (təhsil, tibbi xidmətlər, təhlükəsizlik) də sadalamaq olar.

İşsizlik probleminin yumşaldılması (vətəndaşların xaricə axını ölkədə işsizliyin gərginliyini azaldır, işçi qüvvəsi təklifini azaldır) Müsbət nəticələrlə yanaşı, turistlərin ölkəyə axını ilə bağlı yarana biləcək mənfi nəticələri də nəzərə almaq lazımdır. müəyyən bölgə. Deməli, əgər rayonda işçi qüvvəsi artıqlığı yoxdursa, onun turizm sənayesinə, məsələn, kənd təsərrüfatına keçməsi sonuncuda müəyyən durğunluğa səbəb ola bilər. Kənd yerlərindən şəhərlərə miqrasiya səhiyyə və təhsil kimi qeyri-istehsal sahələrinin yükünü artıracaq. Turizm sənayesində əlavə investisiyalara sərf olunan investisiya resursları ehtiyac duyulan sektorlara yönəldilə bilməyəcək.

Məsələn, makroiqtisadiyyatda xarici turistlərin Azərbaycana daxil olması ilə müqayisədə bizim turistlərin xaricə getməsinin üstünlük təşkil etməsi xarici valyutanın başqa ölkələrin iqtisadiyyatına faktiki hərəkətinə gətirib çıxarır. Statistikalar xaricə səyahət edən yerli turistlərin sayında artım olduğunu göstərir. Xarici turizmin daha sürətli inkişafı üçün məhdudlaşdırıcı amil əhalinin əsas hissəsinin aşağı həyat səviyyəsi və islahatlar illərində onların real gəlirlərinin azalmasıdır. Əgər yaxın illərdə bu mənfi tendensiyanın qarşısını almaq və gəlir artımını stimullaşdırmaq mümkün olarsa, o zaman xaricə gedən turizm inkişafda bum yaşayacaqdır.

Turizmin məşğulluğa və yeni iş yerlərinin açılmasına verdiyi töhfə bu sahənin sosial-iqtisadi əhəmiyyətini müəyyən edir. Turizmin inkişafı iqtisadiyyatın nəqliyyat, rabitə, ticarət, tikinti, kənd

təsərrüfatı, istehlak mallarının istehsalı kimi əsas sektorlarına stimullaşdırıcı təsir göstərir və multiplikator effekti nəzərə alınmaqla ən perspektivli sahələrdən biridir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycanda turizm. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Statistika məcmuəsi, Bakı, 2023
2. Denisenko M.N. / Turizm: Dərslik. müavinət / Ed. Osmovoy M.N., Boyçenko A.V. - Moskva: INFRA - M, 2012. - 851 s.
3. İqtisadiyyat: iqtisadiyyat üzrə təhsil alan aspirantlar üçün dərslik / red. İ.L. Nikolaeva. -2-ci nəşr, yenidən işlənmiş. və əlavə - Moskva: BİRLİK-DANA, 2012. - 286 s.
4. Korzun R. M. Beynəlxalq turizm // “Aqrar-sənaye kompleksinin iqtisadiyyatı: problemlər və həlli yolları” - 2011. - 673 s.
5. https://wttc.org/DesktopModules/MVC/FactSheets/pdf/704/65_20220613154359_Azerbaijan2 022_.pdf

# TURİZMİN İNKİŞAFINDA ƏTRAF MÜHİTİN ROLU

**[1]Sevda Xəqani qızı Cəfərova, [2]Səbinə Nurlan qızı Rəhimova, [3]Aişə Teymur qızı Hacıyeva**
bakalavriat tələbələri
[1]sevda.ceferova@mdu.edu.az
[2]sabina.rahimova@mdu.edu.az
[3]aise.haciyeva@mdu.edu.az
*Elmi rəhbər: Nərmin Arif qızı Əliyeva*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *ətraf mühitin etikası, bioloji müxtəliflik, dayanıqlı hesabat, ətraf mühitə təsirin qiymətləndirilməsi*
***Keywords:*** *environmental ethics, biodiversity, sustainability reporting, environmental impact assessment*
***Ключевые слова****: экологическая этика, биоразнообразие, отчетность по устойчивому развитию, оценка воздействия на окружающую среду*

Ətraf mühit etikası tətbiqi fəlsəfənin bir sahəsidir və ətraf mühitlə bağlı dəyərlərin konseptual əsaslarını, eləcə də cəmiyyətin biomüxtəlifliyi və ekoloji sistemləri qorumaq və davamlı saxlamaqla bağlı münasibətləri, hərəkətləri və siyasətləri araşdırır. Gördüyümüz kimi, insanların tuta biləcəyi müxtəlif ətraf mühit etikaları mövcuddur — insan mərkəzli (yəni "antroposenrtik") baxışlardan təbiət mərkəzli (yəni "qeyri-antroposenrtik") baxışlara qədər. Qeyri-antroposenrtiklər təbiətin insanlara olan faydasından (instrumental dəyərdən) daha çox, onun daxili dəyərinin qorunmasını müdafiə edirlər. Bəzi etiklər və alimlər üçün növlərə və ekosistemlərə onların özləri üçün hörmət göstərmək ekologiyanın və təkamül sistemlərinin strukturu və funksiyalarını anlamaqdan qaynaqlanan ekoloji dünyagörüşün qəbulunun nəticəsidir. Bu baxımdan, ətraf mühitin qorunmasına həsr olunmuş yeni elmi sahələr - məsələn, təbiəti mühafizə biologiyası və davamlılıq elmi tez-tez “normativ” elmlər kimi xarakterizə olunur; çünki bu sahələr ya növlərin və ekosistemlərin daxili dəyərinə, ya da uzunmüddətli insan rifahına verdikləri töhfəyə görə onların qorunmasına sadiqlik daşıyırlar [1].

Bioloji müxtəliflik yer üzərində bütün canlıların mikroorqanizm, bitki və heyvanların müxtəlifliyi deməkdir. Azərbaycan Respublikası Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Azərbaycan Respublikasının ərazisində 9 iqlim zonası üzrə 4500 növə kimi ali bitkilər

qeydə alınmışdır ki, bu da Qafqazın növ tərkibinin 64 %-ni, keçmiş ittifaqın bütün florasının 24 %-ni təşkil edir. Respublikada rast gələn 600 növ endemik bitkilərdən 168-i Azərbaycan, 432 növü isə Qafqaz florasına aiddir.Azərbaycan Respublikasının "Qırmızı kitabı"na 140 nadir və nəsli kəsilmək təhlükəsi olan bitki növü daxil edilmişdir.Respublika ərazisində faunanın 18 min növü qeydə alınmışdır.Azərbaycanda ekoloji, o cümlədən bioloji müxtəlifliyin problemləri həlli vacib olan prioritetlər kimi müəyyən edilmiş və bu sahədə ciddi səylər göstərilir [2].

Dayanıqlılıq hesabatlığı maliyyə xaricindəki hesabat növüdür və şirkətlərə ətraf mühit, sosial və idarəetmə göstəriciləri də daxil olmaqla, müxtəlif dayanıqlılıq meyarları üzrə məqsədlərə doğru irəliləyişlərini, eləcə də hal-hazırda və ya gələcəkdə qarşılaşa biləcəkləri risk və təsirləri açıqlamağa imkan verir. Dayanıqlılıq hesabatlığının əsas məqsədi bu sahədə konkret fəaliyyətlərə təkan verməkdir. Bu hesabatlar şirkətlərə öz fəaliyyətlərinin ətraf mühitə, cəmiyyətə və iqtisadiyyata olan həm müsbət, həm də mənfi təsirlərini ictimaiyyətə çatdırmağa və uyğun olaraq prioritetlərini müəyyənləşdirməyə kömək edir. Dayanıqlılıq hesabatlığı yalnız şirkətin uzunmüddətli fəaliyyətinə təsir edə biləcək risk və imkanları müəyyənləşdirməyə kömək etdiyi üçün deyil, eyni zamanda şəffaflığı artırmaq və brend imicini gücləndirmək baxımından da dəyərlidir. Dayanıqlılıqla bağlı hesabat verməklə şirkətlər potensial ESG risklərinin təsirini azalda, tullantıları minimuma endirərək xərclərə qənaət edə, normativ tələblərə uyğunluğu təmin edə və daha səmərəli strateji qərarlar qəbul edə bilərlər. Bir neçə fərqli dayanıqlılıq hesabatı standartı mövcuddur [3, 4]. Dayanıqlılıq və ESG təsirləri barədə hesabatların hazırlanmasında daha geniş şəkildə istifadə olunan çərçivələrə aşağıdakılar daxildir:

- Qlobal Hesabat Təşəbbüsü (GRI – Global Reporting Initiative)
- Dayanıqlılıq Mühasibat Standartları Şurası (SASB – Sustainability Accounting Standards Board)
- İqlimlə Bağlı Maliyyə Açıqlamaları üzrə İşçi Qrupu (TCFD – Task Force on Climate-related Financial Disclosures)
- Karbon Açıqlama Layihəsi (CDP – Carbon Disclosure Project)

Bu çərçivələr şirkətlərə dayanıqlılıqla bağlı məlumatları sistemli və şəffaf şəkildə təqdim etməyə kömək edir [4].

Turizm müasir dövrdə iqtisadi və sosial inkişafın əsas sahələrindən biri kimi tanınır.Dünya üzrə milyonlarla insanın səyahət etməsi turizm sektorunun genişlənməsinə və yeni imkanların yaranmasına səbəb olur. Lakin bu inkişaf bəzən təbii resursların həddindən artıq istismarına, ətraf mühitin çirklənməsinə və bioloji müxtəlifliyin azalmasına yol açır. Buna görə də turizmin ətraf mühitə təsirinin qiymətləndirilməsi vacib məsələyə çevrilmişdir.Turizmin Ətraf Mühitə Mənfi Təsirləri,

Turizm fəaliyyətləri xüsusilə təbii ərazilərdə dağlarda, meşələrdə, sahil zonalarında və milli parklarda aparıldıqda ətraf mühitə bir sıra mənfi təsirlər göstərir [5, 6]. Bunlara aşağıdakılar daxildir:

- Resursların istismarı: Turistlərin çoxluğu səbəbilə su və enerji kimi təbii resurslara tələbat artır. Bu isə bəzən yerli əhalinin bu resurslardan istifadə imkanlarını məhdudlaşdırır.
- Çirklənmə: Turizm mərkəzlərində tullantıların düzgün idarə olunmaması, nəqliyyat vasitələrinin çoxluğu və plastik istifadəsi hava, su və torpaq çirklənməsinə səbəb olur.
- Flora və faunaya zərər: Vəhşi təbiətə müdaxilə, nadir bitkilərin zədələnməsi və heyvanların təbii yaşayış sahələrinin daralması kimi fəsadlara yol açır.
- Ekosistem balansının pozulması: İntensiv turizm infrastrukturunun qurulması nəticəsində təbii ərazilər dəyişdirilir və uzunmüddətli ekoloji tarazlıq pozula bilər.
- Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ)

ƏMTQ - yeni turizm layihələrinin və ya fəaliyyətlərinin həyata keçirilməsindən əvvəl ətraf mühitə təsirləri müəyyənləşdirmək və bu təsirləri minimuma endirmək məqsədi ilə həyata keçirilir [6].

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Dövlət Neft Akademiyası N.Ə.Səlimova,B.Ş.Şahpələngova , Ə.İ.Babayev Mühəndis Ekologiyası,Bakı-2012
2. Ekologiya, ətraf mühit və insan Məmmədov Q.Ş., Xəlilov M.Y BAKI – «ELM» – 2006
3. İlqar Hüseynov, Nigar Əfəndiyeva - Turizmin əsasları,Bakı - 2007
4. İslam İbrahimov. Ətraf mühitin iqtisadiyyatı. Bakı – 2015
5. Qərib Məmmədov, Mahmud Xəlilov - Ekologiya, Ətraf mühit və Turizm
6. Məmmədov Qərib, Xəlilov Mahmud - Ekologiya və ətraf mühitin mühafizəsi

## DAVAMLI TURİZMƏ EKOTURİZMİN KÖMƏYİ

**[1]Səbinə Vəzir qızı Bayraməliyeva, [2]Fidan Sakin qızı Dəmirova, [3]Aysun Samir qızı Həsrətova**
bakalavriat tələbələri
[1]sabina.bayramaliyeva@mdu.edu.az
[2]fidan.damirova@mdu.edu.az
[3]aysun.hesretova@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Ekoturizm, davamlı turizm, milli parklar, inkişaf, mədəni turizm*
***Keywords:*** *Ecotourism, sustainable tourism, national parks, development, cultural tourism*
***Ключевые слова:*** *экотуризм, устойчивый туризм, национальные парки, развитие, культурный туризм*

Davamlı turizm sosial, ekoloji və iqtisadi məsuliyyətləri önəmsəyərək turizm fəaliyyətini davamlı formada həyata keçirməyi hədəfləyən bir yanaşmadır. Bu turizm növü mədəni və təbii sərvətləri qoruyub saxlamaqla gələcəkdə turizm fəaliyyəti üçün əlverişli mühitin yaranmasına şərait yaradır. Səyahət edilən yerlərdə yerli əhalinin mədəniyyətinə hörmətlə yanaşılır, ətraf mühitə təsirlər minimuma endirilir və iqtisadi davamlılıq təşviq edilir.

Müasir dövrdə davamlı turizmə niyə ehtiyacımız var? Çünki məqsədimiz təbii ehtiyat və biomüxtəlifliyi qorumaqla səyahət edən ziyarətçilər üçün əyləncəli və maraqlı təcrübələr göstərməklə yanaşı, ölkələrin sosial-iqtisadi inkişafını dəstəkləməkdir. Məsuliyyətli turizm, həmçinin ekoturizm kimi də tanınan davamlı turizm, turizm fəaliyyətlərinin ətraf mühitə, yerli əhaliyə və mədəni irsə ən az mənfi təsir göstərməyi təmin edir. Bu da səyahət və mühafizəni balanslaşdıran bir konsepsiyadır.

Davamlı Turizmin Əsas Prinsipləri aşağıdakılardır:

1. Təbii ehtiyatların mühafizəsi. Dünyada çoxalan turizm səyahətləri təbii sərvətlərin tükənməsinə səbəb ola bilər. Davamlı turizm isə təbii ehtiyatlardan tarazlaşdırılmış formada istifadə edərək onları həm qorumağa kömək edir, həm də gələcək nəsillərə ötürür.
2. Karbon qazının azaldılması. Turizm sektorunda əsas xidmətlərdən olan nəqliyyat və qidalanma sahələri ətraf mühitdə karbon qazının miqdarını artırır. Davamlı turizm aşağı karbonlu nəqliyyat və qidalanma variantları təşviq etməklə iqlim dəyişikliyi ilə mübarizə aparır.
3. Yerli iqtisadiyyatın dəstəklənməsi. Davamlı turizm yerli əhalinin iqtisadi rifahına töhvə verir. Bu, iş imkanlarının təmin edilməsi, yerli biznesin dəstəklənməsi və yerli əhalinin turizmlə bağlı qərarların qəbulunda səlahiyyətlərinin artırılmasını nəzərdə tutur.
4. Mədəni irsin qorunması. Kütləvi turizm mədəniyyət və tarix obyektlərinə ziyan vura bilər. Buna görə də Davamlı turizm həmin ərazilərin mühafizəsi üçün daha çox məlumatlılığı artırmaqla mədəni irsi gələcək nəsillərə ötürür.

5. Turizmin uzunmüddətli davamlılığı. Davamlı turizm ilə bir ərazinin turistik imkanlarını aşmaması və bu ehtiyatların davamlı şəkildə istifadə edilməsi təmin edilir. Bu, uzunmüddətli perspektivdə turizm gəlirlərinin saxlanmasına və iqtisadi sabitliyin qorunmasına töhfə verir.

Yuxarıda qeyd edilən prinsiplərə əməl etməklə və dayanıqlı turizm təcrübələrini reallaşdırmaqla səyahət və qoruma arasında balanslıq yaratmaq mümkündür. Həmçinin turistlərə və ziyarət edilən yerlərə fayda verərək yer kürəsini gələcək nəsillər üçün qoruya bilərik.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (UNEP) araşdırmasına görə, ekoturizm bu gün turizm sənayesinin ən sürətlə inkişaf edən seqmentlərindən biri hesab olunur. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatının uzunmüddətli proqnozlarına görə, ekoturizm həm turistlərin sayı, həm də ümumi turizmdəki payı baxımından sürətlə yüksəlməyə davam edəcək.

Azərbaycanın gözəl təbiəti, flora və fauna növlərinin çoxluğu, tarixi, mədəniyyəti, mineral sularının olması ekoliji turizmin inkişafına şərait yaradır. Yəni ölkəmizin zəngin təbiəti ekoturizm üçün olduqca əlverişlidir. 2016-cı ildə qəbul edilmiş turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində ölkəmizin turizmin inkişafı ilə bağlı hədəflərində ekoturizm xüsusi yer tutur. Belə ki, bu sənəddə ekoturizm ölkədə 2025-ci ilə kimi kifayət qədər tanınmış olacağı proqnozlaşdırılır. Ekoturizm - İngilis dilində olan «ecological tourism» və «ecotourism» sözlərinin dilimizə keçmiş formasıdır. Regionun davamlı inkişafını təmin edən və yerli mədəni-sosial mühitin qorunmasına qayğı göstərən, təbiətlə mehriban münasibətləri formalaşdıran, ekologiya təhsili maarifçiliyinə istiqamətlənmiş, təbiətə ziyan vurmayan turizmdir. Bu turizm növü üçün ən uyğun yerlər, sözsüz ki, milli parklar hesab olunur. Məsələn, Şirvan Milli Parkında ceyranlar, Qızılağac Milli Parkında köçəri quşlar, Hirkan Milli Parkında zolaqlı kaftar, Qafqaz bəbiri kimi növlər müşahidə oluna bilər. Ölkəmizdə 2003-cü ildən etibarən Milli Parklar yaradılmağa başlayıb və hazırda 10 Milli Park var. Bunlarla yanaşı, Qobustan qayaüstü rəsmləri, Şamaxı Astrofizika Rəsədxanası, xanlıq dövründən qalma saraylar, Atəşgah məbədi, palçıq vulkanları və s. bu turizm növü üçün olduqca cəzbedici obyektlər sırasında yer alırlar.

Azərbaycan Respublikasının Milli Parklarında ekoturizm fəaliyyətinin təşkili və inkişaf etdirilməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti tərəfindən həyata keçirilir. Ərazinin Milli Park statusuna malik olması özü-özlüyündə orada ekoturizmin inkişafı, onun rasional təşkili və ətraf mühitə zərər vurmadan turistlərin estetik zövq alması üçün hüquqi baza rolunu oynayır. Ekoturizmin düzgün təşkili və fəaliyyəti təbii ehtiyatların və mədəni-tarixi dəyərlərin aşkar edilməsi, bərpası və səmərəli istifadəsinə stimul yaradır. Milli parklar - xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olan təbiəti mühafizə və elmi müəssisə və ya təşkilat statusuna malik olan ərazilərdir. Ölkəmizdə milli parklar yaradıldığı vaxtdan indiyədək onların turizm (rekreasiya) potensialı olan ərazilərində təbiət turizminin inkişaf etdirilməsi məqsədilə çoxlu sayda ekoturizm marşrutu təşkil edilib.

**Cədvəl 1**

**Milli parklara səyahət edən turistlərin sayı (2024-cü il)**

| **2024-cü ilin I rübü ərzində milli parklara səfər edən turistlərin sayı** | |
|---|---|
| **Milli Parkın adı** | **Səfər edən turist sayı** |
| Abşeron | 988 |
| Altıağac | 628 |
| Ağgöl | 884 |
| Hirkan | 198 |
| Göygöl | 11155 |
| Şirvan | 1025 |
| Şahdağ | 896 |
| Samur-Yalama | 634 |

| | |
|---|---|
| Qızılağac | 517 |
| **CƏMİ:** | **16925** |

Cədvəl 1-ə əsasən Azərbaycanın 2024-cü ilin ı rübü ərzində milli parklara səfər edən turistlərin sayı göstərilmişdir. Bu diaqrama əsasən ən çox turist cəlb edən milli park Göygöl milli parkı olmuşdur. Milli parka səfər edən turist sayı 11,155 nəfərdir. Göygöl milli parkının turitləri daha çox cəlb etməsinə səbəb olan bir çox amil vardır. Bunlar, möhtəşəm təbii gözəllikləri olması, eyni zamanda iqlim və hava şəraitinin istirahət üçün uyğun olması. Bundan başqa Göygöl Milli parkı Azərbaycanın ən böyük şəhərlərindən biri olan Gəncə şəhərində yerləşməsi onu dahada turistlər üçün əlçatan edir. Milli parkda turistlərin təhlükəsiz və nizamlı bir mühitdə rahat istirahət etməsinə kömək edən, bir çox turizm infrastrukturu mövcuddur.

Cədvəldə göründüyü kimi Hirkan Milli parkı ən az turist cəlb edən milli parkdır. Bura səyahət edən turistlərin sayı isə 198 nəfərdən ibarətdir. Buna səbəb olan amillər isə, coğrafi əlçatanlığın çətinliyi, zəif infrastrukturun olması, eyni zamanda kifayət qədər tanıdılmamasıdır. Bundan başqa təhlüləsizlik və nəzarət məsələləri Hirkan Milli parkına daha az turist üz tutması ilə nəticələnir. Bəzi turistlər sıx meşəlik və dağlıq ərazilərdə yol azmaqdan və ya heyvanlarla qarşılaşmaqdan ehtiyat edə bilərlər. Təhlükəsizlik tədbirlərinin və bələdçi xidmətlərinin azlığıda bu baxımdan mənfi rol oynayır.

Bu statistik göstəricilər ölkədə ekoturizmin artmaqda olduğunu göstərməklə yanaşı, bəzi parkların daha çox tanıdılmasına və təbliğinə ehtiyac olduğunuda ortaya qoyur. Xüsusilə təbiətə və biomüxtəlifliyə malik bölgələrdə ekoturizmin imkanlarının genişləndirilməsi kimi nəticəyə gələ bilərik.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 2000
2. Azərbaycan Respublikasının turizm strategiyası 2023-2026. Bakı, 2023
3. Q.Ş.Məmmədov. "Azərbaycan: ekoturizm potensialı: I cild". Bakı-2012
4. www.tourism.gov.az
5. www.eco.gov.az

## DAYANIQLI TURİZMİN ƏHƏMİYYƏTİ

**[1]Xumar Elyar qızı Əliyeva, [2]Yeganə Rasim qızı Sarıyeva, [3]Kənan Niyaməddin oğlu Quliyev**
bakalavriat tələbələri
[1]xumar.aliyeva@mdu.edu.az
[2]yegana.sariyeva@mdu.edu.az
[3]kenan.quliyev@mdu.edu.az
*Elmi rəhbər: Samirə Yusif qızı Əkbərova*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər**: Turizm, Dayanıqlı turizm, məsuliyyətli səyahət, sosial-mədəni təsirlər, dayanıqlı səyahət texnologiyaları, Azərbaycanda dayanıqlı turizm*

***Keywords:** Tourism, Sustainable tourism, responsible travel, socio-cultural impacts, sustainable travel technologies, sustainable tourism in Azerbaijan*

***Ключевые слова:** Туризм, устойчивый туризм, ответственные путешествия, социально-культурное воздействие, технологии устойчивого туризма, устойчивый туризм в Азербайджане*

**Giriş**

Turizm dünyada ən böyük və ən sürətlə inkişaf edən sahələrdən biridir. Bu sahə getdikcə daha çox gəlir, məşğulluq və sərvət mənbəyinə çevrilir və bir çox ölkələr üçün böyük əhəmiyyət daşıyır. Hazırda beynəlxalq turizm xarici valyuta gəlirləri və ixrac gəlirləri baxımından dünyada digər sahələrdən daha böyük paya malikdir. Lakin turizmin bir çox ölkə, region və icmaya iqtisadi baxımdan böyük faydalar gətirməsinə baxmayaraq, onun sürətli inkişafı ətraf mühitə və sosial-mədəni mühitə mənfi təsirlər də göstərmişdir. Turizmlə əlaqədar olaraq təbii ehtiyatların tükənməsi və ətraf mühitin çirklənməsi müşahidə olunur. Bu isə "Dayanıqlı turizm" anlayışının yaranmasıma zərurət yaradır. Dayanıqlı turizm, turizm məkanlarının inkişafı və fəaliyyəti zamanı iqtisadi artım, sosial bərabərlik və ekoloji bütövlüyün məqsədləri arasında tarazlıq yaratmağa yönəlmiş yerli və tədrici dəyişiklikləri nəzərdə tutur [5,7].

**Əsas hissə**

Turizm, əsasən, iqtisadi fəaliyyət kimi qəbul olunur və onun dayanıqlılığı, bu fəaliyyətlə əlaqəli sosial və ətraf mühitə dair xərclərin azaldılmasından asılıdır. Məqsəd – yerli icmaların rifahı, turistlərin məmnuniyyəti və turizm sənayesinin qazancını tarazlaşdırmaqdır. Eyni zamanda, bu sənayenin əsaslandığı istirahət xidmətlərinin qorunub saxlanması da təmin olunmalıdır (Liu, 2003). Belə tarazlıq, əsasən yaxşı təcrübə modellərinin müəyyənləşdirilməsi və tətbiqi ilə əldə olunmağa çalışılmışdır. Qlobal Dayanıqlı Turizm Şurası 2009-cu ildə guya dünyanın müxtəlif yerlərindən 4,500 sənaye üzrə ən yaxşı təcrübəyə əsaslanaraq "Qlobal Dayanıqlı Turizm Kriteriyaları"nı təsdiqləmişdir. Turizmin dayanıqlılığı, dayanıqsızlığın əsas səbəblərini aradan qaldırmaqla transformativ (kökdən dəyişdirici) dəyişikliklərə nail olmağa çalışır [7]. Bu, turizmin yenidən cəmiyyət yönümlü bir fəaliyyət kimi dəyərləndirilməsini və onun qlobal dayanıqlılığa keçidi dəstəkləyən bir fəaliyyətə çevrilməsini nəzərdə tutur. Bu cür yenidən tərifləndirmə, hər şeydən əvvəl, ənənəvi siyasət alətləri və göstəricilərindən uzaqlaşaraq, yeni bir siyasət paradigmasının müəyyən edilməsini tələb edir [4,6].

Ənənəvi yanaşmalar adətən artıma yönəlmiş idarəetmə modelinə tabe olur. Onun əvəzində isə, polisentrist (çoxmərkəzli) və şəbəkəyə əsaslanan dayanıqlı idarəetmə modeli qurulmalıdır.Bu cür idarəetmənin həyata keçirilməsinə yönəlmiş ilkin təşəbbüslərdən biri, "Natural Step" (Təbiət Addımı) proqramıdır. Bu proqram, təşkilatlara və icmalara dayanıqlılığı başa düşmək və bu istiqamətdə hərəkət etməkdə kömək edən elmi əsaslı və sistem yanaşmasına malik beynəlxalq bir təşəbbüsdür. Əsas çətinlik isə, Natural Step kimi proqramların rəsmi sistemə inteqrasiya edilməsi, yəni institusionallaşdırılmasıdır ki, bu da yeni turizm məkanlarının inkişafına və mövcud məkanların transformasiyasına təkan verə bilər. "Whistler 2020 vizyonu və prinsipləri" vurğulayır ki, ənənəvi "dayanıqlılıq sütunları" (iqtisadi, sosial və ekoloji aspektlər) bir-birindən ayrı, müstəqil sahələr deyil, əksinə, turizm məkanının bir-biri ilə bağlı olan komponentləridir. Bu yanaşmaya görə, xüsusi bir məqsəd üçün atılan hər hansı bir addım, həm əvvəlki mərhələdəki, həm də sonrakı nəticələri nəzərə alaraq geniş kontekstdə qiymətləndirilməlidir [11,13].

Dayanıqlı turizm inkişafına dair təlimatlar və idarəetmə təcrübələri bütün turizm formalarına və bütün növ istiqamətlərə — kütləvi turizm və müxtəlif niş (xüsusi yönümlü) turizm növləri də daxil olmaqla — tətbiq oluna bilər. Dayanıqlılıq prinsipləri turizmin inkişafının ekoloji, iqtisadi və sosial-mədəni aspektlərinə aiddir və onun uzunmüddətli davamlılığını təmin etmək üçün bu üç ölçü arasında uyğun bir balans yaradılmalıdır.

Bu səbəbdən dayanıqlı turizm aşağıdakılara nail olmalıdır [3,9]:

1. Turizm inkişafının əsas elementi olan ətraf mühit resurslarından optimal şəkildə istifadə etmək, mühüm ekoloji proseslərin qorunmasını təmin etmək və təbii irsin və biomüxtəlifliyin mühafizəsinə töhfə vermək;

2. Qəbul edən icmaların sosial-mədəni orijinallığına hörmət göstərmək, onların maddi və mənəvi mədəni irsini və ənənəvi dəyərlərini qorumaq, mədəniyyətlərarası anlayış və dözümlülüyə töhfə vermək;

3. Uzunmüddətli iqtisadi fəaliyyəti təmin etmək, bütün maraqlı tərəflərə ədalətli şəkildə bölüşdürülən sosial-iqtisadi faydalar vermək, yerli icmalar üçün sabit məşğulluq və gəlir imkanları, eləcə də sosial xidmətlər təqdim etmək və yoxsulluğun azaldılmasına töhfə vermək.

Beynəlxalq Turizm Təşkilatının (UNWTO) təyinatına görə dayanıqlı turizm — “hazırkı və gələcək iqtisadi, sosial və ekoloji təsirləri tam nəzərə alan, ziyarətçilərin, sənayenin, ətraf mühitin və qəbul edən icmaların ehtiyaclarını qarşılayan turizm” kimi müəyyən edilir. 2002-ci ildə Yohannesburqda keçirilmiş Dayanıqlı İnkişaf üzrə Dünya Sammitində, Johannesburq Fəaliyyət Planının IV fəsli, 43-cü paraqrafında, qeyri-istehlak əsaslı və ekoturizm də daxil olmaqla dayanıqlı turizmin təşviqi tövsiyə olunmuşdur.Eyni sammitdə, “Dayanıqlı Turizm – Yoxsulluğun Aradan Qaldırılması (ST-EP)” təşəbbüsünün başladığı elan edilmişdir. Bu təşəbbüs Beynəlxalq Turizm Təşkilatı və BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı (UNCTAD) tərəfindən həyata keçirilmişdir və məqsədi dayanıqlı turizmi yoxsulluğun azaldılması vasitəsinə çevirmək idi.BMT-nin Dayanıqlı İnkişaf üzrə Komissiyası (CSD) sonuncu dəfə 2001-ci ildə dayanıqlı turizm məsələsini nəzərdən keçirmişdir [2,4,6,8].

Həmin vaxt CSD Yohannesburq Sammitinə hazırlıq komitəsi kimi fəaliyyət göstərirdi. Dayanıqlı turizmin əhəmiyyəti həmçinin Agenda 21 sənədində də qeyd olunmuşdur. Ətraf mühitin qorunması və sosial-mədəni təsirlərlə yanaşı, müasir dövrdə texnologiyanın dayanıqlı turizmin inkişafındakı rolu da çox əhəmiyyətlidir. Buna görədə, innovativ yanaşmalar və texnoloji həllər turizm sahəsində dayanıqlılığın təmin olunmasında mühüm faktorlardan birinə çevrilib. Dayanıqlı t anıayışına texnologiyanın inteqrasiyası səyahət planlamasını, təcrübəsini və töhfəsini tamamilə dəyişdirərək, məsuliyyətli və daha dolğun səyahətlər dövrünü başlatmışdır [12].

Bu yanaşma səyahətçilərə məsuliyyətli seçimlər etməyə imkan verir və onların səfərlərini ekoloji dəyərlərə və mədəni hörmətə uyğunlaşdırmağa şərait yaradır. Dayanıqlı turizm və texnologiyanın vəhdəti immersiv təcrübələr, etik seçimlər və təsirli iştirak üçün yeni innovativ alətlərin inkişafına səbəb olmuşdur.

Texnologiyanın turizmi daha dayanıqlı etmək üçün istifadə olunduğu bir neçə yol var [1,3,7,9]:

- **Səyahət Öncəsi Planlaşdırmada Texnologiyadan İstifadə**: Dayanıqlı istiqamətlər haqqında məlumat əldə etmək üçün onlayn platformalardan istifadə səyahətçilərə ekoloji baxımdan əlverişli yaşayış yerləri və məsuliyyətli turizm təcrübələri barədə dəyərli məlumatlar təqdim edir. Səyahətçilər ətraflı bələdçilərə, rəylərə və ictimai forumlara çıxış əldə edərək, ətraf mühit və mədəni dəyərlərlə uzlaşan daha məlumatlı qərarlar verə bilirlər.
- **Dayanıqlı Yaşayış və Nəqliyyat Vasitələri:** İxtisaslaşmış bron platformaları artıq yalnız yerləşmə siyahılarını təqdim etmir, eyni zamanda yaşayış məkanlarının dayanıqlılıq səylərini əks etdirən ətraflı ekoloji reytinqləri də göstərir. Bu platformalarda ekosertifikatlar, karbon izi məlumatları və ictimai dəstək təşəbbüsləri ilə bağlı məlumatlar təqdim olunur ki, bu da səyahətçilərə şüurlu seçimlər etməyə kömək edir. Oxşar şəkildə, nəqliyyat tətbiqləri ekoloji baxımdan uyğun nəqliyyat növlərini təklif edir və emisiyaların izlənməsi, müxtəlif nəqliyyat seçimlərinin ekoloji təsirinin müqayisəsi kimi funksiyaları özündə birləşdirir.
- **Dayanıqlı Turizm üçün QR Kodlar :** QR kodlar artıq daha interaktiv və maraqlı təcrübələr təqdim edir. Bu kodlar turistlərə tarixi abidələrdə və turistik məkanlarda dayanıqlı təcrübələrin əhəmiyyəti ilə bağlı immersiv multimedialı məzmunlara keçid verir. Bundan əlavə, məhsul qablaşdırmasına yerləşdirilmiş xüsusi QR kodlar istehlakçıları sənətkarların hekayələri ilə birbaşa əlaqələndirir və onların alışlarının yerli icmaların güclənməsi və ətraf mühit təşəbbüslərinə necə töhfə verdiyini nümayiş etdirir.
- **Mədəni İrsin Qorunması üçün Rəqəmsal İnnovasiya:** Rəqəmsal platformalar səyahətçiləri mədəni ənənələr barədə maarifləndirir və onlara qədim ayinlərin və ya tarixi səhnələrin virtual reallıq simulyasiyaları kimi interaktiv təcrübələr təqdim edir. Bu tətbiqlər mədəni irs məkanlarını canlandırır, qlobal auditoriyanı cəlb edir və eyni zamanda ənənələrin orijinallığını qoruyur. Bundan başqa, onlayn forumlar və platformalar səyahətçilərlə yerli sakinləri bir araya

gətirərək mədəni fəaliyyətlərdə iştirak, öyrənmə və paylaşım imkanları yaradır, qarşılıqlı anlayış və hörməti təşviq edir.

Nəticə olaraq, dayanıqlı turizm ilə texnologiya arasındakı simbiotik əlaqələr həm yenilikçiliyi, həm də məsuliyyəti əks etdirir. Texnologiyanın dayanıqlı turizmin inkişafında oynadığı bu mühüm rol, yalnız qlobal səviyyədə deyil, həm də Azərbaycanda da getdikcə daha çox əhəmiyyət qazanır. Ölkəmizdə də dayanıqlı turizm istiqamətində atılan bir çox vacib addımlar mövcuddur. Bu gün ölkədə dayanıqlılıq prinsiplərini tətbiq etdiyimiz layihələr və sahələrin sayı artmaqda davam edir. Dayanıqlı səyahət yanaşması nəinki təbiəti, xüsusilə endemik növləri mühafizə edir, həm də qlobal iqlim dəyişikliyi ilə mübarizə apararaq yerli icmalara dəstək verir, eləcə də turizm sənayesinin zərərli tullantılarını minimuma endirərək çirklənmənin azaldılmasında mühüm rol oynayır. Ümumiyyətlə, dayanıqlılıq yanaşması və düşüncə tərzi turistlər üçün qeyri-adi təcrübələr və yerli sakinlərə öz mədəniyyətlərini və rifahını qoruyub saxlamaq imkanı yaratmaqla yanaşı, hər kəsin gələcək nəsillər üçün planetimizi qorumağa istiqamətləndirir. Buna misal olaraq “Slou Səyahət” (Slow Travel) konsepsiyasını göstərmək olar ki, bu ideya adi səyahətdən daha çox turistlərin müəyyən bir ərazinin ənənələri və insanları ilə daha yaxından tanış olduqları dayanıqlı səyahət yanaşmasını özündə ehtiva edir [10].

**Nəticə**

Nəticə etibarilə, dayanıqlı turizm qlobal miqyasda ətraf mühitin mühafizəsi, mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsində vacib rol oynayır. Texnologiyanın bu sahəyə tətbiq olunması isə məsuliyyətli və məlumatlı səyahətçilərin formalaşmasına şərait yaradır. Onlayn platformalar, rəqəmsal tətbiqlər vasitəsilə həm turistlər, həm də turizm operatorları daha şüurlu qərarlar qəbul edə bilirlər.Azərbaycanda da dayanıqlı turizmə keçid istiqamətində mühüm addımlar atılır. Ölkənin zəngin təbii və mədəni resursları, eləcə də regional turizm strategiyaları bu sahədə böyük potensial olduğunun göstəricisidir. Dayanıqlı turizmə verilən diqqət, yalnız bu gün üçün deyil, gələcək nəsillər üçün də dəyərli turizm mirasının qorunmasını təmin edəcək.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Miller, Graham, and Anna Torres-Delgado. “Measuring sustainable tourism: a state of the art review of sustainable tourism indicators.” Journal of Sustainable Tourism 31.7 (2023): 1483-1496.

2. Rasoolimanesh, S. Mostafa, et al. “A systematic scoping review of sustainable tourism indicators in relation to the sustainable development goals.” Journal of Sustainable Tourism 31.7 (2023): 1497-1517.

3. Ivars-Baidal, Josep A., et al. “Sustainable tourism indicators: what’s new within the smart city/destination approach?.” Journal of Sustainable Tourism 31.7 (2023): 1556-1582.

4. Schönherr, Sarah, Mike Peters, and Kir Kuščer. “Sustainable tourism policies: From crisis-related awareness to agendas towards measures.” Journal of Destination Marketing & Management 27 (2023): 100762.

5. Osman, Ahmed I., et al. “Cost, environmental impact, and resilience of renewable energy under a changing climate: a review.” Environmental Chemistry Letters 21.2 (2023): 741-764.

6. Vera, María L., et al. “Environmental impact of direct lithium extraction from brines.” Nature Reviews Earth & Environment 4.3 (2023): 149-165.

7. Sahoo, S., and S. Goswami. “Theoretical framework for assessing the economic and environmental impact of water pollution: A detailed study on sustainable development of India.” Journal of Future Sustainability 4.1 (2024): 23-34.

8. Balsalobre-Lorente, Daniel, et al. “Environmental impact of globalization: The case of central and Eastern European emerging economies.” Journal of Environmental Management 341 (2023): 118018.

9. Algarni, Salem, et al. "Contribution of renewable energy sources to the environmental impacts and economic benefits for sustainable development." Sustainable Energy Technologies and Assessments 56 (2023): 103098.

**Elektron mənbələr:**

10. World Torizm Organization (UNWTO), Sustainable Development of Tourism, https://www.unwto.org/sustainable-development

11. United Nations World Tourism Organization. (n.d.). Sustainable development of tourism. Retrieved from https://www.unwto.org/sustainable-development

12. Sea Going Green. (n.d.). How Technology is Making Travel More Sustainable. Retrieved from https://www.seagoinggreen.org/blog/technology-and-sustainable-travel

13. https://azerbaijan.travel/sustainable-tourism-strategyaz

# TURİZM SAHƏSİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALAR

**Rəşad Əmralı oğlu Həsənov**
bakalavriat tələbəsi
rasad.hasanov@mdu.edu.az
*Elmi rəhbər: Nərmin Arif qızı Əliyeva*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *rəqəmsal texnologiyalar, turizm, səyahət xidmətləri, onlayn bronlaşdırma, mobil proqramlar, rəqəmsallaşma, rəqəmsal fəaliyyət*

***Keywords:*** *Digital technologies, tourism, travel services, online booking, mobile applications, digitalization, digital activity*

***Ключевые слова:*** *Цифровые технологии, туризм, туристические услуги, онлайн-бронирование, мобильные приложения, цифровизация, цифровая деятельность*

## Giriş

Təbii ki, rəqəmallaşma, texnoloji yeniliklər ayrı-ayrılıqda hər bir dövlətin iqtisadiyyat, təsərrüfat, sənayə və digər sahələrinə öz müsbət təsirini göstərir. Xüsusilə iqtisadiyyatın rəqəmsallaşması, dayanıqlı və təhlükəsiz infrastruktur quruculuğu ilə sıx bağlıdır. Heç şübhəsiz ki, Azərbaycanda da daima sosial-iqtisadi sahədə, o cümlədən dövlət idarəetməsi sahəsində genişmiqyaslı islahatlar həyata keçirilir, innovativ layihələr, elektron xidmətlər təkmilləşdirilir və bütün sahələrdə rəqəmsallaşmış xidmətə keçid ön plana keçir [1].

## İKT və kənd yerlərində turizm

Kənd yerlərində turizmin inkişaf etdirilməsi üçün İKT-nin istifadə edilməsi yerli mədəniyyətin qorunub saxlanılması və eyni zamanda kənd yerlərinin iqtisadiyyatının inkişafı üçün istifadə edilən yollardan biridir. İKT-nin tətbiq edilməsi ilə kənd turizminin ekstensiv və intensiv inkişafına nail olmaq olar. Kənd yerlərinin turizmi əsas iqtisadi fəaliyyət olaraq inkişaf etdirilə bilər və kənd yerlərinin ümumi inkişafına xeyli töhfə verə bilər. Fermerlər birbaşa turizmdən yararlana bilər və regionda aqrar məhsullar bazarı yarada bilərlər. Kənd yerlərindəfəaliyyətlər ətraf mühitə zərər vurmamaqla birbaşa inkişafa öz töhfəsini verməlidir [2].

Kənd e-turizmi daha çox fərdi və kiçik biznes formasındadır və ölkə turizminin inkişaf proqramının əsas layihələri olmasa, bunlar ümumi kütləyə xitab edə bilməz. büdcə və digər məhdudiyyətlər mövcud ola bilər, lakin qədim tarixi abidələr, qalereyalar, muzeylər, teatrlar və başqa turizm yerlərinin yenidən kəşf olunması və tanınması üçün bloqlar, audio-video görüntülü təqdimatlar ilə rəqəmsal materialların, veb-saytların hazırlanması kimi fəaliyyətlər həyata keçirilə bilər. Bəzi dağıntılar bərpa edilə bilər və qədim qalalar, evlər və kəndlər yenidən diqqət mərkəzinə çatdırıla bilər.Veb-saytlar vasitəsi ilə elektron olaraq mənzillərin və gəzintilərin sifariş verilməsi,

İnternetdə yerləşdirilmiş arxiv və fotoların və başqa materialların nəzərdən keçirilməsi kənd yerlərinin nüfuzunu artıracaq və ekologiya və ətraf mühitə zərər vurmayacaq. Nəticələr göstərir ki, İKT turistlərin sayını artırmaq qabiliyyətinə malikdir. Araşdırmalar eyni zamanda turistlərin razı qalması kimi məsələlərə səbəb olan faktorları da ortaya çıxardı və ona görə də gələcəkdə İKT ilə bağlı aparılan fəaliyyətlər bu istiqamətdə olacaq. Faktlar göstərir ki, turistlərin böyük qisminin veb-saytlarda aparılan təbliğat kampaniyaları sayəsində kənd turizmi haqqında məlumatlar artır.

Rəqəmsal xidmətlər turizm xidmətlərinə və otel biznesinə inteqrasiya edib. Lakin təəssüf ki,iqtisadiyyatın turizm sektorunun subyektləri turizmdə baş verən yeni texnologiyalar və əsaslı dəyişiklikləri heç də həmişə qəbul etməyə hazır deyillər. Turizm və mehmanxana xidmətləri bu sahədəçalışan işçilərin işinin keyfiyyətindən çox asılı olduğundan,xidmətin rəqəmsal transformasiyası turizm bazarında ciddi nəticələrə gətirib çıxaracaq. Xidmətin rəqəmsal transformasiyası xidmətin təşkilinə, xidmət prosesinin mərhələlərinə, işçinin funksiyalarına, habelə bütövlükdə xidmət münasibətlərisisteminə yanaşmanın dəyişdirilməsini nəzərdə tutur [2].

Xidmətin rəqəmsal transformasiyasının inkişafının növbəti istiqaməti turizm və mehmanxana biznesində işçilərin işinin keyfiyyətinə təsir göstərir. Xidmətin rəqəmsal transformasiyası dövründə bir işçinin asanlıqla öyrənə, yeni texnologiyalara və iş şəraitinə uyğunlaşa biləcəyi çevik bacarıqları yüksək qiymətləndirilir. Bundan əlavə, rəqəmsal texnologiyaların meydana çıxması ilə əmək bazarında rəqabət qabiliyyətini artırmaq, eləcə də təşkilat daxilində karyera qurmaq üçün işçilər daim öyrənməli, yeni bilik və bacarıqlar əldə etməli, bunların yaranmasına nəzarət etməlidirlər. Beləliklə, "Həyat boyu öyrənmə" konsepsiyası turizm və qonaqpərvərlik işçiləri arasında getdikcə daha çox populyarlıq qazanacaq ki, bu da işçiləri fəaliyyət sahələrinə uyğun olaraq yeni bacarıqlara yiyələnməyə sövq edəcək.

Rəqəmsal məlumatları emal bacarıqları günümüzün rəqəmsal iş yerlərinin effektiv işləməsi üçün çox vacibdir. Bunlar informasiyanın axtarışı, sintezi, qiymətləndirilməsi, tətbiqi, yaradılması və ötürülməsi kimi informasiyanın emalı ilə bağlı yüksək səviyyəli koqnitiv (dərkediləbilən) bacarıqlardır. Buraya digər şeylərlə yanaşı, informasiya və kompüter texnologiyaları sahəsində xüsusi ixtisas və peşələr əldə etmək üçün zəruri olan qabiliyyətlər daxildir.

Turizmdə rəqəmsallaşdırma ən dinamik şəkildə inkişaf edir. Bu proses turizm təşkilatlarına xidmət və turizm məhsullarının istehsalı ilə bağlı xərcləri azaltmağa imkan verəcək. Bu gün robotların bəzi insan vəzifələrini öz üzərinə götürdüyü yerlər artıq var. Məsələn, Yaponiyanın "Henn-na" oteli qonaqları qəbul masasında qarşılayan və əşyaların qablaşdırılmasına kömək edən robotu ilə məşhurdur turizm və mehmanxana xidmətləri sahəsində rəqəmsallaşdırma öz mənfi təsirini göstərir. Bu sahədə iş yerlərinin ixtisarı 70 %-ə çata bilər. Bəzi araşdırmaçılar 2030-cu ilə qədər mümkün azalmanın təxminən 20 milyona çatacağı qənaətinə gəliblər.

Turizm sektorunda kommersiya məqsədli internet istifadəsi və e-ticarət tətbiqi son dərəcə genişdir və bu sektorda e-ticarət sürətlə yayılmaqdadır. Turizmdə istifadə edilən səyahət xidmətinin istehsalının, reklamının, satın alınması, ödənməsinin və təhvilinin yalnız internet vasitəsilə aparılması mümkündür.Böyümə sürəti ilə bugünkü və gələcək əhəmiyyəti daim artan turizm sektorunu digər sahələrdən ayıran ən mühüm xüsusiyyət, gərgin əmək xüsusiyyətidir. Turizmdə ümumi keyfiyyətə nail olmağın yeganə yolu insan gücüdür. Turizmin tələbini də təklifini də yaradan faktor insandır. Heç bir sektor turizm sektorunda olduğu qədər insandan birbaşa asılı deyil. Bu baxımdan, sektordaxili təhlil resurslarının əhəmiyyəti olduqca böyükdür. Bir müəssisədə əhəmiyyətli olan işçilərin say çoxluğu deyil, keyfiyyət baxımından sahib olduğu dəyərlərin yüksək olmasıdır. Bu baxımdan, müəssisənin uğuru mövcud insan resurslarının keyfiyyəti ilə birbaşa əlaqəlidir. Digər tərəfdən həddindən artıq məşğulluğun olduğu bir yerdə bürokratik məlumat sıxlığı və artıq informasiyanın işlənməsi də əsas məsələlərdəndir. Buradan da İKT-nin turizm müəssisələri üçün nə qədər əhəmiyyət kəsb etdiyi aydın olur [7].

Yeni rabitə və informasiya texnologiyaları, turizm sektorunu çox yaxından maraqlandırır. Texnoloji yeniliklər, turizm müəssisələrinin rəqabət gücü yüksək olan yeni və çevik xidmətlər təqdim etmələrinə yardımçı olmaqdadır. Məsələn, elektron biletalma, otel və xidmət satışları üçün

internet və Web saytlarının istifadəsi, səyahət agentliklərinin və turoperatorlarının internet və Web səhifələri ilə satışı təbliğ etmələri və bu cür fəaliyyətlər, turizm marketinqi, turizm fəaliyyəti sahəsində əhəmiyyətli irəliləyişlərin yaranmasına səbəb olmuşdur.

Bu gün rəqəmsal turizm mühitinin inkişafının əsas istiqamətləri bunlardır:

1. Turizm sənayesinin hər bir iştirakçısı turistlərin fərdi istək və istəklərini nəzərə alaraq onların ehtiyaclarını ödəməyə çalışır. Analitik məlumatlar turizm sənayesi subyektlərinə turistlər haqqında tam məlumat əldə etməyə və nəticədə fərdi yanaşmalardan ən səmərəli istifadə etməyə və müştərilərin ehtiyaclarını ən yaxşı şəkildə qarşılamağa imkan verir. Səyahət şirkətləri müştərilərin ehtiyaclarını təxmin etmək, onların mürəkkəbliyini anlamaq və anlamaq üçün müasir məlumat analitikası proseslərindən istifadə etməlidirlər.

2. Multimedia məzmunu və texnologiyalarının daimi inkişafı. Turizm sənayesinin turizm xidmətlərinin və texniki standartların təşviqi üçün yeni yanaşmalardan istifadə etməyə başlaması səbəbindən multimedia məzmunu fəal şəkildə inkişaf edir. Multimedia məzmununun müxtəlifliyi sayəsində səyahət xidməti təminatçıları hər bir müştəriyə fərdi xidmətlər təklif etmək üçün bütün imkanlara malikdirlər. Turizmdə səyahəti yeni rənglər və təəssüratlarla zənginləşdirən innovativ texnologiyalara, məsələn, "Tour Guide" mobil xidmətinə tələbat artır. Rəqəmsal texnologiyaların turizm sektoruna aktiv şəkildə tətbiqi turistlərin sektorun standart prosedurlarına tez uyğunlaşmasına kömək edir. Bu prosedurlara baqajın onlayn izlənilməsi, səyahət planlaşdırma proqramları, yaşayış yerlərinin bronlaşdırılması və digər xidmətlər kimi sahələr daxildir [4].

3. İnformasiya-kommunikasiya texnologiyalarının bir-biri ilə əlaqəli sisteminin formalaşması. "Ağıllı şəhərlərin" inkişafı uzunmüddətli perspektivdə multikulturalizmi və istehlak tələbinin artımını müəyyən edəcək istiqamətdir. Turizmin inkişaf perspektivləri birbaşa bir neçə nəqliyyat növü ilə malların mərhələli çatdırılmasından və təhlil edilmiş məlumatlardan asılıdır ki, bu da şübhəsiz ki, fərdi yanaşma ilə xidmət səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır. Ağıllı şəhərlərlə təmsil olunan bir-biri ilə əlaqəli informasiya-kommunikasiya texnologiyaları sisteminin formalaşması və inkişafı turizm sənayesinin səmərəliliyini dəfələrlə artırmağa, hər bir turistə maksimum diqqət ayırmağa və onların tələbatının yüksək keyfiyyətlə ödənilməsini təmin etməyə imkan verəcək. Rusiya Federasiyası Hökuməti rəqəmsal texnologiyaların əsas prioritet olduğu 2035-ci ilə qədər Rusiyada turizmin inkişafı strategiyasını təsdiqləyib: - Turizm sənayesi ilə bağlı bütün dövlət xidmətlərinin elektron formata keçirilməsi [5].

**Nəticə**

Beləliklə, son onilliklərdə Azərbaycan və qlobal turizm sənayesi rəqəmsal texnoloji inkişaf amillərinin təsiri altında formalaşmışdır. Turizm mühitində rəqəmsal texnologiyaların aktiv inkişafı rəqəmsal səriştələrin və bacarıqların əldə edilməsi, yeni texnoloji şəraitə uyğunlaşdırılması, yeni ünsiyyət, qarşılıqlı əlaqə və iş metodlarının işlənib hazırlanması çərçivəsində turizm fəaliyyəti subyektlərinin paralel inkişafı deməkdir. Rəqəmsal texnologiyalar həyat tərzini, asudə vaxtını, istirahətini, hərəkətliliyini və turizmin bütün növlərini kökündən dəyişib. Azərbaycan Respublikası turizmi regional səviyyədə inkişaf etdirmək üçün yeni rəqəmsal mühitdə turizm məhsullarını inkişaf etdirmək və turizm istiqamətlərinin imkanlarını və perspektivlərini müəyyən etmək lazımdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1.A.Tağıyev(2024) https://1news.az/az/news/20210706125136632-Reqemsallashan-dunyada-yeni-perspektivler

2. Bilalov, B. (2006). "Turizm Fəaliyyətinin Tənzimlənməsi". Bakı. Mütərcim nəşriyyatı. 278 s. https://journals.indexcopernicus.com/api/file/viewByFileId/2018518

3. Bilalov, B., Gülalıyev, Ç. (2015). "Turizmin Əsasları". Bakı. 492 s. https://journals.indexcopernicus.com/api/file/viewByFileId/2018518

"İnkişaf üçün IKT-nin tətbiqi" (dərs vəsaiti), Qafqaz Universiteti nəşri, Bakı, 2015, 185 səh.

4. Volkov S.K. Turizm yaradıcı iqtisadiyyatın sektoru kimi [Elektron resurs]// Kreativ iqtisadiyyat. – 2021. – Cild 15. – No 5. (dərc tarixi: 2021). – URL:

https://cyberlemnka.ru/artide/nturizm-kak-sektor-kreativmy-ekonomiki/viewer (giriş tarixi: 19.05.2024);

5. Oborin M.S. Rəqəmsal turizm mühitinin inkişafı istiqamətləri [Elektron resurs]// Rusiyada və xaricdə xidmət. 2023. No 1 (103). -URL: https: //cyberleninka.ru/article/n/napravleniya-razvitiya-tsifrovoy-sredy-turizma (giriş tarixi: 19.05.2024);

# AZƏRBAYCANDA TURİZM: İNKİŞAFI VƏ PROBLEMLƏRİ

**Hüseyn Əli oğlu Hüseynli**
bakalavriat tələbəsi
huseyn.huseynli@mdu.edu.az
*Elmi rəhbər: Nərmin Arif qızı Əliyeva*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *infrastruktur, xidmət keyfiyyəti, peşəkar kadrlar, qiymət siyasəti, ekoturizm, turizm təhlükəsizliyi, təbiət turizmi, turizm strategiyası, turist məmnuniyyəti, regional turizm, ekoloji tarazlıq*

***Keywords:*** *infrastructure, service quality, professional staff, pricing policy, ecotourism, tourism safety, nature tourism, tourism strategy, tourist satisfaction, regional tourism, ecological balance*

***Ключевые слова:*** *инфраструктура, качество обслуживания, профессиональный персонал, ценовая политика, экотуризм, безопасность туризма, природный туризм, туристическая стратегия, удовлетворенность туристов, региональный туризм, эколо-гическое равновесие*

## Giriş

Turizm sektoru dünya üzrə iqtisadiyyatın mühüm sahələrindən biri kimi qəbul olunur və bu sahənin inkişafı hər bir ölkə üçün həm iqtisadi, həm də sosial baxımdan böyük əhəmiyyət daşıyır. Azərbaycan da zəngin təbii sərvətləri, qədim tarixi abidələri, mədəni irsi və coğrafi mövqeyi ilə turizm üçün geniş imkanlara malik ölkələrdən biridir. Son illərdə bu sahədə mühüm dövlət proqramları icra olunmuş, müxtəlif bölgələrdə infrastruktur layihələri həyata keçirilmiş və beynəlxalq səviyyəli tədbirlər təşkil olunmuşdur. Bütün bu addımlar turizmin inkişafına güclü təkan versə də, müəyyən çatışmazlıqlar hələ də öz aktuallığını qoruyur. Xidmət keyfiyyətinin qeyri-bərabərliyi, turizm obyektlərindəki təchizat səviyyəsinin fərqli olması, bələdçilərin və digər turizm personalının peşəkarlıq dərəcəsinin yetərsizliyi kimi məsələlər bu sahədə qarşıya çıxan problemlər sırasındadır. Tədqiqatın əsas məqsədi Azərbaycanda turizmin mövcud vəziyyətini qiymətləndirmək, onun inkişaf imkanlarını araşdırmaq və bu sahədəki problemlərin səbəblərini müəyyən edərək mümkün həll yollarını təklif etməkdir. Bununla yanaşı, turizm sahəsində dayanıqlı inkişafı təmin etmək üçün yerli resurslardan daha səmərəli istifadə olunması və beynəlxalq təcrübənin tətbiqi kimi vacib məsələlər də araşdırmanın diqqət mərkəzindədir.

## Tədqiqatın məqsədi

Azərbaycanda turizmin inkişafı və mövcud problemlərin araşdırılması sahəsində əsas məqsəd – ölkənin turizm potensialını tam şəkildə ortaya çıxarmaq, bu sahədəki çatışmazlıqları dəqiq müəyyənləşdirmək və onların aradan qaldırılması üçün effektiv yollar təklif etməkdir. Bu məqsədlə həm infrastrukturun təkmilləşdirilməsi, həm də xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlərin görülməsi vacibdir. Eyni zamanda, yerli icmaların prosesə aktiv şəkildə qoşulması, ekoloji tarazlığın qorunması, informasiya texnologiyalarının tətbiqi və turizm obyektlərinin beynəlxalq standartlara uyğunlaşdırılması əsas hədəflərdən biri kimi nəzərdə tutulur. Nəticədə,

Azərbaycanın turizm sektorunun rəqabətqabiliyyətli, davamlı və gəlirli bir sahəyə çevrilməsi təmin olunmalıdır.

**Metodologiya**

Bu tədqiqatın məqsədyönlü və obyektiv nəticələr verməsi üçün kompleks araşdırma üsullarından istifadə edilmişdir. İlk mərhələdə mövcud elmi ədəbiyyatların, dövlət proqramlarının, rəsmi statistika məlumatlarının və beynəlxalq hesabatların təhlili aparılmışdır. Bu analizlər vasitəsilə Azərbaycanda turizm sahəsinin ümumi mənzərəsi, inkişaf dinamikası və qarşıya çıxan əsas çətinliklər müəyyən olunmuşdur. Tədqiqat zamanı həm keyfiyyət, həm də kəmiyyət metodlarına üstünlük verilmişdir. Kəmiyyət metodları çərçivəsində Dövlət Statistika Komitəsinin və digər aidiyyəti qurumların təqdim etdiyi statistik göstəricilər təhlil olunaraq sektordakı inkişaf templəri və rəqəmsal göstəricilər qiymətləndirilmişdir. Eyni zamanda, müxtəlif illərə dair müqayisəli təhlillər aparılaraq sahədəki dəyişikliklər aşkara çıxarılmışdır. Keyfiyyət metodlarından biri kimi yarıstrukturlaşdırılmış müsahibələr və açıq suallı sorğular tətbiq olunmuşdur. Bu sorğular turizm sahəsində fəaliyyət göstərən mütəxəssislər, turizm şirkətləri, otel sahibləri və turistlərlə aparılmışdır. Müsahibələr vasitəsilə sahənin real vəziyyəti, gündəlik təcrübədə qarşılaşılan çətinliklər və inkişaf imkanları barədə birbaşa məlumat toplanmışdır. Bundan əlavə, bəzi regional turizm mərkəzlərinə yerində baxış keçirilmiş və müşahidələr əsasında obyektiv nəticələr əldə edilmişdir. Bu prosesdə müxtəlif bölgələrdə infrastruktur vəziyyəti, xidmət keyfiyyəti, turist axını və əhalinin turizmə münasibəti araşdırılmışdır. Araşdırma nəticələrinin daha əhatəli və praktiki əhəmiyyət daşıması üçün müqayisəli yanaşma da tətbiq edilmişdir. Belə ki, Azərbaycanla oxşar turizm potensialına malik digər ölkələrin təcrübəsi öyrənilərək bəzi modellər və yanaşmalar analiz edilmiş, uyğun gələn elementlər təklif formasında irəli sürülmüşdür. Ümumilikdə, bu metodologiya çərçivəsində toplanmış məlumatlar əsasında turizm sektorunun cari vəziyyəti dəyərləndirilmiş, problemlər əsaslandırılmış və inkişaf üçün tövsiyələr hazırlanmışdır.

Azərbaycanda turizm sektoru son illərdə milli iqtisadiyyatın önəmli sahələrindən birinə çevrilmişdir. Ölkənin təbii gözəllikləri, zəngin mədəni irsi və strateji coğrafi mövqeyi turizmin genişlənməsi üçün əlverişli imkanlar yaratmışdır. Xəzər dənizinin sahillərindən tutmuş dağlıq bölgələrə qədər uzanan bu rəngarəng coğrafiya fərqli maraqlara sahib səyahətçiləri cəlb edə bilir. Azərbaycanın həm tarixi şəhərləri, həm də müasir infrastrukturla təchiz olunmuş istirahət məkanları il ərzində minlərlə qonağı qəbul etməkdədir.

Turizmin inkişafında hökumət tərəfindən görülən tədbirlər xüsusi rol oynayır. Son illərdə turizm sahəsinin qanunvericilik bazası təkmilləşdirilmiş, investisiya mühiti daha cazibədar hala gətirilmişdir. Yeni hotellərin tikilməsi, mövcud obyektlərin yenilənməsi, yol infrastrukturunun bərpası və beynəlxalq sərgilərdə iştirak kimi fəaliyyətlər turizm sektorunun dirçəlməsinə xidmət edir. Bununla yanaşı, xarici dillərdə xidmət göstərən kadrların hazırlanması və mütəxəssislərin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində layihələr icra olunur.

Ölkədə müxtəlif turizm növlərinin formalaşdırılması da diqqət çəkir. Mədəni turizmə maraq göstərənlər üçün İçərişəhər, Qobustan qayaüstü rəsmləri və Şəki Xan Sarayı kimi obyektlər əlverişli şərait təqdim edir. Eyni zamanda dağ turizmi, sağlamlıq turizmi və kənd həyatını yaşadan agroturizm istiqamətləri də tədricən inkişaf etdirilir. Quba, Qəbələ, Şamaxı kimi bölgələr il boyu fərqli mövsüm imkanları təqdim etməklə turistlərin marağını cəlb edir. Həmçinin, Naxçıvan və Lənkəran kimi regionlarda lokal xüsusiyyətlərə əsaslanan turizm formaları da diqqətəlayiqdir.

Azərbaycanda beynəlxalq tədbirlərin təşkili də ölkənin turizm imicinə müsbət təsir göstərmişdir. Formula 1 yarışları, Avropa Oyunları və digər kütləvi tədbirlər sayəsində dünya ictimaiyyətinin diqqəti Azərbaycana yönəlmişdir. Bu tədbirlər zamanı gələn turistlərin çoxu ölkənin qonaqpərvərliyi, təhlükəsizliyi və xidmət səviyyəsindən məmnun qalmış, sonradan da təkrar səfərlər etmişdir. Həmçinin, mədəniyyət festivalları və kulinariya sərgiləri də yerli və xarici ziyarətçilərin maraq dairəsindədir.

Bununla belə, Azərbaycanın turizm sahəsində qarşılaşdığı çətinliklər də az deyil. Ən böyük problemlərdən biri bəzən xidmət səviyyəsinin qeyri-bərabər olmasıdır. Xüsusən də ucqar bölgələrdə

turizm obyektlərinin çatışmazlığı və kadrların peşəkar hazırlığının zəifliyi qonaqların məmnuniyyətinə mənfi təsir göstərir. Digər tərəfdən, qiymət siyasətində qeyri-sabitlik müşahidə olunur. Bəzi obyektlərdə xidmətin keyfiyyəti ilə müqayisədə qiymətlərin həddindən artıq yüksək olması turistlər üçün narahatlıq yaradır.

Təqdim olunan məlumatların kifayət qədər olmaması da turizmin inkişafına mane olur. Xarici turistlər üçün tərcümə edilmiş broşürlərin, xəritələrin və informasiya panellərinin yetərli səviyyədə olmaması, onların düzgün istiqamətlənməsini çətinləşdirir. Bəzi bölgələrdə internet bağlantısının zəif olması da turistlər üçün problemlər yaradır. Əlavə olaraq, ətraf mühitin qorunması ilə bağlı tədbirlərin zəif aparılması, turizm obyektlərinin yaxınlığında tullantıların yığılması kimi hallar da bəzən mənfi təəssüratlar formalaşdırır.

Bütün bu problemlərə baxmayaraq, Azərbaycanın turizm potensialı olduqca genişdir. Gələcəkdə bu sahənin daha da inkişaf etdirilməsi üçün planlaşdırılmış islahatlar mövcuddur. Yerli məhsulların və ənənələrin tanıdılması, ekoloji turizmin genişləndirilməsi və mövsümi asılılığın azaldılması kimi tədbirlər bu sahədə yeni nəfəs yarada bilər. Bundan başqa, regionlarda turizm mərkəzlərinin yaradılması və yerli əhalinin bu sahəyə cəlb edilməsi də həm iqtisadi baxımdan faydalıdır, həm də dayanıqlı turizmin əsasını qoyur.

Nəticə olaraq, Azərbaycanda turizm sahəsi həm müasir yanaşma, həm də tarixi irs əsasında formalaşmaqdadır. İrəliləyişlərə baxmayaraq, bu sektorun tam potensialla işləməsi üçün bəzi əsaslı problemlərin aradan qaldırılması vacibdir. Lakin görülən tədbirlər və gələcək planlar göstərir ki, ölkə bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atmaqdadır. Bu da yaxın illərdə Azərbaycanın turizm xəritəsində daha mühüm mövqelərə yüksələcəyinə zəmin yaradır.

Azərbaycanda turizmin inkişafı planlı strategiyalara və mərhələli tədbirlərə əsaslanır. Bu sahənin yüksəlişi üçün ilk növbədə ölkə daxilində güclü infrastrukturun qurulması vacib hesab edilmişdir. Son illərdə yeni hava limanlarının istifadəyə verilməsi, dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi və avtomobil yollarının genişləndirilməsi nəticəsində müxtəlif bölgələrə səfərlər daha rahat və əlçatan olmuşdur. Bu isə həm daxili turistlərin, həm də xaricdən gələn qonaqların müxtəlif istiqamətlərə maneəsiz səfər etməsinə şərait yaratmışdır.

Eyni zamanda, mehmanxana şəbəkəsinin genişləndirilməsi də inkişafın əsas hissəsidir. Ölkənin bir çox şəhərlərində və rayonlarında beynəlxalq standartlara uyğun hotellər, qonaq evləri və kurort kompleksləri inşa edilmişdir. Bu obyektlər yalnız gecələmə üçün deyil, eyni zamanda əyləncə, sağlamlıq və konfrans xidmətləri də təqdim edir. Müxtəlif qiymət kateqoriyalarında xidmətlərin mövcudluğu fərqli imkanlara sahib turistlər üçün geniş seçim imkanı yaradır. Xüsusilə də ailəvi istirahət, gənc səyahətçilər və yaşlı turistlər üçün uyğun alternativlərin formalaşdırılması diqqət mərkəzindədir.

Azərbaycanda turizm sənayesinin inkişafında rəqəmsal texnologiyaların tətbiqi də xüsusi yer tutur. Son illərdə onlayn bilet sifarişi, elektron vizaların alınması və rəqəmsal bələdçi platformalarının istifadəsi geniş yayılmışdır. Bu texnoloji yeniliklər turistlərin planlaşdırma və seçim imkanlarını artırmış, onlara vaxt itirmədən səyahət etməyə şərait yaratmışdır. Xüsusilə, ASAN viza sistemi vasitəsilə dünyanın bir çox ölkəsindən Azərbaycana səfər etmək indi daha sürətli və sadə şəkildə baş tutur. Bu isə turizm axınında gözəçarpacaq artım deməkdir.

Turizmin inkişafına mühüm töhfə verən sahələrdən biri də reklam və tanıtım fəaliyyətidir. Azərbaycanın turizm potensialı beynəlxalq sərgilərdə, media kampaniyalarında və sosial platformalarda aktiv şəkildə təqdim olunur. "Azerbaijan – Take Another Look" kimi beynəlxalq kampaniyalar vasitəsilə ölkənin fərqli və cazibədar məkanları xarici auditoriyaya çatdırılır. Həmçinin, tanınmış blogerlərin, səyahətçilərin və jurnalistlərin ölkəyə dəvət olunması və onların təəssüratlarının paylaşılması da maraq doğurur. Bu cür təqdimatlar nəticəsində Azərbaycanın adı müxtəlif beynəlxalq turizm reytinqlərində daha tez-tez görünməyə başlamışdır.

Bundan əlavə, müxtəlif turizm növlərinin formalaşdırılması da inkişafın tərkib hissəsidir. Mədəni-tarixi abidələrin bərpası və qorunması ilə yanaşı, macəra turizmi, dağ gəzintiləri, qış idman növləri və kənd həyatını əks etdirən turlar təşkil olunur. Bu növlər turistlərə fərqli təcrübələr yaşa-

maq imkanı verir. Xüsusilə də Qafqaz dağlarında xizək komplekslərinin qurulması, göl və dağlıq ərazilərdə ekoturizm imkanlarının yaradılması bu istiqamətdə atılan mühüm addımlardandır. Regionların spesifik imkanlarına uyğun məhsulların hazırlanması turizm təkliflərini daha zəngin və rəqabətədavamlı edir.

**Tədqiqatın nəticəsi**

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycanda turizm sahəsi sürətlə inkişaf etsə də, bu inkişafın dayanıqlı və geniş miqyasda davam etməsi üçün hələ də bir sıra mühüm məsələlər öz həllini tapmalıdır. Ölkədə turizm üçün əlverişli təbii, tarixi və mədəni resurslar geniş şəkildə mövcuddur və bu potensialın düzgün idarə olunması gələcək inkişaf üçün mühüm imkanlar yaradır. Lakin infrastrukturun bəzi ərazilərdə yetərincə inkişaf etməməsi, peşəkar kadr çatışmazlığı, qeyri-sabit qiymət siyasəti, xidmət səviyyəsindəki fərqliliklər və ekoloji təhlükələr sektorun inkişafına mane olan əsas faktorlar kimi dəyərləndirilmişdir. Tədqiqat həmçinin göstərmişdir ki, yerli əhalinin turizm fəaliyyətinə kifayət qədər cəlb olunmaması, bəzi turizm məkanlarının zəif tanıdılması və təhlükəsizlik məsələlərinə tam əməl olunmaması da bu sahədəki problemlər sırasındadır. Bütün bu çətinliklərə baxmayaraq, mövcud imkanlardan düzgün istifadə edildiyi təqdirdə Azərbaycan turizmi daha da inkişaf edə bilər. Dövlət dəstəyi, özəl sektorun fəallaşdırılması, ekoturizmin təşviqi və beynəlxalq təcrübəyə əsaslanan yanaşmalar vasitəsilə bu sahədə uğurlu nəticələr əldə etmək mümkündür. Bu da öz növbəsində həm iqtisadi gəlirlərin artmasına, həm də ölkənin beynəlxalq imicinin möhkəmlənməsinə töhfə verəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi. (2023). *Azərbaycanın turizm inkişafı üzrə illik hesabat*. Bakı.
2. Əliyev, R. (2021). *Turizm menecmenti və xidmətlərin təşkili*. Bakı: Nurlan Nəşriyyatı.
3. Quliyev, M. (2020). "Azərbaycanın turizm potensialı və onun inkişaf perspektivləri". *Azərbaycan Turizm Jurnalı*, 12(3), 45-62.
4. Dünya Turizm Təşkilatı (UNWTO). (2022). *World Tourism Barometer*. Madrid.
5. Məmmədov, T. (2019). *Turizm infrastrukturu və onun ölkə iqtisadiyyatındakı rolu*. Bakı: Elm Nəşriyyatı.
6. Həsənova, N. (2022). "Turizm sektorunda kadr hazırlığı və peşəkarlıq səviyyəsi". *Bakı Dövlət Universiteti İqtisadiyyat Fakültəsi Elmi İşləri*, 18(2), 78-91.
7. Azərbaycan Respublikasının Milli Statistika Komitəsi. (2023). *Turizm statistikası üzrə illik məlumatlar*. Bakı.
8. Əliyeva, S. (2021). "Ekoturizmin Azərbaycanda inkişafı: problemlər və perspektivlər". *Ekologiya və Turizm Jurnalı*, 5(1), 34-47.
9. World Bank. (2020). *Sustainable Tourism Development in Emerging Economies*. Washington, D.C.
10. Məmmədov, E. & Hüseynova, F. (2021). "Azərbaycanın turizm sektorunda innovasiyalar və rəqəmsal texnologiyaların tətbiqi". *Azərbaycan İnnovasiya Jurnalı*, 9(4), 102-115.
11. Əliyev, K. (2020). *Turizm menecmentində strategiyalar*. Bakı: Təhsil Nəşriyyatı.
12. United Nations Development Programme (UNDP). (2022). *Promoting Inclusive and Sustainable Tourism in Azerbaijan*. Bakı.

**Elektron resurslar**

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin rəsmi saytı.
URL: https://azerbaijan.travel
1. Dünya Turizm Təşkilatının (UNWTO) məlumat portalı.
URL: https://www.unwto.org
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi səhifəsi.
URL: https://www.stat.gov.az
3. World Bank-in turizm və iqtisadi inkişafla bağlı hesabatları.

URL: https://www.worldbank.org/en/topic/tourism
4. United Nations Development Programme (UNDP) Azərbaycandakı layihələri haqqında məlumat.
URL: https://www.az.undp.org.

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMİN İNKİŞAFINA İNVESTİSİYA QOYLUŞUNUN İQTİSADİ SƏMƏRƏLİYİ

**[1]Rüfət Bəhman oğlu Şərifov, [2]İlkin Rövşən oğlu Hacızadə**
bakalavriat tələbələri
[1]rufat.sharifov@mdu.edu.az
[2]ilkin.hacızada@mdu.edu.az
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *İşğaldan azad olunmuş ərazilər, turizmin inkişafı, turizm potensialı, sosial-iqtisadi bərpa*
***Keywords:*** *liberated territories, tourism development, tourism potential, socio-economic recovery*
***Ключевые слова****: освобожденные от оккупации территории, развитие туризма, туристский потенциал, социально-экономическое восстановление*

İnvestisiya gəlir əldə etmək üçün müəyyən resurs və ya dəyərin daimi istifadəsidir. İnvestisiya fəaliyyəti investorların investisiya qoyuluşu və onun həyata keçirilməsi ilə əlaqədar bütün hərəkətlərinin məcmusu sayılır. Maliyyə aktivlərinə investisiya qoyuluşu qiymətli kağızlara və digər maliyyə aktivlərinə (ssudalara, digər müəssisələrin nizamnamə fondlarına və s.) qoyuluşları əks etdirir. Onlar ölkə və xarici maliyyə aktivlərinə investisiyaları birləşdirir. **İnvestisiyalar** — mənfəət əldə etmək və (və ya) başqa bir faydalı effekt əldə etmək üçün sahibkarlıq və yaxud digər fəaliyyət obyektlərinə qoyulmuş pul dəyəri, pul hüquqları olan digər hüquqlar da daxil olmaqla pul, qiymətli kağızlar, digər əmlak. C.R. McConnell və S.L.Bryu, İqtisadiyyat kitablarında investisiyanı istehsal və istehsal vasitələrinin yığılması ilə birlikdə mal ehtiyatlarının artması kimi dəyərləndirdilər.

Qarabağ Azərbaycanın ən gözəl regionlarından biridir. Qədim Qarabağ-Azərbaycanın qəlbidir. Əsrarəngiz mənzərəli təbiəti, ən zəngin mənəvi və mədəni ənənələri olan, dağlıq meşəlik əraziləri əhatə edən Qarabağın turizm potensialı yüksək qiymətləndirilir. Burda mövcud olan turizm imkanlari həm daxili, həm beynəlxalq turizmin inkisafında çox önəmlidir. İşğal dövründə turizm əhəmiyyətli məkanlarin böyük bir hissəsi məhv edilmiş, dağıdılmışdır. Tarixi məscidlər, türbələr və bu kimi tarixi abidələrimiz ermeni vandalizmində viran edilərək dağıntıya məruz qalmışdır. Azərbaycan Dövlət Turizm agentiyi yerli turizm şirkətiləri və aidiyyəti turizm qurumları Azərbaycanda turizmin inkişafını sürətləndirmək, ölkənin daxili turizm imkanlarını dünyaya tanıtmaq, daha çox əcnəbi qonağın diqqətini səfalı guşələrimizə cəlb etmək məqsədilə Bakı-Qarabağ turizm marşrutunun təbliği istiqamətində müəyyən addımlar atacaqdır. Unikal təbiətə malik olan Qarabağın turizm zonası Şuşa, Kəlbəcər, Ağdam, Laçın və Bərdə rayonlarını əhatə edir.

İqtisadiyyat nazirliyinin açıqladığı statistikaya əsasən, işğal altında olan torpaqlarda 7 rayon mərkəzi, 6 şəhər, 12 qəsəbə, 830 kənd, 700 xəstəxana və tibb müəssisəsi, 6 dövlət teatrı, 368 klub, 85 musiqi məktəbi, 600 sənaye və kənd təsərrüfatı müəssisələri dağıdılıb, talan olunub, 1 milyon hektardan çox kənd təsərrüfatı sahəsi, o cümlədən, təxminən, 128 min suvarılan torpaq, 35 min hektara yaxın üzüm və meyvə bağları məhv edilərək dövriyyədən çıxarılıb. İşğala qədər ölkə üzrə ÜDM istehsalının 24 %-i, üzüm istehsalının 41 %-i, kartof istehsalının 46 %-i, ət istehsalının 18 %-

i, süd istehsalının 34 %-i həmin rayonların payına düşüb. İşğal ölkənin su ehtiyatlarına cid di ziyan vurub. Ümumi meşə sahələrinin 25 %-i, yəni 280 min hektarı işğal olunan torpaqların payına düşürdü. Düşmən təbii sərvətlərimizin qanunsuz istismarı yolu ilə Kəlbəcərdə külli miqdarda qızıl hasil edib.

Qeyd etdiyimiz statistik məlumatlar görüləcək işlərin miqyası haqqında müəyyən təsəvvür yaradır. Bu səbəbdən, Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam Füzuli inzibati rayonlarının inkişaf etdirilməsi çoxsaylı və müxtəlif sektorları əhatə edəcək kompleks yanaşma tələb edir. Təbii ki, burada, ilk növbədə, təhlükəsizlik və idarəetmə məsələlərinə xüsusi diqqət yetirilməlidir. Təhlükəsizliyin təmin olunması dedikdə, ərazilərin minalardan təmizlənməsi, həyati təhlükə yaradan bioloji və ekoloji pozuntuların aradan qaldırılması nəzərdə tutulur. Sərhəd xidməti və polis nəzarətinin təşkili, dövlət orqanlarının fəaliyyəti isə inzibati idarəetmə məsələlərini əhatə edir.

Hazırda işğaldan azad olunan ərazilərdə müxtəlif xidmət sahələrinin bərpası prosesi davam edir. "Azərişıq" Qarabağda" layihəsi çərçivəsində ASC işğaldan azad edilmiş ərazilərdə xüsusi əhəmiyyət kəsb edən strateji obyektlərin elektrik enerjisi ilə təmin olunması üçün təxirəsalınmaz tədbirlər həyata keçirir. Müəssisənin rəsmilərinin qeyd etdiyi kimi, azad olunan ərazilərdə yeni güc mərkəzlərinin yaradılması, ən müasir texnologiyalardan, elektron tipli rele mühafizəsi və avtomatika sistemlərini, məsafədən dispetçer idarəetmə sistemini tətbiq etməklə 110, 35 və 0,4 kilovoltluq şəbəkələrin yaradılması, ÖİN naqillərdən istifadə etməklə 35 və 0,4 kilovoltluq elektrik verilişi xətlərinin çəkilməsi üzrə layihələr hazırlanıb, həmin layihələrin mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulub.

"Azercell Telekom" MMC öz növbəsində işğaldan azad olunmuş ərazilərdə ilk mobil infrastrukturunu və dördüncü nəsil LTE radio baza stansiyalarını quraşdırır. Digər mobil operatorlar – "Nar" və "Bakcell" şirkətləri də bu istiqamətdə daxili layihələndirmə işlərini tamamlayaraq fəaliyyət planını reallaşdırmaqdadır. Milli

Bərpa proseslərindən sonra işğaldan azad olunmuş rayonlarımızın, xüsusilə Laçın və Kəlbəcərin iqtisadi potensialı, o cümlədən, ölkə üzrə ümumi daxili məhsuldakı payının qiymətləndirilməsi göstərir ki, həmin ərazilərdə iqtisadiyya tın dəfələrlə artması mümkündür.

İşğaldan azad edilmiş torpaqların iqtisadi potensialı çoxspektrli olub, kənd təsərrüfatının, sənayenin və turizmin müxtəlif sahələrini əhatə edir.

İşğaldan azad edilmiş torpaqlar üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensiala sahibdir. Burada qarğıdalı, noxud və üzüm regionun xarekterik bitkilərindəndir. Xatırladaq ki, Füzuli, Ağdam rayonları işğaldan əvvəlki dövrlərdə pambıq, taxıl, üzüm istehsalına görə ölkədə aparıcı rayonlar sırasında idilər. Cəbrayıl, Qubadlı, Zəngilan rayonları da üzümçülükdə fərqlənirdi. Laçın, Kəlbəcər, Qubadlı və Zəngilanda heyvandarlıq çox inkişaf etmişdi. Göründüyü kimi, işğaldan azad edilən ərazilərimizin təbii imkanları, kənd təsərrüfatı potensialı bölgədə iqtisadiyyatın daha tez bərpa olunmasına şərait yarada bilər.

Bunu da qeyd etmək yerinə düşər ki, işğala qədər Qarabağ bölgəsində beynəlxalq ekspertlərin və tanınmış alimlərin iştirakı ilə çoxsaylı ekspedisiyalar keçirilmişdir. Alimlərin tədqiqatlarının nəticələrinə görə, bu torpaqlar biomüxtəlifliyin genetik ehtiyatlarının zənginliyinə görə ümumən Qafqaz regionunda xüsusi seçilir. Qarabağ bölgəsi bir sıra efiryağlı, aromatik, dərman, bəzək və digər qeyri-ənənəvi bitkilərin də vətənidir. Şuşa şəhərində bitən xarı bülbül Qarabağın rəmzi hesab olunur. Bu unikal bitki artıq həm də Vətən müharibəsi şəhidlərimizin ruhuna ehtiram olaraq anım gününün simvoludur.

Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan Cəbrayıl, Ağdam, Füzuli inzibati rayonları böyük xammal bazasına malikdir. Həmin rayonlarımızda qızıl, mis, civə, dəmir, mərmər, xromit, perlit, əhəng, əqiq, və eləcə də inşaat materialları üçün xammal bazası var. Məsələn, işğaldan azad edilmiş Cəbrayılın yenidən tikilməsi üçün əksər tikinti materiallarının ehtiyatları elə bu rayonun özündə də var: mişar daşı istehsalına yararlı Tulus tuf, Çaxmaqçay, tikinti

qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı vulkan külü, gəc, əhəngdaşı, qum-çınqıl, yəşəm, xalsedon və meşə ehtiyatları. Zəngilan rayonundakı Vejnəli, Ağdərə rayonunda Qızılbulaq və Kəlbəcər rayonundaki Zod yataqları sənaye ehtiyatları ilə zəngin qızıl yataqlarıdır.Yeni təbii resursları dövriyyəyə cəlb etməklə Azərbaycan qərb bölgəsinin inkişafı, dağ-mədən sənayesinin, eləcə də, metallurgiya kompleksinin yüksəlişini təmin etmək potensialına malikdir. Metallurgiyanın inkişafı isə Azərbaycanda bir sıra sənaye sahələri ilə yanaşı, həm də hərbi sənayenin inkişafını sürətləndirmiş olar.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şərhində göstərilir ki, ilkin baxışda faydalı qazıntıların gələcək istismarı üç istiqamətdə aparıla bilər: əlvan metallar və onların metallurgiyası, tikinti materialları və nadir metallar. Əlvan metallar və tikinti materialları ənənəvi iqtisadiyyat üçün xas olan sahələrdir və mövcud ehtiyatlar bu sahələrdə yeni güclərin yaranmasına imkan verəcəkdir. Əlavə olaraq, yüksək texnologiyalarda geniş istifadə olunan nadir metalların regionda mövcudluğu ilə bağlı araşdırmalar və geoloji işlər aparıla bilər.

Regionun sənaye potensialını 4 istiqamətdə qiymətləndirə bilərik: zəngin su təchizatı, elektrik enerjisi, sənaye rekreasiya imkanları və zəngin faydalı qazıntıların emalı. Region, emal və ərzaq sənayesinin inkişafı üçün də əlverişlidir.

İşğaldan azad edilən torpaqlarımız mineral və termal su mənbələri ilə də zəngin bir ərazidir. Bu ehtiyatlardan həm içməli su, həm meliorasiya, həm də elektrik enerjisi istehsalı üçün istifadə ediləcək. Azərbaycan su ehtiyatlarını səmərəli idarə etməklə həm düşmənin ölkəmizə qarşı apardığı hidro müharibəyə son qoyacaq, həm də Ermənistanın özünə də nəzarət imkanı qazanacaq. Burada Kəlbəcər və Laçın rayonlarının şirin su ehtiyatlarını xüsusi vurğulamaq istərdim. Azərbaycanın hündürlüyünə görə (125 metr) ən yüksək, ümumi su tutumu 560 milyon kubmetr olan su anbarı – Sərsəng su anbarının işğaldan azad olunması ilə Tərtər, Ağdərə, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonları suvarma suyu ilə təmin olunacaq. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad olunması 75 min hektar yeni ərazinin suvarılması deməkdir. Həmçinin regionda 11 yeraltı şirin su mənbəyinin yerləşdiyi ehtimal edilir.

Azərbaycanın mineral su ehtiyatlarının 40 faizinə qədəri işğal altındakı torpaqlarda idi. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşsu, Şırlan və başqa mineral sular diqqəti xüsusilə cəlb edir. Bu suların həm qablaşdırılaraq satılması, həm də bulaqların üzərində kurort-rekreasiya zonalarının yaradılması mümkündür.

Regionun sənaye rekreasiya imkanlarından danışarkən qeyd etməliyik ki, əsas elektrik enerjisi istehsalı su yığımı və təchizatı areallarına təsadüf edir. Söhbət təbii ki, Sərsəng və Xudafərin SES-lərindən gedir. Prezident İlham Əliyevin uzaqgörənliklə Araz çayı üzərində Xudafərin və Qız qalası bəndləri və elektrik stansiyalarının inşası və istismarı haqqında İranla gəldiyi razılaşmanın aktuallığı bu gün daha da artır. "Xudafərin" hidroqovşağı Azərbaycana ildə 368 milyon kilovat/saat elektrik enerjisi istehsal etməyə imkan verəcək. Burada həm də suvarma imkanları mövcuddur.

Apardığımız tədqiqat işindən də göründüyü kimi, Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam Füzuli inzibati rayonlarının sənaye, kənd təsərrüfatı potensialı genişdir. Xammal bazası, təbii resursları olduqca böyükdür. Bütün bunlar, bərpa prosesindən sonra qısa zamanda həmin regionun iqtisadiyyatının sürətlə inkişaf edəcəyini deməyə əsas verir.

Kiçik Qafqazın dağlıq zonası olan Qarabağ regionu müxtəlif təbiət abidələri, meşələr, nadir bitki və heyvan növləri ilə məşhurdur. Regionun ümumi meşə sahəsi, təxminən, 246,7 min hektardır, o cümlədən, 13197 hektar qiymətli meşə sahələridir. Təbii landşaftı, nadir bitki və heyvanlar aləmini mühafizə etmək məqsədi ilə Kiçik Qafqazın işğaldan azad edilən ərazilərində vaxtilə bir sıra qoruq və yasaqlıqlar mövcüd idi. Bunlar Bəsitçay Qoruğu, Qaragöl Qoruğu, Laçın Yasaqlığı, Qubadlı Yasaqlığı, Daşaltı Yasaqlığı və Arazboyu Dövlət Təbiət Yasaqlığıdır. Zəngilan ərazisində Bəsitçay dərəsində yerləşən qoruqda çay boyu çinar meşəliyi 12 kilometr məsafədə uzanırdı. Burada bitən ağacların yaşı 500 ilə çatırdı. Öz qədimliyi ilə seçilən şərq çinarı vaxtilə

"Qırmızı Kitab"a daxil edilmişdi. Bütün bunlar, Qarabağ regionunun zəngin təbiəti, flora və faunası və qədim tarixi abidələrin əsasında turizmin inkişafı üçün böyük potensiala malik olduğunu göstərir. Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azıx mağarasının, Qarabağın dağlıq və düzən hissəsində aşkar edilmiş qədim daş abidələr-Xocalıdakı dolmenlər, Xankəndidəki kromlexlərin, Gənçəsər (Qanzasar), Alban-Amaras, Yelisey, Xudavəng, Ağoğlan kimi tarixi məbədlərin turizm imkanları xüsusilə genişdir.

Bu gün Qarabağ ərazisində 50-yə yaxın hotel var. Bir neçə xarici şirkətin işğal zamanı bu regionda investisiya qoyması faktları da var. İnanırıq ki, Azərbaycan ərazilərində bu kimi şirkətlərin qanunsuz cinayət xarakterli fəaliyyətləri birmənalı şəkildə dayandırılacaq. İnvestisiya yatıran sahibkarlar da qanunsuz fəaliyyətinə görə cinayət məsuliyyətinə cəlb olunacaqlar.

Qarabağda təhlükəsizlik təmin edildikdən, infrastruktur yeniləndikdən və demoqrafik məsələlər həll olunduqdan sonra turizmin təşkili üçün kompleks layihələr həyata keçirilməsi real görünür. Bu platformada dövlət, özəl sektor və alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan turizm potensialı işlənib hazırlanmalı, təbii və antropogen turizm resursları nəzərdən keçirilməlidir. Qarabağ əsasən dağlıq ərazi olduğundan, dağçılıq və alpinizm turizmini xüsusi qeyd etmək istərdim. Düşünürük ki, Qarabağ təbiətinin zənginliyinə, qədimliyinə, və tarixi-mədəni abidələrinə görə ekoturizm, etnoturizm zonası kimi inkişaf edəcək. Dünyanın ən gözəl turizm məkanlarından biri kimi turistlərin üz tutacağı region olacaq.

Qarabağda turizmin inkişafı ilə yanaşı ermənilər tərəfindən saxtalaşdırılan abidələrin də öz tarixlərinə qovuşması həllini gözləyən vacib məsələlərdəndir. Ermənistanın işğalı nəticəsində talan edilmiş muzeylərin bərpası, yeni muzeylərin yaradılması, o cümlədən, Şuşada Azərbaycan Ordusunun şanlı qələbəsini əks etdirən muzey kompleksinin təşkili əhəmiyyətli olardı. Fikrimcə, erməni faşizminin, vandalizminin izlərini bəşər tarixində maddiləşdirmək üçün işğaldan azad olunmuş rayonlarımızın hər birində dağıdılmış, xarabalığa çevrilmiş binaların nümunələri tarixi eksponat kimi saxlanmalıdır. Ermənilərin işğalçılıq siyasətlərinin saysız-hesabsız cinayətlərinin tarixi sübutları kimi bu eksponatlar gələcək nəsillərə, dünyadakı soydaşlarımıza, ümumən dünya ictimaiyyətinə erməni faşizminin mahiyyətini əyani surətdə açıqlayacaq.

İşğaldan azad edilmiş ərazilərdə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. Bu ərazilərin bərpası ilə çoxlu sayda yeni iş yerləri açılacaq. Belə ki, yeni infrastruktur layihələrinin həyata keçirilməsi vətəndaşlarımızin işlə təminatına müsbət təsir göstərəcək. İqtisadiyyatın inkişafı yeni iş yerlərinin açılmasına zəmin yaradacaq. Müzəffər ordumuzun qələbəsi qeyri-neft sektorunun böyüməsinə, Azərbaycan iqtisadiyyatının daha da çiçəklənməsinə təkan verəcək.

**"İTS-nin verilməsi aşağıdakı meyarlara əsaslanır:**

1. İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;

- investisiya layhəsi iki və üç ulduzlu hotellər, hostellərin tikintisi ilə bağlı olmalıdır.

2. İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;

- Ümumi investisiya məbləği hostellər üçün 100.000 AZN, iki ulduz və üç ulduz hotellər üçün 2.000.000 AZN məbləğində olmalıdır. Yatırılmış minimal investisiya məbləği hostellər üçün 100.000 AZN, iki ulduz və üç ulduz hotellər üçün isə 2.000.000 AZN məbləğində olmalıdır.

3. investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri üzrə meyarlar.

- İnvestisiya layihəsi Bakı, Bakı ətrafı qəsəbələr, Abşeron, Sumqayıt və Gəncə şəhəri istisna olmaqla rayon və şəhərlərdə nəzərdə tutulmalıdır.

**Müvafiq turizm sahələri:**

**1. Turizm və rekreasiya zonalarının hüdudları daxilində Baş inkişaf planlarına daxil olan turizm xidməti obyektlərinin tikintisi:**

- mehmanxana və ona bərabər tutulan yerləşdirmə vasitələri;
- iaşə xidməti obyektləri;
- əyləncə xidməti obyektləri

**2. "Hostel" tipli yerləşdirmə vasitələrinin yaradılması**

**3. İki və üç ulduzlu yerləşdirmə vasitələrinin yaradılması**

"İnvestisiya Təşviq Sənədi" İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilir. Sənədi almaq üçün sahibkar ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

- vergi ödəyicisi kimi uçota alınma haqqında şəhadətnamənin surəti;
- nəzərdə tutulmuş məbləğin 10 %-nin layihəyə investisiya kimi qoyulduğunu təsdiq edən sənəd;
- aşağıdakı meyarlara tam cavab verən biznes plan.

"İnvestisiya Təşviqi Sənədi"-nin sahibləri 7 il müddətinə vergi və gömrük güzəştlərindən yararlana bilərlər. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarına əsasən, yerli xammal və toxuculuq ehtiyaclarını ödəmək mümkün olmadığı təqdirdə, turizm ilə bağlı investisiya layihələri dəniz səviyyəsindən 1300 metrdən hündürlükdə yerləşən dağlıq ərazilərdə həyata keçirildiyi təqdirdə idxal edilən mallar gömrük rüsumundan azad edilir. Bir şərtlə ki, layihəni icra etmək üçün mövcud ehtiyacları yerli xammal və materiallar hesabına ödəmək mümkün olmasın.

# SƏNAYE MÜƏSSİSƏLƏRİN ƏTRAF MÜHİTƏ TƏSİRİ

**Cəmilə Asif qızı İsmayılova**
bakalavriat tələbəsi
cemile.ismayılova@mdu.edu.az
*Elmi rəhbər: Təranə Allahverdi qızı Səfərova*
*Biznes və menecment kafedrasnın baş müəllimi*

***Açar sözlər:*** *Sənaye müəssisələri, Ətraf mühit, Hava çirklənməsi, Su çirklənməsi, Tullantıların idarə olunması, Ekoloji təhlükəsizlik*

***Keywords:*** *İndustrial enterprises, environment, Air pollution, Water pollution, Waste management, Ecological safety*

***Ключевые слова:*** *промышленные предприятия, среда, Загрязнение воздуха, Загрязнение водных ресурсов, Управление отходами, Экологическая безопасность*

**Sənayə müəssisələrin ətraf mühitə təsiri**

Müasir dövrdə sənayeləşmə hər bir ölkənin iqtisadi inkişafında əsas amillərdən biri kimi rol oynuyur. Yeni texnologiyaların tətbiqi və istehsal gücünün artırılması nəticəsində sənaye müəssisələri həm milli gəlirin formalaşmasında, həm də məşğulluğun təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, sənaye müəssisələrinin ətraf mühitə olan təsirləri getdikcə daha da aktuallaşan qlobal problemlər sırasına daxil olmuşdur.Ətraf mühitin qorunması yalnız lokal deyil, həm də qlobal səviyyədə əhəmiyyət daşıyan bir məsələdir. Sənaye sahələrinin genişlənməsi, təbii resursların sürətli və nəzarətsiz istifadəsi, müxtəlif tullantıların düzgün idarə olunmaması nəticəsində atmosfer, su hövzələri və torpaq örtüyü çirklənməyə məruz qalır. Bu problemlər nəticə etibarilə ekosistemlərin pozulmasına, iqlim dəyişikliyinə və insan sağlamlığına mənfi təsirlərə səbəb olur.Hazırkı məqalədə sənaye müəssisələrinin ətraf mühitə olan təsir mexanizmləri, mövcud problemlər, tətbiq edilən texnoloji və hüquqi yanaşmalar və bu təsirlərin azaldılması yolları ətraflı şəkildə araşdırılacaq. Sənaye müəssisələrinin ətraf mühitə təsiri kompleks və çoxşaxəlidir. Bu təsirlər əsasən dörd sahədə – hava, su, torpaq və səs mühitində özünü göstərir

**Hava çirklənməsi**

Sənaye müəssisələrinin fəaliyyəti nəticəsində atmosferə buraxılan qazlar və toz hissəcikləri hava keyfiyyətini əhəmiyyətli dərəcədə aşağı salır. Xüsusilə yandırma proseslərində yaranan karbon dioksid ($CO_2$), metan ($CH_4$) və azot oksidləri ($NO_x$) istixana effektini gücləndirir və iqlim dəyişikliyinə səbəb olur. Bundan əlavə, havada olan xırda toz hissəcikləri (PM2.5 və PM10) tənəffüs yolları xəstəliklərinə yol açır.

**Su şirklənməsi**

Müxtəlif kimyəvi maddələr, ağır metallar, neft məhsulları və üzvi tullantılar sənaye müəssisələri tərəfindən birbaşa və ya dolayı yolla su hövzələrinə daxil olur. Bu cür çirklənmə nəticəsində su hövzələrindəki canlı orqanizmlərin həyatı təhlükə altına düşür və suyun içməli və kənd təsərrüfatı üçün istifadəsi mümkün olmur.

**Torpaq çirklənməsi**

Sənaye fəaliyyəti zamanı yaranan bərk tullantılar, xüsusilə təhlükəli və toksik maddələr torpaq qatında uzunmüddətli çirklənməyə səbəb olur. Bu, torpağın bioloji aktivliyini azaldır, kənd təsərrüfatı məhsuldarlığını aşağı salır və suyun filtrasiya qabiliyyətini zəiflədir.

**Səs və istilik çirklənməsi**

Böyük miqyaslı sənaye avadanlıqları və texnoloji proseslər ətraf mühitə yüksək səviyyəli səs və istilik buraxır. Bu isə yalnız insanlara deyil, ətrafdakı heyvan və bitki aləminə də mənfi təsir göstərir. Tullantıların İdarə Edilməsi və Texnoloji Həllər dedikdə isə,Ekoloji tarazlığın qorunması məqsədilə sənaye müəssisələri tullantıların idarə olunmasına xüsusi diqqət yetirməlidirlər. Müasir dövrdə bir çox inkişaf etmiş ölkələrdə "təmiz istehsal texnologiyaları" (clean production technologies) tətbiq olunur. Bu texnologiyalar tullantının yaranmasının qarşısını almaq və ya onu minimuma endirmək məqsədi daşıyır.

Havanın təmizlənməsi üçün elektrofiltrlər, qaz yuyucuları və katalitik neytrallaşdırıcılar quraşdırılır. Suyun təmizlənməsi məqsədilə bioloji və kimyəvi təmizləmə qurğuları tətbiq edilir. Bərk tullantıların təkrar emalı, kompostlaşdırılması və ya təhlükəsiz utilizasiyası həyata keçirilir. Bundan əlavə qeyd edə bilərik ki, dövriyyə iqtisadiyyatı modeli əsasında tullantıların xammal kimi yenidən istehsala cəlb olunması geniş yayılmaqdadır. Azərbaycan Respublikasında ətraf mühitin qorunması və sənaye çirklənməsinin qarşısının alınması məqsədilə bir sıra qanunvericilik aktları mövcuddur. Buna ən mühüm sənədlərdən biri olan "Ətraf Mühitin Mühafizəsi haqqında" Qanundur (1999). Bu qanun sənaye obyektlərinin istismarı zamanı ətraf mühitə dəyən ziyanın qiymətləndirilməsi, ekoloji auditin keçirilməsi və müvafiq icazələrin alınmasını tənzimləyir.

"Təhlükəli Tullantılar haqqında" Qanun "Sanitar norma və qaydalar" ETSN tərəfindən tətbiq edilən ekoloji monitorinq və hesabatlıq sistemləri. Bütün bu vasitələrlə sənaye müəssisələrinin ekoloji məsuliyyət daşıması və fəaliyyətlərinin şəffaf şəkildə həyata keçirilməsi təmin edilir.Sənaye müəssisələrinin ətraf mühitə təsiri müasir alınmadünyanın qarşısında duran ən böyük ekoloji problemlərdən biridir. Əgər bu təsirlərin qarşısı alınmasa, yaxın gələcəkdə həm təbii resursların tükənməsi, həm də insan sağlamlığı ilə bağlı ciddi nəticələrlə üzləşə bilərik. Buna görə də dövlət, özəl sektor və cəmiyyət birgə səylərlə ətraf mühitin qorunması üçün davamlı və effektiv strategiyalar həyata keçirməlidir.Sənaye müəssisələri üçün əsas tövsiyələr aşağıdakılardır:

1. Ekoloji təmiz texnologiyaların tətbiqi
2. Tullantıların miqdarının azaldılması və təkrar istifadəsi
3. Ətraf mühitə təsirin qiymətləndirilməsi prosesinin ciddi şəkildə həyata keçirilməsi
4. Cəmiyyətin maarifləndirilməsi və ictimai nəzarətin gücləndirilməsi

Yalnız bu şəkildə sənaye inkişafı ilə ekoloji təhlükəsizlik arasında balansı qorumaq mümkün olacaq.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Peirce, J. J., Vesilind, P. A., & Weiner, R. (1998). Environmental Pollution and Control. Butterworth-Heinemann.
2. Graedel, T. E., & Allenby, B. R. (2010). Industrial Ecology and Sustainable Engineering. Pearson.
3. UNEP (2023). Global Environment Outlook – GEO-6.
4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. (www.eco.gov.az)
5. "Ətraf Mühitin Mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999.

# İQLİM DƏYİŞİKLİYİ VƏ ONUN EKOSİSTEMLƏRƏ TƏSİRİ

**Səbinə Mahir qızı Qədimova**
bakalavriat tələbəsi
sabina.qadimova@mdu.edu.az
*Elmi rəhbər: Leyla Bəylər qızı Əhmədova*
*Fizika və ekologiya kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *İqlim dəyişikliyi, ekosistemlər, biomüxtəliflik, deqradasiya, növlərin miqrasiyası, meşə yanğınları, mərcanlar, hipoksiya, tozlanma, fenologiya*

***Keywords:*** *Climate change, ecosystems, biodiversity, degradation, species migration, wildfires, corals, hypoxia, pollination, phenology*

***Ключевые слова:*** *Изменение климата, экосистемы, биоразнообразие, деградация, миграция видов, лесные пожары, кораллы, гипоксия, опыление, фенология*

## Giriş

İqlim dəyişikliyi hazırda Yerin biosferinə sistemli təsir göstərən ən aktual qlobal problemlərdən biridir. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC, 2021) Altıncı Qiymətləndirmə Hesabatına əsasən, 19-cu əsrin sonlarından etibarən planetin qlobal orta səth temperaturu 1,1°C-dən çox artıb. Bu artımın əsas səbəbi antropogen fəaliyyətlər nəticəsində istixana qazlarının, ilk növbədə $CO_2$, $CH_4$ və $N_2O$ konsentrasiyasının artmasıdır.

Temperaturun artması və yağıntıların dəyişməsi yerüstü ekosistemlərin strukturuna və fəaliyyətinə əhəmiyyətli təsir göstərir. Xüsusilə:

Şimal enliklərində növlərin diapazonunda şimala və daha yüksəklərə doğru sürüşmə müşahidə olunur. Buna misal olaraq Sibir və Kanadanın tundra zonalarına meşə plantasiyalarının yayılmasını göstərmək olar.

Aralıq dənizi və savanna ekosistemləri kimi iqlim həssaslığı yüksək olan bölgələrdə biomüxtəliflik azalır. Beynəlxalq Təbiəti Mühafizə Birliyinin (IUCN) məlumatına görə, temperatur yüksəlməyə davam edərsə, yaxın onilliklərdə quru növlərinin təxminən 25 %-i yox olmaq təhlükəsi ilə üzləşir.

Meşə yanğınlarının tezliyi və intensivliyinin artması (məsələn, Avstraliya və Kaliforniyada) meşə ekosistemlərinə dağıdıcı təsir göstərir, karbon dövranını pozur və eroziyaya səbəb olur.

## Əsas hissə

İqlim dəyişikliyi su ekosistemlərini də əhəmiyyətli dərəcədə dəyişdirir:

Artan okean temperaturu mərcanların kütləvi şəkildə ağarmasına səbəb olur. Məsələn, Böyük Sədd rifi 1998 və 2020-ci illər arasında üç böyük ağartma hadisəsi yaşadı və riflərin 50 %-ə qədərinə təsir etdi.

Dəniz mühitində oksigen rejimi dəyişir - hipoksiya zonalarında ("ölü zonalar") artım qeydə alınır, xüsusən də sahil sularında balıq populyasiyalarının sayını kəskin azaldır.

Buzlaqların və daimi donların əriməsi okeanlara şirin su axını artırır, duzluluğu dəyişir və termohalin dövranı kimi sirkulyasiya axınlarını pozur.

Quraqlıqlar, istilik dalğaları və qeyri-sabit yağış sxemləri nəticəsində, xüsusən də qlobal cənubda kənd təsərrüfatı məhsuldarlığında azalmalar qeydə alınıb. FAO-nun məlumatına görə, 2050-ci ilə qədər dünyada buğda məhsulu temperaturun hər dərəcə Selsi artmasına görə 6 % azala bilər.

Ekstremal meteoroloji hadisələrin (güclü yağışlar, daşqınlar, quraqlıqlar) tezliyi artır ki, bu da torpaqların eroziyasına və xüsusilə torpaqdan intensiv istifadə olunan rayonlarda torpağın üst qatının itirilməsinə gətirib çıxarır.

İqlim dəyişikliyi ekosistemlərin həyati əhəmiyyətli xidmətləri təmin etmək qabiliyyətinə təsir göstərir:

- İqlim tənzimlənməsi (meşələrin və bataqlıqların karbon balansı vasitəsilə),
- Şirin su ilə təminat (su hövzələrinin istismarı yolu ilə),
- Tozlandırma (tozlayan həşəratların sayının azalması yolu ilə).

Tədqiqatlar göstərir ki, biomüxtəlifliyin itirilməsi və ekosistemin deqradasiyası iqlim dəyişikliyinin təsirlərini gücləndirə və uyğunlaşmanı çətinləşdirən “geri əlaqə” effekti yarada bilər.

İqlim dəyişikliyi mövsümi hadisələrin vaxtına təsir göstərir - bitkilərin çiçəklənməsi, quşların miqrasiyası, həşəratların fəaliyyəti. Bu dəyişikliklər növlər arasında, məsələn, bitkilər və tozlandırıcılar arasında sinxronizasiyanı pozur. Nəticədə, bəzi növlər normal müddət ərzində çoxalma və ya qidalanma qabiliyyətini itirərək sağ qalmalarını təhlükə altına alır. Avropa Ətraf Mühit Agentliyinin (EEA) araşdırmasına görə, Avropada son 30 ildə çiçəkləmə vaxtları orta hesabla 2-3 həftə tez dəyişib.

Temperatur və yağış rejimlərindəki dəyişikliklərə uyğunlaşa bilməyən ekosistemlər invaziv növlərə, xəstəliklərə və yanğınlara qarşı daha həssas olurlar. Arktika, alp və mərcan ekosistemləri xüsusilə həssasdır. Məsələn, okeanların həddindən artıq istiləşməsi nəticəsində kütləvi mərcan ağartması 2016-cı ildən bəri Böyük Sədd rifinin 50 %-ni öldürüb. Bu da öz növbəsində bütün dəniz trofik səviyyəsinə təsir edir və qida zəncirlərini pozur.

Bir çox heyvan və bitki növləri əlverişli iqlim şəraiti axtarışında daha yüksək enliklərə və ya daha yüksəkliklərə köçürlər. Bu, ekosistem tarazlığını poza bilən növlər arasında yeni qarşılıqlı təsirlərə səbəb olur. Məsələn, Sibirdə əbədi donmuş torpaqların əriməsi cənub növlərinin şimala miqrasiyasını asanlaşdırır və burada yerli populyasiyaları sıxışdıra bilər.

Suyun temperaturunun artması oksigen miqdarının azalmasına və hipoksik zonaların sayının artmasına səbəb olur ki, bu da balıqların və digər su orqanizmlərinin sağ qalmasına mənfi təsir göstərir. Bundan əlavə, yağıntıların normasının dəyişməsi çayların, göllərin və bataqlıqların hidroloji tarazlığını pozaraq həm quraqlıq, həm də daşqınlara səbəb ola bilər. IPCC-nin məlumatına görə, bu gün dünyada şirin su ekosistemlərinin təxminən 1/3 hissəsi iqlim dəyişikliyi səbəbindən artıq ciddi təzyiq altındadır.

**Nəticə**

İqlim dəyişikliyi qlobal səviyyədə ekosistemlərin davamlılığına ciddi təhlükə yaradır. İqlim amillərinin təsiri təbii əlaqələrin məhvinə, biomüxtəlifliyin itirilməsinə və ekosistemlərin həyati funksiyaları yerinə yetirmək qabiliyyətinin azalmasına gətirib çıxarır - iqlim tənzimlənməsindən ərzaq təhlükəsizliyinə qədər. Nəticələri yumşaltmaq üçün istixana qazlarının emissiyasını azaltmaq, təbii əraziləri bərpa etmək və yeni iqlim şəraitinə uyğunlaşmaq üçün təcili tədbirlər görmək lazımdır. Yalnız hərtərəfli, elmi əsaslı yanaşma ekoloji tarazlığı qorumağa və dəyişən iqlim şəraitində davamlı inkişafı təmin etməyə kömək edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. **IPCC** (2021). *Sixth Assessment Report (AR6): Climate Change 2021 – The Physical Science Basis*. Intergovernmental Panel on Climate Change. https://www.ipcc.ch/report/ar6/wg1/
2. **FAO** (2016). *Climate change and food security: Risks and responses*. Food and Agriculture Organization of the United Nations. https://www.fao.org/3/i5188e/I5188E.pdf
3. **IUCN** (2022). *Red List of Threatened Species*. International Union for Conservation of Nature. https://www.iucnredlist.org
4. **UNEP** (2022). *Emissions Gap Report 2022*. United Nations Environment Programme. https://www.unep.org/resources/emissions-gap-report-2022
5. **Hoegh-Guldberg, O., et al.** (2018). Impacts of 1.5°C global warming on natural and human systems. In: *Global Warming of 1.5°C*, IPCC Special Report. https://www.ipcc.ch/sr15/

6. **Díaz, S., et al.** (2019). *Summary for policymakers of the global assessment report on biodiversity and ecosystem services*. Intergovernmental Science-Policy Platform on Biodiversity and Ecosystem Services (IPBES). https://ipbes.net/global-assessment

# YANACAQ ENERGETİKA RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ

**Vüsalə Ərzuman qızı Sultanova**
bakalavriat tələbəsi
vusala.sultanova@mdu.edu.az
*Elmi rəhbər: Təranə Allahverdi qızı Səfərova*
*Biznes və menecment kafedrasının baş müəllimi*

***Açar sözlər:*** *enerji səmərəliliyi, Təbii resurslar, Enerji mənbələri, Yanacaq-enerji kompleksi*
***Keywords:*** *energy efficiency, natural resources, Energy sources, Fuel and Energy Complex*
***Ключевые слова:*** *энергоэффективность, природные ресурсы, Источники энергии, Топливно-энергетический комплекс*

## Giriş

Azərbaycanda və ümumiyyətlə dünya ölkələrində energetika sahəsinin inkişafı cəmiyyətin və iqtisadiyyatın ümumi inkişafının əsas dayaqlarından biri olmuşdur. Yanacaq və enerji ehtiyatlarının bolluğu həm ölkəmizin, həm də digər dövlətlərin müstəqil və dayanıqlı inkişafını təmin etməyə, müasir dövlətçiliyin formalaşmasına şərait yaratmışdır.Bu gün maddi və mənəvi sərvətlər baxımından zəngin olan ölkəmiz öz dövlət müstəqilliyini qorumaqda qərarlıdır. Enerji resursları baxımından geniş potensiala malik olan Azərbaycan, müstəqillik dövrünə yeni qədəm qoymuş bir ölkə olaraq, keçid mərhələsində olan digər dövlətlərdən daha üstün mövqedədir. Lakin bu üstünlüyü davamlı və səmərəli inkişafla təmin etmək üçün mövcud ehtiyatların düzgün qiymətləndirilməsi və milli maraqlar istiqamətində istifadəsi mühüm əhəmiyyət daşıyır.Ancaq təkcə neft, qaz və digər tükənən enerji mənbələrinə əsaslanmaq bu kompleks prosesdə kifayət etmir. Mövcud iqtisadi vəziyyət, sürətlə dəyişən ictimai və siyasi reallıqlar, habelə alternativ enerji mənbələrinin genişlənməsi, enerji siyasətində bərpa olunan enerji mənbələrinin ön plana çəkilməsini zəruri edir. Beləliklə, enerji resurslarından daha ağıllı və balanslaşdırılmış istifadə, iqtisadi yüksəlişin təmin olunmasında əsas faktor kimi çıxış edir XXI əsrdə dünya böyük dəyişikliklər yaşamaqdadır və bu proseslər Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında da öz əksini tapmışdır.

## Əsas hissə

Keçmiş əsrdə baş verən dönüş nöqtələri ölkəmizin iqtisadi inkişaf xəritəsində silinməz izlər qoymuşdur. Azərbaycanın böyük həcmdə xarici investisiya cəlb etməsinin əsas səbəbi isə, təbii ki, ölkənin zəngin neft və qaz ehtiyatlarının istismarı, bu sahədə aparılan məqsədyönlü siyasət və dövlət rəhbərliyinin möhkəm iradəsi olmuşdur. Müstəqilliyini yeni qazanan Azərbaycan Respublikasının həyata keçirdiyi məqsədyönlü neft strategiyası və davamlı iqtisadi inkişaf siyasəti, ölkənin siyasi müstəqilliyinin möhkəmləndirilməsində həlledici rol oynamışdır. Bu sahədə atılan mühüm addımlardan biri də Azərbaycanın tarixində xüsusi əhəmiyyət daşıyan "Əsrin müqaviləsi"nin imzalanması olmuşdur. Bu müqavilə ölkəmiz üçün yeni bir dövrün başlanğıcı, milli maraqların beynəlxalq səviyyədə qorunduğu tarixi mərhələ olmuşdur."Əsrin müqaviləsi" Azərbay-canın beynəlxalq aləmdə nüfuz qazandığını və strateji əhəmiyyət daşıyan qərarlar qəbul edə bildiyini nümayiş etdirdi.

Gənc və müstəqil bir dövlət üçün bu, olduqca böyük nailiyyət idi. Bu uğurun əldə olunmasında isə, Azərbaycan xalqına bu şanlı yolu göstərən və ölkəni düzgün siyasətə yönləndirən ümummilli lider Heydər Əlirza oğlu Əliyevin xidmətləri misilsizdir.Sözügedən müqavilə yalnız iqtisadi tərəqqiyə deyil, eyni zamanda Azərbaycanın dünya dövlətləri ilə siyasi və iqtisadi

əlaqələrinin güclənməsinə təkan verdi. 1994-cü ildən etibarən həyata keçirilən bu neft strategiyası nəticəsində ölkəyə böyük həcmdə xarici investisiyalar cəlb olundu və Azərbaycan iqtisadiyyatında yeni bir mərhələ başlandı. Yeraltı və yerüstü sərvətlərlə zəngin olan Azərbaycanın ərazisi karbohidrogen resursları ilə də zəngindir. Odur ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən karbohidrogen yataqlarının işlənilməsi "Əsrin müqaviləsi"-də razılaşdırıldığı kimi dünyanın inkişaf etmiş qabaqcıl neft şirkətləri ilə müştərək işlənməsinə təkan vermiş,Azərbaycan neft və qaz sənayesinin inkişafına kömək etmişdir. Ölkəmizin həm iqtisadi, həm də sosial inkişafına yanacaq-enerji kompleksi xüsusi təkan vermişdir.Odur ki, əhalinin enerjiyə olan tələbatının ödənilməsini təmin etmək, iqtisadiyyatın uğurlu inkişafında qazanılan nəaliyyətlərin möhkəmləndirilməsi Respublika qarşısında duran əsas vəzifələrdən biridir. Müasir dünyada sürətlə inkişaf edən yanacaq-energetika sahəsi sənayenin əsas istiqamətlərindən biri olmaqla yanaşı, ictimai istehsalatın da inkişafına birbaşa təsir göstərir. Energetika, biosferin tərkib hissəsi olan ətraf mühitə və insan fəaliyyətinə mənfi təsir göstərən mühüm amillərdən biri kimi çıxış edir. Bu sahə, sənayecə inkişaf etmiş bütün dünya ölkələrində digər sektorları geridə qoyaraq prioritet sahəyə çevrilmişdir.

Lakin təəssüf ki, enerji sektorunun və sənayenin sürətli inkişafı ilə yanaşı, ekoloji problemlər də artmaqda davam edir. Energetikanın ətraf mühitə təsiri müxtəlif istiqamətlərdə özünü göstərir:

- Atmosferə təsiri – Enerji hasilatı zamanı oksigendən istifadə edilməklə atmosferə zərərli və zərərsiz qazlar, rütubət, kül, müxtəlif kimyəvi birləşmələr buraxılır ki, bu da hava çirklənməsinə səbəb olur.
- Hidrosferə təsiri – Sənaye və məişətdə su ehtiyatlarından istifadə, su anbarları və kanalların yaradılması, su axınlarının təbii istiqamətinin dəyişdirilməsi, çirkab suların və zəhərli maddələrin su mənbələrinə buraxılması nəticəsində su ekosistemləri zərər görür.
- Litosferə təsiri – Qazıntı işləri və yanacaq resurslarının istismarı torpağın strukturunu pozur, təbii landşaft dəyişir, torpaqların şoranlaşması və toksiki maddələrlə çirklənməsi baş verir.
- Biosferə təsiri – Canlı orqanizmlərin məhvi, abiotik amillərin dəyişməsi və çirkləndirici maddələrin canlılara birbaşa təsiri nəticəsində ekosistemlərdə tarazlıq pozulur və təbii əlaqələr zəifləyir.

Müasir dövrdə təbii yanacaq ehtiyatlarının azalması, enerji qiymətlərinin dəyişkənliyi və dünya ölkələrinin siyasi, iqtisadi maraqlarının, eləcə də enerji mənbələri uğrunda rəqabətinin güclənməsi hər bir dövlətin enerji təhlükəsizliyini təmin etmək üçün möhkəm strategiya və məqsədlər müəyyən etməsini zəruri edir.Ölkənin enerji təhlükəsizliyinin əsas amillərindən biri əhalinin və iqtisadiyyatın enerji daşıyıcıları ilə fasiləsiz və etibarlı təminatıdır. Bu məqsədlə yanacaq növlərinin və enerji mənbələrinin müxtəlifləşdirilməsi, bərpa olunan enerji resurslarından geniş istifadə və ən əsası, enerji resurslarından səmərəli və effektiv istifadə böyük əhəmiyyət kəsb edir.Enerji resurslarının səmərəli istifadəsi dayanıqlı enerji siyasətinin prioritet istiqamətlərindən biridir və güclü, davamlı iqtisadi inkişaf istəyən ölkələr üçün vacib şərtdir. Enerji səmərəliliyi dedikdə, istehsalın həcm və keyfiyyətinə mənfi təsir göstərmədən, iqtisadi artımı və sosial rifahı zəiflətmədən enerji sərfiyyatının azaldılması nəzərdə tutulur.

Geniş mənada enerji səmərəliliyi və enerjiyə qənaət yalnız enerji resurslarının — elektrik enerjisi, istilik, təbii qaz, benzin, dizel və digər yanacaq növlərinin — itkilərinin minimuma endirilməsi deyil, həmçinin tullantıların idarə olunması və enerjinin geri qazanılması, müasir texnologiyaların tətbiqi ilə istehsal proseslərinə müdaxilə etmədən enerji tələbinin azaldılması, alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsidir.Enerji səmərəliliyi təkcə resursların qorunması məqsədi daşımır, eyni zamanda dayanıqlı iqtisadi inkişaf, yaşıl enerji keçidi, ətraf mühitin qorunması, rəqabətqabiliyyətli və ucuz məhsulların istehsalı, enerji təminatının artırılması, kommunal xidmətlərdə israfçılığın və artıq xərclərin azaldılması kimi geniş təsirlərə malikdir. Əgər enerji səmərəliliyi təmin edilməzsə, ölkənin enerji resurslarına sərf etdiyi əlavə vəsait iqtisadi və sosial inkişaf qarşısında ciddi problem yaradacaqdır.Enerji səmərəliliyi ölkəmizin enerji təhlükəsizliyi strategiyasının ayrılmaz hissəsidir. Enerji təhlükəsizliyinin təmin olunması, ümumi daxili məhsulun enerji tutumunun azaldılması, iqtisadiyyatın rəqabət qabiliyyətinin

artırılması, ətraf mühitin qorunması və kommunal xidmətlərdə israfın azaldılması məqsədilə enerji resurslarından daha səmərəli istifadə vacibdir.

Enerji resurslarından səmərəli istifadə ilə yanaşı, son istifadəçilərdə enerji səmərəliliyini gündəlik vərdişlərə çevirmək ölkənin davamlı inkişafına, ixrac potensialının artmasına, enerji təchizatının yaxşılaşdırılmasına və təbii resursların qorunmasına şərait yaradır. Enerji səmərəliliyi enerjinin istehsalından başlayaraq, onun saxlanması, ötürülməsi, paylanması və istehlakına qədər bütün mərhələlərdə təmin edilməlidir.Bu məqsədlə qanunvericilik bazasının möhkəmləndirilməsi, dövlət proqramlarının hazırlanması, standartların tətbiqi, maarifləndirmə kampaniyalarının aparılması, enerji səmərəliliyi alətlərinin geniş istifadəsi, texnoloji yeniliklərə çıxış və müasir idarəetmə metodlarının tətbiqi əsas vəzifələrdir.Energetika Nazirliyi tərəfindən bu istiqamətdə ciddi addımlar atılıb. 2016-cı ildə Avropa İttifaqının “EU4Energy” proqramı çərçivəsində Enerji Xartiyasının dəstəyi ilə “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanun layihəsi hazırlanmışdır. Nəticədə, 9 iyul 2021-ci ildə həmin qanun qəbul edilmiş və 2022-ci ilin 1 iyulundan qüvvəyə minmişdir. Bu qanun enerji səmərəliliyi sahəsində qabaqcıl yanaşmaları və dövlət siyasətinin əsas prinsiplərini özündə əks etdirir.

Qanun enerjinin bütün mərhələlərində yaranan münasibətləri — istehsal, saxlanma, ötürmə, paylama, satış və istehlak — tənzimləyir və dövlət orqanları, fiziki və hüquqi şəxslər, o cümlədən son istifadəçilərə şamil olunur.Qanunun tətbiqi üçün Prezidentin 2021-ci il 20 avqust tarixli fərmanı və Nazirlər Kabinetinin 31 avqust 2021-ci il tarixli sərəncamı əsasında enerji auditi, enerji menecmenti, binaların enerji pasportlaşdırılması, etiketləmə, enerji idarəçilərinin təyin olunması və digər tədbirlər həyata keçirilir.Bundan əlavə, ölkəmizdə “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, işğaldan azad edilmiş ərazilərə dair Dövlət Proqramları və “yaşıl enerji” zonalarının yaradılması planları enerji səmərəliliyi məsələlərini prioritet kimi müəyyən edib.Enerji istehsalı və təchizatında müasir texnologiyaların tətbiqi, sistemdə itkilərin azaldılması, mövcud enerji güclərinin yenilənməsi və bərpası səmərəliliyin artırılması istiqamətində önəmli addımlardır. Eyni zamanda, ev təsərrüfatlarında enerji istehlakını azaltmaq üçün daha effektiv işıqlandırma və məişət texnikasından istifadə, mənzillərin izolyasiyası və qənaət tədbirlərinin geniş tətbiqi vacibdir. Bu, həm şəxsi xərcləri azaldır, həm də ümumi iqtisadi inkişafa müsbət təsir göstərir.Azərbaycan həmçinin inkişaf etmiş ölkələrlə sıx əməkdaşlıq edir, təcrübə və bilik mübadiləsi aparır. Bu yanaşma enerji və ekoloji təhlükəsizlik məsələlərinin həllində, istixana qazlarının emissiyasının azaldılmasında, iqlim dəyişikliklərinin təsirlərinin yumşaldılmasında və hər kəs üçün dayanıqlı, etibarlı və təmiz enerji təminatında əsas rol oynayır.

Müasir dövrdə energetika iqtisadiyyatın bütün sahələrində təbii enerji ehtiyatlarının əldə olunması, çevrilməsi, paylanması və istifadə olunması üçün kompleks, fasiləsiz inkişaf edən istehsal sistemləri məcmuusu kimi inkişaf edir. Bu sistemlər ümumilikdə ölkənin yanacaq-enerji kompleksini təşkil edir.Dünya təcrübəsində yanacaq-enerji kompleksi (YEK) anlayışı, enerji ehtiyatlarının hasilatı və onların müxtəlif enerji növlərinə çevrilməsi aspektindən qiymətləndirilir. Hərçənd bu sistemlər təşkilati cəhətdən fərqli sənaye sahələrinə aid olsalar da, qarşılıqlı əlaqələri çox sıxdır.YEK-in müasir inkişafını xarakterizə edən əsas xüsusiyyət müxtəlif enerji növlərinin birləşdirilərək kompleksin dayanıqlı şəkildə inkişafının təmin edilməsidir. İstehsal xərclərini azaltmaq və ətraf mühitin çirklənməsinin qarşısını almaq məqsədilə texnoloji proseslərdə təkmilləşdirmələr aparılır ki, bu da YEK-in fəaliyyətində mühüm dəyişikliklər yaradır. Köməkçi istehsalatların əlavə olunması enerji ehtiyatlarının kifayətliliyini və istehlakın xarakterini müəyyən etməkdə mühüm rol oynayır. YEK-ə daxil olan sahələrin məhdud diapazonları daxilində kompleks formalaşır. Kompleksin inkişafına təsir edən çoxsaylı qarşılıqlı əlaqələr, həmçinin enerji resurslarının əsas istehlakçıları olaraq kompleksin xarici mühitini yaradır. Bu isə əsasən iqtisadiyyatın bütövlüyü kimi qiymətləndirilir və üç əsas elementdən ibarətdir:

- Yanacaq-enerji kompleksində (YEK) fəaliyyət göstərən müəssisələr və təşkilatlar;

- Enerji resurslarının cəmiyyətə çatdırılmasını və tədavülünü təmin edən müəssisələr və təşkilatlar;
- Enerji resurslarını birbaşa istifadə edən son istehlakçılar.

YEK-i təşkil edən istehsal sistemləri təşkilati olaraq ayrılsa da, onlar arasında iqtisadi, istehsalat və texnoloji əlaqələr olduqca güclüdür. Bu əlaqələr müəyyən faktorlarla izah edilir:

- müxtəlif enerji resurslarının qarşılıqlı əvəzlənməsi;
- müxtəlif enerji qurğularının əvəz olunması;
- enerji təchizatı prosesində bir enerji növünün digərinə çevrilməsi.

YEK ölkənin iqtisadi inkişafı və sosial-iqtisadi proqramların həyata keçirilməsi üçün əsas sahələrdən biridir və dövlətin enerji təhlükəsizliyi ilə iqtisadi müstəqillik məsələləri ilə sıx bağlıdır. Bu kompleks üçün rəqabət strategiyasının hazırlanması hazırkı və gələcək iqtisadi inkişafın dinamikasını nəzərə alaraq, ölkənin bütün iqtisadi sahələrinin balanslaşdırılmış, etibarlı, əlverişli və ekoloji cəhətdən təmiz enerji ilə təmin edilməsini hədəfləyir.

Yanacaq-enerji kompleksinin inkişafına maneə yaradan əsas səbəblər aşağıdakılardır:

- İstehsal avadanlıqlarının köhnəlməsi və texniki vəziyyətinin zəifliyi — istehsal personalının intizamının və idarəetmənin kifayət qədər effektiv olmaması səbəbindən avadanlıqlarda qəzaların tez-tez baş verməsi;
- YEK-in sahələrində investisiya vəsaitlərinin çatışmazlığı və onların səmərəsiz istifadəsi — xüsusən neftçıxarma sektorundan başqa sahələrdə investisiyaların az olması; ümumi xarici investisiyaların yalnız 13 %-nin bu sahələrə yönəlməsi və bunun da 80 %-nin neft sənayesi üçün istifadə olunması;
- YEK-in istehsal potensialının dünya elmi-texniki səviyyəsindən geri qalması;
- Neft hasilatında müasir təsir metodlarının tətbiqinin azlığı və neft emalı məhsullarının keyfiyyətinin aşağı olması;
- Qaz hasilatı və elektroenergetika sahələrində istifadə olunan avadanlıqların qənaətcil olmaması; müasir buxar və qaz qurğuları ilə tullantı qazlarının təmizlənməsi üzrə avadanlıqların demək olar ki, mövcud olmaması;
- Yanacaq-enerji fəaliyyətindən yaranan ətraf mühitə mənfi təsirlərin yüksək səviyyədə olması.

**Nəticə**

Yanacaq hasilatı və energetika sahələri iqtisadiyyatın kapital tələb edən sahələridir. İqtisadi inkişaf və ümumi istehsal səmərəliliyi bu sahələrin inkişaf tempinə, texnoloji yeniliklərə və regionlarda yerləşmə strategiyasına birbaşa bağlıdır. Dağ-mədən və yanacaq-energetika sahələri təbii mühitə ciddi təsir göstərir və ölkənin "ərazinin simasının" dəyişməsinə səbəb olur. Ölkəmizdə dağ-mədən, neft və qazçıxarma işlərinin həcmi ildə milyonlarla ton təşkil edir. Energetika, neft, qazçıxarma və onların nəqli fəaliyyəti kənd təsərrüfatı üçün önəmli olan yüz minlərlə hektar torpaq sahəsini əhatə edir.

Energetika stansiyaları, neftçıxarma mədənləri və mədən daxilindəki kommunikasiya xətlərinin qurulması nəticəsində torpaq və hidroloji şərait pozulur, hava, su və torpaq çirklənir. Bu halların çoxunda isə təsərrüfat sahələrinə və əhaliyə sosial-iqtisadi zərər dəyməkdədir.YEK sahəsində ekoloji fəaliyyətin idarə olunması isə ölkəmizdə müəyyən hüquqi-normativ sənədlər əsasında həyata keçirilir, bunlara aşağıdakılar aiddir:

- Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları;
- Nazirlər Kabinetinin qərar, sərəncam və qətnamələri;
- Müvafiq dövlət orqanlarının normativ hüquqi aktları;
- Energetika Nazirliyinin normativ sənədləri aiddir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Bəhərçi, T., Məmmədov, R., Mehdiyeva, V., & Quliyev, T. (2008). Təbii resurslar və davamlı inkişaf: Dərs vəsaiti. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti.

2. K.B.Bayramov. Təbiətdən istifadənin iqtisadi və ekoloji problemləri (Bakı-2011)
3. Azərbaycan Respublikası Energetika Nazirliyi. (2024). Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi. https://minenergy.gov.az/az/enerji-semereliliyi/enerji-semereliliyine-dair

## TURİZM FƏALİYYƏTİ NƏTİCƏSİNDƏ YARANAN TULLANTILARIN İDARƏ OLUNMASI

**Nazlı Qalib qızı Həşimli**
bakalavriat tələbəsi
nazli.hashimli@mdu.edu.az
*Elmi rəhbər: Fəridə Vaqif qızı Həsənli*
*Fizika və ekologiya kafedrasının müəllimi*

***Açar sözlər:*** *Turizm tullantıları, tullantıların idarə olunması, ekoloji təhlükə, bərk tullantılar, plastik çirklənmə, davamlı turizm, ekoloji siyasət, turizm infrastrukturu, təkrar emal, ekoloji maarifləndirmə.*

***Keywords:*** *Tourism waste, waste management, environmental hazard, solid waste, plastic pollution, sustainable tourism, environmental policy, tourism infrastructure, recycling, environmental education.*

***Ключевые слова:*** *туристические отходы, управление отходами, экологическая опасность, твердые отходы, загрязнение пластиком, устойчивый туризм, экологическая политика, туристическая инфраструктура, переработка отходов, экологическая осведомленность.*

### Giriş

Turizmin müasir inkişafı iqtisadi artım və beynəlxalq əməkdaşlıqla yanaşı, bir sıra ekoloji problemlərlə müşayiət olunur ki, bunlardan biri də turistlərin aktiv səfər etdiyi ərazilərdə bərk və maye tullantıların yaranmasıdır. Turizm fəaliyyəti ilə bağlı tullantıların idarə edilməsi məsələsi elmi əsaslandırılmış məlumatlara və ətraf mühitin idarə edilməsinin davamlı prinsiplərinə əsaslanan kompleks yanaşma tələb edir.

### Əsas hissə

Ümumdünya Turizm Təşkilatının (UNWTO) məlumatına görə, turistlər ildə 35 milyon tondan çox bərk tullantı əmələ gətirirlər. Ən həssas regionlar sahil zonaları, dağ silsilələri və xüsusi mühafizə olunan təbiət əraziləridir ki, burada infrastrukturla təminat səviyyəsi çox vaxt turist axınının həcminə uyğun gəlmir. Nəticədə tullantıların yığılması, su obyektlərinin çirklənməsi və təbii ekosistemlərin deqradasiyası baş verir.

Turizm fəaliyyəti zamanı yaranan əsas tullantı növlərinə aşağıdakılar daxildir:

- qida tullantıları və qablaşdırma;
- plastik məhsullar (şüşələr, çantalar, birdəfəlik qablar);
- sanitar tullantılar (şəxsi gigiyena məhsulları daxil olmaqla);
- turizm obyektlərinin tikinti və təmir tullantıları.

Birdəfəlik plastikdən istifadə xüsusi narahatlıq doğurur. Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramının (UNEP) hesabatlarına görə, dəniz zibilinin 80 %-dən çoxu insan fəaliyyəti, o cümlədən turizmlə bağlıdır. Məsələn, Aralıq dənizi ölkələrində hər bir turist gündə orta hesabla 1-2 kq tullantı istehsal edir ki, bunun da əhəmiyyətli bir hissəsi təkrar emal olunmur.

Turizm bölgələrində tullantıların səmərəli idarə edilməsi aşağıdakı əsas prinsiplərə əsaslanmalıdır:

Tullantıların əmələ gəlməsinin qarşısının alınması - qablaşdırmanın minimuma endirilməsi, təkrar istifadə edilə bilən məhsullara keçid, turistlərin ətraf mühitə uyğun davranış prinsipləri haqqında məlumatlandırılması.

Tullantıların çeşidlənməsi və təkrar emalı - turizm obyektlərində və marşrutlarda ayrıca tullantıların yığılması sistemlərinin tətbiqi.

İnfrastrukturun lokallaşdırılması – məşhur turist marşrutlarının yaxınlığında tullantıların atılması və müvəqqəti saxlama məntəqələrinin tikintisi.

Hüquqi tənzimləmə - mehmanxanalar, turoperatorlar və turizm sənayesinin digər iştirakçıları üçün tullantıların idarə edilməsinə dair standartların və tələblərin tətbiqi.

Təhsil və ictimaiyyətin iştirakı - ekoloji maarifləndirmənin inkişafı və yerli sakinlərin tullantıların monitorinqi və utilizasiya proseslərinə cəlb edilməsi.

Davamlı təcrübələrin uğurla həyata keçirilməsinə misal olaraq "Sıfır Tullantı Turizmi" prinsipinin qüvvədə olduğu İsveçrə və Yaponiyanın milli parklarının təcrübəsində rast gəlmək olar. Həmçinin, bir çox Avropa ölkələri turizm obyektləri üçün məcburi ekoloji sertifikatlaşdırma sistemini tətbiq ediblər (məsələn, çimərliklər üçün Mavi Bayraq sertifikatı).

Bununla belə, turizm regionlarında tullantıların səmərəli idarə edilməsi sisteminin tətbiqi bir sıra problemlərlə üzləşir.

Davamlı tullantıların idarə edilməsinə mane olan əsas problemlər aşağıdakılardır:

Bir çox inkişaf etməkdə olan ölkələrdə və ucqar turizm bölgələrində zibilxanalar, təkrar emal stansiyaları və ya tullantı toplama məntəqələri yoxdur. Müvəqqəti poliqonlar torpağın, suyun və havanın çirklənməsi mənbəyinə çevrilir.

Pik mövsümlərdə turistlərin sayı bir neçə dəfə arta bilər ki, bu da tullantıların həcminin kəskin artmasına və mövcud utilizasiya sistemlərinin həddindən artıq yüklənməsinə səbəb olur.

Bir çox regionlarda turizm sənayesi üçün məcburi tullantıların idarə olunması standartları yoxdur. Qaydalar mövcud olsa belə, onların icrasına həmişə nəzarət edilmir.

Ekoloji mədəniyyətin aşağı səviyyəsi. Turistlər və yerli sakinlər çox vaxt tullantıların icazəsiz atılmasının nəticələrindən xəbərsiz olurlar və tullantıları çeşidləmək və təkrar emal etmək bacarığına malik deyillər.

**Turizm sektorunda tullantıların idarə edilməsinin səmərəliliyinin artırılması üçün tövsiyələr:**

Ekoloji tələblərin turizm siyasətinə inteqrasiyası. Turizmin planlaşdırılması regionun ekoloji yükünü nəzərə almalı və tullantıları minimuma endirmək üçün tədbirləri əhatə etməlidir.

Konteynerlərin quraşdırılması, təkrar emal mərkəzlərinin yaradılması və məlumat kampaniyalarının aparılmasına yönəlmiş birgə layihələr vəziyyəti xeyli yaxşılaşdıra bilər.

Tullantıların həcminin izlənilməsi sistemləri, konteynerlərin yerləşdirilməsi üçün interaktiv xəritələr, turistlərin ekoloji cəhətdən təmiz davranışı üçün mobil proqramlar kimi ağıllı texnologiyalar effektiv idarəetmə vasitəsinə çevrilir.

Ekoloji vergilərin, təkrar emal üçün subsidiyaların və "yaşıl" otellər və operatorlar üçün stimulların tətbiqi biznesləri ekoloji cəhətdən təmiz təcrübələri həyata keçirməyə sövq edir.

Tullantıların miqdarı və növləri və onların təkrar emalı haqqında müntəzəm məlumatların toplanması bizə müvafiq ekoloji siyasətləri formalaşdırmağa və problemli sahələri müəyyən etməyə imkan verir.

**Nəticə**

Qlobal turizmin böyüməsi ilə davamlı tullantıların idarə edilməsi ekoloji təhlükəsizliyin vacib elementinə çevrilir. Bu, planlaşdırma, investisiya, təhsil və sektorlararası əməkdaşlığı ehtiva edən sistem yanaşmasını tələb edir. Kompleks tədbirlər həyata keçirməklə təkcə iqtisadi inkişafa təkan verən deyil, həm də gələcək nəsillər üçün təbii mühiti qoruyub saxlayan turizm modelləri yaratmaq olar.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Всемирная туристская организация (ЮНВТО). Tourism and Waste Management: A Global Challenge. UNWTO Publications, 2022.
2. United Nations Environment Programme (UNEP). Single-Use Plastics: A Roadmap for Sustainability. Nairobi: UNEP, 2018.
3. UNEP & World Tourism Organization (UNWTO). Making Tourism More Sustainable: A Guide for Policy Makers. 2005.
4. European Environment Agency (EEA). Tourism and the Environment — Report No 1/2020. Copenhagen: EEA, 2020.
5. International Union for Conservation of Nature (IUCN). Guidelines for Waste Management in Protected Areas. IUCN Publications, 2021.

# SÜNİ İNTELLEKTİN TURİZM SEKTORUNA TƏTBİQİ

**Məxburə Coşqun qızı Hacıyeva**
bakalavriat tələbəsi
maxbura.haciyeva@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Süni intellekt, səyahət agentlikləri, turizm*
***Ключевые слова:*** *Искусственный интеллект, туристические агентства, туризм*
***Keywords:*** *Artificial intelligence, travel agencies, tourism*

## Giriş

Süni intellekt həyatımızın hər sahəsinə öz təsirini göstərir. Xüsusilə turizm xidmətlərinin göstərilməsi baxımından süni intellekt önəm kəsb etməyə başlayıb. Bundan kənarda qalmaq mümkün deyil.

Süni intellekt, maşın və kompüterlərin insan intellektini təqlid etdiyi və ya təqlid etdiyi kompüter elminin bir sahəsidir. İnsanların problem həll etmə və qərar vermə qabiliyyətlərindən istifadə edən süni intellekt tətbiqləri insanların edə biləcəyi vəzifələri yerinə yetirmək üçün proqramlaşdırıla bilər. Dərin öyrənmə, maşın öyrənmə və təbii dil emal modelləri kimi alt mövzuları ehtiva edən hərtərəfli bir elm sahəsi olan süni intellektin tətbiqləri bir çox fərqli sektora işıq salır.

Süni İntellekt Turizm Texnologiyaları Səyahət Agentlikləri tərəfindən necə istifadə edilə bilər?

## Əsas hissə

Süni intellektin turizmə təsiri insan müdaxiləsini minimuma endirən tətbiqlərlə effektiv, etibarlı, fərdiləşdirilmiş və asan səyahət təcrübəsi yaratmaqla diqqəti çəkir. Səyahət agentlikləri, hava limanları və hava yolu şirkətləri tərəfindən istifadə edilən bu tətbiqlər 24/7 müştəri dəstəyinin təmin edilməsinə, avtomatlaşdırılmış sistemlərin yaradılmasına, müştəri məmnuniyyətinin artırılmasına və təhlükəsizliyin optimallaşdırılmasına əhəmiyyətli təsir göstərir.

Səyahət agentlikləri həm müştərilərlə qarşılıqlı əlaqəni artırmaq, həm də vaxta qənaət etmək üçün chatbotlardan istifadə edirlər. Süni intellekt köməkçiləri və chatbotlar sayəsində ziyarətçilərin uçuş və yaşayış yerlərini tez bir zamanda bron etmələri mümkün olur. AI köməkçiləri müştərilərin suallarına tez cavab verə və ziyarətçilər üçün ən səmərəli marşrutu tövsiyə edə bilərlər. Məsələn, səyahətlərin əlaqələndirilməsi kimi mürəkkəb proseslərdə uçuş rezervasiyaları müştəri tələblərinə uyğun olaraq tənzimlənə bilər. Əllə filtrləmə və məlumatların daxil edilməsi ehtiyacını aradan

qaldıran bu xidmət sayəsində turizm agentliklərinin cavab sürəti artır və ziyarətçilər daha asan prosesə sahib olurlar.

Səyahət agentlikləri vebsaytlarda və sosial media platformalarında məzmun istehsalı və planlaşdırılması üçün məhsuldar süni intellekt tətbiqlərindən faydalana bilər. Mətn, audio, video və şəkillər yaradan bu qabaqcıl vasitələr təsirli və orijinal məzmun dizayn edərək ziyarətçilərin cəlb edilməsində mühüm rol oynayır. Məsələn, siz tur promosyonları, səyahət bələdçiləri və kampaniya elanları üçün sürətli və peşəkar məzmun hazırlaya, bununla da vaxta qənaət edərək daha geniş hədəf auditoriyaya çata bilərsiniz. Süni intellekt alqoritmləri; O, istifadəçilərin keçmiş səyahət seçimlərini, axtarış davranışlarını və cari ehtiyaclarını təhlil edərək fərdi səyahət marşrutları yarada bilər. O, hər bir müştəri üçün fərdi təcrübə təmin edərək, səyahətçilərin maraqlarına, büdcələrinə və müddətlərinə əsaslanan optimallaşdırılmış tövsiyələr təqdim edir.

**Nəticə əvəzi: Süni intellektin turizm sektorunda gəlirin və qiymətlərin maksimallaşdırılması vasitəsi kimi istifadəsi**

Avtonom və dinamik qiymətqoyma rəqəmsal bazarlarda on ildən artıqdır ki, məşhurlaşan bir təcrübədir və bu, əsasən şirkətlərin ixtiyarında olan keçmiş və real vaxt məlumatlarının böyük həcmilə əlaqədardır. Lakin e-ticarətin inkişafı və məlumatlara çıxış imkanının artması satıcılara dinamik qiymətlər yaratmaq üçün aşağıdakı üç əsas elementə əsaslanan bir infrastruktur qurmağa şərait yaratdı:

- zaman (müvəqqəti dinamik qiymətqoyma),
- alıcılar (fərqləndirilmiş qiymətqoyma) və digər məhsu,
- xidmətlərlə paketləşdirmə (məhsul fərqləndirilməsi).

Hava nəqliyyatı bazarı bu inkişafı anlamaq üçün yaxşı nümunədir: süni intellekt vasitəsilə böyük məlumat bazalarının idarə olunması nəticəsində qiymət maksimallaşdırılması və fərqləndirmə mexanizmləri həyata keçirilə bilər. Bu strategiya təkcə turizmə aid sahələrlə məhdudlaşmır.

Artıq bir çox sahələrdə şirkətlər məlumat toplamaq, idarə etmək və təhlil etmək imkanına sahibdirlər. Bunun nəticəsində istifadəçiyə uyğun performansın optimallaşdırılması üçün dəqiq modellər və alətlər formalaşdırılır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu
2. Bilalov B.Ə. Turizm fəaliyyətinin tənzimlənməsi. Bakı, Mütərcim, 2006, 280 səh.
3. https://kaizen.az/post/827

## BEYNƏLXALQ VƏ REGİONAL TURİZMİN DAVAMLI İNKİŞAFI

**[1]Fidan Zaur qızı İsmayılzadə, [2]Məleykə Anar qızı Mustafayeva**
bakalavriat tələbələri
[1]fidan.ismayilzada@mdu.edu.az
[2]maleyka.mustafayeva@mdu.edu.az
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *turizm, təhlil, qiymətləndirmə, inkişaf, davamlı, regional, beynəlxalq turizm*
***Keywords:*** *tourism, analysis, evaluation, development, sustainable, regional, international tourism*
***Ключевые слова****: туризм, анализ, оценка, развитие, устойчивый, региональный, между-народный туризм*

**Giriş**

Turizmdə mövcud qlobal ənənələr, turistlərin sayının ildən-ilə dəyişməsi, həmçinin yeni turist tələbinin yaranması beynəlxalq turizm bazarında ölkələrin həlledici rola malik olması imkanlarını gücləndirir. Bu kontekstdə beynəlxalq turizm sferasında çalışan kadrların iş yerlərindəki qlobal-laşmaya görə narahatlığı səbəbindən dünyanın müxtəlif istiqamətdə yerləşmiş ölkərinə səfərlər etmək istəyən siyasətçilər öz rifah hallarının artırılmasını təmin edə biləcək yeni üsullar, yollar axtarmaq məcburiyyətində qalırlar. Nəticədə bütün bunlar turizmin inkişafının təmin edilməsini və onun istiqamətlərinin müəyyən edilməsini şərtləndirir.

**Əsas hisəə**

Regionda məskunlaşmış əhalinin rifahının yüksəldilməsinə təsir edən turizm sferasının inkişafı nəzərə alınmaqla beynəlxalq turist axının ölkəyə istiqamətləndirilməsində rəqabət qabiliyyətli amillərinin müəyyən edilməsinin rolu danılmazdırdır. Dünya iqtisadi forumunun (DİF) "Səyahət və turizmin rəqabətliyi" (The Travel & Tourism Competitiveness Report 2017) üzrə məlumatlar turizm sektorunun dayanıqlı inkişaf amillərini və siyasətin cəmini əhatə edir. Bu isə ölkədə turizm sferasının inkişafına və beynəlxalq turist axının sürətlənməsinə imkan yaradır. Hər il həmin təşkilat 195 ölkə arasında bu amilləri bir indeks (səyahət və turizmin rəqabət qabiliyyəti) üzrə hesablayır. Hesablama zamanı ölkələrin rəqabət qabiliyyətliyini müəyyən edən 14 indeks ayrı-ayrı komponent kimi nəzərə alınır:

- biznes-mühit;
- mühafizə və təhlükəsizlik;
- sağlamlıq və gigiyena;
- insan resursları və əmək bazarı;
- informasiya və kommunikasiya texnologiyasının inkişafı;
- ölkə gəlirlərində səyahət və turizmin prioriteti;
- beynəlxalq açıqlıq;
- qiymət rəqabətliyi;
- ekoloji dayanıqlıq;
- havanəqliyyatı infrastrukturunun inkişafı;
- yerüstü və liman infrastrukturunun inkişafı;
- turizm infrastrukturu və xidmətin inkişafı;
- təbii ehtiyatlar;
- mədəni resurslar və işgüzar səfərlər [3].

Tədqiqat işində tətbiq edilən bu indekslərin təhlili əsasında dünya ölkələri fərqli əlamətlər, məsələn "Dünyanın ən təhlükəsiz ölkəsi" və s. üzrə sıralanır. DİF 2020-ci ildə 194 ölkənin səyahət və turizmin rəqabət qabiliyyət indeksi üzrə reytinqi müəyyənləşdirildikdə əsasən informasiya elementləri, bu istiqamətdə beynəlxalq təşkilatlar və bu sahədə olan fərqli ekspertlərin məlumat-larından istifadə edilmişdir. Məlumatların təhlili zamanı bençmarkinq, xətti reqressiv təhlil və s. metodlardan istifadə edilmişdir.

Təhlilin məlumatları göstərir ki, turizm sferasının inkişafında ən vacib göstəricilərdən biri onun turizm bazarında rəqabət qabiliyyətinin yüksək olması hesab edilir. Turizm bazarında əqabət indeksinin orta qiymətinə əsasən lider ölkələr sırasında yer almış ölkələrə İspaniya, Fransa, Almaniya, Yaponiya, BB (5,43-5,12 bal hüdudu), son beşlikdə yer alan ölkələrə Serra-Leone, Mali, Nigeriya, Lesoto və Kamerun (2,80-2,44 bal hüdudu) müvafiq gəlmişdir. Postsovet məkanında olmuş ölkələr üzrə ilk beşlikdə Estoniya, Rusiya, Latviya, Litviya, Azərbaycan, (4,78-5,31 bal hüdudu) yerləşməklə bu indeksə görə Azərbaycan 73-cü sırada yer almışdır. Qiymətləndirmə göstəricisi olaraq turizm sferası infrastrukturunun ölkədə inkişafı əsas götürülmüşdür ki, bu da turistlərin qarşılanması və yerləşdirilməsinin nə dərəcədə qənaətbəxş olmasını müəyyən edir: hər 100 nəfərə dqşən mehmanxana yerlərinin sayı, mövcud infrastrukturun miqdarı, hər 1000 nəfər yaşlı əhaliyə düşən bankomatların sayı və s. əsas götürülür [2].

[3]-in məlumatlarına əsasən müqayisə edilən ölkələrin ÜDM-də turizmin payı Maldivıdə - 96,5 %, Seyşel Adalarında -62,1 %, Antiqua və Barbuda-57,1 %, Vanuatuda-47,3 %, Baqam Adalarında -46,9 %-, Kabo-Verdedə-43,2 %, Sent Lyusiyada -41,5 %, Barbadoda-39,5 %, Dominikidə-39,0 %, Fidjidə-38,7 % balla qiymətləndirilmişdir. Azərbaycanda isə bu göstərici-10,5 % təşkil edir. Keçmiş sovetlər ittifaqı ölkələrində Gürcüstan, Estoniya, Ermənistandan sonra dördüncü pillədə yer almışdır [3].

DİF dünya ölkələrinin bir sır göstəriclər üzrə sıralanması bloklar üzrə sıralamışlar. Məsələn, I blokda-Yaponiyanın ÜDM-də turizmin xüsusi çəkisi -7,9 %; II blokda-Yəmənin ÜDM-də turizmin xüsusi çəkisi -10,5 % təşkil etmişdir. Belə ki, Yəmənin ÜDM-də turizmin xüsusi çəkisi Yaponiyaya nisbətən 1,33 dəfə çoxdur. Yaponiyada Yəmənə nisbətən beynəlxalq turist qəbulu üzrə turistlərin sayında-13,55 dəfə, illik pul dövriyyəsinin həcmində-34,47 dəfə, UNESKO-nun siyahısında olan arxitekturlu obyektlərin sayınd-5,3 dəfə, işçilərin orta aylıq mək haqqında-10,65 dəfə, işsizlik səviyyəsində -4,2 dəfə çox olması Yaponiyanın digər bloklardakı ölkələrə nisbətən bu göstəricilərinin çox olmasını göstərir. Buradan da belə bir nəticəyə gəlmək olur ki, Yaponiya I bloka daxil olan ölkələr içərisində yüksək yer təmin edə bilmişdir [4].

Fikrimizcə, həmin ölkələrdə intellektual tərəfdaşlığın strukturu, formalaşması özündə aşağıdakı sahələri əhatə edir:

- tədqiqatların inkişafına investisiya qoyuluşu;
- işçi qüvvəsinin strukturu və tətbiqi mexanizminin düzgün formalaşması və qurulması;
- təhlükəsiz iş şəraitinin və yüksək səviyyəli mühafizə sisteminin təmin edilməsi;
- sahibkarlığın inkişaf mühitinin inkişafına və formalaşmasına hərtərəfli yardımın göstərilməsi;
- idarəetmə modellərinin tətbiq sahələrinin müəyyən edilməsi.

Dünya təsərrüfatında meydana çıxan problemləri əks etdirən vəziyyəti yaxşılaşdırmaq üçün innovasiyalı ekosistemə daxil olan elementləri və onun prioritetləri müəyyənləşdirilir. Dünya ölkələrində innovasiyalı ekosistemin artımını təmin edən əsas prioritetləri müəyyən edən beş göstərici vardır ki, bunların da ayrı-ayrılıqda səviyyəsi 100 %-lik sərhəd həddinə çatdırılmalıdır. Mağistr dissertasiyasında ölkələrdə innovasiyalı ekosistemin prioritetləri müəyyən edilmişdir. Bu prioritetlərə tədqiqatların inkişaf səviyyəsi, tərəfdaşlıq qrupunun inkişafı, sahibkarlıq mədəniyyəti, ticarətin təşkili və adminstrativ tələblər aid edilir (cədvəl1).

**Cədvəl 1**

**Dünya ölkələrində innovasiyalı ekosistemin əsas artım prioritetləri**

| S/N | Innovasiyali ekosistemin artımı üzrə priritetlər | Mövcud səviyyə, % | 100 %-li sərhəd həddinə qədər olan aralıq, % |
|---|---|---|---|
| 1 | Tədqiqatlar və inkişaf | 30-36 | 64-70 |
| 2 | Tərəfdaşlıq qrupunun inkişafı və fərqliliyi | 40-43 | 57-60 |
| 3 | Sahibkarlıq mədəniyyəti | 47-50 | 50-53 |
| 4 | Ticarət aparma | 50-53 | 47-50 |
| 5 | Adminstrativ tələblər | 65-69 | 31-35 |

***Qeyd:*** DİF-nin məlumatları üzrə müəllif tərtib etmişdir

Təhlil göstərir ki, dünyada tətbiq edilən bu ekosistemin beş əsas artım prioritetlərinin tədqiqatlar və inkişaf səviyyəsi inkişaf etmiş ölkələr sayılan ABŞ, Cənubi Koreya və s. 30-36 % təşkil edir. Bu göstəricinin minimum həddi - 30 %, maksimum həddi - 36 %-dir. Onun sərhəd həddinə aralığının minimum həddi - 64 %, maksimum həddi - 70 %-dir. İşdə ekosistemin sahibkarlıq mədəniyyəti və ticarət aparma prioritetində ticarət aparma səviyyəsinin sahibkarlıq mədəniyyətinə minimum və maksimum həddi 3 % yüksəkdir. Belə ki, ticarət aparma göstəricinin mövcud səviyyəsi kifayətedici deyildir, yən bu göstəricinin 100 %-li həddə çatma aralığı - 47 %,

maksimum həddi isə- 53 %-dir və bu göstəricinin 100-li həddə çatması üçün orta qiymət 50 %-dir. Mövcud prioritetlər üzrə bütün göstəricilərin təhlilindən görünür ki, bunlar içərisində ən yüksək qiymət administrativ tələblərdədir və bunun da minimum həddi-65 %, maksimum həddi isə 69 %-dir.

DİF-in məlumatları əsasında bir sıra ölkələrin daxili rəqabət və ticarətin aparılmasının təşkili göstəriciləri müqayisə edilmişdir. Müqayisə göstərir ki, ilk sıralarda ABŞ, Yaponiya, Sinqapur, Qon Konq və Almaniya yer almışdır. Həmin ölkələrin daxili rəqabət səviyyəsinin həddi 73,2-76,3 % təşkil etmişdir (diaqram 1).




**Diaqram 1.** Bir sıra dünya ölkələrinin daxili rəqabət səviyyəsi
***Qeyd:*** DİF-nun məlumatlarına əsasən müəllif tərtib etmişdir.

Bir sıra ölkələrin daxili rəqabət səviyyəsi göstəricisi məlumatlarından məlum olur ki, 195 ölkə sırasında ilk beşlikdə ABŞ-76,3 %, Yaponiya-74,8 %, Sinqapur- 74,0 %, Qonq Konq-73,4 % və Almaniya-73,2 % yer almışdır. Bu ölkələrin sırasında ilk 20-ci sırada son yerlərdə Avstriya-64,9 %, Danimarka-64,7 %, Norveç-64,2 %, Finlandiya-63,5 % yer almışlar. Belə ki, müqayisə edilən 20 ölkə sırasında birinci yerdə olan ABŞ ilə sonuncu yerdə olan SƏ-nı üzrə bu göstəricidə12,8 % fərq, orta sırada yer alan BB ilə fərq isə 9,1 % təşkil edir.[1]

DİF-in məlumatlarına əsasən bir sıra ölkələrdə ticarətin aparılmasının təşkili səviyyəsi - diaqram.2-də verilmişdir.




**Diaqram 2.** Bir sıra dünya ölkələrdə ticarətin aparılmasının təşkili səviyyəsi
***Qeyd:*** DİF-nun məlumatlarına əsasən müəllif tərtib etmişdir.

Təhlil əsasında belə bir nəticəyə gəlinmişdir ki, müqayisə edilən ölkələrdə ticarətin təşkilinin əsas komponentləri ön sırada yer almış ölkələrdə hüquqi cəhətdən nisbətən yüksək səviyyədədir. Bu göstəricinin yüksək qiymətə malik olması dövlət tərəfindən ölkədə əlverişli şəraitin olması ilə şərtləndirilə bilər.

**Nəticə**

Tədqiqat işində aparılmış təhlil göstərir ki, bir sıra ölkələrdə turizm sferasının inkişaf etdirilməsi bilavasitəonun turizm bazarında rəqabətliliyinin yüksəldilməsi, innovativ ekosistemə uyğun gələn prioritetlərin seçilməsi və s. amillərin qarşılıqlı əlaqəsinin mütləq nəzərə alınmasının vacibliyini şərtləndirir. Odur ki, ölkədə turizm sferasının inkişafını əks etdirən rəqabətliliyinin yüksəldilməsi mütləq dövlətin nəzarətində olmalı və qarşıya çıxan problemlərin həlli bir sıra istiqamətə yönəlməlidir:

- ölkədə hərtərəfli stabilliyin qorunub saxlanılması;
- iqtisadi sabitliyin təmin edilməsi, müvafiq infrastrukturun inkişafına nail olmaq;
- insan kapitalının inkişafına birbaşa təsir göstərən bütün əlaqəli sahələrin səviyyəsinin yüksəldilməsini təmin edə biləcək tədbirlər sisteminin işlənilməsi və həyata keçirilməsi;
- yerli bazarların səmərəlili inkişafını təmin edən layihələrin hazırlanması, həyata keçirilməsi istiqamətində səmərəli təkliflərin hazırlanması;
- turist axınının aktivliyini təmin edəcək turizm sahəsinin dayanıqlı inkişafına təsiri gücləndirmək məqsədilə xarici investisiyaların cəlb edilməsi, sürətləndirilməsi, ölkədə bu inkişafa köməklik göstərəcək layihələrin hazırlanması və realizasiya edilməsi üçün böyük həcmli kreditlərin ayrılması;
- bu sahədə xarici ölkələrin təcrübəsindən istifadəyə istiqamətləndirilmiş aktivlərin (iqtisadi inteqrasiya) turizm sahəsinin inkişafına tətbiq edilməsi;
- qabacqıl texnoloji inkişaf səviyyəsinin təmin edilməsi və innovativ yeniliklərin bu sferada tətbiqinin genişləndirilməsi.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. İsmayılov, V.İ. Beynəlxalq turizmin coğrafiyası / V.İ. İsmayılov, M.Z. Məmmədov //- Bakı: Müəllim, -2021, -267 s.
2. "Dünya üzrə səyahətlər" saytının məlumatları
3. https://tonkosti.ru/Западная_ Азия 3
4. https://www.atorus.ru/news/press-centre/new/58410.html

## REGİONLARDA DAVAMLI TURİZMİN İNKİŞAFINDA EKOTURİZMİN ROLU

**Mələk Tural qızı Babayeva**
bakalavriat tələbəsi
*malak.babayeva@mdu.edu.az*
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *ekoturizm, dayanıqlı turizm, Strateji Yol Xəritəsi*
***Ключевые слова****: экотуризм, устойчивый туризм, Стратегическая дорожная карта*
***Keywords****: ecotourism, sustainable tourism, Strategic Roadmap*

Respublikamızın dünya miqyasında nüfuzunun yüksəlməsi və iqtisadiyyatın sürətlə inkişafı nəticəsində ölkəyə gələn əcnəbilərin sayının ildən-ilə artmasına şərait yaradır. Bu da cəmiyyətin, demək olar ki, bütün təbəqələri üçün gəlir mənbəyi rolunu oynayır. Hər il Bakı və regionlarda

turizm komplekslərinin, hotellərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına, əhalinin istirahətinə geniş imkanlar yaradır. Azərbaycan təbiətinin zənginliyi və rəngarəngliyi regionlarda turizmin müxtəlif növlərinin inkişafına geniş imkanlar açır. Son illər daxili turizm regionlarda daha çox inkişaf edir. Belə ki, turizm infrastrukturunun yaxşılaşdırılması, o cümlədən "Şahdağ" və "Tufan" dağ-xizək yay-qış istirahət kompleksi turizm istirahət, Naftalan, "Duzdağ", "Qalaaltı" və sair müalicəvi-sağlamlıq komplekslərinin, müasir hotel şəbəkələrinin yaradılması, tarix və mədəniyyət abidələrinin, mədəniyyət ocaqlarının bərpası regionlarda turizmin bütün ilboyu inkişafına təkan verir.

**Cədvəl 1**

**Milli Parklara səfər edən turistlərin sayı**

| Milli Parkın adı | Səfər edən turist sayı, 2022-ci il | Səfər edən turist sayı, 2023-ci il | Səfər edən turist sayı, 2024-cü il |
|---|---|---|---|
| Abşeron | 15065 | 21481 | 988 |
| Altıağac | 1936 | 3773 | 628 |
| Ağgöl | 6023 | 6310 | 884 |
| Hirkan | 3795 | 4017 | 198 |
| Göygöl | 228423 | 203154 | 11155 |
| Şirvan | 2002 | 3344 | 1025 |
| Şahdağ | 15429 | 9728 | 896 |
| Samur-Yalama | 1921 | 3866 | 634 |
| Qızılağac | 2634 | 2319 | 517 |
| **CƏMİ:** | **277228** | **257992** | **16925** |

Dayanıqlı turizm elə turizmdir ki, ətraf mühit resurslarından optimal istifadə təmin edilir, turistləri qəbul edən icmanın sosial-mədəni özəllikləri dəstəklənir, bütün maraqlı dairələrin mənafeyi nəzərə alınmaqla uzunmüddətli iqtisadi proseslər təmin edilir". Turizmin inkişafı yerlərdə həm əhalinin işlə təmin edilməsinə, həm gəlirlərinin artmasına, həmin bölgənin əcnəbilərə daha yaxından tanıdılmasına imkan verir. 2016-cı ildə "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"də turizmin inkişafı ilə bağlı olan sənədlərdən biridir. Yol xəritəsində regionların turizm cəhətdən inkişafı üçün təbliğat-təşviqat tədbirlərinin keçirilməsi, uyğun qiymətlərə turizm infrastrukturunun yaradılması nəzərdə tutulmuşdur. Onlarda sağlamlıq, mədəni, qış, işgüzar və davamlı turizm növlərinin formalaşdırılması, potensialdan istifadə edərək marşrutların hazırlanması qeyd olunmuşdur.

Turizmin növlərindən biri də ekoloji turizmdir. Azərbaycan Respublikasının "turizm haqqında" Qanununda ekoloji turizm haqqında tərif belə verilir: Ekoloji turizm (ekoturizm) – təbiətə minimum təsir, ekoloji sistemin bütövlüyünün qorunması prinsipləri əsasında səyahət edilən ölkənin (yerin) təbiəti, təbii ekoloji sistemi, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı özündə ehtiva edən turizm növüdür.

Azərbaycanın ekoturizm potensialı genişdir və ölkənin müxtəlif təbii və mədəni sərvətləri bu potensialın inkişafı üçün əlverişli şərait yaradır. Ölkəmizin Milli Parklarına son üç ildə səfər edən turistlərin sayı verilmiş aşağıdakı cədvəldə müşahidə etmək mümkündür (cədvəl).

Azərbaycanın ekoturizm potensialının tam reallaşdırılması üçün koordinasiyalı və davamlı inkişaf strategiyalarının həyata keçirilməsi vacibdir. Dövlət, özəl sektor və vətəndaş cəmiyyəti arasında əməkdaşlıq, ekoloji maarifləndirmə proqramlarının genişləndirilməsi və beynəlxalq təcrübənin öyrənilməsi bu sahədə mühüm rol oynaya bilər. Bununla yanaşı, ekoturizmin davamlı

inkişafını təmin etmək üçün ətraf mühitin qorunması və resursların səmərəli istifadəsi əsas prioritet olmalıdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu
2. Ə.T.Əsgərov, Ç.G.Gülalıyev, B.Ə.Bilalov. "Ekoloji turizm" Adiloğlu-2011
3. https://smb.gov.az/storage/Az%C9 %99rbaycanda_ekoloji_turizm_potensial%C4 %B1.pdf

## BEYNƏLXALQ TURİZMƏ TƏSİR EDƏN SOSİAL-İQTİSADİ VƏ DEMOQRAFİK AMİLLƏR

**Fərid Akif oğlu Şahbazov**
bakalavriat tələbəsi
*ferid2006sahbazov@gmail.com*
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *beynəlxalq turizm, sosial-iqtisadi amillər, demoqrafik amillər, gəlir səviyyəsi, məşğulluq, Urbanizasiya, turizm bazarı*
***Keywords:*** *international tourism, socio-economic factors, demographic factors, income level, employment, urbanization, tourism market*
***Ключевые слова:*** *международный туризм, социально-экономические факторы, демографические факторы, уровень доходов, занятость, урбанизация, туристический рынок*

Xidmətlərin xüsusi sahəsi olan beynəlxalq turizm ictimai əhəmiyyətli müəyyən hadisələrin (təbii fəlakətlər, terrorizm aktları, regional müharibələr və silahlı münaqişələr) təsirinə məruz qalsa da, dinamik inkişafa doğru meyil göstərir.

Beynəlxalq turizm bazarının strukturuna: Turist xidmətlərinin səyahət zamanı turistlərin təlabatının ödənilməsində rolundan asılı olaraq onları əsas, əlavə və müşayiətedici turist xidmətlərinə ayırmaq olar.

Əsas turist xidmətləri bilavasitə turist məhsulunu formlaşdırır, onsuz turları təşkil etmək qeyri-mümkündür. Onlara aşağıdakıları aid etmək olar:

- nəqliyyat xidmətləri;
- yerləşdirmə xidmətləri;
- bələdçilik xidmətləri;
- ekskursiyaların baza dəsti

Əlavə xidmətlər təyinat yerində turistlər tərəfindən əldə edilir və əsas turist məhsulundan ayrıca olaraq ödənilir (əlavə ekskursiyalar, sağlamlaşdırıcı prosedurlar).

Müşayiətedici turist xidmətləri də əsas turist xidmətlərinə daxil edilmir, turist tərəfindən səyahət zamanı sərbəst şəkildə əldə edilir, məsələn işgüzar görüşlərin təşkil edilməsi, konqres tədbirlərinin keçirilməsi və s.

Əlavə və müşayiətedici turist xidmətləri arasında dəqiq bölgü yoxdur, bununla belə onlar arasında əsas fərq ondan ibarətdir ki, əlavə xidmətlər məhz həmin turist təyinat yeri üçün xarakterikdir, müşayiətedici turist xidmətləri isə müxtəlif turist mərkəzləri üçün ümumidir.

Turist xidmətləri, digər xidmət sahələrinə aid olan müəssisələrin fəaliyyətinin nəticələri kimi ticarət predmeti hesab edilir. Turist məhsullarının istehsalçıları, satıcıları və alıcıları turist xidmətləri bazarında görüşürlər.




**Şəkil 1.1. Turist xidmətlərinin təsnifatı**

Beləliklə, turist xidməti bazarı (turist bazarı) - turist resurslarının əsasında yaradılmış turist məhsullarının hərəkəti ilə bağlı turist xidmətinin alıcıları (turistlər) və satıcıları (turoperatorlar və turagentlər) arasında konkret iqtisadi münasibətlərin məcmusudur.




**Şəkil 1.2. Turist xidmətləri bazarının obyektləri və subyektləri**

Turizm artıq uzun bir müddətdir ki, yalnız Avropanı deyil,bütün dünyanı əhatə etmişdir. Turist mübadiləsi, əsasən, qonşu ölkələrin arasında həyata keçirilsə də, uzaq ölkələrə səyahət etmək, bu ölkələrdə yaşayan xalqların həyat tərzi, mədəniyyəti və adət-ənənələri ilə tanış olmaq həvəsində olan turistlərin sayı ildən-ilə artır. Müasir hava yolları bir neçə saat ərzində "dünyanın bu başından o başına" uçmağa imkan verir.

Turizm artıq bir çox ölkələrin təsərrüfat həyatında əhəmiyyətli rolu olan iqtisadiyyatın bir sahəsinə çevrilmişdir. Turizm ölkələrin iqtisadiyyatına müsbət təsir göstərir və dünya ixracatının dəyərcə 5 %-i onun payına düşür.

Bir sıra ölkələrdə turizmin inkişafına xüsusi diqqət verildiyindən bu sahəyə lazımi qədər vəsait ayrılır. Müxtəlif əyləncələrlə zəngin olan istirahət üçün bütöv şəhərlər – turizm mərkəzləri yaradılır. Bu mərkəzlərdə minlərlə yerli sakin başqa ölkələrdən gələn qonaqlara xidmət göstərməklə iş yeri,

məşğulluq əldə edir. Başqa sözlə desək, yerli əhalinin məşğulluq imkanı artır, kənd əhalisi "ikinci ixtisas"a yiyələnir, onların həyat səviyyəsi yüksəlir, gəlirləri artır.

Turizm istehsalın tikintidən başlayaraq, yeyinti sənayesinə qədər bir çox sahələrinin inkişafına da dolayı yolla təsir göstərir. Nəzərə almaq lazımdır ki, turizmin təsiri bir mənalı olmur. O, yerli əhalinin məişətinin bir çox sahələrinə müsbət və mənfi təsir göstərə bilər. Ona görə də bir sıra ölkələrdə beynəlxalq turizm mübadiləsinin inkişafının iqtisadi və sosial nəticələrini öyrənən elmi-tədqiqat mərkəzləri yaradılmışdır. Həmçinin bu işi əlaqələndirən beynəlxalq turist təşkilatlari da fəaliyyət göstərir.

Beynəlxalq turizm, böyük iqtisadi əhəmiyyətindən əlavə müxtəlif din və mədəniyyətə mənsub olan insanlar arasında qarşılıqlı anlaşmanın və inamın artmasında müstəsna rol oynayır. Turizmin fəaliyyəti, yalnız ticarətin və xidmətin təşkili, yeni ticarət ortaqlarının axtarışı və cəlb edilməsi ilə məhdudlaşmır. O, həmçinin, bütün dünyada sülhün bərqərar və qorunması naminə müxtəlif ölkələrin vətəndaşları arasında qarşılıqlı münasibətlərin qurulmasına yönəlmişdir.

Ümumdünya Turist Təşkilatının (ÜTT) rəyinə görə, səyahətə çıxanların sayı bütün dünya üzrə hər il 4,1 % artacaq və 2020-ci il üçün 1,6 mlrd nəfərə çatacaqdır.

Turizmin inkişafına sosial-iqtisadi, tarixi, demoqrafik, təbii-coğrafi və bir sıra coğrafi amillər təsir göstərir.

***Sosial-iqtisadi amillər*** beynəlxalq turizmin inkişafında böyük əhəmiyyətə malikdir.Əməyin beynəlxalq bölgüsünün güclənməsi ilə, dövlətlərarası iqtisadi əlaqələrin getdikcə genişlənməsi xüsusilə böyük rol oynayır. Beynəlxalq ticarətin artması və müasir nəqliyyatın sürətli inkişafı beynəlxalq turizm üçün mühüm maddi zəmin olmuşdur.Təcrübələr göstərir ki, beynəlxalq turizm əsas etibarı ilə ABŞ, Kanada, Yaponiya və Avropa ölkələri hesabına inkişaf edir. Həyat səviyyəsinin yüksək olması nəticə etibarı ilə əhalinin orta təbəqəsinin kütləvi turizmə cəlb edilməsinə gətirib çıxarır.

Son illərdə beynəlxalq turizmin bir çox ölkələrdə müvəffəqiyyətli inkişafı, əhalinin maddi və mədəni səviyyəsinin durmadan yüksəlməsi, o cümlədən, bu ölkələrdə məzuniyyət günlərinin, fəhlə və qulluqçuların əmək haqqlarının artırılması ilə izah olunur.

Beynəlxalq turizmə təsir göstərən ***siyasi amillər*** arasında "eksportyor" (turist göndərən) və "importyor" (turist qəbul edən) ölkələrinin daxili siyasi vəziyyətini və beynəlxalq turizmin bu amillərdən asılılığını, ölkələrarası münasibətləri və bu münasibətlərin turizm əlaqələrinə təsirini, turist göndərilməsi ilə məşğul olan ölkələrin yerləşdiyi rayonlarda və turist marşurutlarının keçdiyi bölgələrdə siyasi vəziyyəti qeyd etmək lazımdır. İnkişaf etmiş sənaye ölkələrində baş verən iqtisadi sarsıntılar beynəlxalq turizmə mənfi təsir göstərir.

Qəbul edən ölkənin daxili siyasi vəziyyətində stabilliyin mökəm olması bir qayda olaraq, turist axını üçün əlverişli şərait yaradır, gərgin vəziyyət isə əksinə bu axının qarşısını alır. Bu bir tərəfdən istirahətə gedən turistlərin xarici ölkədə siyasi böhranlar və gözlənilən silahlı toqquşmalar zamanı təhlükələrdən uzaq olmaq istəyi, digər tərəfdən isə belə ölkənin hakimiyyət dairələrinin qonaqların qorunması üçün öz üzərinə əlavə məsuliyyət götürmək istəmədiyini, həmçinin "xarici şahidlər"in arzu olunmazlığı ilə izah edilir.

Təbii ki, göndərən ölkənin hakimiyyət orqanları bir qayda olaraq, turistləri qeyri-sabit daxili vəziyyətdə olan rayonlara göndərməkdən imtina edir, öz vətəndaşlarının həyatını təhlükə qarşısında qoymaq istəmirlər.

Ölkələr arasında turist mübadiləsi, həmin ölkələrin qarşılıqlı münasibətlərindən çox asılıdır. Normal diplomatik münasibətlər, turizm barədə saziş və müqavilələrin olması, kommunikasiya və nəqliyyat vasitələrindən birgə istifadə, turist reklamı mübadiləsi – bütün bunlar ölkələr arasında turist axınının güclənməsinə səbəb olur.

Silahli münaqişələrdə iştirak edən, xüsusilə də təcavüzə məruz qalan ölkələr, nəinki əcnəbilərin ölkədə normal şəraitdə səyahətini təşkil edə bilir, hətta onların təhlükəsizliyinə də zəmanət verə bilmirlər. İnsan və maddi ehtiyyatların gərginliyi ilə əlaqədar, belə dövlətlər bir qayda olaraq, öz

vətəndaşlarının da xaricə getməsinə icazəni məhdudlaşdırırlar. Ona görə də, "planetin qaynar nöqtələri"praktiki olaraq, beynəlxalq turizm hərəkatından kənarda qalırlar.

***Demoqrafik amillər*** də beynəlxalq turizmin inkişafına təsir göstərir. Planet əhalisinin sürətli artımı, təbii ki, turist potensialını da artırır, nəticədə yeni insan ehtiyyatları turizm fəaliyyətinə cəlb olunur.

Əhalinin ümumi artımı dünyanın bir çox rayonlarında sıxlığın yaranmasına səbəb olur. İnkişaf etmiş sənaye ölkələrində sakit, sivilizasiyanın toxunmadığı guşələrin axtarılıb tapılması getdikcə çətinləşir. Bu iri şəhər aqlomerasiyası sakinlərinin xaricə, sənaye cəhətdən nisbətən zəif inkişaf etmiş ölkələrə səyahət etməyə sövq edir. Səciyyəvi haldır ki, Avropada əhalinin daha sıx yaşadığı ölkələrdən xaricə turist axını əhalinin seyrək yaşadığı ölkələrə nisbətən daha çoxdur.

İnsan ömrünün uzadılması sahəsində son onilliklərdə qazanılmış nailiyyətlər, səfər üçün vaxta və vəsaitə malik olan yaşlı əhalinin də turizmə geniş meyl etməsinə imkan yaradır.

Turizmə təsiri olan digər demoqrafik amillərdən ümumi və ya qohum dillərdə danışan, müxtəlif ölkə xalqlarının bir-birinə maraqlarının artması; turizmə gənclərin və qadınların getdikcə daha çox meyl etməsi; beynəlxalq kurort şəbəkəsinin genişlənməsi, müalicəyə və istirahətə ehtiyacı olan xarici vətəndaşların sanatoriyalarda qəbul imkanının artması və s. göstərmək olar.

Turizmin inkişafının bir sıra psixoloji səbəbləri xalq-əhali amilləri ilə bağlıdır. Məs: ətraf mühitin dəyişdirilməsi,dəb və s. Beynəlxalq turizmin inkişafında əhalinin ümumtəhsil səviyyəsinin yüksəlməsi, bununla da ətraf mühitə qayğı və marağın yaranması da mühüm rol oynayır.

Turizmin inkişafı potensialı olan ölkələr üçün ümumi daxili məhsulun artırılmasına yönəldilir, yeni iş yerləri açılır və regionların sosial-iqtisadi inkişafı üçün şərait yaradılır. Turizmin mahiyyəti onun istehsal strukturu, təşkilati quruluşu və idarə edilməsi xüsusiyyətləri ilə formalaşır.Turizmin konseptual əsasları resurspotensial turizm məhsulu-gəlirlərin formalaşması məntiqinə əsaslanır.

Turizm inkişaf problemləri tarixi, iqtisadi və təcrübə ilə bağlı olan bir sıra problemlərlə bağlıdır. Onun yerləşməsi və inkişafı coğrafi, tarixi və reqresiya potensialına uyğun olaraq formalaşır. İqtisadi sistem, turizm sisteminin formalaşmasının adi və sosial əsasıdır. Turistlərin xarakteristikası, hər bir ölkədə turizmin təşkilinin əsas amilidir. Turizm müəssisələri turistlərin tələbinə uyğun olaraq təklif problemləri həll olunur. Turizm tələbi və təklifi turizm bazarını formalaşdırır. Turizm bazarı turizm məhsulunun reallaşması yolları və uyğun qiymətlərlə ölçülür.

Turizmin sosial-iqtisadi mənası çoxşahəli və kompleks göstəricilərlə ifadə olunur. Onun əsas məqsədi kommersiya gəlirləri gətirmək, yerli resurslardan istifadə etmək, əhalinin rifahı üçün infrastrukturu genişləndirməkdən ibarətdir.Turizm fəaliyyət dairəsi olmaqla sahibkarlığa şərait yaradır. Turizm biznesin və korporativ idarəetmənin obyekti olaraq genişlənir. Turizmin sosial mənası iş yerlərinin açılması, ev təsərrüfatının inkişafı və kəndin sosial-iqtisadi inkişafını təşkil etmək vəzifəsi təşkil edir. İqtisadi və sosial inkişafın problemləri, həmin resurslardan istifadənin səmərəli təşkili və məşğulluğun artması məqsədlərinə uyğun olaraq təşkil olunur.Turizm fəaliyəti xidmət sferası olmaqla turistlərin ehtiyacını ödəmək üçün fəaliyyət göstərir. Turizm fəaliyyətinin təşkilinin təşkilnin resurs potensialı, regionun resurs potensialı, əhalinin rifahının yüksəldilməsi problemlərinin həlli üçün aparıcı amil rolunu oynayır.

Turizmin dünya təcrübəsi hər bir ölkəni iqtisadi quruluşu və əhalinin sosialdemoqrafik tərkibi ilə ixtisaslaşır. İctimai əmək bölgüsündə turizm sferası iqtisadi rol oynamaqla ÜDM-in və əhalinin rifahının əsas istiqamətlərini müəyyənləşdirir.

İqtisadi islahatların həyata keçirilməsində iqtisadi və sosial mexanizmlərin formalaşması, dinamikası və proqnozlaşdırılması, xüsusi tədqiqat obyekti kimi təhlili, islahatların əsaslandırılması və onun reallaşması zamanı meydana çıxan sosial nəticələrin qiymətləndirilməsi aktuallıq baxımından mühüm əhəmiyyət kəsb edir. Müstəqillik əldə etmiş Azərbayjan Respublikasının qarşısında duran strateji məqsəd ölkənin bazar iqtisadiyyatına keçməsilə bağlı qarşıya çıxan bir sıra sosial-iqtisadi problemlərin həllində onun mütərəqqi formalarından səmərəli istifadə yollarını müəyyən etməkdir. Turizm haqqında Azərbayjan Respublikası qanunu Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliy-

yətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir.

Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadənin gücləndirilməsinə təkan verir. Turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nətijəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir. Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizm və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir. Ölkəmizin dünyada turizm ölkəsi kimi tanınması üçün geniş imkanlar mövcuddur.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. https://referat.ilkaddimlar.com/r/referatlar/turizm
2. Məmmədov Elman " Azərbaycanın beynəlxalq turizm bazarının inkişafı"
3. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010. – 529 s.

## LAÇIN RAYONUNUN EKOLOJİ TURİZM POTENSİALI

**Elvin Müsabi oğlu Nəbiyev**
bakalavriat tələbəsi
elvin.nabiyev@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Laçın rayonu, ekoloji turizm, turist, əhali, ekologiya, kənd*
***Keywords:*** *Lachin district, ecological tourism, tourist, population, ecology, village*
***Ключевые слова:*** *Лачинский район, экологический туризм, турист, население, экология, село*

**Giriş**

Laçın rayonu Azərbaycanın cənub-qərbində, dağlıq və meşəlik ərazidə yerləşir. Bölgə zəngin təbiəti, nadir landşaftları, təmiz havası və tarixi abidələri ilə turizm üçün böyük potensiala malikdir. Qarabağ dağ silsiləsində yerləşməsi səbəbindən Laçın yay turizmi, dağ yürüşləri, ekoturizm və kənd turizmi üçün əlverişli məkandır.

Rayonun əsas turizm resursları sırasında Minkənd, Güləbird və Qarıqışlaq kəndlərində yerləşən qədim körpülər, Alban məbədləri, türbələr və qala qalıqları yer alır. Dağ çayları və bulaqları, həmçinin Qızartı, Həkəri və digər təbii gözəlliklər macəra və istirahət turizmini dəstə-kləyir.

Laçın dəhlizinin önəmi və bölgənin təkrar Azərbaycanın nəzarətinə keçməsi ilə infrastrukturun bərpası və yeni yolların çəkilməsi bölgənin turizm imkanlarını artırır. Həm yerli, həm də xarici turistlər üçün maraqlı və unikal təbiət-tarix vəhdətini təklif edir.

**Rayonun turistik potensialı**

Laçın rayonu ölkəmizin cənub-qərbində, Kiçik Qafqazda yerləşir. Rayonun ərazisi şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Laçın iqtisadi cəhətdən böyük potensiala, zəngin təbii ehtiyatlara malikdir. İşğaldan öncə rayonda aqrar sahə, xüsusilə də heyvandarlıq inkişaf etmişdi. Burada meyvəçilik, tütünçülük, üzümçülük, taxılçılıq, arıçılıq rentabelli olub. Eyni zamanda, bölgə dağ turizmi və

ekoturizm potensialına görə xüsusilə əlverişldiir. Yetərincə geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirir. Rayon ərazisində ayı, antilop, canavar, çaqqal, vaşaq, çöl donuzu və s. Vəhşi heyanlar məskən salıb. Rayonun ekoturistik imkanları, strateji coğrafi mövqeyi, təbiət mənzərələri, dövlət tərəfindən yara-dılan infrastruktur,

Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi xarici və yerli turist axınını artıracaq.

Qeyd edək ki, azad olunmuş ərazilərin, o cümlədən, Laçının milli iqtisadiyyata sürətli inteqrasiyasının təmin edilməsi, zəngin resurslarından iqtisadi inkişafda səmərəli istifadə və bölgə əhalisinin layiqli həyat tərzinin yaradılması istiqamətində önəmli addımlar atılır. Bundan əlavə, bölgənin turizm potensialının tanıdılması üçün zəruri infrastrukturun yaradılması istiqamətində işlər davam edir. Turizm iqtisadi faktorla yanaşı, həm də ökəni dünyaya təqdim edir. Turistlər, həmçinin, Qarabağın işğal tarixi və nəticələri ilə də əyani tanış olmaq imkanı qazanırlar ki, bu da müharibə turizminin faktiki mövcudluğu deməkdir.

**Turizm bölgəsində əhalinin məşğuliyyəti**

Rayona qayıdan əhalinin işlə təmin olunmasından söz düşmüşkən, Laçında məskunlaşan iki ailə ilə bu barədə söhbət imkanımız oldu. Məlum oldu ki, həmin ailələrin bütün yetkin üzvləri ayrı-ayrı müəssisələrdə işlə təmin olunublar və aldıqları əməkhaqqı qənaətbəxşdir. Hətta ailələrdən birinin üzvü,

Bakıda anadan olmuş məcburi köçkün 3 aydır, Laçına köçdüyünü və buranın yaşamaq və işləmək üçün paytaxtdan xeyli rahat və əlverişli olduğunu vurğuladı. Onlar rayonda əhalinin məşğulluğunun, əsasən təmin olunduğunu bildirdilər. Bundan başqa, əhalinin turizmdən gəlir götürmək üçün də imkanları var. Laçında həftəsonu bircə boş yatağın belə, olmadığının şahidi olduq. Burada məskunlaşan əhalinin digər yerlərdə yaşayan yaxınları da tez-tez qonaq gəlirlər. Nəinki Laçının mərkəzində, hətta Zabux və digər yerlərdə belə, kottec, hotel və kirayə evlər dolu idi. Burada kottec və ya otel, eləcə də evlərin kirayə qiymətləri də ölkənin digər turistik bölgələrinə nisbətən xeyli bahadır. Mövsüm olduğu üçün tələbat da yüksəkdir. Orada yaşayan əhalinin bir çoxunun özlərinə məxsus evi və ya evin otağını turistlərə kirayə vermək təcrübəsinin şahidi olduq. Bir sözlə, rayonun turizm imkanları, ilk növbədə, əhalinin məşğuliyyəti üçün imkanlar yaradır**.**

Eyni zamanda, bu barədə rəyini öyrəndiyimiz Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi yanında İctimai Şuranın üzvü Aqil Camal bir qədər fərqli fikirdədir: "Doğrudur, Qarabağın reinteqrasiyası və məskunlaşma aparılır, eyni zamanda, bölgəyə daha çox turistik baxımdan yanaşılır.

Bu məsələdə balans gözlənilməlidir. Əsas diqqət əhalinin daimi məskunlaşdırılması ilə bağlı infrastruktura yetirilməlidir. Əsas diqqətin turizmə yönəldilməsi bölgəyə qayıdan əhali tərəfindən bir o qədər də isti qarşılanmır. Laçında əhali, ilk növbədə, daimi işlə təmin olunmanı üstün tutur. Onlar bölgədə özlərini realizə etmək imkanlarının məhdudluğundan narahatdırlar. Bölgə sıfırdan qurulur. Burada əhalinin kiçik və orta sahibkarlıqla bağlı qura biləcəyi işlər var. Amma burada sanki bütün müəssisələr qurulub və yerli əhali, sadəcə, işçi kimi işə götürülür. Bu isə onların öz qabiliyyətlərinə uyğun inkişaf imkanlarını məhdudlaşdıra bilər. Başqa məsələ həyətyanı təsərrüfat imkanlarının hələki məhdudlaşdırılmasıdır. Zənnimizcə, turizmin müxtəlif növlərinin, məsələn, elə kənd turizminin inkişaf etdirilməsi üçün də yerli əhalinin həyətyanı təsərrüfatla məşğul olmaq, toyur-cücə, mal-qara saxlamaq, bağ salmaq imkanları artırılmalıdır".

**Laçında müşahidələrimizlə bağlı bəzi nüanslar**

Rayonda müşahidələrimizdən o qənaətə gəldik ki, burada cəmiyyətlə təbiət, demək olar ki, iç-içədir. Məsələn, rayonun mərkəzində belə, seyrək salınmış evlərin həyətində axşam vaxtı müxtəlif vəhşi heyvanlara rast gəlmək mümkündür. Qaldığımız evin təpəyə söykənən damında gecə vaxtı dişi çaqqal və balalarının gəzdiyinin şahidi olduq. Sakinlər belə halları adi qarşılayırlar. Deyirlər ki, hətta dəfələrlə həyətlərə canavar və donuzların gəldiyini görüblər. Məskunlaşma çoxaldıqca, vəhşi

heyvanların da həyətlərə müdaxiləsinin azalacağı qənaətindədir əhali. Bununla belə, vəhşi heyvanlarla təmas onlarda mənfi emosiya doğurmur.

Yerli sakinlərlə söhbətlərdə işğal vaxtı ermənilərin burada bir sıra yerli bitki və ağacları qırıb, yerində akasiya əkdiklərini öyrəndik. Sakinlər deyir ki, işğalçılar meyvə ağaclarını və s. Bitkiləri yox edib, yerinə akasiya əkiblər ki, arıçılıqda bundan istifadə etsinlər. Bir neçə yerdə bu cür akasiya təpəliklərinə rast gəldik.

Təəssüf doğuran hallardan biri budur ki, bölgəyə gələn yerli turistlər təbiəti etinasızca zibilləməklə məşğuldurlar. Məsələn, Şuşa-Laçın yolu boyunca dəstə-dəstə insanların piknik məqsədilə oturduqları, kabab çəkdikləri yerləri zibillədiyinin şahidi olursan. Bu yerlərin işğaldan azad edilməsi, Vətən olduğuna, şəhidlərimizə görə xalqımız üçün müqəddəsliyi sanki bir çox yerli turistlər üçün əhəmiyyət kəsb etmir.

Bu məsələ nəzarətsiz qalarsa, gələcəkdə bölgənin gözəl ekoturistik məkanları plastik tullantılarla "bəzənə" bilər. Bölgəyə kütləvi turist axını fonunda burada işlək zibil konseptinin olması olduqca vacibdir. Bu məsələdə geniş maarifləndirmə, xəbərdarlıqlarla yanaşı, cərimələr də tətbiq edilməlidir. Fikrimizcə, burada əsas məsələlərdən biri ətraf mühitin təmizliyinin qorunmasıdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Həsənov, M. (2022). Qarabağ bölgəsinin turizm coğrafiyası. Bakı: Elm və Təhsil.
2. Əliyev, S. (2023). "Laçın rayonunun təbii və mədəni irsi: Turizm imkanlarının qiymətləndirilməsi", Azərbaycan Coğrafiyası Jurnalı, №2, s. 45–53.
3. Azərbaycan Respublikası Prezident Administrasiyası. (2020). İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı üzrə konseptual baxış. Bakı.
4. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi. (2021). Azərbaycanın turizm potensialı və inkişaf perspektivləri. Bakı: Turizm Nəşriyyatı.
5. https://ikisahil.az/post/536700-lachinin-zengin-ekoturistik-potensiali-var

## TURİZMİN FORMALAŞMASI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

[1]**Banu Babək qızı Abdullayeva,** [2]**Nilufər Teyyub qızı Quliyeva**
bakalavriat tələbələri
[1]banu. abdullayeva@mdu.edu.az
[2]nilufar.quliyeva@mdu.edu.az
*Elmi rəhbər: Əlirza Aqil oğlu Abdullayev*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər***: *turizm, təhlil, qiymətləndirmə, inkişaf*
***Keywords:*** *tourism, analysis, evaluation, development*
***Ключевые слова:*** *туризм, анализ, оценка, развитие*

**Giriş**

**Mövzunun aktuallığı:** Müasir şəraitdə turizm sferası verdiyi sosial səmərə və iqtisadi əhəmiyyətinə görə iqtisadi sahələr işərisində ən qabacıl sahələrdən biri kimi qiymətləndirilir. İqtisadi-sosial-ekoloji potensialları baxımından zəngin ölkələr üçün turizm iqtisadiyyatın başlıca istiqamətlərindən hesanb edilir.

Turizm sferasının inkişafının nəticələri, qiymətləndirilməsi, gələcək dövr üçün proqnoz modellərinin müəyyən edilməsi və onun inkişaf persktevlərinin aşkar edilməsi elmi cəhətdən aktuallıq kəsb edən istiqamətlərdəndir və bu sahədə tədqiqatların aparılması xüsusilə əhəmiyyətlidir.

**Tədqiqatın məqsədi**: Azərbaycanda turizmin formalaşması və inkişaf xüsusiyyətlərinin müəyyən edilməsidir.

**Nəticələrin istafadə oluna biləcəyi sahələr:** Tədqiqat zamanı turizmin inkişaf perspektivlərinin qiymətləndirilməsi metodologiyasından yalnız turizm sferası üçün deyil, bütün iqtisadi fəaliyyət sahələri üçün istifadə etmək olar.

Tədqiqat işində əldə edilən nəticələrdən Azərbaycanda fəaliyyət göstərən turizm müəsisələrinin pespektivlərindən səmərəli istifadə yollarının müəyyən edilməsi üçün istifadə edilə bilər. Əldə olunmuş nəticələrdən turizm sferasının gələcək inkişafının proqnozlaşdırılması üçün istifadə edilə bilər.

**Əsas hissə**

Azərbaycanda milli iqtisadiyyatın dayanıqlı inkişafının, o cümlədən onun struktur tərkibinin əsas bölmələrindən biri olan turizm sektorunun iqtisadi inkişafının təmin edilməsi dövlətin mühüm vəzifələrindən biri hesab olunur. Turizm sferasının uzunmüddətli perspektivdə planlı şəkildə inkişaf etdirilməsi üzrə dövlət rəhbərliyinin apardığı məqsədyönlü siyasət göstərir ki, turizm bütün dünyada öz perspektivliyinə görə qeyri neft sahələri arasında aparıcı mövqedə durur.

Müasir turizm sənayesi dünya iqtisadiyyatının yüksək gəlirli və dinamik sahələrindən biri olmaqla ölkələrin davamlı iqtisdi inkişafı prosesində həlledici ril oynayır. Turizm sferası qlobal ÜMM, qlobal investisiyalar, iş yerləri və qlobal istehlak xərclərinin 10 %-ni təşkil edir. Hər il təxminən 736,1 milyon insan turizm məqsədilə müxtəlif ölkələrə səyahət edir. Son 15 ildə dünyada həm ümumi milli məhsul istehsalında, həm də məhsul ixracatında xarici turizmin gəlirlərini artırmaq üçün davamlı addımlar atılır.

Turizmin iqtisadiyyatın digər sahələrindən fərqli bir sıra xüsusiyyətləri vardır və bu xüsusiyyətlər onun spesifik üstünlüklərini şərtləndirir: turizmin inkişfı və genişləndirilməsi məqsədilə ona yönəldilən vəsait qısa müddətdə öz bəhrəsini verir. Turizm tarixi abidələrin qorunmasını, şəhər və kəndlərin abadlaşdırılmasını, yolların bərpası və yenidən salınmasını, infrastruktur obyektlərinin bərba edilməsi, yeniləşdirilməsi və inkişafını mütəmadi olaraq həyata keçirməyi tələb edir. Turizmin inkişafı yeni iş yerlərinin yaradılmasına, o cümlədən onunla əlaqəli iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına təkan verir və bu prosesi sürətləndirir [4,s.126-128].

Turizm sferasının cəlbediciliyi onun formalaşmasına və inkişafına yönəldilən vəsaitlərin qısa bir müddətdə özünü ödəməsi və gəlir əldə edilməsi ilə şərtləndirilməkdədir. Əsas xüsusiyyətlərinə görə turizm sferası iqtisadi fəaliyyətin digər formalarından fərqlənən bir sıra fundamental spesifik xüsusiyyətlərə malikdir. Nəzərə almaq lazımdır ki, bu spesifiklik birbaşa turizm xidmətlərinin xüsusiyyətləri ilə birbaşa bağlı olmaqla onun qeyri-müəyyənliyi, keyfiyyətin qeyri-sabitliyi, saxlanılmasının mümkünsüzlüyü və resurs mənbələri ilə davamlılığında ifadə olunur. Turizm, insan ehtiyaclarını ödəmək üçün bir sıra turizm xidmətləri göstərən və turizm mallarının satışını təmin edən turizm müəssisələrinin fəaliyyətini əhatə edən iqtisadiyyatın müəyyən bir sahəsidir. Turizm sənayesi, öz növbəsində, turizm məhsulu istehsalının təşkili üçün hərtərəfli bir sistemdir. Turizm sənayesi sistemi, turizm şirkətləri, iaşə və yerləşmə, reklam, nəqliyyat, istirahət və əyləncə sahələri, təhsil müəssisələri, idarəetmə müəssisələri kimi iqtisadi kompleksin qarşılıqlı əlaqəli komponentləri də daxil olmaqla ixtisaslaşmış müəssisə, təşkilat və qurumların kifayət qədər çox növ və formasından ibarətdir [5, s. 38-44].

Qeyd edək ki, hazırda turizmin əhatə etdiyi dairələr genişlənərək planetar miqyasda sürətlə inkişaf edən biznes sahələrindən birinə çevrilməsi də sübut edir ki, həqiqətən bu sahə həm ölkənin iqtisadi inkişafının təmin edilməsində yüksək gəlir gətirən sferalardan biridir, həm də beynəlxalq turistlərin gəlməsi nəticəsində ölkəmiz artıq dünya miqyasında hərtərəfli inkişaf etmək meyliyində olan dövlətlər sırasında tanınır. Bu baxımdan bütün dünya ölkələrində olduğu kimi, ölkəmizdə də qeyri-neft sektorunun inkişaf etdirilməsinə istiqamətləndirilmiş dayanıqlı iqtisadi inkişafın təmin edilməsi üzrə uzunmüddətli strateji yol xəritələri hazırlanaraq qəbul edilmişdir. Bu aspektdən Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"

xüsusilə əhəmiyyətli sənədlərdən biri hesab edilir. İxtisaslaşmış turizm sənayesinin inkişafını əks etdirən Strateji Yol Xəritəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün turizmin mövcud vəziyyəti SWOT (GZIT) metodu təhlil edilmişdir. Təhlil nəticəsində həm mövcud dövr üçün strateji baxış, həm 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və həm də 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış müəyyənləşdirilmişdir.

Bəllidir ki, turizm sferası dünya təsərrüfatının ən perspektivli və dinamik inkişafa meylli olan sahələrindən biridir. Belə ki, turizm sektoru xidmət sahəsinə daxil olmaqla bərabər yüksək inkişaf tempinə malikdir. Turizm təsərrüfatı birbaşa və dolayı yolla turist istehlakının ümumi həcminin dəyərində 8,3 trilyon abş dolları təşkil edir. 2020-ci ilin məlumatına əsasən dünyada ÜDM-in 10 % -dən çox hissəsini, əmtəə, mal və xidmətlərin ümumi dünya ixracının 6,5 % -ni və dünya investisiyalarının 4,5 % -ni özündə formalaşdırır. Həmçinin, dünya üzrə xidmət ticarəti üzrə ixracın 30 % -i, iqtisadiyyatda bütün məşğul əhali sayının 9,9 % -i turizmin payına düşür. BTT-nin 2009-cu ildən 2019-cu ilə qədər beynəlxalq turizmdən daxilolmalar üzrə hesabatına əsasən bu göstəricinin real artımı (54 %) dünya ÜDM-in artımını (44 %) təxminən 10 % üstələmişdir (BMT, 2021).

Zəngin mədəni-tarixi irsə, əlverişli təbii iqlim və ekologi şəraitə malik olan Azərbaycanda da turizm sahəsində böyük inkişaf perspektivləri mövcuddur. Odur ki, turizmin məqsədindən asılı olaraq bir-birindən fərqli növlərini əhatə edən kənd, aqro, müalicə - sağlamlıq, ekoloji, mədəni, sosial, kommersiya, idman, dini, xüsusi maraq kəsb edən və s. inkişaf etdirilməsi nöqteyi nəzərindən Azərbaycan da bu istiqamətdə geniş imkanlara malik olan ölkələr sırasına aid edilir.

Turizmin milli iqtisadiyyatın digər sahələrindən fərqli cəhəti ondadır ki, o, yalnız bir istehlakçı xidmətinə-turistə malikdir. Qeyd edək ki, turist həm turizm məhsullarının (turların, xidmətlərin və malların) istehlakçısıdır, həm də onunla yanaşı turizm müəssisələrinin fəaliyyət obyektidir. Həmçinin qeyd edək ki, milli iqtisadiyyatın digər sferalarından ikinci fərqli xüsusiyyəti ondadır ki, digər bazarlarda (əmtəə və maliyyə bazarları) əmtəə, mallar alıcıya çatdırıldığı halda, turizmdə əksinə, alıcı, yəni turist, turizm müəssisələrinin istehsal etdiyi turməhsul və xidmətlərə çatdırılır. Odur ki, turistin istehlakçı kimi qəbul edilməsi onun yuxarıda qeyd etdiyimiz fərqli xüsusiyyətinin olması ilə şərtləndirilir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) müəyyənləşdirmələrinə görə turist dedikdə digər dövlətin sərhəddini keçmiş, ölkəyə daimi yaşamaq üçün gəlmiş (emiqrant) vətəndaşlar istisna olmaqla istənilən xarici ölkə vətəndaşı başa düşülür.

Azərbaycan Respublikasının “Turizm haqqında qanun” da (14dekabr 2021-ci il) qeyd edilir ki, turist-turizm məqsədilə səyahət etdiyi ölkədə (yerdə) 90 günədək müvəqqəti olan fiziki şəxsdir. Bu qanuna əsasən turizmin mənası “fiziki şəxslərin getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, həmçinin mədəni turizm·(səyahət edilən maddi və qeyri-maddi mədəni irsi ilə tanışlıq məqsədli turizm), ekoloji turizm (təbiətə minimum təsir, ekoloji sistemin bütövlüyünün qorunması prinisipləri əsasında səyahət edilən ölkənin təbiəti, təbii ekoloji sistemi, bioloji və mədəni müxtəlifliyi ilə tanışlığı özündə ehtiva edən turizm), kənd turizmi (turistlərin kənd təsərrüfatı obyektlərində, kənd həyat tərzi, yerli ərazinin təbii, tarixi və mədəni dəyərlərinin öyrənilməsi ilə bağlı xidmətlərin göstərilməsi ilə müşayiət olunan turizm), macəra turizmi (turistlərin xüsusi coğrafi xüsusiyyətlərə malik ərazilərdə fiziki aktivlik, mədəni mübadilə, təbiətlə qarşılıqlı əlaqə ilə müşayiət olunan turizm), sağlamlıq turizmi (turistlərə səyahət etdikləri ölkədə müalicə, profilaktika, diaqnostika və digər tibbi xidmətlərin, təbii müalicə ehtiyatları və müalicə-sağlamlaşdırma yerlərindən istifadə etməklə rekreasiya xidmətlərinin göstərilməsini nəzərdə tutan turizm), işgüzar turizm (işgüzar tədbirlərdə iştirak məqsədilə həyata keçirilən turizm), qastronomiya turizmi (turistlərin səyahət edilən ölkənin ənənəvi və innovativ kulinariya nümunələri və ərzaq məhsulları, yerli ərzaq istehsalçıları ilə tanışlığı, kulinariya festivallarında və digər oxşar tədbirlərdə iştirakı ilə müşayiət olunan turizm), sahil və su turizmi (turistlərin su obyektlərinin sahillərində və su nəqliyyat vasitələrində göstərilən xidmətlərdən istifadə və istirahətlərinin təşkili, su idman növləri ilə məşğul olmasını özündə ehtiva edən turizm), dağ turizmi (özünəməxsus landşaft, topoqrafiya, iqlim, bioloji müxtəliflik xüsusiyyətləri olan dağlıq ərazilərdə həyata keçirilən turizm)

və idman turizmi (idman yarışlarında iştirak etmək və ya idman yarışlarını izləmək məqsədli turizm) və s. məqsədlərlə daimi yaşadığı ölkənin hüdudlarından kənara müvəqqəti səyahəti" kimi müəyyənləşdirilir [1, s.1-2].

İqtisadi ədəbiyyatlarda əmtəə, mal və xidmətlərin istehlakçısı olan turistlər ayrı-ayrı kateqoriyalara ayrılır və bu cür ayrılma tipologiyanın elmi metodunu tələb edir. Tipologiya-ümumiləşdirilmiş model və tiplərin köməyi ilə obyektlərin sisteminin ayrılmasının və onların qruplaşmasının elmi metodudur. Adətən aparılacaq tədqiqatların məqsədlərindən asili olaraq turist tipologiyasını dörd kateqoriyaya ayırmaq mümkündür:

1. "Qənaətcil" turizm məhsullarını alanlar. Bu tip turistlər həmin növ məhsulların qiymətinə, keyfiyyətinə və xidmət dairəsinə görə fərqlənirlər. 2."Personallaşdırılmış" turizm məhsullarını alanlar. Bu tip turistlər üçün turizm məhsulunun növü və turizmin xidmət keyfiyyəti vacibdir, eyni zamanda, turun qiyməti və ya xidmətləri onlar üçün həlledici amil hesab olunmur.

2. "Etik" turizm məhsullarını alanlar. Bu tip turistlər turizmdə göstərilən geniş xidmət müxtəlifliyinə görə tura aşağı qiymət ödənilməsinə meyllidirlər.

3. "Apatik" turizm məhsullarını alanlar. Bu alıcılar üçün turizmin xidmət keyfiyyəti vacibdir və turun qiyməti mühüm rol oynamır.

Alman tədqiqatçısı Q.Qan turistlərin aşağıdakı tiplərini ayırmışdır: S, F, W, A, B- tipləri. S-tipi - tipik məzuniyyətçidir, dəniz kurortlarında passiv istirahət, sakitlik və komfortluğa üstünlük verir , boşluqdan qaçır, lakin xoş əhvallı insanlarla ünsiyyəti sevir. F-tipi - bu tiplər baş verən dəyişiklikləri, hadisələri, təəssüratları qəbul edir; bunlar öz məzuniyyətlərini elə yerdə keçirirlər ki, orada nəsə baş versin, belə ki, öz ailəsi ilə birgə və ya təklikdə çimərlikdə zəif "günəş yanığında" olmağı sevmirlər; bunların əsas seçimicəmiyyət, məmunluq, təəssüratların dəyişməsidir. W-1-tipi-məzuniyyətdə olan, aktiv istirahətə, piyada gəzintiyə və s. üstünlük verənlər. Onların əsas seçimi - hava şəraitindən asılı olmayaraq təmiz havada fiziki aktivlikdir. Bu tiplər istirahət zamanı fiziki formalarının yaxşı saxlanılmasına çalışır, lakin professional idmanla məşğul olmurlar. W-2 tipi-idmanı sevməkdən çox, idmançılardır. Uzun müddətli və həddən çox, hətta eksperimental yüklənməyə dözümlüdürlər. Hər hansı turu seçdikdə " xobbi ilə məşğul olma şəraitinin sayı" kriteriyasına üstünlük verirlər. Bu cür kriteriyaların -"landşaft, mədəniyyət, tarix" - seçilməsi, ikilidir. A-tipi- sərgüzəşti sevəndir. Risk, yeni hissiyyatlar, gözlənilməyən vəziyyətlərdə özünün gücünü sınaqdan çıxarmaq, təhlükəlilik - bu tip turistlərin səyahətinin məqsədinin seçilməsini müəyyənləşdirir. B-tipi- hər şeylə maraqlanan turistlərdir. Bu tip turistlər adətən üç yarım qrupa bölünür: a) "ekspertlər", " kolleksionerlər" cazibəli yerlərə baş çəkənlər; b) "mədəniyyət və təbiəti emosional sevənlər"; v) "mütəxəssislər"- mədəniyyət, tarix, incəsənətin və s müəyyən sahələrində öz biliklərini dərinləşdirmək istəyənlər [2].

Turizmin daha dəqiq müəyyən edilməsi bir sıra iqtisadi xüsusiyyətlər əsasında bazalaşdırıla bilər: -turizm insanların müxtəlif turist marşrutlarında hərəkətinin nəticəsidir; -turizm həmişə özünə iki elementi: müəyyən edimiş məntəqəyə səyahəti və orada dayanmağı daxil edir; - səyahət, turistin daimi yaşadığı ölkədən digər ölkəyə getməsi başa düşülür; - turizm-turistlərin turist marşurutu ilə müvəqqəti hərəkət etməsidir, yəni turistin daimi yaşadığı yerə hər hansı müddətdən sonra qayıtmasıdır; - turizm - səyahətdir, buraya gəlir gətirmə ilə məşğul olma fəaliyyəti daxil deyildir. BMT-nin qəbul etdiyi müasir turizm anlayışında göstərilir ki, turizm - aktiv istirahət olub, daimi yaşayış yerinin hüdudlarından kənarda hərəkət etməsi ilə əlaqəli insanın sağlamlığının möhkəmlən-dirilməsinə, onun fiziki inkişafına təsir göstərir [3].

İstənilən növ məhsul (mal, xidmət) kimi qeyri - material xidmətlər də istehlak dəyərinə və dəyərə malikdir. Qeyri-material xidmətlərin dəyəri istehsal üçün lazım gələn ictimai məcmu əmək xərcləri ilə ekvivalentdir. Tur-konkret müddətdə konkret matşrut üzrə fərdi və ya qrup halında səfərdən ibarət olan, turizm məhsullarının vauçer şəklində satılan formasıdır. Turizm yollayışı-ciddi hesabatlı blank (cənəd) olub, proqramla nəzərdə tutulmuş xidmətlərin ödənildiyini təsdiq edən sənəddir.

Xidmətlərdən başqa turistlər turist təyinatlı mallar, məhsullar (xidmətlər) ala bilərlər. Turist təyinatlı mal (məhsul) və xidmətlərin məcmusu "turizm məhsulu" anlayışını yaradır. Hazırda fəaliyyət göstərən qanunçuluğa görə "turizm məhsulu"- turistlərə göstərilən xidmətlər kompleksidir. Bu xidmətlərə turistlərin yerləşdirilməsi, daşınması, qidalanması üzrə xidmətlər kompleksi, ekskursiya, həmçinin bələdçi (bələdçi-tərcüməçi) xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər aiddir.

Turizm məhsulu-turistlərin yerləşdirilməsi məqsədinə xidmət göstərən tur hüquqlarıdır. Turizm məhsulunu ümumiləşdirərək üç qrupa ayırmaq olar:

1. Qarşıya qoyulmuş məqsədyönlü ümumiləşdirilmiş turlar: sağlamlıq, tanışlıq məqsədi və s.
2. Müxtəlif növ turist-ekskursiya xidmətləri: yerləşdirmə, qidalanma, nəqliyyat və s.

4. Turist-suvenir təyinatlı mallar (məhsullar): oyun kartları, ünvanlı vərəqlər, suvenirlər, kitablar, turist avadanlıqları və s.

Hər bir ölkədə turizmin idxalı və ixracı mümkündür. Turizm idxalı-turist təəssüratları ilə müəyyən edilmiş ölkədən turistin özü ilə ölkəsinə gətirdiyi puldur. Turizmin diversifikasiya olunmuş, sosial-məişət infrastrukturunun sahələrarası kompleksi kimi xüsusiyyətləri ölkə iqtisadiyyatında onun təyinatının ikili rolunu müəyyənləşdirir:

- Turizm yeni material dəyərini yaradır və onu xidmət formasında həyata keçirir.
- Eyni zamanda qeyri-material xidmətləri çərçivəsində turistlərə xidməti icra edir və həyata keçirir.

Odur ki, turizm sferası istehsal və qeyri-istehsal funksiyalarına malikdir. Yəni turizm sənayesi iqtisadiyyatında onun təyinatının birinci rolu turizmin yeni material dəyərini yaratması və onu xidmət formasında həyata keçirməsidir. İkinci rolu isə qeyri-material xidmətləri çərçivəsində turistlərə xidməti icra etməsi başa düşülür. Turizm məhsullarına olan tələbatın növündən asılı olaraq turistləri üç qrupa ayırmaq olar: - turistik tələbatlara malik insanlar və səyahət etmək arzusunda olanlar; - yüksək alıcılıq qabiliyyətli insanlar; - istehlakçı davranışına malik insanlar.

Turizmdə tələbat yaradan bütün amillər tanış olma, regional, iqtisadi və psxoloji amillərə aid etmək olar. Bu qruplardan hər biri özündə müxtəlif qrupaltı amilləri, yəni müxtəlif növ motivləri birləşdirə bilər.

- Tanış olma qrupu- insanların tarixi, mədəniyyət, təsərrüfat, təbiət-iqlim amillərinə olan marağıdır. Tarixi adət-ənənələrə bütünlükdə ölkə mədəniyyəti, onun tarixi və arxeoloji abidələri aid edilir.

- Regional amillər qrupuna regionun hadisələrlə zənginliyini aid etmək olar ki, bu da turistlərin həmin regiona gəlməsinə səbəb olur. Məsələn, teatr və musiqi festivalları (Azərbaycanda adətən bu cür tədbirlər Bakıda, Qubada, Qəbələdə və s., həmçinin gələcəkdə Şuşa şəhəri də planlaşdırılmaqla), kino festivalları, müxtəlif idman yarışları (olimpiada, spartakiada və s.) (Azərbaycanda, adətən, bu cür tədbirlər Bakı, Gəncə, Qəbələ, Mingəçevir və s.- də və gələcək illərdə Şuşa şəhəri də planlaşdırılmaqla), yarmarkalar, karnavallar, sərgilər və s. (Azərbaycanda adətən bu cür tədbirlər Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Mingəçevir, Şəki, Qəbələ və s.-də) turistlərin həmin regionlara gəlməsinə səbəb olur.

- İqtisadi amillər qrupuna turizm səyahətinin sosial -iqtisadi şəraiti aid edilir. Bu sosial-iqtisadi şəraitə turizm məhsulununn alıcısının gəlirləri, turların qiymətləri, turist qəbul edən müəyyənləşdirilmiş yerlərdə turizm mal (əmtəə) və xidmətlərinin qiymətləri, həmin regionun turizm sənayesinin inkişaf səviyyəsi, eyni zamanda xidmət sferasının, nəqliyyat sisteminin, ticarət sferasının bütövlükdə inkişaf səviyyəsi, o cümlədən xarici turistlər üçün aşağı qiymətlərlə məhsul realizasiya edən müxtəlif mağazaların sayı və s. Iqtisadi amillər çox baha olamyan malların assortimentinin formalaşmasında birinci dərəcəli rol oynamaqla orta gəlirə malik turistlərin sayına təsir göstərir.

- Psixoloji amillər turistləri səyahət etməyə maraqlandıran və onların psixoloji tələbatlarına cavab verən motivləri cəmləşdirilir. Bunlara insanın dini baxışları, onun xüsusi maraqları və meyliliyi, reklama münasibəti və s. daxildir.

Beləliklə, turizmin formalaşması istiqamətində qeyd etdiklərimiz onu göstərir ki, turizm sferası qeyri-neft sektorunda əsas sahə olmaqla ölkənin milli iqtisadiyyatının dayanıqlı inkişafının əldə edilməsində həlledici rol oynayır. Bu da ölkəyə beynəlxalq turist axının düzgün təşkilindən, turizm sferası müəsisələrinin yeni turməhsul istehsal etmə bacarığından, turist qəbulu zamanı onlara komfortlu xidmətlərin təşkilindən, yerləşdirmə, iaşə, nəqliyyat və s infrastrukturlarla sıx əlaqənin təçkili və s. asılıdır. Bu baxımdan da, beynəlxalq turist axınının aktivləşdirilməsini əks etdirən nəzəri-metodoloji aspektlərin tədqiq edilməsi vacib şərtlərdən biri hesab edilir.

**Nəticə**

Turizmin formalaşması və inkişaf xüsusiyyətləri üzrə aparılmış tədqiqat işi göstərir ki, bu sahə təkcə iqtisadi deyil, həm də sosial, mədəni və ekoloji baxımdan cəmiyyətin həyatında mühüm rol oynayır. Tədqiqat nəticəsində aşağıdakı əsas məqamlar müəyyən edilmişdir:

- Turizmin formalaşması uzunmüddətli tarixi inkişaf mərhələləri keçmiş, ilkin olaraq fərdi səfərlər və gəzintilər şəklində mövcud olmuş, XIX əsrin ortalarından isə sosial-iqtisadi sahə kimi inkişaf etməyə başlamışdır. Müasir dövrdə isə turizm beynəlxalq əlaqələrin, iqtisadi və texnoloji tərəqqinin təsiri altında sürətlə inkişaf etmişdir.
- Turizmin inkişafı ölkənin ÜDM və ÜMM-unun artmasına, yeni iş yerlərinin açılmasına, yerli əhalinin gəlirlərinin yüksəlməsinə, istehsal və xidmət sahələrinin genişlənməsinə, infrastrukturun müasirləşdirilməsinə və büdcə daxilolmalarının artmasına səbəb olur. Bu sahə həmçinin xarici ticarət balansına müsbət təsir göstərir və valyuta axınını artırır.
- Turizmin sosial və mədəni təsiri də əhəmiyyətlidir: müxtəlif xalqlar arasında mədəniyyətlərarası əlaqələrin genişlənməsi, beynəlxalq münasibətlərin güclənməsi və yerli əhalinin sosial rifahının yaxşılaşması müşahidə olunur. Eyni zamanda, turizm sahəsi ölkədə yeni ixtisasların və texnologiyaların yaranmasına, xidmət sektorunun modernləşdirilməsinə zəmin yaradır.
- Azərbaycanın timsalında, turizmin inkişafı tarixi mərhələlərlə müşayiət olunmuş, sovet dövründən başlayaraq müasir dövrdə dövlət səviyyəsində geniş tədbirlər həyata keçirilmişdir. Xüsusilə son illərdə ölkədə turizm infrastrukturunun inkişafı, yeni mehmanxanaların və kurort zonalarının yaradılması, beynəlxalq turist axınının artması müşahidə olunur.

Nəticə etibarilə, turizmin formalaşması və inkişafı ölkənin sosial-iqtisadi və mədəni inkişafında aparıcı rol oynayır. Lakin bu inkişafın davamlı və balanslı olması üçün dövlət siyasətinin düzgün qurulması, yerli resursların qorunması, əhalinin maraqlarının nəzərə alınması və ekoloji tarazlığın qorunması vacibdir.

Turizmin gələcək inkişafı üçün innovativ yanaşmalar, müasir infrastrukturun yaradılması və beynəlxalq təcrübənin tətbiqi əsas prioritetlərdən olmalıdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. “Turizm haqqında” Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2021- cı il tarixli Fərmanı
2. İsmayılov, V.İ. Turizmin iqtisadiyyatı / V.İ. İsmayılov; Bakı: İndiqo, -2019, -316 s.
3. İsmayılov, V.İ. Beynəlxalq turizmin coğrafiyası / V.İ. İsmayılov, M.Z. Məmmədov //-Bakı: Müəllim, -2021, -267 s.
4. Aliyeva N.R. “Travel companies of Azerbaijan on the way to innovative development” abstracts of the 2nd International Scientific and Practical Conference / Scientific Innovation Center of ANAS. Baku: Elm Publishing House. 2008. pp. 126-128
5. Çekuşev A.A. The specıfics of tourısm as a branch of the economy. Collection of materials of the XXXIII International Scientific and Practical Conference. -2017, -pp.38-44

# AZƏRBAYCANDA QONAQPƏRVƏRLİK SƏNAYESİ

**Ləman Kamran qızı Hümbətli**
bakalavriat tələbəsi
leman.humbetli@mdu.edu.az
*Elmi rəhbər: Aysel Möhrəddin qızı*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Azərbaycan, qonaqpərvərlik sənayesi, turizm, inkişaf, perspektivlər*
***Keywords:*** *Azerbaijan, hospitality industry, tourism, development, prospects*
***Ключевые слова:*** *Азербайджан, индустрия гостеприимства, туризм, развитие, перспективы*

**Azərbaycanda qonaqpərvərlik sənayesi: inkişaf dinamikası və müasir çağırışlar**

Azərbaycan qədimdən bəri qonaqpərvərliyi ilə seçilən bir diyardır. Tarix boyunca bu torpaqlara üz tutan yolçular xalqımızın mehriban münasibətləri, təbəssümü və geniş süfrələri ilə qarşılanmışdır. Müasir dövrdə isə bu ənənə dövlət səviyyəsində inkişaf etdirilərək qonaqpərvərlik sənayesinin əsas dayağına çevrilmişdir.

Azərbaycanın geostrateji mövqeyi, zəngin mədəni irsi və təbii sərvətləri turizm və qonaqpərvərlik sahəsində mühüm üstünlüklər yaradır. Hazırda ölkəmizdə bu sənayenin inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən olunub. 2016-cı ildə təsdiqlənmiş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” qonaqpərvərlik sektorunun modernləşdirilməsində və dünya standartlarına uyğunlaşdırılmasında əhəmiyyətli rol oynamışdır.

Dövlət Turizm Agentliyinin məlumatına görə, 2023-cü ildə Azərbaycana 1.6 milyondan çox xarici turist səfər etmişdir. Bu göstərici əvvəlki illərlə müqayisədə əhəmiyyətli artım dinamikasını göstərir. 2024-cü ilin ilk rübündə isə turist sayı 26 % artaraq 600 min nəfəri keçmişdir. Bu artım qonaqpərvərlik sahəsində xidmətlərin keyfiyyətinin yüksəlməsi və infrastrukturun inkişafı ilə birbaşa bağlıdır. Ölkədə fəaliyyət göstərən hotellərin sayı 2023-cü ilin sonunda 640-a çatmışdır. Bunların içərisində beşulduzlu beynəlxalq brend otellərlə yanaşı, milli memarlıq üslubunda inşa olunmuş butik hotellər və ailəvi istirahət mərkəzləri də yer almaqdadır. Xüsusilə regionlarda fəaliyyət göstərən qonaqlama obyektlərinin sayı xeyli artmış, yerli iqtisadiyyata yeni nəfəs verilmişdir.

Qonaqpərvərlik sənayesinin əsas elementlərindən biri olan insan resursları sahəsində də müsbət tendensiyalar müşahidə olunur. Dövlət və özəl sektor əməkdaşlığı ilə təlim proqramları təşkil olunur, ali və orta ixtisas məktəblərində turizm və hotelçilik üzrə kadr hazırlığı genişləndirilir. Azərbaycanın ali məktəblərində bu sahə üzrə təhsil alan tələbələrin sayı 2024-cü ildə 3 min nəfəri ötmüşdür.

Qonaqpərvərlik sənayesi eyni zamanda ölkənin mədəniyyət səfirinə çevrilməkdədir. Hotellər, restoranlar və xidmət obyektləri yerli adət-ənənələri təqdim etməklə həm daxili, həm də xarici turistlərə unikal təcrübə bəxş edirlər. Bu məqsədlə “Made in Azerbaijan” brendi altında milli mətbəxin və sənətkarlıq nümunələrinin təqdimatı genişlənir.

Lakin sahədə bəzi problemlər də mövcuddur. Qiymət siyasətində balanssızlıq, bəzi bölgələrdə infrastrukturun yetərli olmaması və xidmət personalının dil bacarıqlarının zəifliyi turizm axınının davamlı artımını ləngidə bilər. Bu səbəbdən rəqabət qabiliyyətinin artırılması üçün xidmət standartlarının vahid şəkildə tətbiqi, ekoloji təmiz və inklüziv turizm konsepsiyalarının inkişafı tövsiyə edilir.

**Azərbaycanda qonaqpərvərlik sənayesinin gələcək inkişaf perspektivləri**

Müasir dövrdə qonaqpərvərlik sənayesi yalnız turizm sektorunun deyil, bütövlükdə milli iqtisadiyyatın əsas sütunlarından birinə çevrilməkdədir. Xüsusilə post-pandemiya dövründə bu sahənin sürətli bərpası və yenidən dirçəlişi ölkə üçün strateji əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyasında da bu sahənin innovasiyalara açıq formada inkişafı xüsusi yer tutur.

Son illərdə Azərbaycanda "ağıllı turizm" konsepti tətbiq edilməyə başlanmışdır. Bu yanaşma çərçivəsində rəqəmsal platformaların – onlayn bronlaşdırma, süni intellekt əsaslı müştəri xidmətləri, virtual bələdçilik kimi texnologiyaların istifadəsi genişlənir. Beləliklə, turistlərə daha çevik və fərdi yanaşmalar təqdim olunur, müştəri məmnuniyyəti əhəmiyyətli dərəcədə artır.

Qonaqpərvərlik sənayesinin inkişafında beynəlxalq tədbirlərin də mühüm rolu vardır. 2015-ci ildən etibarən Bakıda keçirilən Formula 1 yarışları, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları və son dövrlərdə COP29 kimi qlobal əhəmiyyətli tədbirlər paytaxtın və ətraf ərazilərin turizm infrastrukturunun sürətlə inkişafına səbəb olmuşdur. Bu isə hotellərin doluluq səviyyəsinə və xidmət keyfiyyətinə müsbət təsir göstərmişdir. Bundan əlavə, kənd qonaqpərvərliyi və aqroturizm də yeni inkişaf mərhələsinə qədəm qoymuş sahələrdəndir. Quba, Qəbələ, Şəki və Lənkəran bölgələrində ailəvi mehmanxana modelləri, yerli təamların təqdim olunduğu kənd restoranları turistlərə unikal təcrübə təqdim edir. Bu həm də yerli əhalinin iqtisadi fəallığını artırır və mədəni irsin qorunmasına xidmət edir.

Son dövrlər ekoloji qonaqpərvərlik yanaşmaları da aktuallaşır. "Yaşıl hotel" sertifikatlı obyektlərin sayı artmaqdadır. Enerji səmərəliliyi, tullantıların düzgün idarə olunması və yerli resurslardan istifadə prinsipləri bu obyektlərdə əsas götürülür. Azərbaycan bu sahədə beynəlxalq standartlara uyğunlaşmağa çalışır və BMT-nin Davamlı İnkişaf Məqsədlərinə töhfə verməyi hədəfləyir.

Sonda qeyd etmək lazımdır ki, Azərbaycanda qonaqpərvərlik sənayesi təkcə iqtisadi gəlir mənbəyi deyil, həm də milli kimliyin və mədəni dəyərlərin dünyaya tanıdılması baxımından böyük əhəmiyyət daşıyır. Bu sənayenin inkişafı həm də regionların sosial rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması və ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsi deməkdir.

**Nəticə**

Nəticə etibarilə, Azərbaycanda qonaqpərvərlik sənayesinin dayanıqlı inkişafı üçün kompleks yanaşma, innovativ təşəbbüslər və milli brendin gücləndirilməsi həlledici rol oynayır. Qarşıdakı illərdə bu sahənin daha da inkişaf edərək, Cənubi Qafqaz regionunun aparıcı turizm mərkəzlərindən birinə çevriləcəyi gözlənilir.

Yuxarıda qeyd olunan bütün bu proseslər göstərir ki, Azərbaycanda qonaqpərvərlik sənayesi yalnız ənənəvi xidmət sektoru deyil, həm də sosial, ekoloji və texnoloji aspektlərdən inkişaf etdirilən kompleks bir sistemə çevrilməkdədir. Əgər bu istiqamətdə ardıcıl və planlı fəaliyyət davam etdirilərsə, Azərbaycan təkcə regionun deyil, Avrasiyanın aparıcı turizm və qonaqpərvərlik mərkəzlərindən biri ola bilər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi – 2016

2. Dövlət Turizm Agentliyinin rəsmi statistik məlumatları – www.tourism.gov.az

3. Dövlət Statistika Komitəsi – www.stat.gov.az (2023–2024 turizm və xidmət sektoruna dair göstəricilər)

4. Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası – www.president.az

5. Ə.T.Əsgərov, Ç.G.Gülalıyev, B.Ə.Bilalov. "Ekoloji turizm". Bakı: Adiloğlu Nəşriyyatı, 2011

# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNUN EKOTURİZM POTENSİALI

**Nübar İntiqam qızı Məmmədova**
*bakalavriat tələbəsi*
*nubar.mammadova@mdu.edu.az*
*Elmi rəhbər: Aysel Möhrəddin qızı Qocayeva*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin üzvü*

***Açar sözlər:*** *Şəki-Zaqatala iqtisadi rayonu, ekoloji turizm növləri, infrastruktur*
***Keywords***: *Sheki-Zagatala economic region, types of ecological tourism, infrastructure*
***Ключевые слова***: *Шеки-Загатальский экономический район, виды экологического туризма, инфраструктура*

Azərbaycanın şimal-qərb hissəsində, Böyük Qaf□qaz dağlarının cənub yamacında yerləşən Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunda davamlı inkişafın ən optimal yollarından biri turizm təsərrüfatının inkişafı ilə bağlıdır. İqtisadi-coğrafi rayonda mehmanxana təsərrüfatının inkişaf etdirilməsi müsbət hal kimi hesab edilsə də, əsas problem onların çox hissəsinin Qəbələ in□zibati rayonunda cəmlənməsidir. Digər ərazilər isə turizm təsərrüfatı baxımından zəif inkişaf etdirilir. Buna baxmayaraq, son illər regionda ekoloji turizm inkişaf etdirilməkdədir [3].

Şəki-Zaqatala rayonunda coğrafi şəraitin müxtəlifliyi ekoloji turizm növlərini (dağ-payadə, macəra, rekreasiya, dərketmə) inkişaf etdirməyə imkan verir. Bölgənin iqlim şəraiti maydan oktyabradək olan müddətdə dağətəyi zonada avtomobil, piyada və su turizm marşrutları üçün əlverişli dövrdür. Təbii landşaftlar, mənzərəli meşələr, subalp və alp çəmənləri, zəngin heyvanat aləmi, çaylar və mineral bulaqlar, şəlalələr rayonun toxunulmamış ərazilərinə turistləri cəlb edir. Zaqatala qoruğunda flora və fauna ilə tanış olmaq imkanı var. Bu ərazilərə təbiət turlarım mütəşəkkil təşkil etmək olar.

Şəki-Zaqatala, təbiətsevərlər və macərapərəstlər üçün unikal bir destinasiya olaraq, həm regional, həm də ölkə iqtisadiyyatına mühüm töhfə verə bilər. Şəki-Zaqatala iqtisadi rayonu Qafqazın cənub yamaclarında yerləşir və Azərbaycanın ən zəngin meşə örtüyünə malik bölgələrdən biridir. Bölgə həm dağlıq, həm də düzənlik əraziləri əhatə edərək, unikal iqlim şəraiti və biomüxtəlifliyə sahibdir. Ərazinin sıx meşələri, çayları və endemik bitki növləri ekoturizm üçün böyük imkanlar yaradır. Bu təbii ehtiyatlar həmçinin nadir heyvanların yaşam sahəsi mövqeyindədir. Ekosistemlərin qorunması iqtisadi rayonun ekoturizm potensialının əsas təməlidir.

Ekoturizm – təbiəti və yerli mədəniyyəti qoruyaraq, məsuliyyətli səyahət deməkdir. Əsas məqsəd həm turistlərin, həm də yerli icmanın rifahını artırmaqdır [2]. Ekoturizm təbii ehtiyatların davamlı istifadəsini təmin edir, təhsil, iqtisadi inkişaf və mədəni irsin qorunmasında mühüm rol oynayır. Son illərdə ekoturizm dünya turizmində sürətlə böyüyür, təbiətə hörmətlə yanaşan səyahətçilər artmaqdadır.

Şəki-Zaqatala iqtisadi rayonunun ən məşhur təbii qoruğu olan Zaqatala Milli Parkı, biomüxtəlifliyi və unikal təbiət mənzərələri ilə diqqət çəkir. Burada yürüş yolları, quş müşahidə yerləri mövcuddur. Şəki ərazisində də müxtəlif qoruqlar təbiət turizmi üçün zəngin imkanlar təqdim edir. Endemik bitki və heyvanlar müşahidə edilə bilir. Həmçinin Şəki şəhərində yerləşən Xan Sarayı kimi abidələr ekoturizmə tarixi və mədəni dərinlik əlavə edir. Bölgənin zəngin mədəni ənənələri, yerli sənətkarlığı və kənd həyatının təbliği turist təcrübəsini daha zəngin edir. Bundan başqa keçirilən festival və bayramlar regionun mədəni dəyərlərini qorumaq və tanıtmaq üçün əhəmiyyətli rol oynayır.

Yerli icmanın iştirakı və ekoturizmin sosial-iqtisadi təsirləri aşağıdakılardır:

- Ekoturizmin uğuru üçün yerli icmaların iştirakının təmin olunması vacibdir. Onların təcrübəsi və bilikləri turizmin davamlılığını artırır.

- Gəlirin bir hissəsi icmalara qayıdır və məşğulluq artır.
- Yerli iqtisadiyyat güclənir, kənd yerlərində iş yerləri yaranır və yerli mədəniyyət yaşadılır.
- Bu, sosial sabitliyi təmin etməkdə də əhəmiyyətlidir.

Şəki-Zaqatala iqtisadi-rayonunda ekoturizmin çətinlikləri və həll yolları bunlardır:

Təbii resursların həddindən artıq istismarı - Turizm artımı təbiətdə tələbatın yüksəlməsi ilə əlaqədar qorunma tədbirləri görülməlidir.

İnfrastruktur problemləri - Yollar və xidmətlər turist tələblərinə cavab verməlidir, maliyyə yatırımları artırılmalıdır.

Yerli icmanın maarifləndirilməsi - Sosial dəstək və təlim proqramları ilə iştirak artırılmalıdır.

Ətraf mühitin qorunması - Ekoloji monitorinq və davamlı turizm prinsipləri tətbiq edilməlidir.

**Nəticə və tövsiyələr: gələcək perspektivlər**

- Ekoturizmin inkişafı - Bölgənin təbii və mədəni sərvətləri nəzərə alınaraq, davamlı turizm strategiyaları hazırlanmalıdır.
- Yerli iştirak - Yerli icmaların gücləndirilməsi və təlimləndirilməsi regionun gələcəyinə töhfə verir.
- İnfrastrukturun gücləndirilməsi -Turistlərin ehtiyaclarına uyğun müasir xidmətlər və kommunikasiyanın təkmilləşdirilməsi vacibdir.
- Ətraf mühitin qorunması - Ekoturizmin davamlılığı üçün təbiətin qorunmasına xüsusi önəm verilməlidir.

### İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan Respublikasının "Turizm haqqında" Qanunu
2. Ə.T.Əsgərov, Ç.G.Gülalıyev, B.Ə.Bilalov. "Ekoloji turizm" Adiloğlu-2011
3. https://journal.geonatres.az/s%C9 %99ki-zaqatala-iqtisadi-cografi-rayonunun-turizm-potensiali-v%C9 %99-onlardan-istifad%C9 %99-yollari/

## MƏDƏNİ TURİZMİN İNKİŞAFINDA DÜNYANIN MƏŞHUR MUZEYLƏRİNİN ROLU

**Surət Allahyar oğlu Məmmədov**
bakalavriat tələbəsi
surat.mammadov@mdu.edu.az
*Elmi rəhbər: Lalə Akif qızı Əhmədova*
*İqtisadiyyat kafedrasının müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri*

***Açar sözlər:*** *mədəni turizm, mədəniyyət, muzey, inkişaf*
***Keywords:*** *cultural tourism, culture, museum, development*
***Ключевые слова:*** *культурный туризм, культура, музей, развитие*

**Giriş**

Mədəni irs maddi və qeyri-maddi mənəvi dəyər statuslu nümunələrin məcmusu kimi başa düşülür. Bir xalqın mədəni irsi həmin xalqa məxsus mədəniyyət nümunələrinin məcmusu nəzərdə tutulur. Bura muzey, incəsənət, kitabxana, folklor, tarix-mədəniyyət qoruqları və s. addir [1].

**Mədəni turizm**

Mədəni turizm anlayışı mədəni fəaliyyətlərə əsaslanan turizm təcrübələrini ifadə edən və turizmin müxtəlif mədəniyyətlə bağlı genişlənmələrini birləşdirən ümumi anlayış kimi istifadə olunur. Mədəni turizm "insanların mədəni ehtiyaclarını ödəmək, yeni məlumatlar əldə etmək və təcrübə əldə etmək məqsədi ilə yaşadıqları yerdən başqa, mədəni görməli yerlərə turizm hərəkəti" kimi müəyyən edilir [2].

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, tarixi-mədəni məqsədlərlə səyahət edən turistlərin çoxu yüksək təhsilli insanlardır. Belə ki, yüksək təhsilli və gəlirli turistlər digər turistlərdən daha çox səfər edirlər. XXI əsrdə mədəni turistlər yaradıcı (kreativ) turların axtarışındadır. Ümumiyyətlə, tarixi-mədəni turizm, səfər edilən yerdəki əhali ilə onların mədəniyyətləri, adət-ənənələri ilə tanış olmaq və onları öyrənmək üçün həyata keçirilən turizm fəaliyyətidir.

Mədəni turizm anlayışı ilk dəfə 1980-cı illərdə Avropa Birliyinin mədəni kimliyi və mədəni mirasını ortaya çıxarmaq üçün aparılan araşdırmalar zamanı meydana gəldi. Vaxt getdikcə, mədəni turizm, beynəlxalq turizm bazarında yeni turist məhsulu kimi satışa çıxarıldı.

Müasir dövrdə mədəni turizm ilə muzeylər arasında əlaqə daha da genişlənir. Muzeylər mədəni turizmin əsas hissəsini təşkil edir, çünki onlar tarix, incəsənət və mədəniyyət sahəsindən müxtəlif dövrlərə aid sənədləri, əşyaları və məlumatları qoruyaraq gələcək nəsillərə, ziyarətçilərə təqdim edərək mədəniyyətə qədim zamanlardan müasir dövrlərə qədər bir baxışı təmin edir. Muzeylər mədəni turizmin tərkib hissəsi olmaqla, səyahətlərin məqsədinə rəng qatır və turistlərin dünya görüşünün zənginləşməsində böyük rol oynayır. Mədəni turizm və muzeylərin əlaqəsini təsvir etmək üçün muzeylərə aid aşağıdakı məsələləri qeyd edə bilərik:

- Muzeylər mədəni turizmin mühüm hissəsidir və mədəni turizmin inkişafına kömək edir;
- Muzeylər mədəniyyət və təhsilin təbliğ edilməsi üçün əsas infrastrukturu təşkil edir;
- Muzeylər müxtəlif mədəniyyətlərə aid tarixi və mədəni əşyaları qoruyur, sənədləri və incəsənəti özlərinə qəbul edir və onları tədqiqatlar üçün əlçatan edir;
- Muzeylər təhsilə töhfə verir, ziyarətçilərə mədəniyyətə dair məlumatlar verərək təhsilin bir hissəsini təşkil edir;
- Muzeylər mədəniyyətin təqdim edilməsi üçün əsas məkanlardır və mədəni turizmin inkişafına müsbət təsir göstərir;
- Muzeylər mədəniyyətin qorunması, tədqiq edilməsi və təbliğ edilməsi üçün əsas məkanlardır;
- Muzeylər mədəni turizmin vacib hissəsi olmaqla, bu turizm növünün inkişafına böyük töhfə verir;
- Muzeylər ənənəvi olaraq mədəni irsin qoruyucuları kimi tanınsa da, XXI əsrin qlobal turizm xəritəsində onlar çoxfunksiyalı inkişaf platformalarına çevrilməkdədir;
- Artıq muzeylər təkcə keçmişin vitrini deyil, həm də gələcəyin təməlidir.

Ən maraqlısı isə odur ki, bəzi dünya muzeyləri turizmi sadəcə cəlb etməklə kifayətlənməyib, bütöv şəhərləri yenidən formalaşdırmış, brendə çevrilmiş və sosial struktur dəyişikliklərinə səbəb olmuşdur.

Mədəni turizmin inkişafında dünyanın bir sıra məşhur muzeylərinin rolu böyükdür. Muzeylər təkcə eksponat deyil, emosional təcrübə mərkəzidir. Müasir turist yalnız "baxmaq" istəmir, o, "hiss etmək" istəyir. Luvr muzeyində "Mona Liza" əsərinə baxmaq artıq bir rituallaşmış təcrübədir. İnsanlar şəkil çəkmək üçün saatlarla növbədə dayanır, halbuki o əsərin onlarla surətini istənilən yerdə görə bilərlər. Bu, muzeyin yaratdığı emosional dəyərin nəticəsidir. Yəni turizmin yeni paradiqması – emosional turizmdir və muzeylər bu sahədə liderdir.

Müasir dünyada uğurlu muzeyin necə olması barədə tamamilə yeni bir baxış getdikcə meydana gəlir. Dünyanın məşhur muzeyləri – məsələn, Luvr, Britaniya Muzeyi –ənənəvi olaraq insanların maraq mərkəzində olan məkanlardır. Belə səviyyəli muzeylər öz şəhərlərinin əsas görməli yerləridir. Çünki orada ziyarətçilərin diqqətini cəlb edəcək dəyərli kolleksiyalar toplanıb və insanların bu eksponatlardan mənəvi zövq alması üçün hər cür şərait yaradılıb.

Son onilliklərdə bəzi gənc muzeylər ziyarətçi sayı və ətraf mühitə təsir baxımından məşhur muzeylərlə rəqabət apara bilir. Bütün bunlar yalnız orada saxlanılan sənət əsərləri sayəsindəmi baş vermir. Muzeyləri təsirli edən amillərə binanın memarlıq görünüşü, inkişaf etdirilən fəaliyyət formaları, əlavə xidmətlər və s. daxildir. Bu o deməkdir ki, hər hansı bir ərazi sadəcə dünyada ən çox tələbat olan muzeyin memarlıq üslubunu və iş metodlarını təqlid etməklə milyonlarla ziyarətçi cəlb edə və ən məşhur turizm istiqamətləri sırasına düşə bilməz. Müasir və tələbkar auditoriyanı

cəlb etmək üçün elə bir muzey ideyası təklif edilməlidir ki, həm məzmun, həm də maddi baxımdan həqiqətən unikal olsun və muzeyi yüksək peşəkarlıq və yaradıcılıq nümunəsinə çevirsin. Müasir dünyada muzeylərin unikallığı uğurun müəyyən edici amillərindən birinə çevrilir.

Müasir xarici muzeylərin təcrübəsinin təhlili göstərir ki, Avropa, ABŞ və digər ölkələrin muzeyləri auditoriya ilə işə, xüsusilə onun araşdırılması, marketinq funksiyası və fəaliyyətlərini təbliğ edən təşəbbüslərə çox böyük diqqət yetirirlər [3].

**Nəticə**

Müasir Azərbaycan muzeyləri üçün də ziyarətçilərin cəlb edilməsi məsələsi əsas prioritetə çevrilir. Çox vaxt bu istiqamətdə xarici muzey təcrübəsi və qlobal dünyada muzeylərin inkişaf tendensiyaları azərbaycanlı həmkarları bu sahədə daha fəal olmağa vadar edir. Muzeylər sosial inklüzivlik və mədəni diplomatiya alətinə çevrilir.

Muzeylər yalnız xarici turistləri deyil, həm də müxtəlif sosial qrupları cəlb edən sosial platformalardır. Məsələn, Berlinin Yaddaşlar Muzeyi (Jüdisches Museum) yalnız ziyarət mərkəzi deyil, həm də keçmişin travmalarını qəbul edən və gələcəyə bağlılıq yaradan sosial barışıq məkanıdır. Bu kimi nümunələr muzeylərin turizm vasitəsilə ictimai birləşdirici funksiyasını sübut edir.

Bundan başqa, dünya mədəniyyətində mühüm rol oynayan bir neçə muzeyin adını çəkə bilərik: Fransanın paytaxtı Parisdə yerləşən Luvr muzeyi, ABŞ-nin Nyu-York şəhərində Metropoliten muzeyi, Londonda yerləşən Britaniya muzeyi təsviri sənətin geniş kolleksiyasına ev sahibliyi edən dünyanın məşhur muzeyləridir. Həmçinin, Vatikan şəhərində yerləşən Vatikan Muzeyi isə məşhur dini incəsənət əsərlərinə ev sahibliyi edən bir muzeydir. Taybeydə yerləşən və Çin incəsənətinin nümunələrini nümayiş etdirən Milli Saray Muzeyi və s. muzeylər mədəni irsin təbliğində böyük əhəmiyyətə malikdirlər.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycanda mədəni irs və mədəni turizm: Resurslar, Məhsullar, Təcrübələr. (2022). Bakı. 112 səh.s

2. L.A. Əhmədova. Azərbaycanın mədəni irsinin qorunmasında muzeylərin rolu. (2025). "Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir" Respublika elmi konfransı. II cild. Mingəçevir. 2-3 may 2025-ci il. səh. 427-429

3. Ирина Ивановна ЛАСКИНА,https://Bujet.ru/article/mart2013

## İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ TURİZMƏ MƏNFİ TƏSİR EDƏN EKOLOJİ PROBLEMLƏR

**Püstə Xəyyam qızı Şirinova**
bakalavriat tələbəsi
pusta.shirinova@mdu.edu.az
*Elmi rəhbər: Samirə Yusif qızı Əkbərova*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər**: Azərbaycan, işğaldan azad olunmuş ərazi, turizm, "Ağıllı kənd"*
***Keywords:** Azerbaijan, liberated territory, tourism, "Smart Village"*
***Ключевые слова:** Азербайджан, освобожденные территории, туризм, «Умная деревня»*

İşğal olunmuş torpaqlarda mövcud ekoloji vəziyyət haqqında məlumatın olmaması böyük maneələr yaradır. Ermənilər bu ərazilərin real ekoloji vəziyyətini gizlədir və ona görə də məsələ ilə yalnız ümumi fikir söyləmək olar. Ermənilərin işğalı bölgənin təbii və iqtisadi beynəlxalq hüquq və

Azərbaycan rəsmi strukturlarına ciddi təsir göstərmiş, iqtisadi infrastrukturunu zəiflətmiş və təbii ehtiyatları tükəndirmişdir. Məlumdur ki, region bütün təbii elementləri bir-biri ilə sıx əlaqədə olur və elementlərdən birində baş verən dəyişikliklər digərlərinə keçir. Bu tədqiqat işləri Qarabağda və ətraf rayonlarda təxminən 30 illik işğal zamanı baş vermiş ekoloji deqradasiyanın hər tərəfli təhlilini təqdim edir.

Tədqiqat Zəngilanda innovativ “Ağıllı kənd” layihəsinə xüsusi diqqət yetirməklə su mənbələri, torpa1, yer altı sərvətlər, mineral ehtiyatlar və biomüxtəlifliklər daxil olmaqla müxtəlif təbii komponentlərə diqqət yetirir. Həmçinin işğal altında olan zaman Qarabağ və Şərqi Zəngəzuru əhatə edən Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl və s. rayonları nəzarətdən kənardadır və becərilmir, buna görə də ekoloji fəlakətə səbəb olur.

Ölkəmizdə neçə illərdir axan Oxçu, Zəngi, Araz, Ağstafa çayları Azərbaycan çaylarının sularını çirkləndirir. Başqa ölkələrdən tullantılar və Ermənistanın istifadə etdiyi sular, çaylar vasitəsiylə Azərbaycana daxil olur. Hətta məlumdur ki, stansiyada utilizasiya olunan radioaktiv tullantılar Azərbaycanın torpaqlarında basdırılır. İşğaldan azad olunmuş torpaqlardan başlanan kanalların dağılması Azərbaycanın dağ ətəyi rayonlarının kənd təsərrüfatına ağır zərbə vurdu. Göründüyü kimi, işğal insan itkisiylə yanaşı Azərbaycanın təbiətinə də ziyan vurub. Bu torpaq-lardan müvəqqəti məskunlaşdıqlarını bilən Ermənilər rayonların təbii ehtiyatkarından vəhşicəsinə istifadə edirlər. Mineral sular, müxtəlif texniki materiallar və ehtiyatlar Ermənilər tərəfindən geniş şəkildə mənimsədilir. Həmçinin Qarabağ və Şərqi Zəngəzurun ətraf mühitin mühafizəsinə heç bir beynəlxalq təşkilat qarşısında cavabdeh olmadığından sözü gedən regionda ekoloji vəziyyət pisləşir. İşğaldan azad olunmuş rayonların ehtiyatlar bunlardır: Orada qoruq rejimi qaldırılıb (Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ilkin məlumatına görə).

Bu araşdırmanın əsas məqsədi Azərbaycanın işğaldan azad edilmiş rayonlarından təbii kompleks-lərin ekoloji tarazlıqlarının və cəmiyyətin bərpasını vurğulamaqdır. Tətqiqat uzun müddətli hərbi təcavüz nəticəsində zədələnmiş lantşaft örtüyünün və təbiət abidələri və s. bərpası kontekstinin bəşəriyyət ətraf mühit arasında qarşılıqlı əlaqənin təbiətlə ahəngdar münasibətlər mürəkkəbliyini vurğulayır. Tapıntılar su ehtiyatlarının çirklənməsi, biomüxtəlifliyin məhv edilməsi, yerin təbii ehtiyatlarının talan edilməsi, və torpaq sərvətləri daxil olmaqla geniş ekoloji ziyan aşkar edir.

Gələcəkdə bu tədqiqatlar tapıntılar ekoloji zərərin qarşısını almaq və təbii ehtiyatların davamlı idarə olunmasını təmin etmək üçün beynəlxalq əməkdaşlığın və ətraf mühitin mühafizəsi konvensiyalarına riayət edilməsinin vacibliyini vurğulayır. İşğaldan azad olunmuş ərazilərdə geniş meşə sahələri məqsədli şəkildə qırılıb. Ekoloji tarazlıq pozulduqda təbii landşaftlarda öz gözəlliyini itirir, bu itkilər ciddi təsir göstərir. İşğal zamanı su mənbələri dağılıb və çirklənməyə məruz qalıb. Təmiz su resurslarının olmaması ekoturizm və sağlamlıq turizmi üçün əngəldir.

İşğaldan azad olunmuş ərazilərdə torpaq eroziyası geniş yayılmışdır. Torpağın bərpası uzun müddətli prosesdir. Belə ərazilərdə turizm infrastrukturunun qurmaq daha çətin və baha başa gəlir. Müharibə və sənayenin inkişafı nəticəsində atmosferə çoxlu zərərli maddələr buraxılıb, hava keyfiyyətinin aşağı olması turistlərin səhhəti üçün təhlükə yaradır.

Atmosferin çirklənməsi səbəbindən regionun ekoturizmi üçün əlverişsiz sayılır. İşğaldan azad olunmuş ərazilərdə mina və partlamamış silah-sursat qalıqları vardır. Bu ərazilərdə təhlükəsizlik problemi turizm üçün əsas maneədir. Reabilitasiya işləri görülmədikcə turizmin inkaşafı çətin olacaq. İşğal zamanı nadir və qorunan heyvan növləri məhv edilib. Bu xüsusilə ekoloji və safari turizminə zərər vurub. Heyvanlar aləminin bərpası üçün uzun müddətli qoruma proqramlarına ehtiyacı vardır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. https://story.karabakh.center/az/qarabagda-ekosid
2. https://www.yeniazerbaycan.com/MEDIA_e72834_az.html
3. https://president.az/az/articles/view/62400

4. https://www.anl.az/down/meqale/xalqqazeti/2022/oktyabr/820210(meqale).pdf

# TURİZM SƏNAYESİNİN HAZIRKİ VƏZİYYƏTİ VƏ ONUN MÜASİR DÜNYA İQTİSADİYYATINDA YERİ

**Fidan Səyyaf qızı Hacıyeva**
bakalavriat tələbəsi
fidan.haclyeva@mdu.edu.az
*Elmi rəhbər: Elmira Elbrus qızı Xəlilova*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *turizm sənayesi, turizm iqtisadiyyatı, iqtisadi fayda, səyahət və turizm sektoru*
***Keywords:*** *tourism industry, tourism economy, economic benefits, travel and tourism sector*
***Ключевые слова:*** *индустрия туризма, экономика туризма, экономические выгоды, сектор путешествий и туризма*

## Giriş

Son 10 il ərzində dünya bir neçə iqtisadi sarsıntı gördü, qlobal tərəfdaşlıqlar quruldu və köhnə əlaqələr qırıldı, geosiyasi təlatümlər və pandemiya baş verdi, lakin bir şey dəyişməz qaldı - səyahət etmək, yeni yerlər və mədəniyyətlərlə tanış olmaq arzusu. Bu, turizmin qlobal iqtisadiyyatdakı rolunu müəyyən edir. Onun əhəmiyyəti son dərəcə vacibdir: turizm sənayesi turistlərdən gələn gəlirlər hesabına iqtisadiyyatı birbaşa qidalandırır, iş yerləri yaradır və infrastrukturun yaxşılaşdırılmasına kömək edir.

## Əsas hissə

Turizm mürəkkəb sosial-iqtisadi sistemdir. O, milli iqtisadiyyatın ayrıca müstəqil sahəsi deyil, onun kütləvi xarakter daşıması mədəniyyətə, siyasətə, iqtisadiyyata, sosial sferaya fəal təsir göstərir. Turizm sayəsində ölkələr və regionlar arasında inteqrasiya əlaqələrinin genişlənməsi baş verir ki, bu da yeni mədəni, elmi, texniki və ticarət əlaqələrinin formalaşmasında ifadə olunur.

Turizm hər bir ölkənin iqtisadiyyatında böyük rol oynayır. Turizm sənayesinin iqtisadiyyatı səyahətçilərin ehtiyac və istəklərini ödəmək üçün nəzərdə tutulmuş turizm məhsullarının və xidmətlərinin istehsalı və istehlakı prosesində inkişaf edən iqtisadi münasibətləri öyrənən və təhlil edən bir fənn kimi müəyyən edilə bilər.

Turizm iqtisadiyyatı əhalinin əhəmiyyətli hissəsinin turizm xidmətlərinə olan tələbatını ödəmək üçün iqtisadiyyatın bu sektorunun bütün səviyyələrində turizm məhsullarını istehsal edən, paylayan, mübadilə və istehlak edən insanların davranışını öyrənir.

Turizmin iqtisadi funksiyalarına ilk növbədə onun verdiyi iqtisadi faydalar daxildir. Bəli, turizm infrastruktur elementlərinin - mehmanxanaların, restoranların, ticarət müəssisələrinin və s. inkişafına təkan verir. O, büdcənin gəlir hissəsinin birbaşa (viza rüsumları, gömrük rüsumları) və ya dolayı (işçilərin əmək haqqının artması onların büdcəyə ödədiyi gəlir vergisinin məbləğinin artmasına səbəb olur) ola bilən vergilər hesabına artımını əvvəlcədən müəyyən edir. Bundan əlavə, yuxarıda qeyd edildiyi kimi, turizmin xarici valyuta və müxtəlif növ investisiyaların cəlb edilməsi üçün geniş imkanları var. Turizmin eyni dərəcədə mühüm iqtisadi funksiyası iqtisadiyyatın şaxələndirilməsi, turizm sənayesinə xidmət edən sahələrin formalaşdırılması, əhalinin gəlirlərinin artırılması və xalqın rifah səviyyəsinin yüksəldilməsidir.

Turizm həm də xarici və yerli turistlər hesabına artan səmərəli tələb nəticəsində işgüzar fəallığı artırır, mal və xidmət istehsalını genişləndirərək iqtisadi inkişafa təsir göstərir. İqtisadi nöqteyi-nəzərdən xidmət sənayesi kimi turizmin cəlbediciliyi sərbəst dönərli valyutada investisiya və gəlirin daha sürətli qaytarılmasıdır. Bir çox ölkələrdə turizm dövlətin üç aparıcı sənayesi sırasındadır, sürətlə inkişaf edir və mühüm sosial və iqtisadi rol oynayır, çünki:

- yerli gəlirləri artırır;
- yeni iş yerləri yaradır;
- turizm xidmətlərinin istehsalı ilə bağlı bütün sahələri inkişaf etdirir;
- turizm mərkəzlərində sosial və istehsalat infrastrukturunu inkişaf etdirir;
- xalq sənətkarlığının fəaliyyətini və mədəniyyətin inkişafını aktivləşdirir və təbliğ edir;
- yerli əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin edir;
- valyuta gəlirlərini artırır.

Turizm iqtisadi fəaliyyətin qiymətləndirilməsi prinsiplərindən asılı olaraq müxtəlif ölkələrdə dəyişən göstəricilər sistemi ilə xarakterizə olunur. Ən çox istifadə olunan kateqoriyalar aşağıdakılardır:

a) turizmin maddi-texniki bazasının inkişafını xarakterizə edən - yerləşdirmə obyektlərində yerlərin sayı, adambaşına düşən yerlərin sayı (turist sıxlığının əmsalı deyilən);

b) xidmətlərin həcmi - konkret əraziyə, şəhərə, ölkəyə səfər etmiş turistlərin sayı;

c) turistlərin müəyyən ərazidə, ölkədə qalma müddəti;

d) turist xidmətlərinin həcmi - turistlərdən gələn ümumi pul daxilolmaları, adambaşına düşən daxilolmalar;

ç) iqtisadi sektorlar sistemində turizmin yerini göstərən məlumatlar – turistlərə xidmət göstərməklə birbaşa və dolayısı ilə məşğul olanların sayı, bütün məhsuldar əhalidə və ya xidmət və maddi istehsal sahələrində məşğul olanların payı, əhalidən daxil olan bütün daxilolmaların ümumi həcmində turistlərin payı (satışların cəmi).

Bundan əlavə, xarici turistlərdən əldə edilən valyuta gəlirləri - aktiv, yerli vətəndaşların xarici səfərlər üzrə xərcləri - öhdəlik (xarici turistlərin gəlişi iqtisadi aktiv turizm, yerli vətəndaşların xaricə getməsi - iqtisadi passiv turizm), xarici turizmdən əldə olunan gəlirlərin ölkənin tədiyə balansında xüsusi çəkisi və digərləri ayrıca nəzərə alınır.

Dünyanın bir çox ölkələrində turizm ən prioritet sahələrdən biridir, onun ümumi milli gəlirə töhfəsi 20-45 % təşkil edir, xarici turizmdən gələn gəlir isə xarici valyutanın əsas mənbəyidir. Nəticə etibarı ilə turizm sənayesi turizmi inkişaf etmiş ölkələrin büdcəsinə mənfəətin əhəmiyyətli hissəsini gətirməklə yanaşı, həm də son dərəcə perspektivlidir və şübhəsiz ki, digər ölkələrin dövlət büdcəsinin əsas gəlir mənbələrindən birinə çevrilə bilər.

İqtisadiyyat məhdud resursların istifadəsindən ən yaxşı fayda əldə etməklə məşğuldur. Adətən məhdud olan iqtisadi amillər insanın psixoloji və fiziki ehtiyaclarını ödəmək üçün nəzərdə tutulub.

Turizm şirkətinin iqtisadiyyatı istehsal amillərinin, dövriyyə fondlarının və qeyri-maddi aktivlərin, turizm məhsulunun satışı və müxtəlif digər xidmətlərin göstərilməsi (görülmüş iş) nəticəsində əldə edilən gəlirin (mənfəətin) məcmusudur.

Beləliklə, belə qənaətə gələ bilərik ki, turizm iqtisadi baxımdan milli iqtisadiyyatın digər sahələrinə də müsbət təsir göstərir, ərazinin iqtisadi inkişafına təkan verir, yerli əhalinin məşğulluğunu artırır. Turizm ekoloji cəhətdən təbiətdən istifadənin ən təmiz növüdür.

Konkret olaraq insan üçün turizmin əhəmiyyətini aydın şəkildə müəyyən etmək olar: səyahət marağı təmin edir və insana başqa ölkələrin mədəniyyəti ilə tanış olmağa imkan verir, sağlamlığın yaxşılaşmasına, mənəvi cəhətdən zənginləşməsinə kömək edir. Qlobal mənada səyahət sənayesinin əhəmiyyəti daha genişdir: o, dünyanın bir çox ölkələrinin iqtisadiyyatına birbaşa təsir göstərir.

Ümumdünya Səyahət və Turizm Şurasının (WTTC) məlumatına görə, 2025-ci ildə səyahət və turizm sektorunun ÜDM-in 10,3 %-ni təşkil edərək qlobal iqtisadiyyata 11,7 trilyon dollar töhfə verərək rekord həddə çatacağı gözlənilir. Beynəlxalq səyahətlər də 2019-cu ildən 10 % artaraq 2,1 trilyon dollara çatacaq.

Turizm üzrə qlobal tendensiya davam edir: ekspertlər 2035-ci ilə qədər beynəlxalq səyahətlərin 2,9 trilyon dollar təşkil edəcəyini proqnozlaşdırırlar. Sənaye üzrə ümumi rəqəmlər isə 16 trilyon dollara və ya qlobal ÜDM-in 11,5 %-nə çatacaq.

**Nəticə**

Turizm sənayesi milli iqtisadiyyatın bir-biri ilə əlaqəli sektorları və sahələrinin məcmusunu ifadə edən iqtisadi kateqoriya kimi qəbul edilməlidir, onun vahid funksional vəzifəsi bütün mövcud turizm ehtiyatlarından səmərəli istifadə etməklə insanların müxtəlif istirahət və səyahət növlərinə müxtəlif və daim artan ehtiyaclarını ödəməyə yönəlmiş fəaliyyətdir.

Hesab edirik ki, turizm sənayesinin idarə edilməsinin iqtisadi aspektləri sahəsində bir çox spesifik xüsusiyyətlər var, çünki onun səmərəli fəaliyyəti müxtəlif siyasi, iqtisadi, sosial, və ekoloji amillərdən çox asılıdır.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Ешь Мошню. V. Основные тенденции развития туризма в современном мире / й. V. Мошняга / / Вестник РМАТ. - 2019. - № 3. - С. 20-34.
2. Иванова Ю.О., Андреев Н.В., Поздняков К.К. Разработка модели влияния индустрии туризма и гостеприимства на экономический рост // Экономика, предпринимательство и право. – 2021. – № 12. – с. 2979-2992. – doi: 10.18334/epp.11.12.114054.
3. https://tourlib.net/books_tourism/zorin02.htm

## AZƏRBAYCANIN ŞİMAL ZONASINDA TURİZMƏ TƏSİR EDƏN EKOLOJİ PROBLEMLƏR

**Yelena İsmət qızı Yaqubova**
bakalavriat tələbəsi
yelena.yaqubova@mdu.edu.az
*Elmi rəhbər: Samirə Yusif qızı Əkbərova*
*İqtisadiyyat kafedrasının müəllimi*

***Açar sözlər:*** *Azərbaycan, Şimal bölgəsi, turizm, ekoturizm, ekoloji problemlər*
***Keywords:*** *Azerbaijan, Northern region, tourism, ecotourism, ecological problems*
***Ключевые слова:*** *Азербайджан, Северный регион, туризм, экотуризм, экологические проблемы*

Azərbaycanın Şimal bölgəsi – Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən rayonları milli etnik zənginliyi ilə seçilir. Region multikulturalizm tolerantlığını təcəssümüdür. Burada aparılan tədqiqatlar zamanı məlum olmuşdur ki, ərazinin qədim zamanlarından məskunlaşması və kənd təsərrüfatının yaxşı inkişaf deqredasiyaya səbəb olmuşdur. Əraziləri əhatə edən bir-birini əvəz edən bitki örtüyünün mühafizəsi və mühafizəsi məsələləri öz aktuallığı ilə seçilir. Böyük Qafqazın Şimal-Şərq hissəsi mənimsənilmə xüsusiyyətlərinə görə digər dağlıq rayonlardan fərqlənir. Quba və Qusar rayonlarında dağ turizmi inkişaf etdiyindən turistlərin diqqətini daha çox cəlb edir. Dağıstanla həmsərhəd olan Qusar rayonu Azərbaycanın şimal şərqində yerləşir. Buranın landşaftı meşələrlə örtülü dağların və dərələrin bir-birini əvəz etməsi ilə əlaqədardır.

Qusar rayonunun dağları və zirvələri alpinistləri cəlb edir. Yerli şəlalələr dırmaşmağı sevən turistlərin diqqətinu çəkir. Laza kəndindən Qubanın Xınalıq kəndinə piyada turizm həvəskarları məhz bu marşuruta üstünlük verirlər. Qusarın Əniğ kəndi ən qədim və tarixi kəndlərindən biri hesab edilir. Bu kəndin yaxınlığında 13-cü əsrə aid qala divarlarının qalıqları tapılmışdır. Qusara gələn turistləri yalnız buradaki xizək turizmi cəlb etmir,eyni zamanda burada yaşayan insanların mədəniyyəti,ənənələri son dərəcə diqqət mərkəzidir.

Azərbaycanın bütün turizm sənayesinin incisi, qış və yaz idman qurğuları kompleksi "Şahdağ" dəniz səviyyəsindən 2544 m yuxarıda dağ yamaclarında yerləşir.Burada mövcud olan otellər 1640m yuxarıda yerləşir." Pik Palace Şahdağ"," Park Chalet Şahdağ"," Zirvə Hotel Şahdağ"," Şahdağ Hotel&Spa" lakin bular son deyil Azərbaycanın ən yüksək dağ turizm mərkəzi

olan "Suvar"məhz Qusarda yerləşir. Suvar dəniz səviyyəsindən 1850m yüksəklikdə yerləşir. Kompleksin yaxınlığında 2000m yüksəklikdə yerləşən Laza və Şahnabat şəlalələri mövcuddur. Yerli şəlalələrin bir xarakterik xüsusiyyəti var,burada qış müsabiqələrini keçirmək çox əlverişlidir, çünki onlar qış aylarında donmur.

Zonada aparılan tədqiqat işləri zamanı məlum olmuşdur ki, zona uzun müddət müxtəlif əkinçilik sahələri tərəfindən mənimsənilməsi təbii geosistemlərdə ciddi dəyişiklərə səbəb olmuşdur. Beləki 500-1800m-lik hissələr əkin və otlaqlarla birlikdə yaşayış və yay istirahət kompleksləri olmuş, yay otlaqlarından maldarlıqda qeyri-müntəzəm istifadə yüksək dağlıq zonalarda təbii bitki örtüyünün transformasiyaya məruz qalması ilə tamamlanmışdır. Bitki örtüyünün əhəmiyyətinin, həssaslığının mühafizəsi, müdafiədən geniş istifadə təkmilləşdirmə və istifadə müəyyən edilmişdir. Tədqiqat zonasında bitki örtüyünün: dağ ətəyi quru çöl, dağ kserofit, meşə bitkiləri,subalp çəmən bitkiləri təşkil edir.

Təsərüfat sahələrinin, yaşayış məntəqələrinin əkin sahələrinin, otlaq-biçini intensiv transformasiyasına mədəni bitkilərin alaq otları, zərərli və zəhərli bitkilərlə əvəz olunmasına səbəb olmuşdur. Böyük Qafqazın Şimal-Şərq yamacının dağ geosistemlərinin bitki örtüyünün əhəmiyyətinin qiymətləndirilməsi zamanı məlum olmuşdur ki, 20,9 % yüksək 67,2 % orta 5,7 % isə az əhəmiyyətlidir.

Ümumiyyətlə, Şimal zonası bitki örtüyünün 32 %-ni təşkil edir.Bunlara baxmayaraq həyata keçirilən tarixi və etnoqrafik tədqiqatlar göstərir ki,zonanın mənimsənilməsi uzun müddətə üst-üstə düşür. Davamlı antropagen təsirlər bitki örtüyünün ilkin görünüşlərinin itirilməsinə,dağ sistemlərinin ekoloji problemlərinin böyüməsinə vəgərginləşməsinə səbəb olacaqdır. Əvvəla, meşə ərazilərinin qanunsuz qırılması, xüsusilə yay aylarında turistlərin meşələrə müdaxiləsi ekosistemin tarazlığını pozur. Avtomobillərlə dağ yollarına çıxış havanın çirklənməsi və torpaq eroziyasına səbəb olur. Həmçinin turist axını zamanı kənd təsərrüfatı sahələrinə, təbii otlaqlara ziyan dəyir. Quba və Qusar meşələrində nadir flora və fauna növləri turistlərin və yerli əhalinin təsiri ilə təhlükə altına düşür. Ekoturizm prinsiplərinə əsaslanan turizm modeli formalaşmadığından təbiətə uyğun davranış mədəniyyəti inkişaf etmir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. https://azerbaijan.az/related-information/218
2. https://doi.org/10.1016/j.envdev.2020.100527
3. https://doi.org/https://doi.org/10.15421/112339
4. https://sfera.az/read/267661/
5. https://modern.az/medeniyyet/112845/duumlnyada-ve-azerbaycanda-en-ccedilirkli-havasi-olan-boumllgeler-beynelxalq-hesabat/

## AZƏRBAYCAN REGİONLARININ TURİZMİNİN İNKİŞAFINDA MUZEYLƏRİN ROLU

**Amil Mirhəmzə oğlu Seyidzadə**
bakalavriat tələbəsi
amil.seyidzada@mdu.edu.az
*Elmi rəhbər: Lalə Akif qızı Əhmədova*
*İqtisadiyyat kafedrasınnı müəllimi*
*Turizm və Ətraf Mühit Tədqiqat Mərkəzinin rəhbəri*

***Açar sözlər:*** *Azərbaycan, region, turizm, inkişaf, muzey, mədəni turizm*
***Keywords:*** *Azerbaijan, region, tourism, development, museum, cultural tourism*
***Ключевые слова:*** *Азербайджан, регион, туризм, развитие, музей, культурный туризм*

**Giriş**

Azərbaycan zəngin tarixi və mədəni irsi ilə tanınan bir ölkədir. Bu irs, ölkənin müxtəlif bölgələrində yerləşən muzeylər vasitəsilə qorunur və gələcək nəsillərə ötürülür. Regionlarda fəaliyyət göstərən muzeylər, həm yerli əhalinin maariflәndirilməsi, həm də turizmin inkişafı baxımından mühüm rol oynayır.

**Muzeylərin mədəni və maarifləndirici rolu**

Muzeylər tarixi abidələrin, sənət əsərlərinin və xalq yaradıcılığının qorunduğu, öyrənildiyi və nümayiş etdirildiyi məkanlardır. Regionlarda yerləşən muzeylər, yerli əhalinin tarixi irsini yaşatmaqla yanaşı, bölgəyə gələn turistlər üçün də cəlbedici obyektə çevrilir.

Son dövrlər ölkə və regionların sosial-iqtisadi inkişaf planında muzeylərin turizm sənayesinə cəlb edilməsi genişlənmişdir. Müasir dövrdə muzeylərin funksiyası ənənəvi sərgilərdən, kolleksiyalardan daha çox innovativ kommunikasiyalara, informativliyə, aparıcı xarici muzeylərin təcrübəsini öyrənməyə və s. doğru yönəlmişdir [6].

Respublikamızda müxtəlif səviyyə və təyinata malik 250-dən çox muzey fəaliyyət göstərir ki. Bu muzeylər yerli və xarici turistləri cəlb edərək, ölkə iqtisadiyyatının əsas hissəsi olan turizmin inkişafına böyük təsir edir. Azərbaycan Milli İncəsənət Muzeyi, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli Xalça Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və s. öz turizm potensiallarına görə ölkənin mədəniyyət müəssisələri arasında böyük yer tutur [6].

**Regionlarda mədəni turizmin inkişafında böyük əhəmiyyətə malik muzeylər**

**Gəncə şəhərinin muzeyləri** - Gəncə Tarix-Diyarşünaslıq Muzeyi, Nizami Gəncəvi Muzeyi, İsrafil Məmmədovun Ev-Muzeyi, Mir Cəlal Paşayevin Ev-Muzeyini qeyd edə bilərik.




**Şək. 1.** Müxtəlif regionlarda yerləşən muzeylər

Gəncə Tarix-Diyarşünaslıq Muzeyinin əsası 1924-cü ildə qoyulmuşdur. 1972-ci ildə indi yerləşdiyi binaya köçürülmüşdür. Muzeyin binası Cavad xanın nəticəsi İsmayıl xan və Adil xan Ziyadxanovların şəxsi mülkü olub. Muzey binasında 18 zalda nümayiş etdirilən 30000-dən çox eksponat– Gəncənin qədim dövrdən müasir dövrə qədər tarixini, arxeoloji tapıntıları və maddi-

mədəniyyət abidələrini, etnoqrafik, epiqrafik və numizmatik kolleksiyaları özündə birləşdirir (şəkil:1).

**Nizami Gəncəvi Muzeyi.** 2013-cü ildə "Heydər Əliyev Fondu"nun dəstəyi ilə Nizami Gəncəvi Məqbərəsinin ərazisində müasir üslubda 4 mərtəbəli bina inşa edilmişdir. Binada 493 m2 ekspozisiya zalı 12 otaq 100 nəfərlik konfrans zalı və 1 kafe vardır. Nizami Gəncəvi Xatirə ev Muzeyində 542 eksponat var. Muzeyin ən qədim eksponatı Nizami Gəncəvi Beynəlxalq Mərkəzi tərəfindən gətirilmiş orijinal "Xəmsə" əl yazmaları və Qurani Kərimdən nümunələrdir.

**Quba Dağ Yəhudiləri Muzeyi.** Muzey Qırmızı Qəsəbədə 19-cu əsrdə Karçoq sinaqoqunda yerləşir. Burada kənd təsərrüfatı məhsullarının anbarı yerləşirdi. Sovet İttifaqının dağılmasından sonra sinaqoq boş qalmışdır və illərlə boş qalan sinaqoq yararsız vəziyyətə düşüb. Sonralar burada əsaslı bərpa işləri aparılıb. Binanın otaq hündürlüyü 5 metrdən çoxdur və kvadrat formadadır. Burada daha çox eksponat araşdırmaq üçün binanın çox hissəsinə ikinci mərtəbə əlavə edilib. Binanın zirzəmisində konfrans zalı, kitabxana və ehtiyat eksponatlar üçün otaq yaradılmışdır (şək. 3).

**Şəki rayon muzeyləri.** Şəki Xalq Tətbiqi Sənəti Muzeyi, Sabit Rəhmanın Ev-Muzeyi, Rəşid bəy Əfəndiyevin Ev-Muzeyi, Mirzə Fətəli Axundzadənin Ev-Muzeyini misal göstərə bilərik. Bu meylərin Şəki rayonunun tarixi və mədəniyyətinin qorunmasında, təbliğ edilməsində böyük rolu vardır.

Şəki Xalq Tətbiqi Sənəti Muzeyi 1985-ci ildə açılmışdır. Muzey tarixi memarlıq abidəsinin binasında yerləşir. Bu bina Azərbaycanın Qafqaz Albaniyası dövrünə məxsus alban məbədidir. Muzey Şəkinin "Yuxarı Baş" dövlət Tarix Memarlıq qoruğunda yerləşir. Dörd zaldan ibarət muzeydə antik dövrdən başlayarq bu günümüzə qədər sənətkarların 600-ə yaxın xalq sənəti və dekorativ sənət əsərləri toplanmışdır (şək. 2).

**Şəmkir Tarix-Diyarşünaslıq Muzeyi.** Muzey 1971-ci ildən fəaliyyət göstərir. Muzey eksponatlarının ən qədimi e.ə. VII–V minilliyə aid olan kiçik daş çıraqdır. Burada həmçinin keramika və mis qab-qacaq, səhənglər, bəzək əşyaları, silah, naxışlar, arxeoloji artefaktlar, qəpik və kağız pullar, musiqi alətlərinin qədim nümunələri və s. görmək olar (şək. 4).

**Nəticə**

Azərbaycanın regionlarında yerləşən muzeylər turizmin inkişafında mühüm rol oynayır. Onlar, mədəni irsi qorumaqla yanaşı, iqtisadi və sosial inkişafı da təşviq edir. Muzeylərin fəaliyyəti həm yerli əhalinin maarifləndirilməsi, həm də xarici turistlərin cəlb olunması baxımından əhəmiyyətlidir. Bu səbəbdən muzeylərin fəaliyyətinin genişləndirilməsi, yenilənməsi və beynəlxalq əlaqələrinin gücləndirilməsi ölkənin ümumi turizm siyasətində vacib istiqamət olaraq qalmalıdır.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Əliyev A.Ə., Hüseynov T.H. Azərbaycanın mədəni irsi və muzey işi. Bakı, 2016.
2. Əlizadə Q.Ə. Azərbaycan turizminin əsasları. Bakı: Təhsil, 2018.
3. Abbasov Q.H. Muzeyşünaslıq: nəzəriyyə və təcrübə. Bakı: Elm və təhsil, 2020.
4. L.A.Əhmədova. Azərbaycanın mədəni irsinin qorunmasında muzeylərin rolu. (2025). "Heydər Əliyev irsi Azərbaycan xalqının milli sərvətidir" Respublika elmi konfransı. II cild. Mingəçevir. 2-3 may 2025-ci il. səh. 427-429

**28 May – Müstəqillik Gününə həsr olunmuş**
**“DAYANIQLI TURİZM VƏ ƏTRAF MÜHİT”**
**mövzusunda**
**GƏNC TƏDQİQATÇILARIN**
**ELMİ-PRAKTİKİ KONFRANSININ**
**M A T E R İ A L L A R I**

**27 may 2025-ci il**

**MİNGƏÇEVİR**

*Konfrans materiallarında*
*verilən məlumat və faktlara görə*
*müəlliflər məsuliyyət daşıyırlar*

Yığılmağa verilib: 02.06.2025
Çapa imzalanıb: 09.06.2025
Format: 60x84 1/16

F.Ç.V.38